BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

# QUR᾿AN VƏ HƏDİS BAXIMINDAN HƏCC VƏ ÖMRƏ ƏMƏLLƏRİ

# BİRİNCİ HİSSƏ

## *KƏRAMƏTLİ MƏKKƏ*

## *BİRİNCİ FƏSİL*

## *HƏRƏM*

### *MƏKKƏNİN ADLARI*

Qur᾿an:

«Həqiqətən xalq üçün tikilmiş ilk ev Bəkkə (Məkkə)dədir ki, aləmlər üçün bərəkətli və hidayət yeridir».[1]

«Bu (Qur᾿an) nazil etdiyimiz mübarək kitab və qarşısında olanı təsdiq edəndir ki, (onun vasitəsi ilə) Ümmul-qura (xalqı) və onun ətrafında olanları qorxudsun. Axirətə iman gətirənlər bu (kitaba da) iman gətirir və namazlarını qoruyurlar.»[2]

«(Allah) O kəsdir ki, onların (müşriklərin) əllərini sizdən və sizin əllərinizi Məkkə vadisində onlara qalib etdikdən sonra (saxladı) və Allah sizin əncam verdiklərinizi görəndir»[3].

**Hədis:**

1. Həzrət imam Əli (ə) Şam şəhərində olan bir nəfərin «nə üçün Məkkə-Ummul-qura-adlandırmışdır?» sualının cavabında buyurdu: Çünki yer onun altından genişlənmişdir.[4]

2. Həzrət imam Əli (ə) bir nəfərin «Məkkənin Bəkkəyə nisbət yeri nədir?-sualının cavabında buyurdu: Məkkə hərəmin ətrafı, Bəkkə isə Allah evinin (Kə᾿bənin) yeridir.

Soruşdu: Nə üçün Məkkə adlandırılmışdır?

Həzrət buyurdu: Çünki Allah-taala yeri bu şəhərin altından genişləndirmişdir.

Soruşdu: Bəs nə üçün Bəkkə adlandırılmışdır?

Həzrət buyurdu: Çünki bu şəhər zalımlar və günahkarların gözlərini ağlatmışdır.[5]

3. Həzrət imam Əli (ə) buyurub: «Bəkkə Allah evinin yeri, Məkkə isə hərəmdir». Bu isə Allah-taalanın sözüdür ki, buyurur: «Hər kəs ona daxil olsa, asayişdədir».[6-7]

4. Həzrət imam Sadiq (ə) buyurub: «Allah evinin yeri «Bəkkə», abadlıq isə «Məkkə»dir».[8]

5. Əbdullah ibni Sənan nəql edib ki, həzrət imam Sadiq (ə)-dan soruşdum. Nə üçün Kə᾿bəyə Bəkkə deyilir? Həzrət (ə) buyurdu: Xalqın onun ətrafı və daxilində ağladığı üçün (Kə᾿bəyə Bəkkə) deyilir.[9]

6. Həzrət imam Sadiq (ə) buyurub: «Xalqın təvaf edərək bir-birini sıxıb (izdiham yaratdığı üçün), Məkkə Bəkkə adlanmışdır.[10-11]

7. Müaviyə ibni Əmmar nəql edib ki, həzrət imam Sadiq (ə)-a ərz etdim ki: Məkkədə namaz qılarkən qadınlar qarşısında əyləşir və ya keçirlər. Həzrət (ə) buyurdu: Eybi yoxdur, Məkkəyə buna görə Bəkkə deyilmişdir ki, orada kişilərlə qadınlar bir-birinə dəyir (və izdiham yaranır).[12]

8. Həzrət imam Kazim (ə) Əliyyibni Cə῾fərin — «nə üçün Məkkəyə Bəkkə deyilir? — sualının cavabında buyurdu: Çünki camaat bir-birini əlləri ilə itələyirlər ki, bu da yalnız Məscidul-həramın Kə῾bə ətrafındadır».[13]

9. Həzrət imam Rza (ə) buyurub: «Xalqın (cahiliyyət dövründə) Məkkədə fit çaldığı üçün ona Məkkə deişlər. Bu şəhərə doğru səfərə getmək istəyənə isə «qəd məka» yə῾ni fitçaldı deyirdilər. Bu da Allah-taalanın sözüdür ki, buyurub: «Onların (cahillərin) Allah evi ətrafında namazlaır fit və əl çalmaqdan başqa bir şey deyildir.[14] Beləliklə də «muka» fitçalmaq, «təsdiyə» isə əl çalmaq deməkdir.[15]

10. Həzrət imam Sadiq (ə) buyurub: «Məkkənin adları beşdir: Ummul-qura, Məkkə, Bəkkə, Bəssasə — yə῾ni aradan aparan, çünki camaat Məkkədə zülmkarlıq etdikdə onları ixrac edir və həlakətə yetirirdi. Və Ummul ruhm; çünki camaat Məkkədə e῾tikaf bağladıqda (ilahi) rəhmətə şamil olurlar».[16]

## *MƏKKƏNİN ADLARI HAQQINDA İZAH*

1. Qur῾ani-kərimdə Məkkənin adları;

Qur῾ani-kərimdə Məkkə adı yalnız bir dəfə gəlmiş, amma bu şəhər on dörd ayədə başqa adlarla yad olunmuşdur ki, aşağıdakılardan ibarətdir:

Bəkkə, Ummul-qura, Əl-bələd, Əl-bələdul-əmin, Əl-bəldəh, Əl-hərəm, həmçinin Qəryətukə, Minəl-qəryətəyn və Vadin ğəyrə zi zər῾in.

2. Rəvayətlərdə Məkkənin adları:

Əhli-beyt (ə)-ın hədislərində bu müqəddəs şəhərin beş adı və onların bu adlarla adlanma səbəbi bəyan olunmuşdur ki, aşağıdakılardan ibarətdir:

Məkkə, Bəkkə, Ummul-qura, Əl-bəssasə və Ummul ruhm.

Qeyd olunmuş rəvayətlərdə bu şəhərin Məkkə adı ilə adlanmasının iki səbəbi buyurulmuşdur ki, onların biri yerin Məkkə şəhərindən genişlənməsi, digəri isə cahil ərəblərin Kə῾bəni ziyarət edərkən onun ətrafında fit və əl çalmasından ibarətdir.

Bu şəhərin «Bəkkə» adi ilə adlanmasına gəldikdə isə, bə῾zi rəvayətlərə əsasən «Bəkkə» Kə῾bənin yerləşdiyi yerin adıdır və Bəkkə adının Məkkə şəhəri üçün işləndiyini gördükdə , sözün əlamətlərindən başa düşmək olur ki, onu deyənin məqsədi Məscidul-həramda yerləşən Kə῾bə tərafıdır. Bu isə Bəkkə sözünün lüğət baxımından əsası (məqsədi) ilə uyğundur. Çünki (ərəb dilində) Bəkkə sözü izdiham mə῾nasında işlədilir (və bildiyiniz kimi), Kə῾bə ətarfında izdiham olur.

3. Tarixçilər və dilçilər nəzərində Məkkənin adları:

Çox az şəhərlər Məkkə şəhəri kimi tarixçilər və dilçilər nəzərində adlarının çoxluğu və onların məʾnaları baxımından araşdırılmış və müxtəlif nəzərlə irəli sürülmüşdür. Belə ki, hətta bəʾzi tarix alimləri Məkkə şəhəri üçün otuzdan çox ad sadalamışdır. Həmçinin dilçilər arasında bir çox adları və xüsusilə Məkkə və Mədinə adlarının məsdəri barədə çoxlu söhbətlər olmuş və müxtəlif nəzərlər irəli sürülmüşdür.

Lakin bu barədə Əhli-beyt əleyhissəlamın rəvayətləri olduğu üçün, onların nəzərlərini qeyd edib sözü uzatmaqdan daşınır və yalnız kəramətli Məkkənin bir neçə adını qeyd etməklə kifayətlənirik.

Əl-məad, Əl-səlah, Kəvsi, Əl-hatimə, Ər-rəʾs və Əl-qadis adları o cümlədəndir.

Bəlkə də Məkkə şəhərinin çoxlu adlara malik olması, onun müxtəlif ərəb qəbilələri arasında böyük əhəmiyyət daşımasından irəli gəlir ki, onların hər biri Məkkə şəhərini bu adların xüsusi olaraq biri ilə tanıyırdılar.

## *MƏKKƏNİN FƏZİLƏTİ*

Qurʾan:

**«Pərvərdigara! Mən öz ailəm və övladlarımdan bəʾzisini quru bir vadidə və Sənin evinin yanında sakin etdim ki, Pərvərdigara! Namazı bərpa etsinlər. Beləliklə də xalqın qəlblərini onlara tərəf meyilli et və şükr etsinlər deyə neʾmətlərindən onlara ruzi ver».**[17]

**«Dedilər: Əgər səninlə birlikdə hidayətdən itaət etsək, öz diyarımızdan oğurlanacağıq. Biz asayişi olan bir hərəmi onlar üçün hazırlamadıqmı? Hər bir şeyin bəhrələri onlar tərəf gətirilir ki, bizim tərəfimizdən bir ruzidir. Lakin onların çoxu bilmirlər».**[18]

**«Həqiqətən bu evin Rəbbini pərəstiş etməyə göstəriş almışam ki, onu bilmişdir və hər bir şey Onun üçündür».**[19]

**«And olsun bu şəhərə, bir halda ki, Sən onun sakini olmusan».**[20]

**Hədis:**

11. Həzrət Məhəmməd səlləllahu ələyhi və Alihi və səlləm buyurub: «Məkkə elə bir şəhərdir ki, Allah-taala onu və hörmətini böyük saymışdır. Məkkəni yerdən bir şey yaratmazdan min il qabaq xəlq etmiş və onu mələklərlə doldurmuşdur. (Həmçinin) Mədinəni Beytül-müqəddəsə birləşdirmiş və min ildən sonra bir yaranışda bütün yeri yaratmışdır.»[21]

12. Həzrət Peyğəmbər səlləllahu ələyhi və Alihi və səlləm buyurub: «Allah-taalanın yaratdığı hər bir şeyin bir seçilmişi vardır... Onun yerlər arasında seçilmişi isə Məkkə, Mədinə və Beytül-müqqəd (şəhərləridir)».[22]

13. Həzrət Peyğəmbər səlləllahu ələyhi və Alihi və səlləm Məkkə şəhərinə xitab edərək buyurub: «Mən sənin Allahın asayişli bir hərəm və Allah yanında daha çox sevimli bir şəhər olduğunu bilirəm».[23]

14. Həzrət Peyğəmbər səlləllahu ələyhi və Alihi və səlləm həzvərədə[24] — (Məkkə bazarının bir yerində) duran halda buyurdu: «And olsun Allaha ki,

Sən Allahın daha üstün yeri və böyük Allahın yanında da daha sevimli diyarsan. Əgər məni səndən ixrac etməsəydilər xaric olmazdım».[25]

15. Həzrət Peyğəmbər səlləllahu ələyhi və Alihi və səlləm Məkkə şəhərinə xitab edərək buyurdu: «Necə də təmiz şəhərsən! Nə qədər mənim üçün sevimlisən! Əgər millətim məni səndən xaric etməsəydi, səndən başqa bir yerdə sakin olmazdım».[26]

16. Həzrət imam Baqir əleyhissəlam buyurub: «Məkkədə yatan şəxs, başqa şəhərlərdə gecə oyaq qalıb (ibadətə məşğul olan) kimidir».[27]

17. Məysir nəql etmişdir ki, əlli nəfərlə birlikdə bir xeymədə həzrət imam Baqir əleyhissəlamın hüzurunda əyləşmişdik. Bizim uzun sükutumuzdan sonra, həzrət (ə) buyurdu. «Hansı yerin məqamının Allah yanında üstün olduğunu bilirsinizmi? Heç kəs bir söz demədikdə, həzrət (ə) sualının cavabını verərək buyurdu: O Məkkədir, Allahın öz hərəmi olmasını bəyəndiyi və evini orada qərar verdiyi Məkkətul-həramdır».[28].

18. Həzrət imam Sadiq əleyhissəlam buyurub: «Allahd-taala yanında yerlərin daha sevimlisi Məkkədir. Heç bir yerin torpağı, onun torpağı kimi Allah yanında sevimli deyildir. Heç bir yerin daşı, onun daşı kimi Allah yanında sevimli deyildir. Və heç bir yerin ağacı, dağı və suyu onun ağacı, dağı və suyu kimi Allah üçün sevimli deyildir».[29]

19. Həzrət imam Sadiq əleyhissəlam buyurub: «Yazılmış bir daşda bu sözlər həkk olunmuşdur: Bəkkə sahibi olan Allah Mənəm ki, göylər, yer, günəş və ayı yaratdıqda Məkkəni xəlq etdim və yeddi mələyi onun ətrafında mə᾿mur etdim. Onun suyu və südünüdə əhalisi üçün bərəkət vardır. Və onun ruzisi yuxarısı, aşağısı və təpələr kimi yollardan gəlir».[30]

20 Həzrət imam Sadiq əleyhissəlam buyurub: «Həzrət İbrahim əleyhissəlam Şamın bir səhrasında yerə endikdə Allah-taala ona vəhy etdi... Daha sonra İsmayıl (ə) və onun anasını çölə aparmağı ona fərman verdi. İbrahim əleyhissəlam dedi: İlahi! (Onları) hara aparım? Allah-taala buyurdu: Mənim hərəmim, asayişim olan yerim və yerin ilk dəfə olaraq xəlq etdiyim hissəyə apar ki, o Məkkədir».[31]

21. Həzrət imam Sadiq əleyhissəlam buyurdu: «Hər kəs Məkkə yolundan əziyyət verən bir amili götürərsə, Allah-taala onun üçün bir savab yazar və Allahd-taala savab yazdığı şəxsə əzab verməz».[32]

22. Əliyyibni Məhziyar nəql etmişdir ki, imam Hadi əleyhissəlamdan soruşdum: Məkkədə qalmaq üstündür, yoxsa başqa şəhərlərə gedək? Həzrət (ə) cavabımda belə yazdı: «Allah evinin kənarında qalmaq daha üstün və yaxşıdır».[33]

# MƏKKƏNİN XÜSUSİYYƏTLƏRİ

## *1. EHTİRAM*

### *ONA DAXİL OLAN HƏR BİR QORXANIN ASAYİŞDƏ OLMASI*

Qur᾽an:

«İbraim əleyhissəlam: Pərvərdigara! Bunu asayişili bir şəhər qərar verib, əhalisinə, Alaha və axirət gününə iman gətirənlərə meyvələrdən ruzi əta et, — dedikdə (Allah-taala) buyurdu: Hər kəs küfr edərsə ona bir az əta edər və daha sonra onu Cəhənnəm əzabına giriftar edərəm və çox pis aqibətdir».[34]

«Onda aşkar və aşkaredici nişanələr vardır. İbraim məqamı və hər kəs ona daxil olsa, asayişdə olacaqdır və Allah üçün ev həcci edərsə, həqiqətən Allah aləmlərdən ehtiyacsızdır».[35]

«Asayiş olan bir hərəmi qərar verdiyimizi görmədinmi? Bir halda ki, xalq onun ətrafından oğurlanır? Beləliklə onlar batilə iman gətirir və Allah ne᾽mətlərinə qarşı nankorluq edirlərmi?»[36]

«And olsun əncir, zeytun və Turi-sinaya və and olsun bu asayişli şəhərə».[37-38]

**Hədis:**

23. Həzrət Peyğəmbər səlləllahu ələyhi və Alihi və səlləm buyurub: «Hər kəs bir insanı öldürüb və ya bir günah etdikdən sonra hərəmə pənah apararsa, hərəmdə olduğu müddətdə amandadır. Belə ki, ondan qisas alınmaz, tutlub əziyyət verilməz, ona pənah, yemək və su verilməz, habelə onunla alver olunmayıb birini qonaq etməz və qonaq olunmaz».

9

24. Həzrət Peyğəmbər (s) buyurub: Agah olun, Allahın Onun mələklərinin və bütün xalqın lə᾽nəti islam dinində bir cinayəti törədib həyata keçirən şəxsə olsun. Yə᾽ni, hərəmdən xaricdə cinayət törədib, daha sonra hərəmə sığınan ki, (bu halda) hərəmdən xaric olanadək heç kim ona sığınacaq verməsin, kömək etməsin və onu qonaq aparmasın. Bundan sonra caniyə hədd cari olsun.[40]

25. Məhəmməd ibni Müslim nəql etmişdir ki, həzrət imam Baqir (ə)-dan «və mən dəxələhu kanə aminən» — yə᾽ni; hər kəs Məkkəyə daxil olsa, asayişdədir — ayəsi barədə soruşduqda, buyurdu: Qorxan hər bir şəxs, boynunda icra olunası ilahi hədd olmayınca orada asayişdədir.

Dedim: Allah və onun elçisi ilə vuruşan və yer üzərində fəsad törədən şəxs də orada asayişdədirmi? Həzrət (ə) buyurdu: Belə bir şəxs, yolda pusquda[41] durub, qoyun və ya başqa şeyi oğurlayan kimidir. İmam istədiyi kimi onunla rəftar edə bilər.[42]

26. Həzrət imam Sadiq (ə) hələbinin «hər kəs ona daxil olarsa, asayişdədir» — ayəsi barədə etdiyi sualın cavabında buyurdu: Hər kəs hərəmdən xaricdə bir cinayət işi törətdikdən sonra hərəmə sığınarsa, heç kəsin onu hərəmdə tutmağa haqqı yoxdur. Lakin bazara getmək, ticarət, yemək və içməkdə onun qarşısı alınır və heç kəs onunla danışmır. Belə olduqda isə onun hərəmdən xaric olub, tutulmasına ümid vardır. Amma hərəmin daxilində bir cinayət törədərsə, hərəmin daxilində ona hədd cari olar. Çünki, o, hərəmin ehtiramını saxlamışdır.[43]

27. Müaviyyə ibni Əmmar nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan hərəmdən xaricdə bir nəfəri öldürdükdən sonra hərəmə daxil olan bir kişi barədə soruşduqda buyurdu: O şəxs hərəmdən xaric olanadək öldürmək, olmaz həmçinin ona yemək və su vermək, onunla alver etmək və ona sığınacaq vermək olmaz. (Hərəmdən xaric olduqdan sonra ilahi) hədd ona cari olar (cəzalandırılar).

Dedim: Hərəmin daxilində qətl və oğurluq edən şəxsin haqqında nə deyirsiniz? Həzrət (ə) buyurdu: Hərəmin daxilində zillətlə cəzalandırılmalıdır. Çünki o, hərəmin hörmətini saxlamamışdır. Bir halda ki, Allah-taala buyurmuşdur: «Hər kəs sizə zülm edərsə, ona, onun sizə zülm etdiyi kimi zülm edin». Həzrət (ə) buyurdu: Bu hərəmdə (törədilən zülmkarlığa aiddir). Qur͗anda buyurulmuşdur: «Zalımlardan başqa heç kimə təcavüz və zülm yoxdur».[44]

## MƏKKƏDƏ VƏHŞİ HEYVANLAR VƏ QUŞLARIN ASAYİŞİ

28. Əbdullah ibni Sinan, həzrət imam Sadiq (ə)-dan «və mən dəxələhu kanə aminən» yə͗ni, (hər kəs hərəmə daxil olsa, asayişdədir) ayəsi barədə soruşaraq dedi: Allah-taalanın bu ayədə məqsədi hərəmdir, yoxsa Kə͗bə? Həzrət (ə) cavabında buyurdu: İnsanlardan hər kəs sığınan halda hərəmə daxil olarsa, Allah qəzəbindən amandadır. Amma vəhşi bir heyvan və quş ora daxil olarsa, hərəmdən xaric olanadək hücum və əziyyətdən asayişdədir.

29. Həzrət imam Sadiq (ə)-dan diri halda hərəmə daxil olmuş qeyri-vəhşi bir quş barədə sual olunduqda, buyurdu: Ona əl vurmasınlar. Çünki Allah-taala buyurur: «Hər kəs hərəmə daxil olarsa, asayişdədir».[46]

30. Məhəmməd ibni Müslim həzrət imam Sadiq (ə)-dan hərəmə daxil olmuş bir ceyran haqqında soruşduqda, həzrət (ə) buyurdu: Onu tutmayıb və ona toxunmasınlar. Allah-taala buyurur: «Hər kəs hərəmə daxil olarsa asayişdədir».[47]

## MƏKKƏDƏ EHTİRAMI OLMAYANLAR

31. Həzrət Peyğəmbər (s) buyurub: Hərəmdə beş heyvan öldürülür: Siçan, əqrəb, qarğa, sağsağan və quduz it.[48]

32. Həzrət imam Sadiq (ə) buyurub: Hərəmdə ehram halında bir neçə heyvan öldürülür: Əfi ilan, əqrəb və kiçik fasiq sayılan siçan. Qarğa ilə sağsağan isə daşla qovulmalıdır. Bir oğru sənə təcavüz edərsə, özünü müdafiə et.[49]

33. Həzrət imam Sadiq (ə) buyurub: Hərəmdə ..... və ağcaqanadı öldürməyin heç bir eybi yoxdur.[50]

**İncə məʾna:**

Hərəmdə haram olan işlərdən biri də heyvan öldürmək və ya ovlamaqdır. Amma bir çox heyvanlar bu hökmdən istisna olmuşdur ki, bura da onların adlarını sadalayır və onun fiqh elmi baxımından hökmləri barədə ətraflı məʾlumatlarını bilmək üçün fiqh kitablarına baxmağı məsləhət görürük. Qeyd olunmuş heyvanlar aşağıdakılardan ibarətdir:

Hər nöp pis ilanlar ,əqrəb, siçan, qarışqa, ağcaqanad, , həmçinin yırtıcı heyvanlar və quşlar.

Bəʾzi rəvayətlər, insanın mal-dövləti və ya abrına təcavüz edən oğrunu da ehtiramı olmayanlar sırasında bəyan etmişdir. Elə buna əsasən bu kimi rəvayətlərdən ümumi bir qaydanı çıxarmaq olar. Belə ki, hərəmdə insana təcavüz edən hər bir şeydən hərəm ehtiramı hökmü götürülmüşdür. Qeyd etmək lazımdır ki, yeməyi təʾmin etmək üçün əti halal olan dörd ayaqlı heyvanların başını kəsmək caizdir.

2. **Məkkədə əncam verilməsi haram olan işlər:**

## *ASAYİŞİ POZMAQ*

**Qurʾan:**

«Onları (müşrikləri) hər yerdə tapsanız, öldürün və sizi ixrac etdikləri yerdən onları ixrac edin. Fitnəkarlıq adam öldürməkdən şiddətlidir. Sizinlə vuruşmayınca, onlarla Məscidul-həram yanında vuruşmayın. Beləliklə onlar sizinlə vuruşduqda onları öldürün ki, kafirlərin cəzası belədir».[51]

**Hədis:**

34. Həzrət Peyğəmbər (s) Məkkə fəth olunan gündə buyurdu: Allah-taala asimanlar və yeri yaradan gün Məkkəni hörmətli qərar verdi və (Məkkə) qiyamət gününədək belə hörmətlidir. Məndən qabaq heç bir şəxsə onun hörmətini sındırmaq halal olmamış və məndən sonra da heç bir şəxsə halal olmayacaqdır. Və mənə yalnız bir gündə bircə saata qədər halal olmamışdır.[52]

35. Əmr ibni Səid döyüş qoşunlarını Məkkəyə göndərdikdə, Əbu Şurəy ona dedi: Ey Əmir! İcazə ver ki, sənin üçün həzrət Peyğəmbərin (s) Məkkə şəhərinin fəth olunmasının sabahısı günündə buyurduğu bir sözünü deyim. Həzrət Peyğəmbər (s) o sözü dedikdə onu iki qulağımla eşidib, qəlbimlə dərk etdim və iki gözümlə müşahidə etdim. O həzrət (s) Allaha həm səna etdikdən sonra buyurdu: Allahd-taala Məkkəni haram (hörmətini vacib) etmişdir, amma xalq onu möhtərəm bilmədilər! Allah və qiyamət gününə iman gətirən heç bir şəxsə orada qan tökmək və ya bir ağacı sındırmaq halal deyildir.

Beləliklə hər kəs bu iş üçün bəhanə axtarıb Peyğəmbərin işinə əsaslanarsa, ona deyin ki, Allah-taala peyğəmbərinə icazə vermiş, amma sizə icazə verməmişdir. Həqiqətən Allah-taala təkcə bir gündən yalnız bir saatı mənə icazə verdi və daha sonra onun bu günki ehtiramı dünənki ehtiramı kimi yerinə qayıtdı. Bu sözü hazır olanlar burada olmayanlara çatdırsın.[53]

36. Həzrət imam Əli (ə) buyurub: Hərəmə doğru qılınclarla çıxmayın və sizlərdən heç biriniz qarşısında qılınc olmayan halda namaz qılmasın, çünki qiblə əmin-amanlıq yeridir.[54]

37. Əbu Bəsir nəql edir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum. Məkkə və ya Mədinəyə getmək istəyən şəxsin özü ilə birlikdə silah götürməsi onun üçün xoşagəlməzdirmi? Həzrət (ə) buyurdu: Belə bir şəxsin öz şəhərindən silahı çölə aparmasının heç bir eybi yoxdur, amma Məkkəyə daxil olduqda onu aşkar etməsin.[55]

38. Həzrət imam Sadiq (ə) buyurub: Müsəlmanın hərəmə silah aparması layiqli və yaxşı deyildir. Amma silahı bir kisəyə qoyub və ya onu bir şeylə bükdüyü halda eybi yoxdur.

## *QEYRİ-MÜSƏLMANIN DAXİL OLMASI*

**Qur᾽an:**

«Və biz (Allah) evini xalq üçün toplantı və asayiş yeri qərar verdik və onlar İbrahim məqamını namaz yeri seçsinlər. Və İbrahim və İsmayıla göstəriş verdik ki, Mənim evimi təvaf edənlər, (ibarət üçün) e᾽tikaf bağlayanlar, rüku və səcdə və səcdə edənlər üçün təmizləsinlər».[57]

«Ey iman gətirənlər! Şübhəsiz müşriklər murdardır. Beləliklə bu ildən sonra Məscidul-hərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan qorxsanız, Allah istəsə sizi öz fəzlindən ehtiyacsız edəcəkdir. Həqiqətən Allah bilən və hikmətlidir.[58]

**Hədis:**

39. Hənan nəql edib ki, həzrət imam Sadiq (ə)-dan soruşdum: Nə üçün Allah evinə Beytullahil-həram deyilir? Həzrət (ə) buyurdu: Çünki müşriklərin ona daxil olması haramdır.[59]

40. Həzrət imam Sadiq (ə) buyurub: Əhli-zimmə (İslam hökuməti sığınacağında yaşayan əhli-kitab) hərəm və hicrət diyarına daxil olmasınlar və onlar bu iki yerdən ixrac olsunlar.[60]

41. Həzrət imam Sadiq (ə) — Evimi təvaf edənlər, e᾽tikaf bağlayanlar, rüku və səcdə edənlər üçün təmizləyin — ayəsi barədə buyurdu: Yə᾽ni, «Allah evini müşriklərdən uzaq saxlayaq».[61]

## *OV ETMƏK VƏ AĞACI SINDIRMAQ*

42. Həzrət Peyğəmbər (s) Məkkə fəth olunan gündə buyurdu: «Bu elə bir şəhərdir ki, Allah-taala göylər və yeri yaratdıqda ona hörmət bağışlamış və

Allahın bu hörmətli şəhəri qiyamət gününədək haram (möhtərəm)-dir. Belə ki, tikanı dərilməz, ovu qovulmaz e͑lan edib, (sahibi tapmaq) istəyən şəxsdən başqa tapılmış şeyi götürülməz və təzə bitmiş otları dərilməz. Abbas dedi: Ey Allahın elçisi! Bəzək və evlərinin xoşətirli olması üçün «İzxir otundan başqa?

Həzrət (s) buyurdu: Bəli izxir otundan başqa.[62]

43. Həzrət Peyğəmbər (s) buyurub: Hərəmin otu dərilməz, ağac və tikanı qırılmaz və ovu qovulmaz… Beləliklə hərəmin otundan dərən, ağacı və tikanını qıran və ovunu qovan şəxsi gördükdə ona nalayiq söz deməyiniz rəvadır və ya hərəmdə halal olan həddə onun kürəyini ağrıya salın.[63]

44. Həzrət imam Baqir (ə) buyurub: Allah-taala izxir otu və ya ovlanmış quşundan başqa hərəmin otunu dərmək və ya ağacını sındırmağı haram etmişdir.[64]

45. Həzrət imam Sadiq (ə) buyurub: Xurma və meyvə ağacından başqa Məkkə ağaclarından qırmaq olmaz.[65]

46. Həzrət imam Sadiq (ə) buyurub: Özünün hərəmdə əkib-becərdiyin ağac və otdan başqa hərəmdə bitmiş hər bir şeyi dərmək bütün xalqa haramdır.[66]

## *OVLANMIŞ HEYVAN VƏ YA QUŞUN BAŞINI KƏSMƏK*

47. Həzrət imam Sadiq (ə) buyurub: Hərəmdən çöldə ovlanmış heyvan və ya quşun başını hərəmdə kəsmək olmaz.[67]

48. Şihab ibni Əbdi Rəbbih nəql edib ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim. Məkkədən kənar bir yerdən gətirilən cücələrlə səhər yeməyi yeyirəm. Belə ki, onların başını hərəmdə kəsir və mən də onunla səhər yeməyi yeyirəm. Həzrət (ə) buyurdu: Sənin səhər yeməyin çox pis səhər yeməyidir. Diri halda hərəmə gətirilən heyvanların başının kəsilməsi və onların saxlanılmasının haram olduğunu bilmirsənmi?[68]

49. Həzrət imam Sadiq (ə) buyurub: Məkkədə dəvə, inək, qoyun və toyuqdan başqa bir heyvanı kəsmək olmaz.[69]

## *TAPILMIŞ ŞEYƏ MALİK OLMAQ*

50. Həzrət imam Sadiq (ə) buyurub: Tapılmış şey iki növdür: Onlardan biri hərəmdə tapılmış şeydir ki, onu tapan şəxs bir ilədək e͑lan etməlidir. Belə ki, onun sahibini tapsa, sahibinə qaytarmalı, əks təqdirdə isə onu sədəqə verməlidir.

Digəri isə hərəmdən başqa yerdə tapılan şeydir ki, bir ilədək e͑lan etməlisən. Belə ki, sahibi gəldikdə ona qaytarır, əks təqdirdə isə onu özünə götürə bilərsən.[70]

51. Məhəmməd ibni Rəca Ərcani nəql edib ki, həzrət imam Hadi (ə)-a yazdım. Məscidul-həramda olan halda bir dinar görüb onu götürmək üçün əyildikdə ikinci dinarı gördüm və axtardıqda üçüncü dinarı tapdım. Onların

hər üçünü götürüb xalqa e`lan etdim, lakin sahibi tapılmadı. Bu haqda nəzəriniz nədir?

Həzrət (ə) cavabımda belə buyurdu: Dinarlar barədə yazdığını başa düşdüm. Ehtiyacın varsa, onun üçdə birini, ehtiyacın yoxdursa hamısını sədəqə ver.[71]

3. Məkkədə bəyənilməz işlər:

## *MƏKKƏDƏ BİR İLDƏN ARTIQ QALMAQ*

52. Məhəmməd ibni Müslüm Həzrət imam Baqir (ə)-dan nəql etmişdir ki, buyurub: İnsanın bir ildən artıq Məkkədə qalması yaxşı deyildir. Dedim: Bəs nə etsin? Həzrət (ə) buyurdu: Başqa bir yerə getsin.[72]

53. Şeyx Səduq (r.ə.) Həzrət imam Sadiq (ə)-dan nəql etmişdir ki, o həzrət (ə) Məkkədə qalmağı bəyənilmiş saymırdı. Bu isə Həzrət Peyğəmbərin (s) bu şəhərdə çıxarılması üçündür. Məkkədə qalan şəxs başqa bir yerə getməyincə daşürəkli olar.[73]

## *UCA BİNA TİKMƏK*

54. Həzrət imam Baqir (ə) buyurub: Heç bir şəxsin Kə`bədən uca bir ev tikməsi layiqli və yaxşı deyildir.[74]

## *BORCU TƏLƏB ETMƏK*

55. Səmaətibni Mehran nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum: Bir kişinin mənə müəyyən məbləğdə borcu var idi və bir müddətə qədər gözümə görsənmədi. Axır ki, onun Kə`bəni təvaf edən halda gördüm. Öz malımı ondan tələb edimmi? Həzrət (ə) buyurdu: Xeyr, hərəmdən xaric olanadək ona salam vermə və onu qorxuya salma...[75]

**İncə mə`na:**

Əliyyibni Babəveyh buyurmuşdur: Borcu olan şəxsi hərəmdə gördükdə borcu ondan tələb etmək caiz deyildir. Amma hərəmdə ona borc vermiş olsa, eybi yoxdur.

Əllamə Hilli «Muxtələfuş-şiə» kitabında buyurub: Mənim nəzərimə əsasən, hərəmdən xaricdə borc verilərsə, onu hərəmin daxilində tələb etmək məkruhdur, amma bu iş haram sayılmır.

Şəhid (r.ə.) özünün «Əd-durus» kitabında buyurub: Borclu şəxs hərəmə sığınarsa, ondan borcu tələb etmək haramdır

Rəvayət isə dəlalət edir ki, borclu şəxsi hərəmdə gördükdə ondan borcu tələb etmək haramdır və onun hərəmə sığınmaq qəsdində olması şərt deyildir.

4. Məkkədə əncam verilməsi layiqli olan işlər:

## NAMAZ

56. Həzrət imam Əli (ə) buyurub: Məkkə və Mədinədə namaz qılmaq, min namazla bərabərdir.[76]

57. Həzrət imam Səccad (ə) buyurub: Hər kəs Məkkədə yetmiş rəkət namazı qılıb, onun hər rəkətində «Qul huvəllah» və «İnna ənzəlnah» surələri, həmçinin «Suxrə» (Ə῾raf surəsinin 54-56-cı) ayələri və «Ayətəl-kürsini» oxuyarsa, şəhid olmaqdan başqa bir ölümlə dünyadan getməz. Hər kəs Məkkədə yemək yeyərsə, başqa şəhərlərdə oruc tutan kimi olar və Məkkədə bir gün oruc tutmaq, başqa yerlərdə tutulan bir ilin orucuna bərabərdir. Və hər kəs Məkkədə yol gedərsə, Allaha ibadət halındadır.[77]

58. İbrahim ibni Şəybə nəql etmişdir ki, Həzrət imam Baqir (ə)-a məktub yazaraq Allah və peyğəmbər hərəmlərində namazın tamam qılınması barəsində o həzrətdən (ə) sual etdim və həzrət (ə) cavabımda belə yazdı: Həzrət Peyğəmbər (s) bu iki hərəmdə çoxlu namaz qılmağı sevirdi. Beləliklə sən də çoxlu namaz qıl və namazı tamam halda yerinə yetir.[78]

## ORUC

59. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs Ramazan ayını Məkkədə olub, onun hamısını oruc tutaraq bacardığı qədər namaz qılarsa, Allah-taala onun üçün Məkkədən başqa yerin yüz min Ramazan ayı savabını yazar, həmçinin onun üçün hər gün bir savab və hər gecə də bir savab yazar.[79]

60. Həzrət imam Səccad (ə) buyurub: Məkkədə tutulan bir günün orucu, başqa yerdə tutulan bir ilin orucu ilə bərabərdir.[80]

## QUR῾ANI XƏTM ETMƏK

61. Həzrət imam Səccad (ə) buyurub: Hər kəs Məkkədə Qur῾anı xətm edərsə, Həzrət Peyğəmbəri (s) görməmiş və Behiştdə öz yerini müşahidə etməmiş dünyadan getməz.[81]

62. Həzrət imam Baqir (ə) buyurub: Hər kəs Məkkədə cümə günündən gələn cümə gününədək və ya ondan az və yaxud çox bir müddətdə Qur῾anı xətm edərsə və (xətm etdiyi) gün də cümə günü olarsa, onun üçün dünyada olduğu kimi cümə günündən olacağı sonuncu cümə günənədək savab və əcrlər yazılır. Başqa günlərdə də Qur῾an xətm edərsə belə savablara nail olar.[82]

63. Həzrət imam Sadiq (ə) buyurub: Məkkə Allahın hərəmi, Peyğəmbərin (s) hərəmi və habelə Əmirəl-mö῾minin Əli (ə)-ın hərəmidir. Orada qılınan namaz yüz min namazla və bircə dirhəm infaq, yüz min dirhəm infaqla bərabərdir.

Mədinə də Allahın hərəmi, həzrət Peyğəmbərin (s) hərəmi və habelə Əmirəl-mö῾minin Əli (ə)-ın hərəmidir. Orada qalınan namaz, on min namazla və bir dirhəm infaq, on min dirhəm infaqla bərabərdir.

Kufə də Allahın hərəmi, həzrət Peyğəmbərin (s) hərəmi və habelə Əmirəl-mö᾽minin Əli (ə)-ın hərəmidir. Orada qılınan bir namaz min namazla və bir dinar infaq min dirhəm infaqla bərabərdir.[83]

5. Məkkə əhalisi üçün yaraşan işlər:

## *TƏVAF YERİNİ VACİB TƏVAF ÜÇÜN BOŞ QOYMAQ*

64. Həzrət Peyğəmbər (s) buyurub: Məkkə əhli və onun ətrafında olanlara çatdırın ki, təvaf yeri, qara daş, İbrahim məqamı və birinci sıranı Zul-qədə ayının iyirminci günündən xaric olan günədək hacıların ixtiyarında qoysunlar.[84]

65. Həzrət Peyğəmbər (s) buyurub: Ey Əbdi Mənaf övladları! Gecə və gündüzün hər bir saatında bu evin ətrafında təvaf edən və namaz qılmaq isətyən heç bir kəsə mane olmayın.[85]

66. Həzrət imam Sadiq (ə) buyurub: Məkkədən olmayanlar üçün təvaf namazdan daha üstündür. Məkkə əhalisi üçün isə namaz daha üstün sayılır.[86]

67. Həriz nəql edir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum: Qeri-Məkkə əhalisi yə᾽ni, onun ətrafından olanlar üçün təvaf etmək üstündür, yoxsa namaz qılmaq? Həzrət buyurdu: Onun ətrafında yaşayanlar üçün təvaf, Məkkə əhalisi və sakinləri üçün isə namaz qılmaq təvafdan daha üstündür.[87]

68. Əhməd ibni Məhəmməd Bəzənti nəql edir ki, həzrət imam Rza (ə)-dan soruşdum. Məkkə sakinləri üçün təvaf üstündür, yoxsa namaz qılmaq? Həzrət (ə) buyurdu: Namaz qılmaq üstündür.[88]

69. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs Məkkədə bir il yaşayarsa, təvaf etmək onun üçün namaz qılmaqdan üstündür. İki il müddətində Məkkənin sakini olan şəxs həm təvaf, həm də namazı yerinə yetirsin. Məkkədə üç il yaşayana isə namazı qılmaq, təvaf emtəkdən daha üstündür.[89]

## *ÖZLƏRİNİ MÖHRİMLƏRƏ OXŞATMAQ*

70. Həzrət imam Sadiq (ə) buyurub: Məkkə əhalisinin köynək geyinməsi yaxşı deyil. Əksinə yaxşıdır ki, onlar da möhrimlər kimi toz-torpağa batmış olsunlar. Və hökumətin onları buna görə cəzalandırması layiqlidir.[90]

71. Həzrət imam Sadiq (ə) buyurub: Təməttö᾽ həccini əncam verən şəxsin ehram halından xaric olduqda köynək geyməyib əv möhrimlərlə birgə geyimdə olması layiqlidir. Həcc mövsümündə Məkkə əhalisinin də beləcə olması layiqlidir.[91]

6. Orada olan hər zülm ilhad sayılır:

«Şübhəsiz kafir olan şəxslər, Allah yolu və Məscidul-hərama getməyin qarşısını alırlar. O məscidi istər e᾽tikaf ibadəti, istərsə də adi əhali üçün bərabər qərar verdik və hər kəs orada zülmkarlığa ilhad niyyətində olarsa, ona dərdli əzabdan dadızdırarıq.[92]

72. Həzrət Peyğəmbər (s) buyurub: Məkkədə yeyinti məhsulları ehtikar etmək (baha qiymətə satmaq üçün anbarda gizlətmək) ilhad sayılır.[93]

73. Müaviyətibni Əmmar nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan «və mən yurid fihi bi-ilahdin bizulmin) ayəsi barədə soruşduqda buyurdu: Hər növ zülm ilhaddır və xadimi günahsız olan halda vurmaq da ilhad növündəndir.[94]

74. Əbu Səbah Kənani nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan «və mən yurid fihi biilhadin...» ayəsi barədə soruşduqda buyurdu: Məkkədə (yaşayan və) özünə oğurluq və ya zülmkarlıq ilə zülm edən və yaxud başqası tərəfindən hər növ zülmə məʾruz qalmağı ilhad bilirəm. Elə buna görə də o həzrət (ə) hərəmdə sakin olub (yaşamaqdan) çəkinirdi.[95]

75. Həzrət imam Sadiq (ə) buyurub: — «və mən yurid fihi biilhadin bizulmin» ayəsi barədə buyurdu: Hər kəs orada (hərəmdə) Allahdan başqasına ibadət edib və ya Allah övliyalarından başqası ilə dostluq və birlik edərsə, o şəxs zülm vasitəsi ilə mülhid sayılır və ona dərdli əzabdan dadızdırmaq Allahın öhdəsindədir.[96]

**Bəyan:**

«İlhad» doğru və haq yoldan azmaq məʾnasını daşıyır. Qeyd olunmuş bu ayədə zalımlar mülih adlanmış və onlara əzab vəʾdəsi verilmişdir. Bu isə zülmün ilhad üçün səbəb olma məʾnasını yetirir. Çünki, zülmkarlıq haqdan bir növ üz döndərmək və azmaqdır. Amma bu ayə bundan əlavə, Məkkə hərəmindən başqa bir yerdə həyata keçməyən xüsusi bir hökmə də işarə edir. Bu hökm (həqiqətdə) hər bir zümlkarı etdiyi zülmün böyük və ya kiçik olmasına baxmayaraq mülhid adlandırır.

Həmçinin Məkkədə həyata keçirilən zülmü böyük günah sayaraq, onun ardınca dərdli əzab vəʾdəsi verir və bu ümumiliyə təʾkid olunmuşdur. Çünki «mən» kəlməsi bir növ ümumiyyəti yetirir və hər bir işə şamil olunsun deyə «yurid» feʾlinin məfʾulu atılmışdır. Bundan əlavə bu ümumiyyəti yetirmək üçün həm «ilhad», həm də «zülm» sözü ayədə məchul formada gətirilmişdir.

Beləliklə də ayənin tərkibi (ərəb qarammatikası baxımından quruluşu) belədir:

—«Mən yurid...» cümləsi sonadək, ayənin başlanğıcında olan «innə» hərfinin xəbəri olduğuna dəlalət edir;

—«İlhad» sözündə olan «ba» hərfi birgə və həmrahlıq məʾnasını yetirir;

—«Zülm» sözündə olan «ba» hərfi isə səbəbiyyət məʾnasını yetirir.

## *HƏRƏMİN MİQYASI*

76. Həzrət Peyğəmbər (s) buyurub: Cəbrail (ə) həzrət Adəmi (ə) Səfa, həzrət Həvvani isə Mərvə dağlarından yerə endirib onlar üçün bir xeymə qurdu. Xeymənin sütunu qırmızı yaqutdan idi və onun parıltısı Məkkənin dağları və ətrafını parıldadırdı. Allah-taala o sütunun nuru yayılan hər bir

yeri hərəm qərar verdi. Beləliklə də bu günkü hərəm miqyası, o sütunun nuru çatan yerlərdir. Çünki onlar Behiştdən idilər.[97]

77. Həzrət imam Baqir (ə) buyurdu: Allah-taala hərəmindən dörd fərsəxdən dörd fərsəxdə hərəminin izxir otundan başqa otunun dərilməsi və ağacının qırılmasını haram etmişdir.[98]

78. Əhməd ibni Məhəmməd Bəzənti nəql edir ki, həzrət imam Rza (ə)-dan hərəm və onun miqyası barəsində soruşdum ki, nə üçün onun bə`zi hissəsi daha yaxın və bə`zi hissəsi isə daha uzaqdır?

Həzrət (ə) buyurdu: Allah-taala Adəmi (ə) Behiştdən yerə gətirdikdə onu Əbu Qubeys dağında endirdi. Adəm (ə) qorxudan və Behiştdə eşitdiklərini (orada) eşitmədiyindən Allaha şikayət etdi. Allah-taala qırmızı bir yaqutu yerə endirərək, onu Kə`bənin yerində qərar verdi. Adəm (ə) onun ətrafında təvaf edir və onun da nuru hərəmin miqyasınadək çatırdı. Onun hədd və hüdudunu nişanladırlar və beləliklə də Allah-taala onu hərəm qərar verdi.[99]

## *HƏRƏMİN MİQYASI BARƏDƏ İZAHAT*

Rəvayət və alimlərin sözlərində hərəmin miqyası bir bəridin bir bəridi həddində tə`yin olunmuşdur. Hər bərid, dörd şər`i fərsəx olduğu üçün, hərəmin təqribi məsahəti on altı kvadrat metr fərsəxdən ibarətdir. Məkkədən bir az böyük olan bu məsahət, Allahın əmin-aman hərəmi adı ilə tanınmış və onun özünəməxsus hökmləri vardır. Məkkə şəhərinin hər tərəfindən hərəm miqyasını tə`yin etmək barədə müxtəlif nəzərlər irəli sürülmüşdür ki, bu barədə daha məşhur sayılan və qəbul edilmiş nəzəriyyəni qeyd edirik:

Belə ki, hərəm Mədinə yolu ilə Məkkənin üç mil,* Yəmən yolu ilə Əzutuləbən tərəfinin yeddi mil, Çəddə yolu ilə Əl-əğşali ayrıcının on mil, Taif yolu ilə on bir mil, İraq yolu ilə Məqtə` dağının xill döngəsindən yeddi mil və Cə`ranə yolu ilə Ali Əbdullah ibni Xalid dərəsindən doqquz mil fasiləsində yerləşir. Qeyd etmək lazımdır ki, bu fasilələr təqribidir və bə`zi tədqiqatçı alimlər, bu miqyasın Məscidul-həramın divarına qədər olan ölçüsünü hesablamış və onu zira` ölçüsü ilə bəyan etmişlər ki, yuxarıdakı ölçülərlə müəyyən həddə qədər fərqli sayılır. Məslən, Fasi Ərəfə yolundan hərəmin Taif cəhətindən olan miqyasını otuz yeddi min on yeddi kiçik zira` (əl barmağının ucundan dirsəyə qədər olan fasilə) qeyd etmişdir.

Hərəm miqyasını tanıyıb, aydınlaşdırmaq böyük əhəmiyyətə malik olub, bir çox hökmlərlə sıx bağlılığı vardır. Bu isə hər tərəfdə əlamət adı ilə tikilmiş miqyası bildirən nişanələrlə çox asandır. Bu miqyaslar Cəddə və Cə`ranə miqyaslarından başqa hamılıqla həzrət Cəbrailin (ə) göstərişi və həzrət İbrahimin (ə) əli ilə tikilmiş və tarix boyu dəfələrlə tə`mir edilmişdir ki, həzrət İsmail (ə), Qusəyy ibni Kulab və həzrət Peyğəmbər (s) onu tə`mir edənlər sırasındadır. Həmçinin daha sonra xəlifələr də onları dəfələrlə tə`mir etmişlər.

---

* Hər mil təxminən 1800 metrdən ibarətdir.

Hal-hazırda aparılar tədqiqatlar bu əlamətlərin öz yerində qaldığını göstərir. Belə ki, altı miqyas əlaməti, yalnız daxil olan yollarda hərəmin hüdudunu müəyyənləşdirir. Hərəmin ümumi miqyası isə daha genişdir.

## *MƏKKƏYƏ DAXİL OLMAQ QAYDALARI*

1. **Ehram:**

79. Həzrət imam Baqir (ə) Məhəmməd ibni Müslimin — (bir şəxs ehramsız halda Məkkəyə daxil ola bilərmi?) — sualının cavabında buyurdu: Xəstə və ya ishal olandan başqa heç kəsə olmaz.[100]

80. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala Məscidul-həramı Kə᾿bəyə görə və hərəmin Məscidul-harama görə həram qərar verdi. Ehramı isə hərəmə görə vacib etmişdir.[101]

81. Həzrət imam Kazim (ə) buyurub: Məkkədən on mil həddində fasiləsi olan şəxs ehramsız oraya daxil olmasın.[102]

2. **Qüsl:**

82. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Məkkəyə daxil olmaq üçün «Fəxx» zonasında qüsl verdi.[103]

83. Hələbi nəql edib ki, həzrət imam Sadiq (ə), Məkkəyə daxil olmazdan qabaq, Fəxxdə qüsl etməyimizi bizə göstəriş verdi.[104]

84. Həzrət imam Sadiq (ə) buyurub: İnşaallah hərəmə çatdıqda daxil olmazdan qabaq qüsl etmək və əgər daha qabağa getsən «B᾿iri məymun» və ya «Fəxx» zonaları və yaxud öz mənzilində qüsl et.[105]

85. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala həzrət İbrahim (ə)-a həcc etməyi, İsmaili (ə) də özü ilə birəgə həcc etdirməyi və onu hərəmdə sakin etməsini göstəriş verdi. Beləliklə də onların hər ikisi hərəmə getmək üçün qırmızı bir dəvəyə minib yola düşdülər və Cəbraildən (ə) başqa heç kim onlarla birgə deyildi. Hərəm çatdıqda Cəbrail (ə) ona dedi: Ey İbrahim! Düşün və hərəmə daxil olmazdan qabaq qüsl edin. Onlar da (dəvədən) enib qüsl etdilər.[106]

86. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala öz kitabında buyurur: Mənim evimi təvaf edənlər, e᾿tikaf bağlayanlar, rüku və səcdə edənlər üçün təmizləyin.[107] Beləliklə də bədənin pak halından başqa vəziyyətdə Məkkəyə daxil olması layiqlidir və habelə öz tərini yuyaraq çirkinliklərini aradan aparıb qüsl etsin.[108]

3. **Təvazökarlıq:**

87. Müaviyətibni Əmmar imam Sadiq (ə)-dan nəql edib ki, o həzrət (ə) buyurmuşdur: Hər kəs sakitliklə Məkkəyə daxil olsa, bağışlanar. Soruşdum: Necə sakitliklə Məkkəyə daxil olsun? Həzrət buyurdu: Təkəbbürsüz və qürursuz halda daxil olsun.[109]

88. İshaq ibni Əmmar rəvayət edir ki, həzrət imam Sadiq (ə) buyurdu: Məkkəyə sakitliklə daxil olan şəxsin (günahları) bağışlanar. Dedim: Sakitlik nədir? Həzrət (ə) təvazökarlıq etməsidir.[110]

89. Əban ibni Təğib nəql edir ki, həzrət imam Sadiq (ə) ilə Məkkə və Mədinə yolunda birgə səfərdə idim ki, hərəmə çatdıqda yerə enib qüsl etdi və ayaqqablarını əlinə aldı. Daha sonra ayaqyalın hərəmə daxil oldu və mən də onun kimi etdim. Həzrət (ə) buyurdu: Ey Əban! Hər kəs Allah qarşısında mənif rəftarım kimi təvazökarlıq üzündən əməl edərsə, Allah-taala onun yüz min günahını bağışlayar, ona yüz min savab yazar, həmçinin onun üçün yüz min dərəcə qurar və onun yüz min hacətini rəva edər.[111]

90. Həzrət imam Sadiq (ə) buyurub: Nəzər edin ki, sizlərdən biriniz Məkkənin vadisinə endikdə öz köhnə paltarlarınızı geyinin. Çünki qəlbində heç bir təkəbbür olmayan halda Məkkə vadisinə enən şəxs bağışlanar.[112]

4. Məkkənin şimalından daxil olmaq:

91. Ayişə nəql edib ki, həzrət Peyğəmbər (s) Məkkəyə gəldikdə onun şimalından daxil olur və şəhərin cənubundan xaric olub gedirdi.[113]

92. Həzrət imam Sadiq (ə) həzrət Peyğəmbəri (s) vəs edərək buyurur: Həzrət Peyğəmbər (s) Məkkənin yuxarısı olan əqəbədən və Mədənilər döngəsindən daxil olur və Məkkənin aşağısı olan Zi Tuvadan xaric olurdu.

93. Yunis ibni Yəqub nəql edib ki, həzrət imam Sadiq (ə)-a dedim: Mədinədən gələn halda, haradan Məkkəyə daxil olum? Həzrət (ə) buyurdu: Məkkənin yuxarı hissəsindən daxil ol və Mədinəyə getmək üçün xaric olduqda, Məkkənin aşağı (cənub) hissəsindən xaric ol.[115]

## *MƏKKƏDƏN XARİC OLMAQ QAYDALARI*

1. **Sədəqə vermək:**

94. Həzrət imam Sadiq (ə) buyurub: Məkkədən xaric olmaq istədikdə, bir dirhəmlik xurma alıb, onu ovuc-ovuc sədəqə ver ki, bu sənin ehram və Məkkədə qaldığın müddətdə günahlarının kəffarəsidir.[116]

2. **Onun cənubunadn xaric olmaq:**

95. İbni Ömər nəql edib ki, həzrət Peyğəmbər (s) Şəcərə məscidi yolu ilə Mədinədən xaric olub və Müərrəsdən daxil olurdu. Məkkəyə daxil olarkən (şəhərin) şimal tərəfində olan hündürlükdən daxil olur və cənub tərəfin hündürlüyündən xaric olub, gedirdi.[117]

# İKİNCİ FƏSİL

## *MƏSCİDUL-HƏRAM*

## *MƏSCİDUL-HƏRAMIN FƏZİLƏTİ*

96. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala yanında məscidlərin daha hörmətlisi, və kəramətlisi Məscidul-həramdır.[118]

97. Həzrət Peyğəmbər (s) buyurub: Məscidul-həramın mənim məscidimdən üstünlüyü, mənim məscidimin sair məscidlərdən üstünlüyü kimidir.[119]

98. Əbuzər (r.ə.) nəql edir ki, həzrət Peyğəmbərə (s) dedim: hansı məscid ilk dəfə tikilmişdir? Həzrət (s) buyurdu: Məscidul-həram. Dedim: Dahan sonra? Buyurdu: Məscidul-əqsa. Dedim: Bu iki məscid arasında olan fasilə nə qədərdir? Həzrət buyurdu: qırx. Daha sonra buyurdu: Namaz vaxtı çıtdığın hər hansı bir yerdə namazını qıl. (Çünki) yer sənin üçün məsciddir.

99. Həzrət Peyğəmbər (s) buyurub: Üç məsciddən başqa (səfərə çıxmazlar): Məscidul-həram, mənim məscidim və Məscidul-əqsa.[121]

100. Həzrət imam Əli (ə) buyurub: Dörd məkan Behiştin dünyada yerləşən qəsrlərindəndir: Məscidul-həram, həzrət Peyğəmbərin (s) məscidi, Beytul-müqəddəs məscidi və Kufə məscidi.[122]

## *MƏSCİDUL-HƏRAMIN HÜDUDU*

101. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət İbrahim (ə) Məkkədə «həzvərə» məhəldən «Məs`a»ya qədər xətt çəkdi ki, bu da İbrahim (ə)-ın çəkdiyi xətt və hüdud idi. Yə`ni məscid (idi).[123]

102. Hüseyn ibni Nə`im nəql edir ki, imam Sadiq (ə)-dan Məscidul-harama artırılan yerdən soruşduqda, həzrət buyurdu: İbrahim (ə) və İsmail (ə) məscidin hüdudunu Səfa və Mərvə (dağları) arasında tə`yin etmiş və xalq da məsciddən Səfa (dağına qədər) həcc edirdilər.[124]

103. Əbdüs-səməd ibni Sə`d nəql edir ki, Abbasi xəlifəsi olan Mənsur Dəvaniqi Məkkə əhalisinin evlərini alıb Məscidul-hərama artırmaq istədikdə (camaat öz evlərini satmaqdan) boyun qaçırdılar. Onları həvəsləndirməyin baxmayaraq, yenə də onun təklifini qəbul etmədilər. O, bu məsəldən narahat olub, həzrət imam Sadiq (ə)-ın yanına gələrək dedi: Mən məscidə əlavə etəmk üçün bunlardan evlərinin bir hissəsini istədim, amma vermədilər və bu da məni bərk narahat etdi. Həzrət (ə) buyurdu: Bu məsələ səni narahat edirmi? Bir halda ki, sənin onların əleyhinə olan dəlilin aydın və sabitdir! Mənsur dedi: Onlara necə dəlil gətirim? Həzrət buyurdu: Allah kitabı ilə. Dedim: Qur`anın harası ilə? Buyurdu: Allahın bu sözü (ilə ki,) həqiqətən Allah-taala

xəbər vermişdir: «Şübhəsiz xalq üçün tikilmiş ilk ev Məkkədə yerləşən (Allah evidir)».[125]

Əgər onlar Kə`bədən qabaq oranın maliki olmuşlarsa, evlər və həyətlər onların özünə məxsusdur. Amma Allah evi onlardan qabaq olmuşdursa, onda Kə`bənin həyət və astanası ona məxsusdur. Mənsur onları çağırıb bu ayə ilə onlara dəlil gətirdikdə hamılılqla dedilər: Hər nə istəyirsənsə əncam ver.[126]

104. Həsən ibni Əli ibni Nö`man nəql edir ki, Məhdi Abbasi Məscidul-həramı genişləndirdikdə, məscidin guşələrinin birində bir ev qalmışdır. Ev sahibindən istədikdə ona verilmədi və bu barədə fəqihlərdən sual etdikdə hamılıqla dedilər: Qəsbkarlıqla bir şey alıb, Məscidul-hərama əlavə etmək layiqli deyildir.

Əliyyibni Yəqtin ona dedi: Bu barədə Musəbni Cə`fər (ə)-a məktub yazsan, bu barədə sənə doğru olan həll yolunu göstərəcəkdir. Məhdi Abbasi Mədinə hakiminə məktub yazaraq ona göstəriş verdi ki, həzrət Kazim (ə)-dan Məscidul-hərama əlavə etmək istədiyi ev və onun sahibinin evi təhvil verməkdən boyun qaçırmasının həllini soruşsun.

Mədinə hakimi məsələni həzrət imam Kazim (ə)-a dedikdə, buyurdu: Bu suala hökmən cavab verilməlidir? Dedi: Bəli, başqa bir çarə yoxdur. Həzrət (ə) buyurdu: Yaz. Bağışlayan və mehriban Allahın adı ilə. Əgər Kə`bə xalqa varid olmuşdursa, xalq öz evlərinin həyətinin sahibi olmağa layiqlidir, amma xalq Kə`bəyə varid olmuşdursa, Kə`bə öz həyət və astanasının sahibi olmağa layiqlidir.

Məktub Məhdi Abbasiyə çatdıqda onu alaraq öpdü və daha sonra o evin dağıdılmasınıa göstəriş verdi. O evin sahibləri həzrət imam Kazim(ə)-ın hüzuruna gedərək evlərinin pulunun ödənilməsi barədə Məhdi Abbasiyə bir məktub yazmağını xahiş etdilər və o həzrət də onlara bir şey ödəməsi barədə bir məktub yazdı və beləliklə də Məhdi Abbasi onları razı saldı.[127]

## *MƏSCİDUL-HƏRAMIN HÜDUDU BARƏDƏ İZAHAT*

Həzrət İbrahim (ə) Məscidul-həramın hüdudunu tə`yin etmiş, amma bu hüdud cahil ərəblər vasitəsilə unudulmuş və beləliklə də Məkkə əhalisi tədricən məscidin daxilində ev tikməyə məşğul olmuşlar. İslam dini iqtidara çatıb, müsəlmanların çoxalmaqla yanaşı məscidi artırıb, onu əvvəlki hüduduna qaytarmaq zəruri oldu. Elə buna görə də Ömər Hicri-qəməri tarixi ilə 17-ci il və Osman 26-cı ildə ilk genişləndirmə əməliyyatını əncam verdilər. Daha sonra Əbdüllah ibni Zubeyr 65-ci ildə Kə`bə binasını tə`mir edərək məscidin şimal və cənubundan yerləşən həyət hissəsini genişləndirdi. Belə ki, cənubdan onu Səfa və Babu bəni Məxzum hissəsi, şimaldan isə Həcəri İsmail və Darun-nudvədən Daru Şəybətibni Osmana qədər çatırdı. Abbasi xilafəti dövründə Mənsur Hicri tarixi ilə 137-ci ildə məscidin şimal və qərb hissələrini genişləndirərək onu Babu bəni Səhimə qədər çatdırdı. Daha sonra 161-ci ildə

Məscidul-həram ilə Məs῾a arasında yerləşən bütün evləri dağıdaraq məscidin həddini Məs῾ada qərar verdi. Həmçinin 167-ci ildə məscidi hər tərəfdən genişləndirdi və beləliklə də Kə῾bə məscidin ortasında qaldı və habelə Məscidul-həramı şərq və qərb tərəfdən özünün ilk vəziyyətinə qaytardı. Çünki həzrət İbrahim (ə) məscidin şərqi həddini Məs῾a, qərbi həddini isə Həzrəvədə qərar vermişdir. Həzrəvə isə Məhdi Abbasinin genişləndirdiyi qərbi həddində yerləşən Hənnatin bazarı idi. Elə buna əsasən bu fəslin əvvəlində qeyd olunmuş iki rəvayətdə imam Sadiq (ə)-ın cavabında başa düşülür ki, məscidə artırılmış hüdudlarda Məscidul-həram hökmündədir və hətta artıq deyil, əksinə məscidin bir hissəsi sayılır.

Bundan əlavə imam Kazim (ə) da həzrət imam Sadiq (ə) kimi bu zonanın əvvəldən Məscidul-harama aid olduğu və Məkkə əhalisinin orada ev tikməsini məscidin hüdudunu bilmişdir. Elə buna görə də ev sahiblərinin razılığını əldə etməyi lazım görməmişdir. Bu isə ikinci fəslin sonuncu rəvayətlərindən başa düşülür.

Məscidin sonuncu tə῾mir və genişlənməsi Əl-muqtədir Billah (Abbasi) zamanında həyata keçmiş və daha sonra Səudiyyə Ərəbistan hökumətinin vasitəsi ilə 1375 (H.q.) və 1409 (H.q.) tarixlərində Məscidul-həram genişləndirilərək onun hüdudu əvvəlkindən neçə bərabər artırılmışdır. Elə buna görə də bə῾zi fəqihlər Məscidul-harama məxsus olan hökmlərin artırılmış hissələrdə əncam verilməsi barədə ehtiyat edir, bə῾ziləri isə müstəhəb ehtiyata üz gətirirlər. Çünki xalq (artırılmış) hissələri Məscidul-həramın bir hissəsi sayıb oraya məscid dedikdə, qeyd olunmuş xüsusi hökmlərin orada icra olunması maneəsizdir.

## *MƏSCİDUL-HƏRAMA DAXİL OLMAĞIN QAYDALARI*

105. Həzrət imam Baqir (ə) buyurub: Həzrət Əli (ə) Məkkəyə daxil olarkən, təvaf etməzdən qabaq, qaldığı yerə məşğul olurdu.[128]

106. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ya ömrə (əməllərini yerinə yetirmək) üçün Məkkəyə daxil olan hər bir kəs, əvvəl öz yüklərini yerbəyer etsin və daha sonra Məscidul-hərama getsin.[129]

107. İmran Hələbi nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum: Qadınlar Allah evinə gedərkən qüsl etməlidrlərmi? Həzrət buyurdu: Bəli, Allahd-taala buyurur: «Mənim evimi təvaf, ibadət, rüku və səcdə edənlər üçün təmizləyin».[130]

Bədənin təharətsiz halda Allahın evinə girməməsi, həmçinin (Allah evinə gedən şəxsin), tər və [çirkinliklərini] yuyub təmiz olması layiqlidir.[131]

108. Əta῾ demişdir ki, möhrim şəxs istədiyi qapıdan məscidə daxil ola bilər. Həzrət Peyğəmbər (s) Bəni Şeybə qapısından məscidə daxil oldu və Bəni Məxzum qapısından Səfa dağına tərəf xaric olub getdi.[132]

109. Həzrət imam Sadiq (ə) «Mə῾ziməyn» (Ərəfat və Məş῾ər arasında olan və iki dağ arasında yerləşən bir məhəl) barədə izah verərək buyurdu: Ora

bütlərin pərəstiş olunan yeridir. Hubə bütün daşı oradan gətirilmiş və düzəldilmişdir ki, həzrət Əli (ə) həzrət Peyğəmbərin (s) çiynindən yuxarı qalxaraq onu Kə᾽bənin üstündən yerə atdı və Peyğəmbərin (s) göstərişinə əsasən onu Bəni Şəybə ətrafında dəfn etdilər. Elə buna görə də Bəni Şəybə qapısından Məscidul-hərama daxil olmaq, sünnəyə çevrlidi.[133]

110. Həzrət imam Baqir (ə)-ın xadimi Əfləh nəql edir ki, bir gün həcc səfəri üçün imam Baqir (ə)-la birlikdə yola düşmüşdük ki, Məscidul-hərama yaxınlaşdıqda, o həzrət (ə) uca səslə ağlamağa başladı. Ərz etdim ki, atam-anam sənə fəda olsun, camaat sizə baxırlar, bir az astadan ağlayın. Həzrət (ə) buyurdu: Ey Əfləh! Vay olsun sənə! Nə üçün ağlamayım. Bəlkə də (buna görə) Allah-taala mənə rəhmət nəzəri salıb və mən də onun bu rəhmət nəzəri ilə qiyamət günü Onun yanında səadətə nail olum.

Daha sonra təvaf edərək (İbrahim) məqamında namaza məşğul oldu və səcdədən qalxdıqda çoxlu ağladığına görə səcdəgahı yaş olmuşdur.[134]

111. Həzrət imam Baqir (ə) buyurub: Məscidul-hərama daxil olub üzünü qara daşa tərəf tutudqda belə de: Şəhadət verirəm ki, yeganə Allahdan başqa heç bir mə᾽bud yoxdur və Onun heç bir şəriki yoxdur. Şəhadət verirəm ki, Məhəmməd (s) Allahın bəndəsi və elçisidir. Allaha iman gətirmiş və Tağut, Lat, Uzza, Şeytan pərəstiş və Allahdan başqa hər bir kəsin ibadətinə küfr etmişəm.

Daha sonra qara daşın yanına gedib sağ əlini ona çəkərək de:

Allahın adı ilə və Allah daha ucadır. İlahi! Bu mənim əmanətimdir ki, onu yerinə yetirdim və mənim əhdimdir ki, ona vəfa etdim ki, bununla da Sənin əhdinə vəfa etməyimə şəhadət versin.[135]

112. Müaviyətibni Əmmar nəql edib ki, həzrət imam Sadiq (ə) buyurmuşdur: Məscidul-hərama daxil olarkən ayaqyalın, sakit, vüqarlı və qorxan halda daxil ol. Hər kəs qorxan halda ona daxil olarsa, Allah-taala istəsə onu bağışayar. Dedim: Qorxmaq (xüşu) nədir? Həzrət buyurdu: Qəlb sakitliyidir. Təkəbbürlə Məscidul-hərama daxil olma və məscidin qapısına çatdıqda dayanaraq belə de: Ey Peyğəmbər! Allahın salamı, rəhməti və bərəkətləri sənə olsun. Allahın adı və köməyi ilə, Allahdan və Onun istədiyi hər bir şeyin (adı) ilə. Allahın peyğəmbərləri və elçilərinə salam olsun. Allahın elçisinə salam olsun. Həzrət İbrahimə (ə) salam olsun və həmd-səna aləmlərin Rəbbi olan Allah üçün olsun.

Məscidə daxil olduqda, əllərini yuxarı və Kə᾽bəyə tərəf tutaraq belə de: İlahi! Bu məkanda və (həcc) əməllərimin əvvəlində tövbəmi qəbul edib, günahlarımdan keçməyin və günah yükümü tökməyini Səndən istəyirəm. Məni öz evinə çatdıran Allaha həmd və səna olsun. Şəhadət verirəm ki, bu (ev) Sənin haram (hörmətli) evindir ki, onu xalq üçün toplantı, asayiş, bərəktli yer və aləmlər üçün hidayətedici qərar vermisən.

İlahi! Mən Sənin bəndənəm və (bu) şəhər Sənin şəhərindir. Rəhmətini tələb etmək və itaətini qəsd etmək üçün gəlmişəm. Sənin fərmanından itaətkar və təqdirinə razıyam. Səndən Sənə möhtac olan və əzabından qorxan şəxsin

istəyi kimi istəyirəm. İlahi! Rəhmət qapılarını mənim üzümə aç və məni Öz itaətin və razılığına səbəb olan yerlərdə qərar ver.[146]

113. Həzrət imam Sadiq (ə) buyurub: Məscidin qapısı ağzında durub belə deyirsən:

Allahın adı və köməyi ilə; Allahdan, Allah istədiyindən və Peyğəmbərin (s) davranışı ilə. Adların daha üstünü Allaha məxsusdur və həmd-səna Onun üçündür. Salam olsun Allah elçisi həzrət Məhəmməd ibni Əbdillaha (s) və ey Peyğəmbər! Allahın salamı, rəhməti və bərəkətləri sənə olsun. Allahın peyğəmbərləri, elçiləri və Allahın dostu İbrahimə (ə) salam olsun. (İlahi!) Elçilərə salam və Allaha, aləmlərin Rəbbinə həmd olsun. Bizə və Allahın saleh bəndələrinə salam olsun.

İlahi! İbrahim (ə) və onun ailəsinə salavat, bərəkət və rəhmət göndərdiyin kimi, Məhəmməd (s) və onun ailəsinə salavat göndər, bərəkət ver və rəhmət göndər. Həqiqətən Sən bəyənilmiş və əzəmətlisən.

İlahi! Bəndən və elçin olan Məhəmməd və dostun İbrahimə və peyğəmbərlər və elçilərə salavat və salam göndər.

(İlahi!) Eçlilərə salam olsun və həmd Allaha, aləmlərin Rəbbinə məxsusdur. İlahi! Rəhmət qapılarını mənim üzümə aç və məni öz itaətin və razılığın olan yolda qərar ver və məni diri saxlayanadək iman sığınacağında qoruyub saxla. Sənin zatının sənası əzəmətlidir. Məni öz qonaqların və zəvvarlarından, məscidi abadlaşdıranlar və Onunla raaazü-niyaz edənlərdən qərar verən Allaha həmd olsun. Pərvərdigara! Mən Sənin bəndən, zairin və qapının kənarındayam. Hər bir ziyarət edənin, ziyarət olunan şəxsin boynunda bir haqqı vardır. Sən ziyarətinə gəlmək üçün daha üstün və kəramətlisən. Ey Allah, ey bağışlayan! Səndən istəyirəm ki, Sən tək, şəriksiz, yeganə və ehtiyacsız Allahsan. Nə doğmamış, nə də doğulmamışsan və Sənin tayın və bərabərin yoxdur.

Məhəmməd — Sənin salavatına ona və ailəsinə olsun — Sənin bəndən və göndərdiyin elçidir. Ey bağışlayan, ey uca məqamlı, ey əzəmətli, ey qüdrətli və kəramətli! Səndən istəyirəm ki, mənim bu ziyarətim üçün ilk hədiyyəni mənim Cəhənnəmdən azadlığım olaraq qərar verəsən. İlahi! Məni oddan xilas et, halal və pak ruzindən mənim üçün artır və cin və insan şeytanları, həmçinin ərəb və qeyri-ərəb azğınlarının şərini məndən uzaqlaşdır.

114. Nəzr ibni Kəsir nəql etmişdir ki, mən Süfyan ilə birlikdə imam Sadiq (ə)-ın hüzuruna gəlib dedim: (Məkkəyə) Allah evinə gedirəm, mənə bir dua öyrət.

Həzrət (ə) buyurdu: Hərəmə çatdıqda, əlini divara qoyub belə de: Ey fənaya sabiq olan! Ey səsi eşidən! Ey ölümdən sonra sümüyü ət ilə örtən!... Daha sonra istədiyin hər bir şeyi dua et.[138]

115. Həzrət imam Sadiq (ə) buyurb: Məscidul-hərama daxil olarkən Həcərül-əsvəd (qara daşa) qədər get və daha sonra üzünü qara daşa tutub belə de: Bizi bu ne᾽mətə yönəldən Allaha həmd olsun və əgər bizi hidayət etməsəydi, yol tapmazdıq. Allah münəzzəhdir. Həmd və səna ona

məxsusdur. Ondan başqa bir mə᾽bud yoxdur və Allah daha ucadır. Allah öz məxluqundan daha böyükdür və bizim qorxub qaçdığımız hər bir kəsdən ucadır. Allahdan başqa heç bir mə᾽bud yoxdur, yeganə və şəriksizdir. Mülk və həmd (səna) ona məxsusdur. (O Allah) dirildir, öldürür və həyat bəxş edir və O hər bir şeyə qadirdir.

Həmçinin məscidə daxil olarkən dediyin kimi, həzrət Peyğəmbər (s) və onun Əhli-beytinə və peyğəmbərlərə salavat göndərir və daha sonra deyirsən:

Pərvərdigara! Verdiyin və᾽dəyə inanır və peymanına vəfalıyam.[139]

## *MƏSCİDUL-HƏRAMDA NAMAZ QILMAĞIN FƏZİLƏTİ*

116. Həzrət Peyğəmbər (s) buyurub: Məscidul-həramın mənim bu məscidimdən üstünlüyü yüz namazdır.[140]

117. Həzrət Peyğəmbər (s) buyurub: Mənim məscidimdə (qılınan) bir namaz başqa məscidlərdə (qılınan) min namazdan üstündür. Amma Məscidul-həramda qılınan bir namaz mənim məscidimdə qılınan yüz namazdan üstündür.[141]

118. Həzrət Peyğəmbər (s) buyurub: Məscidul-həramda (qılınan) bir namaz, yüz min namazla bərabərdir. Mənim məscidimdə (qılınan) bir namaz, min namazla, Beytül-müqəddəsdə qılanan bir namaz isə beş yüz namazla bərabərdir.[142]

119. Həzrət imam Baqir (ə) buyurb: Məscidul-həramda qılanan bir namaz, başqa məscidlərdə qılanan yüz min namazdan üstündür.[143]

120. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs Məscidul-həramda bir vacib namaz qılarsa, Allah-taala bu namaza görə onun vacib olan gündən vəfat edən günədək qılacağı bütün namazlarını qəbul edər.[144]

121. Həzrət imam Sadiq (ə) buyurb: Bu məsciddə çoxlu namaz qılıb, dua edin. Bilin ki, hər bir bəndənin ona tərəf çəkilən ruzisi vardır. (Yə᾽ni Məkkədə çox vaxtınızı alver və işləməyə sərf etməyin və orada dua və namaza əhəmiyyət verin. Çünki, sizin ruzinizə zəmanət vermişdir.)[145]

122. Əhməd ibni Məhəmməd ibni Əbi Nəsr nəql etmişdir ki, həzrət imam Rza (ə)-dan soruşdum: Məkkə şəhrində namazını öz evində camaatla qılmaq üstündür, yoxsa Məscidul-həramda tək namaz qılmaq? Həzrət (ə) buyurdu: (Məscidul-həramda) tək qılmaq (üstündür).[146]

123. Musa ibni Səlam nəql edir ki, həzrət imam Rza (ə) ömrə əməlini əncam verdi və Kə᾽bə ilə vidalaşıb çölə çıxmaq üçün Hənnatin qapısına çatdıqda, məscidin həyətində və Kə᾽bənin arxasında durdu və sonra əllərini qaldıraraq dua etdi. Daha sonar üzünü bizə tutub buyurdu: Allahdan hacət istəmək üçün necə də yaxşı bir yerdir! Burada namaz qılmaq, ayrı yerdə qılanan altmış il (və ya ayın) namazından üstündür.[147]

# ÜÇÜNCÜ FƏSİL

## *ALLAHIN EVİ, ALLAH EVLƏRİNİN ADLARI*

### *1. KƏ᾿BƏ*

Qur᾿an:

Allah Kə᾿bəni (möhtərəm) ev və xalq üçün qiyam (yeri) qərar verdi.[148]

Hədis:

124. Şeyx Səduq (r.ə.) buyurub: Rəvayətdə buyurulmuşdur ki, Kə᾿bə dördbucaq olduğu üçün «Kə᾿bə» adlanmışdır. Onun dördbucaq olmasının səbəbi isə dördbucaq olan Beytül-mə᾿murun muqabilində qərar tutmasıdır.

Beytul-mə᾿mur isə dördbucaq olan ərşin müqabilində yerləşdiyi üçün dördbucaq olmuşdur. Ərş isə, islam dininin əsası sayılan kəlmələrin sayı dörd ədəd olduğuna görə dördbucaq olmuşdur. (O kəlmələr belədir): «Subhanəllah, Əlhəmdulillah La ilahə illəllah və Allahu əkbər».[149]

### *2. BEYTUL-ƏTİQ (AZAD EV)*

Qur᾿an:

«Sonra çirkinlikləri özlərindən təmizləyərək öz nəzərlərinə vəfa edib və azad evin ətrafında təvaf etsinlər».[150]

«Sizin üçün qurbanlıq (heyvanlarında) müəyyən həddə qədər bir sıra faydalar vardır daha sonra onların yeri azad evə tərəfdir.»[151]

125. Həzrət imam Baqir (ə)-dan soruşdular: Nə üçün Kə᾿bə Beytul-ətiq adlanmışdır? Həzrət (ə) buyurdu: Çünki, (Kə᾿bə) xalqdan azad olan bir evdir və heç kəs onun maliki deyildir.[152]

126. Əbu Həmzə Sumali nəql edir ki, Məscidul-həramda həzrət imam Baqir (ə)-a dedim: Allah-taala nə üçün bu evi Ətiq (azad) adlandırmışdır? Həzrət (ə) buyurdu: Allah-taalanın yer üzündə qərar verdiyi hər bir evin sahibi və sakinləri vardır. Amma Allahın evi olan bu evin (Allahan başqa) heç bir sahibi yoxdur və azaddır.[153]

127. Həzrət imam Sadiq (ə) buyurb: Allah-taala Nuh peyğəmbərin hədisində Allah evindən başqa bütün yerləri su altında qərq etdi və o gün bu ev ətiq (azad) adlandı. Çünki o gün suda qərq olmaqdan azad oldu.[155]

128. Həzrət imam Sadiq (ə)-dan soruşdular: Nə üçün Kə᾿bə Beytul-ətiq adlanmışdır? Həzrət (ə) buyurdu: Çünki, Allah-taala onu tufandan azad etmişdir.[155]

3. Beytul-həram:

**Qur᾿an:**

**«Allah Kə᾿bəni (Beytul-həramı) xalqın qiyamı üçün qərar vermişdir».[156]**

Pərvərdigara! Mən öz (ailəmdən) övladlarımdan bə'zisini quru bir vadidə və Sənin (hörmətli) evinin kənarında sakin etdim ki, Pərvərdigara! Namazı dirçəltsinlər. Beləliklə xalqın qəlblərini onlara tərəf meyilli et və şükr etsinlər deyə, meyvələrdən onlara ruzi ver.[157]

129. Hənan nəql edir ki, həzrət imam Sadiq (ə)-a ərz etdim: Nə üçün Kə'bəni Beytullahil-həram adlandırmışlar? Həzrət (ə) buyurdu: Çünki müşriklərin ona daxil olması haramdır.[158]

## *KƏ'BƏNİN ADLARI BARƏDƏ BİR FAYDA*

Qur'ani-kərim on dörd ayədə Allah evindən on yeddi dəfə ad çəkilmişdir. Belə ki, iki dəfə «Əl-kə'bə», yeddi dəfə «Əl-bəytul-ətiq», bir dəfə «Beytukəl-muhərrəm» və iki dəfə «Bəyti» sözlərini işlətmişdir.

Qeyd etmək lazımdır ki, Qur'anda «Əl-məscidul-həram» sözü də on beş dəfə, «Məscid» sözü isə təkcə bir dəfə işlədilmişdir.

## *KƏ'BƏNİN FƏZİLƏTİ*

1. Xalqın ilk evi:

**Qur'an:**

**«Həqiqətən xalq üçün tikilmiş ilk ev, Məkkədədir ki, aləmlər üçün bərəkətli və hidayət edicidir».[159]**

**«Kə'bəni xalq üçün toplantı və asayiş yeri qərar verməyimizi xatırla və İbrahim məqamından namaz yeri tutun. Və İbrahim və İsmail ilə evimi təvaf, ibadət, rüku və səcdə edənlər üçün təmizləməsini əhd etdik».[160]**

**Hədis:**

130. Həzrət Peyğəmbər (s) buyurub: Xalq üçün qərar verilmiş ilk ev Kə'bə və daha sonra Beytul-müqəddəs olmuşdur. Onların ikisinin arasında isə beş yüz il fasilə var idi.[161]

131. Həzrət imam Əli (ə) — «İnnə əvvələ bəytin...(Ali İmran/96)» — ayəsi barədə buyurdu: «Kə'bədən qabaq da evlər var idi, lakin Kə'bə Allaha pərəstiş etmək üçün qərar verilmiş ilk ev idi».[162]

132. Xalid ibni Ər'ərə, həzrət Əli (ə)-dan «İnnə əvvələ bəytin...» ayəsi barəsində soruşaraq dedi: Kə'bə, Allahın yer üzərində qərar verdiyi ilk evdirmi? Həzrət buyurdu: Xeyr, amma bərəkət, hidayət və İbrahim (ə) məqamı qərar verilən ilk evdir ki, ona daxil olan asayişdədir.[163]

133. Həzrət imam Baqir (ə) «İnnə əvvələ bəytin...» ayəsi barədə buyurdu: Kə'bə yerin yaranmış ilk hissəsidir və daha sonra yer ondan genişlənmişdir.[164]

2. Evlərin daha hörmətlisi:

134. Həzrət Peyğəmbər (s) buyurub: Allahın yer üzərində olan daha hörmətli evi dörd evdən ibarətdir: Kə'bə, Beytul-müqəddəs, Qur'an oxunan ev və məscidlər.[165]

135. Həzrət Peyğəmbər (s) buyurub: Kə`bəni təvaf edib «Rükni yəmani»yə çatdıqda başını Kə`bəyə tərəf yuxarı qaldırıb dedi: Sənə şəfaət və ucalıq bağışlayan, məni peyğəmbərliyə seçən, Əlini isə imam qərar verən Allaha həmd olsun. Pərvədigara! Daha yaxşı bəndələrini ona (Kə`bəyə) tərəf yola sal və onu pis bəndələrindən uzaq saxla.[166]

136. Zürarə (r.ə.) imam Baqir (ə)-dan nəql edib ki, o həzrət (ə) buyurmuşdur: Allah-taala yer üzərində olan (Kə`bəyə işarə edərək) sevimli və hörmətli bir ev yaratmamışdır. Göylər və yeri xəlq edən gün öz kitabında haram ayları onun hörmətinə görə haram etdi ki, onlardan üç ayı ardıcıl olaraq həcc üçündür: Şəvval, Zul-qə`də və Zul-hiccə; ayrıca bir ayı isə ömrə (əməli) üçündür ki, o da Rəcəb ayıdır.[167]

137. Həzrət imam Sadiq (ə) buyurub: Bu (Kə`bə) elə bir evdir ki, Allah-taala onun səbəbi ilə bəndələrini ibadətə çatdırmışdır ki, onların ona tərəf gəlməsi vasitəsilə itaətkarlıqlarını sınaqdan keçirsin. Beləliklə də onlara onun ehtiramını saxlamaq və ziyarətinə getməyi göstəriş vermişdir. Həmçinin onu peyğəmbərlərinin yeri və namaz qılanların qibləsi qərar vermişdir. Beləliklə də Kə`bə, Allah rizasının bir şö`bəsi və Onun əfvinə tərəf bir yoldur. Kamal üzərində qoyulmuş və əzəmət və ucalıq yeridir. Allah-taala onu (Dəhvul-ərz — yə`ni Kə`bənin altından yeri genişlənib quru formaya düşməsindən) iki min il əvvəl yaratmışdır. Beləliklə də ruhlar və surətləri (cismləri) yaradan Allah, göstəriş və qadağanlarında itaət olunmaq üçün daha layiqli varlıqdır.[168]

138. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala hər bir şeydən bir şeyi seçmiş, yerdən isə Kə`bə yerini seçmişdir.[169]

139. Həzrət imam Sadiq (ə) Kə`bənin vəsfində buyurmuşdur: Allahın evi (Kə`bə) yer üzərində Allah bəndələri üçün ilahi höccətdir.[170]

## *KƏ`BƏYƏ DAXİL OLMAQ*

1. Kə`bəyə daxil olmağın müstəhəb və bəyənilmiş olması.

140. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs Kə`bəyə daxil olsa, bir savaba daxil olmuş və bir günahdan bağışlanmış halda xaric olar.[171]

141. Həzrət imam Baqir (ə) buyururdu: Hər kəs Kə`bəyə daxil olarsa, Allahın ondan razı olan halda daxil olar və günahlardan pak halda xaric olar.[172]

142. Həzrət imam Baqir (ə)-dan Kə`bəyə daxil olmaq barədə soruşduqda buyurdu: Ona daxil olmaq, Allah rəhmətinə daxil olmaq, ondan xaric olmaq isə günahlardan xaric olmaqdır. (Belə bir şəxs) ömrünün davamında günahlardan pakdır və onun keçmiş günahları bağışlanmışdır.[173]

143. Həzrət imam Sadiq (ə)-dan Kə`bəyə daxil omlaq barədə sual etdikdə, buyurdu: Bəli, imkanın olduqda (Kə`bəyə daxil ol), amma (xalqın) izdihamından qorxsan, özünü zəhmətə salma.[172]

144. Həzrət imam Sadiq (ə) buyurub: (İlk dəfə həccə gedən şəxsin) Məş`ərul-hərama ayaq qoyub, Kə`bəyə daxil olması müstəhəbbdir.[175]

145. Süleyman ibni Mehran nəql edib ki, imam Sadiq (ə)-a ərz etdim: Nə üçün ilk dəfə həccə gedən şəxsin Kə`bəyə daxil olması müstəhəbb sayılır, amma əvvəllər həccə getmiş şəxsə isə müstəhəbb sayılmır? Həzrət (ə) buyurdu: Çünki ilk dəfə həccə gedən şəsxs, vacib əməlini yerinə yetirir və Allah evinin həccinə çağırılmışdır. Beləliklə də hörmət görsün deyə, də`vət olunmuş evin içinə daxil olmalıdır.[176]

2. Kə`bəyə daxil olmaq qaydaları:

146. Həzrət imam Baqir (ə) buyurub: Hər kəs bütün ilahi vacibatdan (Allahın bütün vacib göstərişlərindən) agah olan halda bu evə daxil olarsa, əbədi əzabdan amanda qalacaqdır.[177]

147. Həzrət imam Sadiq (ə) buyurub: İlk dəfə həccə gedən şəxsə, həccdən qayıtmazdan qabaq Kə`bəyə daxil olması vacibdir. Beləliklə Kə`bəyə daxil olduqda sakit və vüqarlı halda daxil ol və daha sonra onun hər bir guşəsinə gedib (belə) de: İlahi! Sən buyurmusan ki, hər kəs ona daxil olsa asayişdədir; beləliklə məni də qiyamət gününün əzabından saxla.

Daha sonra kənarda olan iki sütun arasında (yerləşən) qırmızı daş üzərində namaz qıl. Əgər camaat çox olarsa, namaz qıldığın hər bir yerdə hər bir guşəyə üz tutub Allahı çağır və ondan (hacətlərini) istə.[178]

148. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs sakitliklə — təkəbbürsüz halda — Kə`bəyə daxil olsa, bağışlanar.[179]

149. Həzrət imam Sadiq (ə) buyurub: Kə`bəyə daxil olmaq istədikdə, əvvəl qüsl et və ayaqqabı ilə daxil olma. İçəri daxil olduqda isə belə de: İlahi! Sən buyurmusan ki, ona daxil olan şəxs asayişdədir. Beləliklə məni od əzabından saxla. Daha sonra iki sütun arasında (yerləşən) qırmızı daşın üzərində iki rəkət namaz qıl. Belə ki, birinci rəkət ha-mim, səcdə surəsi, ikinci rəkətdə isə onun ayələri qədər Qur`andan oxu. Həmçinin (Kə`bənin) guşələrində namaz qılaraq deyirsən: İlahi! Hər kəs bir məxluqun qarşılaşması, hədiyyəsi və bəxşişindən bəhrələnmək üçün görüşə hazırlaşdığı (kimi), ey mənim sərvərim! Mənim də hazırlığım, azuqə yığmağım və Sənə tərəf keçməyim Sənin qarşılamağın, ehsan və hədiyyə (-nə nail olmaq üçündür). Beləliklə də bu gün mənim ümidimi ümidsiz etmə. Ey istəyəni məhrum olmayan və nail olanı səndən azaltmayan! Bu gün Sənin hüzuruna yaxşı əməl gətirməmiş və heç bir kəsin şəfaətinə ümid bağlamamış halda gəlmişəm. Lakin öz zülm və pisliyimə e`tiraf edən halda gəlmişəm. Bir dəlil və bəhanə yoxdur. Ey bu cür olan (Allah)! Səndən istəyimi əta etməyimi, səhvimi bağışlamağını və mənim əliboş qaytarmamağını istəyirəm. Ey böyük! Ey böyük! Ey böyük! Mən böyük bir iş üçün Sənə ümid bağlamışam. Ey böyük! Səndən böyük günahımı bağışlamağını istəyirəm. Səndən başqa bir mə`bud yoxdur.

Ayaqqabı ilə Kə`bəyə daxil olur, ağız və burun suyunu ora atmırsan. Həzrət Peyğəmbər (s) isə Məkkənin fəth olunduğu gündən başqa ora daxil olmamışdır.[180]

150. Zərih nəql edir ki, Kə`bədə həzrət imam Sadiq (ə)-ı səcdə halında gördüm ki, belə deyirdi:

(İlahi!) Sənin qəzəbini helmindən (səbrindən) başqa bir şey qaytarmaz və Sənin əzabından sığınacaq verən, yalnız öz rəhmətindir. İlahi! Ölüləri diriltdiyin və ölü diyarlara həyat bağışladığın qüdrətin ilə mənə fərəc (açılış və avadanlıq) əta et. İlahi! Duamı icabət edib, icabəti tanıtdıranadək məni qəm-qüssədən öldürmə. İlahi! Son fürsətə qədər mənə afiyət ruzi et, məni düşmənlərin danlamağına səbəb qərar vermə və onu mənə hakim etmə. Sən məni alçatsan, kim məni ucalda bilər? Sən məni ucaltsan, kim məni alçalda bilər? Sən məni həlak etsən, bəndən haqqında kim səninlə bir söz danışıb, işindən soruşa bilər? İlahi! Sənin hökmündə zülm və intiqamında tələsməyin olmamadığını bilmişəm. İntiqamı əldən verməkdən qorxan şəxs intiqamında tələsər və zəif (gücsüz) şəxs zülm etməyə möhtacdır. Sən isə bundan pak və ucasan. İlahi! Məni bəla və intiqamının hədəf yeri qərar vermə. Mənə özümlə möhlət ver, səhvlərimdən keç və əlimi ümidsiz olaraq boynuma qaytarma. Ardıcıl olaraq mənə bəla göndərmə. Zəif olduğum və dərgahına nalə etdiyimi görürsən. Xalqdan qorxur və Səninlə ünsiyyətdəyəm. Bu gün Sənə pənah aparıram, mənə pənah ver. Səndən pənah istəyirəm, mənə kömək et. Səndən asayiş isətyirəm, mənə asayiş ver. Səndən hidayət istəyirəm, məni hidayət et. Səndən rəhmət istəyirəm, mənə rəhmət et. Bildiyindən Səndən əfv istəyirəm, məni əfv et və Sənin geniş fəzlindən istəyirəm, beləliklə də (onu) mən ruzi et. Uca və böyük Allahdan başqa heç bir qüvvə və bacırıq yoxdur.[181]

151. Əbdullah ibni Ömər nəql edib ki, həzrət Peyğəmbər (s) İsabətibni Zeyd, Bilal və Osman ibni Təlhə ilə Kə᾽bəyə daxil oldular. O həzrət (s) qapını bağlayıb, bir müddət Kə᾽bənin (daxilində) qaldı. Bilal xaric olduqda soruşdum: Peyğəmbər nə etdi? Dedi: Sütunların birini sağ, birini sol və üçünü isə arxası tərəfdə qoyaraq «O zaman, Kə᾽bənin altı sütunu var idi» namaz qıldı.[182]

152. Əta᾽ Üsamətibni Zeyddən nəql etmişdir ki, həzrət Peyğəmbərlə (s) birlirkdə Kə᾽bəyə daxil oldular. Həzrət Peyğəmbər (s) Bilala qapını bağlamasını göstəriş verdi. O zaman Kə᾽əb evinin altı sütunu var idi ki, həzrət (s) Kə᾽bənin qapısı yanında olan iki sütunun arasında əyləşdi və Allaha həmd və səna deyib dua və istiğfar etdi. Daha sonra ayağa qalxıb Kə᾽bənin arxasının müqabilinə tərəf gedərək üzün ona qoydu və həmd, səna, dua və istiğfar etdi. Daha sonra Kə᾽bənin hər bir guşəsinə gedib Allahu əkbər, la ilahə illəllah, Subhanəllah və ilahi həmd və səna həmçinin dua və istiğfar ilə onun qarşısında dururdu. Sonra çölə gəlib Kə᾽bəyə doğru duraraq iki rəkət namaz qıldı və namazdan sonra qayıdıb dedi: Bu qiblədir, bu qiblədir.[183]

153. Əbu Həmzə nəql edib ki, həzrət imam Səccad (ə)-ı gecə çağı Kə᾽bə astanasında namaz qılan halda gördüm. Namazı çox uzatdığı üçün bə᾽zən sağ ayağı, bə᾽zən də sol ayağına ağırlıq salırdı. Daha sonra sanki ağlayan halda bu sözləri dediyini eşitdim:

Ey mənim sərvərim! Sənin məhəbbətin qəlbimdə olan halda mənə əzab verirsənmi?! İzzətinə and olsun ki, əgər belə etsən, uzun müddət Sənə görə düşmən olduğum kəslərlə məni bir yerə toplayacaqsan.[184]

154. Yunis ibni Yəʾqub nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-ı Kəʾbəyə daxil olanda gördüm. O həzrət (ə) iki sütun arasına getmək istədi, amma (izahıma görə) bacarmadı. Elə buna görə də ondan aşağıda namaz qılıb getdi və beləliklə də məsciddən xaric oldu.[185]

155. Müaviyətibni Əmmar nəql etmişdir ki, bir gün həzrət imam Kazim (ə)-ı Kəʾbəyə daxil olan halda gördüm. O həzrət (ə) qırmızı daş üzərində iki rəkət namaz qıldıqdan sonra, ayağa qalxıb Yəmani və qərbi rükn arasında olan divara üzünü tutdu. Daha sonra əlini ona qoyub yapışaraq dua etdi. Sonra Yəmani rükn və daha sonra qərbi rükn tərəf gedərək dua etdi və xaric oldu.[186]

## *KƏʾBƏDƏN XARİC OLMAQ QAYDALARI*

156. Əbdullah ibni Sənan nəql edib ki, həzrət imam Sadiq (ə)-ın Kəʾbədən xaric olarkən bu sözləri dediyini eşitdim: Allahu əkbər, Allahu əkbər, Allahu əkbər. Daha sonra dedi: İlahi! Bizim imtahanımızı çətin salma; Pərvərdigara! Düşmənlərimizi bizi danlayanlardan qərar vermə ki, həqiqətən ziyan və fayda yetirən Sənsən.

Daha sonra aşağı enərək nərdibanın kənarında namaz qıldı. Belə ki, nərdiban onun sol tərəfində, Kəʾbə isə qarşısında idi və onunla Kəʾbə arasında heç kimi yox idi. Bundan sonra o həzrət (ə) evinə tərəf qayıtdı.[187]

157. Yunus nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-a dedim: Kəʾbəyə daxil olduqda nə edim? Həzrət (ə) buyurdu: Kəʾbəyə daxil olduqda qapının iki halqasını tut və daha sonra iki sütuna tərəf gedib, qırmızı daş üzərində namaz qıl. Kəʾbədən xaric olub, nərdibandan aşağı endikdə, sağ tərəfində iki rəkət namaz qıl.[188]

## *KƏʾBƏNİN BAŞLANĞICI*

158. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala Cəbraili Adəm və Həvvanın yanına göndərib, onlara buyurdu: Mənim üçün bir ev tikim. Beləliklə də Cəbrail (ə) onlar üçün (evin quruluşu və planını) çəkdi və Adəm (ə) yeri qazır, həvva isə (torpaqları) daşıyırdı. (Yer qazarkən) suya çatdıqda nida olundu ki, ey Adəm! Daha bəsdir. Onlar evi tikdikdə Allah-taala onlara o evin ətrafında təvaf etməyi vəhy etdi. Həmçinin ona deyildi: Sən və bu ev ilkin və birincidir. Əsrlər ötdükdən sonra Nuh (ə) onu (ziyarət) etdi və əsrlər ötdükdən sonra həzrət İbrahim (ə) onun bünövrələrini ucaltdı.[189]

159. Həzrət imam Baqir (ə) buyurub: Bu evin başlanğıcı belə idi ki, Allah-taala mələklərinə buyurdu: Mən yer üzərində öz canişinimi qərar verirəm. Mələklər dedirlər: Yer üzərində fəsad törədən və qan tökənləri qərar verirsənmi? Allah-taala mələklərdən üz döndərdi. Mələklər bu üz döndərmənin qəzəbdən olduğunu bildikdə, Onun ərşinə sığındılar. Allah-taala mələklərindən birinə altıncı asimanda və onun ərşi qarşısında Zurah adlı bir ev tikməsini göstəriş verdi və onu asimanda olanlar üçün qərar verdi

ki, hər gün yetmiş min mələk onun ətrafında təvaf edir və qayıtmadan istiğfar edirlər. Adəm (ə) dünyanın asimanına gəldikdə, Allah-taala — (Onun qarşısında olan) — bu evi tikməsini ona göstəriş verdi. Beləliklə də Allah-taala o evi asiman əhli üçün qərar verdiyi kimi, bu evi də Adəm və onun övladları üçün qərar verdi.[190]

160. Həzrət imam Baqir (ə) buyurub: Allah-taala öz mələklərinə fərman verdi ki, yer üzərində onun üçün bir ev tiksinlər ki, — mələklər ilahi ərşi təvaf etdikləri kimi — Adəm övladlarından da günah edən hər bir kəs onu təvaf etsin və beləliklə də mələklərdən razı olduğu kimi onlardan da razı olsun.

(Mələklər) Kəʾbə yerində bir ev tikdilər ki, tufan zamanı yuxarı aparıldı. (O ev) hal-hazırda dördüncü asimandadır ki, hər gün yetmiş min mələk onun ətrafında təvaf edir və heç vaxt qayıtmırlar. Həzrət İbrahim (ə) da onun əsasında Kəʾbəni tikmişdir.[191]

161. Əbu Xədicə nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a dedim: Nə üçün Kəʾbə Beytul-ətiq (azad ev) adlanmışdır? Həzrət (ə) buyurdu: Allah-taala behiştdən Adəm (ə) üçün Həcərul-əsvədi nazil etdi və Kəʾbə evi ağ rəngli bir dürr idi. Daha sonra Allah-taala onu yuxarı asimana apardı, (amma) bünövrəsi (yerdə) qaldı. Beləliklə də o ev bu evin müqabilindədəir. Hər gün yetmiş min mələk ona daxil olur, amma heç vaxt bir daha ona tərəf qayıtmırlar. Allah-taala İbrahim və İsmil (ə)-a Kəʾbəni o bünövrə əsasında tikməsini fərman vermişdir.[192]

162. Həzrət imam Baqir (ə) buyurub: Allah-taala Adəm (ə)-ı behiştdən endirdikdə buyurdu: Mən səninlə birlikdə bir evi (yerə) endirirəm ki, Mənim ərşimə təvaf edildiyi kimi onun ətrafında təvaf edilsin və Mənim ərşim yanında namaz qılınan kimi, onun yanında namaz qılınsın.

Tufan olan zaman, o ev yuxarı aparıldı. Peyğəmbərlər Allah evini (ziyarət) edir, amma onun yerini tanımırdılar. Beləliklə də onun yerini həzrət İbrahim (ə)-a tanıtdırdı. O da Hera, Səbir, Lubnan, Tur və Himir (dağları).[193]

163. Həzrət imam Sadiq (ə) buyurub: Kəʾbənin yeri ağ rəngli uca bir yerdə idi ki, günəş və ay kimi parıldayırdı. Amma həzrət Adəm (ə)-ın övladlarından biri digərini öldürdükdə qaraldı. Adəm (ə) yerə endikdə Allah-taala o yerin hamısını yuxarı qaldırdı və Adəm (ə) da onu gördü. Daha sonra buyurdu: Bütün bunlar sənə məxsusdur. Dedi: Pərvərdigara! Bu parıldayan ağ yer nədir? Buyurdu: O mənim yerimdir.[194]

164. Həzrət imam Əli (ə) — İnnə əvvəl bəytin — ayəsinin izahında buyurdu: Xalq üçün qərar verilən, həmçinin mübarək, hidayət, rəhmət və bərəkəti olan ilk ev, (Kəʾbə idi) və İbrahim (ə) onu tikən ilk şəxs olmuşdur. Daha sonra ərəblərin Curhum tayfasından olan bir dəstə camaat onu tikmiş (amma sonradan) viran olmuşdur. Qureyş (tayfası) isə onu yenidən tikmişdir.[195]

## *KƏʾBƏNİN TİKİLMƏSİ BARƏDƏ FAYDA*

Kəʾbənin tikilmə zamanı dəqiq şəkildə aydın deyildir və bu haqda hədislər və tarix alimlərinin nəzəriyyələrini iki külli hissəyə bölmək olar:

a) Birinci dəstə deyir: Həzrət İbrahim (ə) Kəʾbəni tikmiş və ondan qabaq Kəʾbə adlı bir ev olmamışdır.

b) İkinci dəstənin əqildəsinə əsasən Kəʾbə həzrət İbrahim (ə)-dan qabaq tikilmiş və İbrahim (ə) onun binasını təzələmişdir.

Bu nəzəriyyəni qəbul edənlərin çoxu Kəʾbənin banisini həzrət Adəm (ə) bilirlər.

Bu iki nəzərin arasından nəticə alıb, belə demək olar ki, Kəʾbə həzrət Adəm (ə)-ın əli ilə qabaqcadan təʾyin olunmuş yerdə tikilmiş, amma Nuh peyğəmbərin zamanında baş verən tufan nəticəsində viran olmuşdur.

Daha sonra bu ev Allah-taalanın göstərişi və İbrahim peyğəmbərin (ə) əli ilə yenidən tikilmiş, həmçinin böyük həcc əməlləri və ibadətləri o həzrətə (ə) öyrədilmişdir.

Başqa sözlə, Kəʾbənin tikilməsində həzrət İbrahimin (ə), Adəm (ə) ilə birlikdə birgə rolu olmuşdur.

## *KƏʾBƏNİN TƏʾMİR OLUNMASI*

**Qurʾan:**

**«İbrahim və İsmailin (Kəʾbə) evinin divarlarını qaldıran zaman xatırla ki, (dedilər): Pərvərdigara! Bizdən qəbul et ki, həqiqətən Sən eşidən (və) bilənsən.**[196]

**Hədis:**

165. Həzrət Peyğəmbər (s) buyurub: Kəʾbənin yeri məhv olmuşdu və (buna görə də) Hud və Saleh (ə) onu ziyarət etmədilər. Lakin Allah-taala onun yerinə həzrət İbrahim (ə) üçün aydınlaşdırdı.[197]

166. Həzrət imam Əli (ə) buyurub: Allah-taala həzrət İbrahimə (ə) vəhy etdi ki, ibadət olunmağım üçün yer üzərində mənim üçün bir ev tik... İbrahim (ə) evi tikir. İsmail (ə) isə ona daş verir və divarları yuxarı qaldırırdı. Qara daşın yerinə çatdıqda İsmailə dedi: Bura üçün də daş ver. İsmail (ə) daş tapmayıb dayandı. Həzrət İbrahim (ə) dedi: Get və tap. İsmail (ə) daş tapmaq üçün getdikdə Cəbrail (ə) Qara daşı gətirdi. İsmail qayıtdıqda İbrahim (ə) daşı yerinə qoydu. İsmail soruşdu: Bu daşı kim gətirdi? İbrahim cavabında dedi: Sənin tikməyinə arxalanmayan gətirmişdir. Ev bir müddətədək beləcə bərpa idi, amma sonradan viran oldu və Əmaliqə onu təʾmir etdi, amma bir müddətdən sonra dağılıb aradan getdi. Daha sonra Curhum onu təʾmir etdi və yenə də viran oldu və nəhayətən Qüreyş tayfası onu təʾmir edib tikdilər.[198]

167. Kulsum ibni Əbdi-möʾmin Hərrani nəql etmişdir ki, həzrət imam Sadiq (ə) buyurub: Allah-taala İbrahimə həcc əməlini əncam verməsi, İsmaili özü ilə həccə gətirməsi və onu hərəmdə sakin etməsini göstəriş verdi və

beləliklə də hər ikisi həcc əməlini əncam verdilər... Növbəti ildə Allah-taala İbrahimə həccə gedib, Kəˈbəni tikməsinə icaə verdi. Ərəblər də həccə gedirdilər. Kəˈbə dağılmış, amma əsasları qalmışdı. Camaat getdikdən sonra İsmail (ə) daşları toplayaraq onları Kəˈbənin içinə tökdü. Allah-taala ona Kəˈbəni tikməyi icazə verdikdə, İbrahim (ə) gəlib dedi: Oğlum! Allah-taala bizə Kəˈbəni tikib, fərmanını həyata keçirməyi göstəriş vermişdir. Beləliklə də onu aşkar etdilər. O vaxt Kəˈbə bir sıra qırmızı daşdan ibarət idi ki, Allah-taala ona bunun üzərində divarı qaldırmağı vəhy etdi. Daha sonra Allah-taala ona daş toplamaq üçün dörd mələk nazil etdi. İbrahim və İsmail (ə) daşları düzür, mələklər də daşları yaxına gətirirdilər və beləliklə də Kəˈbənin hündürlüyü on iki zira həddinə çatdı. Ona giriş və çıxış üçün iki qapı və pillə, həmçinin dəmirdən qapı qoydular.

Kəˈbə üryan idi. İbrahim (ə) Kəˈbənin tikintisini sona yetirib çölə çıxaraq İsmaili (ə) orada qoydu...

Onun həyat yoldaşı ağıllı bir qadın idi ki, ona dedi: Ey kaş bu iki qapı üçün iki pərdə asardın. Birini bu qapıdan, digərini isə o biri qapıdan! İsmail (ə) qəbul etdi və beləliklə də o iki qapı üçün iki pərdə düzəldib hər iki qapıdan asdılar və onu bəyəndilər. Həzrət İbrahim (ə)-ın yoldaşı dedi: Nə üçün Kəˈbənin hamısını örtən bir örtük düzəltməyim? Bu daşların pis görünüşü vardır. İsmail (ə) ona dedi: Bəli. İbrahimin yoldaşı tələsələrək bu işə məşğul oldu və sap toxumaq üçün öz qəbiləsinə çoxlu yun göndərdi.

İmam Sadiq (ə) buyurdu: Sap toxumaq üçün qadınların bir-birinə kömək etməsi oradan meydana çıxmış və adət olmuşdur. Beləliklə də o qadın tələsərək bu iş üçün kömək istədi və qurtardığı hər bir hissəni Kəˈbəyə asırdı. Həcc mövsümü çatdı, amma hələ Kəˈbənin bəˈzi yerləri örtüksüz qalmışdır. O, İsmailə (ə) dedi: Örtük çatmayan bir yer üçün nə edək? Beləliklə onu dəri ilə yamayıb örtdülər. Həcc mövsümünə ərəblər həmişəki adətlərinə əsasən ziyarətə gəldikdə, onları təəccübləndirən bir mənzərəni görüb dedilər: Bunu əncam verən şəxs bir hədiyyə verməK lazımdır. Qurbanlıq və hədiyyə oradan adət oldu. Ərəblərin hər bir qəbiləsi özü ilə bir şey gətirir... və beləliklə də çoxlu şeylər toplandı.

Onlar yamağı qoparıb, Kəˈbənin örtüyünü kamilləşdirdilər və ona iki qapı qoydular. O zaman Kəˈbənin üstü (banı) yox idi. İsmail (ə) ona gördüyünüz bu sütunlar kimi ağacdan sütunlar qoydu, onu budaq və yarpaqla örtərək torpaqla basdırdı. Gələn il ərəblər ziyarətə gəldikdə Kəˈbəni o halda görüb dedilər: Bnun edən üçün çoxlu hədiyyə vermək lazımdır. Növbəti ildə onun üçün qurbanlıq gəldi. İsmail (ə) isə onları nə etdiyini bilmirdi ki, Allah-taala qurbanlığı kəsib, hacılara yemək verməsini ona vəhy etdi...[199]

## *KƏˈBƏ CAHİLİYYƏT DÖVRÜNDƏ*

168. Həzrət Peyğəmbər (s) buyurdu: Kilab ibni Murrədən sonra Kəˈbəni təˈmir edən ilk şəxs, Qusəyyə olmuşdur.[200]

169. Həzrət Peyğəmbər (s) buyurdu: Ey Ayişə! Sənin bu qəbilən təzəlikcə cahiliyyətdən baş qaldırmasaydı, Kə`bənin dağıdılıb çölə düşmüş hissələri ona əlavə etmək, həmçinin onu yerlə bərabərləşdirmək üçün göstəriş verər və habelə ona şərq və qərb tərəfdən iki qapı qoyaraq onu İbrahim (ə) qoyduğu əsasa çatdırardım.[201]

170. Yəhya ibni Şibl nəql etmişdir ki, həzrət imam Baqir (ə) buyurub: Həzrət İbrahim (ə) və Curhum qəbiləsi zamanında Qureyş tayfasının tə`mirinədək Kə`bənin qapısı yer yapışmışdır. Əbu Hüzəyfə ibni Müğəyrə dedi: Ey Qüreyş tayfası! Kə`bənin qapısını yuxarı qaldırın ki, sizdən başqa heç kim yuxarı qalxa bilməsin və siz istədiyiniz şəxslərdən başqa heç kim ona daxil ola bilməsin. Beləliklə də sizin xoşladığınız bir şəxs ona yaxınlaşdıqda pilləkanı çəkir və onu yerə salırsız. Bu isə onu görənlər üçün ibrət dərsi olar. Qüreyş tayfası ona əməl edib, divarın yuxarı hissəsini sökərək, xalq selini Kə`bədən qaytardılar və Kə`bəni şəkilli Yəman parçaları ilə örtdülər.[202]

171. Səid ibni Huzəli atasından nəql etmişdir ki, deyib: Qüreyş qəbiləsini cahilliyyət dövründə gördüm ki, bazar ertəsi və cüm`ə axşamı günlərində Kə`bənin qapısını açır və qapıçılar Kə`bənin qapısı kənarında əyləşirdilər. Xoşlamadığı bir kəs Kə`bəyə daxil olmaq istədikdə onu itələyir və bə`zi vaxtlarda ölürdü. Ayaqqabı ilə Kə`bəyə daxil olmur və bunu böyük sayaraq, ayaqqablarını pilləkənin altına qoyurdular.[203]

172. Ayişə nəql edir ki, həzrət Peyğəmbərdən (s) soruşdum: Divar da Kə`bənin bir hissəsidirmi? Buyurdu: Bəli. Dedim: Bəs nə üçün onu Kə`bənin bir hissəsi saymamış və onun daxilində yerləşdirməmişdir? Buyurdu: Sənin qəbilənin bunun üçün pulu çatmayıb. Dedim: Bəs nə üçün Kə`bənin qapısı hündürdür? Həzrət (s) buyurdu: Sənin qəbilən belə ediblər ki, istədiyi şəxslərə daxil olmaq üçün icazə verib, istəmədikləri üçün isə icazə verməsinlər. Sənin qəbilən yenicə cahiliyyətdən baş qaldırmasaydı və divarı Kə`bənin içinə salıb, qapısını yerə yapışdırmağımı qəbul etməmələrindən qorxmasaydım, bunu əncam verərdim.[204]

173. Həzrət imam Sadiq (ə) buyurub: Cahiliyyət dövründə Qüreyş tayfası Kə`bəni sökdülər, amma onu yenidən tikməyə imkanları olmadı və bir sıra maneələr qarşıya çıxdı. Beləliklə də ürəkləri qorxuya düşdü. Onlardan biri dedi: Hər kəs haram yollarla qazandığı deyil, yalnız özünün halal mal-dövlətini gətirsin. Onlar bu cür etdikdə, Kə`bəni tikmək də mümkün oldu. Kə`bəni tikib qara daşın yerinə çatdıqda, aralarında qara daşı kim öz yerinə qoymaq üstündə söz-söhbət yarandı. Hətta aralarında şərr yaranmağa yaxınlaşdılar. Lakin nəhayətən məscidin qapısından daxil olan ilk şəxsin hakimliyinə razı oldular.

173. Həzrət imam Sadiq (ə) buyurub: «Cahiliyyət dövründə Qüreyş tayfası Kə`bəni sökdülər, amma onu yenidən tikməyə imkanları olmadı (və bir sıra maneələr qarşıya çıxdı). Beləliklə də ürəkləri qorxuya düşdü. Onlardan biri dedi: Hər kəs haram yollarla qazandığını deyil, yalnız özünün halal mal-dövlətini gətirsin. Onlar bu cür etdikdə, Kə`bəni tikmək də onlar üçün

mümkün oldu. Kəʾbəni tikib «qara daş»-ın yerinə çatdıqda, aralarında Qara daşı yerinə qoymaq üstündə söz-söhbət yarandı. Hətta aralarında şərr yaranmağa yaxınlaşdılar. Lakin, nəhayət Məscidin qapısından daxil olub, onlara yaxınlaşdıqda bir parçanı yerə sərməyi göstəriş verdi və daha sonra daşı onun arasına qoyaraq hər qəbilədən bir nəfər onun bir guşəsindən tutub qaldırdılar. Daha sonra həzrət Peyğəmbər (s) daşı götürərək öz yerinə qoydu və Allah-taala bu işi ona məxsus etdi.[205]

## *KƏʾBƏNİN YENİDƏN TİKİLMƏSİ BARƏDƏ İZAHAT*

Tarixçilərin yazdığına əsasən, Kəʾbə dəfələrlə viran olmuş və sel onun əsaslarını dağıtmışdır. Elə buna görə də həzrət İbrahim (ə) və İsmayılın (ə) əli ilə tikilmiş ev qalmamışdır. Lakin cahiliyyət dövrünün adamları onun zahiri görünüşünü və əsasına ürək bağladıqları üçün hər dağıntıdan sonra bacardıqları həddə onu ata-babalarından qalan tərzdə tikir və qaytarırdılar. «Beytul-həram» dördbucaq halında olduğu üçün «Kəʾbə» adlanır. Tarixçilər onu belə vəsf etmişlər ki; İslam dinindən beş il əvvələdək Kəʾbənin divarları bir-birinin üstünə düzülmüş palçıqsız daşlardan ibarət idi ki, adam hündürlüyünə qədər bir-birinin üstünə yığılmışdır. Həmçinin deyilənə görə İsmayılın (ə) zamanında onun divarları doqquz ziraʾ hündürlüyündə idi, üstü (banı) yox idi və qapısı yerə yapışmışdı.

Onun qapısı üçün cəftə qoyan ilk şəxs, Tubbəʾ adlı bir nəfər olmuşdur və daha sonra Əbdül-Müttəlib onun üçün dəmirdən bir qapı düzəltmişdir. Həmçinin onun (Zəmzəm quyusunu qazarkən tapılmış) iki qızıl ceyran heykəlindən alınmış qızıl ilə bəzəmişdir. Bu isə Kəʾbənin ilk dəfə bəzəndiyi idi.

Tarixçilərin Kəʾbə barədə etdiyi vəsflərdən belə əldə olunur ki, Kəʾbə əvvəllər sadə bir yer olmuş, dördbucaq həyət və heç bir palçıq işlədilmədən bir-birinin üstünə düzülmüş divara malik olmuşdur. Həmçinin vəhşi quşlar onda yuva qurmuş və onun yerinə qızmar günəş şüaları, Məkkəyə yağan yağışlar və bəʾzi vaxtlar quyulardan aşıb-daşan sudan qoruyan bir örtüyü (maneəsi) olmamışdır. Bu ev həqiqətdə daşdan tikilmiş və insan hündürlüyündən ötməyi dörd divardan ibarət olmuşdur.

Bəʾzi tarixçilərin dediyinə əsasən, Amir ibni Cadir Əzdi, həzrət İsmayıldan (ə) sonra ilk dəfə olaraq Kəʾbə üçün divar qoymuş və buna görə də Cadir divar tikərkən ləqəbini almşıdır.

Həmçinin tarixşünasların dediyinə əsasən, miladi tarixi ilə 7-ci əsrin birinci yarısında (yəʾni, İslam dinindən beş il əvvəl və həzrət Peyğəmbərin (s) otuz beş yaşında) Kəʾbə evi yanğına məʾruz qalmış və buna görə də onu təmir etmək fikrinə düşüb, Kəʾbəyə ağacdan tavan qoymuşlar. Onlar işə başlayaraq onun səkkiz zira hündürlüyündə olan divarlarını on səkkiz zira həddinə çatdırıb, ağacdan üç sütunlu olan iki sıralıq tavan düzəltdilər. Həmçinin onun qapısını yuxarı qaldıraraq pilləkəndən başqa bir yolla ora daxil olmağı qeyri-

mümkün etdilər. Divarlarını da bir sıra daş və bir sıra ağacla hördülər. Rəvayətlərdə nəql olunmuşdur ki, həzrət Peyğəmbər (s) Məkkə fəth olunan ildə Kə᾽bəyə daxil olaraq bir sütunun kənarında durub dua etmişdir. O vaxtı isə Kə᾽bənin altı sütunu var idi. Tarixçilər Kə᾽bənin yenidən tikilməsi barədə demişlər ki, Kə᾽bənin insan hündürlüyündən uca olmayan daş divarları get-gedə dağılıb, yerə töküldüyü üçün onu yenidən tikmək fikrinə düşdülər. Həmçinin Qüreyşdən olan bir neçə nəfər onun daxilində olan quyunun içərisindən Kə᾽bənin xəzinəsini oğurladıqları üçün, xalq onun üçün tavan düzəltmək qərarına gəldilər. Tarix kitablarının vəsfindən başa düşülür ki, bu yeni ev də elə bir gözə çarpan tərzdə olmamışdır. Belə ki, bu tənha otağın altı sütun və iki sıradan ibarət olan ağac tavanı olmuş, doqquz zira hündürlüyündə adamdan bir az alçaq və ya uca olan divarları isə on səkkiz zira᾽ həddinə çatmışdır. Amma bu dəfə əvvəlkindən möhkəm tikilərək bir sıra daş və bir sıra ağacdan hörülmüşdür ki, ümumiyyətlə onun divarı on beş sıra ağac və on altı sıra daşlardan ibarət idi.

Həmçinin onun tavanı da düz idi ki, yağışın yerə tökülməsi üçün ona bir novdan da qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, bu bina (Kə᾽bə evi) məsahət, incəsənət, gözəllik və əzəmətdə Mə᾽rəb şəhərində yerləşən «Əl-məqə» mə᾽bədi, həmçinin arxeoloqların Ərəbistanın cənub hissəsində kəşf etdikləri başqa mə᾽bədlərin heç biri ilə müqayisə olunmurdu.

## *«ƏSHABİ FİL»-İN ƏHVALATI*

Qur᾽an:

«Rəbbinin filə minənlərlə nə etdiyini görmədinmi? Onların hiyləsini zəlalət (və puçluqda) qərar vermədimi? Və onların üstünə dəstə-dəstə quşları daşlarla göndərdik ki, onları vurdular və beləliklə də onları yeyilmiş yarpaq halına saldı».[206]

174. Həzrət Peyğəmbər (s) buyurdu: «Şahin kimi yırtıcı quşlara bənzər quşlar onların üstünə getdilər».[207]

175. Həzrət imam Sadiq (ə) buyurdu: «Həbəşə indiki Efiopiyanın hakimi fil qoşunu ilə Kə᾽bəni dağıtmaq üçün gəldikdə, Əbdül-Müttəlibin dəvələrini görüb onları oğurladılar. Əbdül-Müttəlib onların başçılarının yanına gedib dəvələrini geri almaq istədi. İcazə aldıqda, ona icazə verib hakimə dedilər: Bu kişi Qüreyş tayfasının ağsaqqalıdır, həmçinin ağıllı və mərd adamdır. O da Əbdül-Müttəlibə hörmət edib, onu öz yanında əyləşdirərək tərcüməçisinə dedi: Soruş ki, nə istəyir? Dedi: "Sənin adamların mənim dəvələrimlə rastlaşıb, onları oğurlayıblar. Səndən istəyim budur ki, dəvələrimi özümə qaytarasan". Onun istəyindən təəccüblənərək dedi: Qüreyşin böyük və ağıllı olduğunu dediyiniz budurmu? O, pərəstiş etdiyi evi onun özünə qaytarmağımı məndən istəmədi. Əgər Kə᾽bəni dağıtmamağı məndən xahiş etsəydi onun istəyini yerinə yetirərdim. Tərcüməçi onun sözünü Əbdül-

Müttəlibə çatdırdıqda, o cavabında dedi: “Bu evin bir sahibi var və onu müdafiə edəcəkdir. Dəvələrimə ehtiyacım olduğu üçün, onları özümə qaytarmağı səndən xahiş etdim”. Əbrəhə də dəvələrinin ona qaytarılmasını göstəriş verdi».[208]

176. Əbu Məryəm nəql etmişdir ki, həzrət imam Baqir (ə)-dan—(Və ərsələ ələyhim təyrən...) ayəsi barədə soruşduqda buyurdu: «Göyün aşağı səthində uçan quşlar dəniz tərəfdən onların üzərinə gəldilər. Onların başları yırtıcılar, caynaqları isə yırtıcı quşlar kimi idi və hər quşun üç daşı var idi; Daşların ikisi caynaqlarda, biri isə dimdiklərində idi. O daşlarla Əbrəhə qoşununu daşladıqda, onlar abilə (bir növ çopurluq) xəstəliyinə tutulub, öldülər. Belə ki, ondan qabaq abilə xəstəliyi görməmiş, həmçinin o gündən qabaq və sonra heç vaxt quşlardan bu işi görmədilər. O hadisədən canını qurtarıb qaça bilənlər isə Həzrə movt—Yəmən yaxınlığında bir vadiyə—çatdıqda, Allah-taala onlara sel göndərərək hamısını suda qərq etdi. Bir halda ki, o vadidə on beş il qabaqdan o vaxtadək heç vaxt su görünməmişdi. Onlar o vadidə öldükləri üçün, onun adı Həzrə movt (Ölüm hazır oldu) adlandı».[209]

## *ƏBRƏHƏNİN MƏKKƏYƏ HƏMLƏ ETMƏ TARİXİ*

Əbrəhətul-Əşrəm (Əbu Yəksum) miladi tarixi ilə təqribən 570-ci ildə (yəʾni, həzrət Peyğəmbərin (s) peyğəmbərliyindən qırx il qabaq) Məkkə şəhərinə həmlə etmişdir. Bəʾziləri isə həmlə tarixini başqa illərlə qeyd etmişlər. Amma onların heç biri miladi tarixi ilə 581-ci ili ötmür. Əbrəhənin Məkkəyə həmlə etməsi, bir sıra siyasi, iqtisadi və dini hədəflərlə həyata keçmişdir. Belə ki, o, Yəməndə hakimiyyəti olan yerdə xalqı Kəʾbədən öz yerinə çəkmək niyyəti ilə böyük bir ibadətgah düzəltdirdi. Ərəblər isə ora getməməkdən əlavə onun ibadətgahına qarşı hörmətsizlik də edirdilər. Əbrəhə də Məkkəyə həmlə edib oranı dağıdaraq öz gümanına əsasən, Ərəbistan yarımadasının dini və siyasi mərkəzini Yəmənə köçürmək və beləliklə də öz dinini bütün Hicaza yayıb, onların mütləq hakimi olmaq istəyirdi.

## *İSLAM TARİXİNDƏ KƏʾBƏNİN BAŞINA GƏLƏN İŞLƏR*

177. Əmrə ibni Dinar və Ubeydullah ibni Əbi Yəzid nəql etmişlər ki, həzrət Peyğəmbərin (s) zamanında Kəʾbə ətrafında heç bir divar yox idi və müsəlmanlar Kəʾbə ətrafında namaz qılırdılar. Ömərin zamanında onun ətrafına divar çəkilmişdir. Ubeydillah isə deyib: Kəʾbənin ətraf divarı alçaq idi və İbni Zubeyr onun hündürlüyünü artırmışdır.[210]

178. Həzrət imam Sadiq (ə) buyurub: «Kəʾbə həzrət İbrahimin (ə) dövründə doqquz ziraʾ idi və onun iki qapısı var idi. Əbdullah ibni Zubeyr onu tikərək səkkiz zira, hündürlüyünə çatdırdı. Hacılar isə onu sökərək hündürlüyünü iyirmi yeddi ziraʾ-ya çatdırdılar».[211]

## *KƏʾBƏ EVİNİN TƏʾMİR OLUNMASI*

Kəʾbə və Məscidul-həram islam tarixində dəfələrlə tikilib, təʾmir olunmuşdur. Bu təʾmirlər isə adətən Məkkədə olan güclü sellər, bəʾzi vaxtlar isə müharibələrdən sonra həyata keçmişdir:

*Birinci:* Sellər;

İslam dininin əvvəlindən indiyədək yüzə yaxın sel hadisəsi Məscidul-həram və Kəʾbə evinə ziyan vurmuşdur ki, onların bəʾzisi məxsus adlarla şöhrət qazanmışdır. Buna misal olaraq Ömərin xilafəti zamanı baş vermiş «Ummu Nəhşəl» Əbdül-Məlik ibni Mərvanın xilafəti zamanında baş vermiş «Hicaf» və «Əl-muxbil», həmçinin Məʾmunun dövranında baş vermiş «İbni Hənzələ» sellərini qeyd etmək olar.

*İkinci:* Müharibələr;

Kəʾbənin müqəddəsliyinə baxmayaraq, Məkkəyə olunmuş üç həmlə, Kəʾbəyə böyük ziyanlar yetirmişdir ki, aşağıdakılardan ibarətdir:

*1. Əbdüllah ibni Zubeyri aradan aparmaq üçün (63 h.q) tarixində Yezid ibni Müaviyə qoşununun Həsin ibni Numeyrin başçılığı ilə Məkkəyə həmlə etməsi;*

*2. İbni Zubeyri aradan aparmaq üçün (73 h.q) tarixində Əbdül-Məlik ibni Mərvan qoşununun Həccac Səqəfi başçılığı ilə Məkkəyə həmlə etməsi;*

*3. Qara daşı oğurlamaq üçün (317 h.q) tarixində Abbasilər sülaləsinin xilafəti zamanı, «Qərməti»-lərin Məkkəyə hücum etməsi.*

Qeyd etmək lazımdır ki, evin tə`mir edilməsi, xəlifələr, padşahlar və Məkkənin o zamanda olan hakimlərinə nisbət verilmişdir ki, buna misal olaraq Əbdullah ibni Zubeyr (64 h.q), Əbdül-Məlik ibni Mərvan (74 h.q), Sultan Səlim Osmani (960 h.q) və Sultan Murad Osmani (1040 h.q)-dən ad çəkmək olar.

Hicri-qəməri tarixi ilə (1417-ci ildə) Kə`bənin axırıncı tə`mirində isə daxilinin yeri betonlanmış və yuxarı qaldırılmışdır.

# DÖRDÜNCÜ FƏSİL

## *KƏ`BƏNİN NİŞANƏLƏRİ*

## *ÜMUMİ NİŞANƏLƏR*

Qur`an:

Həqiqətən xalq üçün tikilmiş ilk ev Məkkədə olan evdir ki, bərəkətli və aləmlər üçün hidayət aləmidir. Onda aydın nişanələr, İbrahim məqamı vardır. Hər kəs ona daxil olsa, asayişdədir. Allah evinin həccini yerinə yetirmək, ona tərəf qüdrət və bir yolu olanlara Allahın onların boynunda olan haqqıdır. Və hər kəs küfr etsə, Allah aləmindən ehtiyacsızdır.[212]

Hədis:

179. İbni Sina nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan «İnnə əvvələ bəytin» ayəsi barədə soruşub, ərz etdim: Aydın nişanələr nədir? Həzrət (ə) buyurdu: «İbrahim məqamı (ki, o Həzrət) daş üzərində durdu və daşın üzərində iz qoydu. Həmçinin Qara daş və İsmayılın evi aydın nişanələrdəndir.[213]

İzah:

Məkkədə qədimdən qalmış əlamətlərə (abidələrə) aydın nişanələr deyilir ki, bu nişanələr İbrahim məqamı qara daş və Hicri İsmayıl şamil olur. Bu üç nişanələr rəvayətlərdə zikr olunmuş və adları çəkilmişdir. Bə`zi müfəssirlər «Hətim», «Zəmzəm», «Kə`bənin dörd sütunu» və həmçinin «Məşhər» və «Ərəfat» kimi Məkkə və Hərəmin müqəddəs yerlərini də aydın nişanələrdən bilmişlər.

Əllamə Təbatəbai (rə) (Ali İmran surəsinin 97-ci ayəsində) olan hər üç hissənin, aydın nişanələr (Ayyatun bəyyinat)-ı izah və şərh etdiyini bilir.

## *İBRAHİM MƏQAMI VƏ ONUN YERİ*

180. Həzrət imam Sadiq (ə) buyurub: «Allah-taala Məkkəyə fəzilət verərək onun bir hissəsini digər hissədən üstün tutmuş və buyurmuşdur: "İbrahim məqamından namaz yeri qərar verin"».[214]

181. Zürarə (rə) nəql etmişdir ki, hzrət imam Baqir (ə)-a dedim: İmam Hüseyn (ə)-ı görə bildinmi? Həzrət (ə) buyurdu: «Bəli, onunla birlikdə Məscidul-həramda olduğumu xatırlayıram ki, məscidə sel gəldiyi üçün camaat İbrahim məqamının üstündə durdular. Məsciddən xaric olunanların bə`zisi İbrahim məqmını sel aparması, bə`zisi isə öz yerində qalmasını deyirdilər». Mənə buyurdu: «Xalq nə etdi?» Dedim:... Camaat, selin «məqamı» aparmasından qorxurlar.

Buyurdu: «(Xalqa de ki,) Allah onu nişanə qərar vermişdir və (sel) onu aparmayacaqdır». Beləliklə də camaat sakitləşdi.

Həzrət İbrahimin (ə) qərar verdiyi məqamın yeri Kə`bə divarının kənarında idi. Bu məqam cahil xalqın onu bu günkü yerə gətirənədək, öz əsil yerində idi. Həzrət Peyğəmbər (s) Məkkəni fəth etdikdə onu İbrahim (ə)-ın qoyduğu yerə gətirdi. Amma Ömər ibni Xəttab hökumətə çatdıqdan sonra camaatdan soruşdu: Kim onun əvvəlki yerini bilir? Bir kişi dedi: Mən onun yerini yanımda olan cilov ilə ölçmüşəm. Dedi: Onu bura gətir. O kişi cilovu gətirdikdən sonra onu ölçüb, məqamı yenidən o yerə qaytardı».[215]

182. Həzrət imam Sadiq (ə) buyurub: «Allah-taala İbrahimə (ə) xalqı həccə çağırmağı vəhy etdikdə, üzərində ayaqlarının izi olan daşı (məqamı) Kə`bənin qarşısında və ona bitişik halda—bu gün olan yerdə—qoyub onun üstünə çıxdı və Allahın fərmanını uca səslə xalqa çatdırdı. O, sözü dedikdə daş ona dözmədi və beləliklə də ayaqları daşa batdı və İbrahim (ə)-da ayaqlarını daşdan xaric etdi. Camaat çoxalıb, şərr və bəla işlərə üz gətirərək onun üzərində izdiham yaratdıqda, təvaf yeri təvaf edənlər üçün boş olsun deyə, onu bu günki yerə qoymaq qərarına gəldilər.

Allah-taala həzrət Məhəmmədi (s) peyğəmbərliyə göndərdikdən sonra, Həzrət (s) onu İbrahim (ə)-ın qoyduğu yerə qaytardı. Bu məqam, həzrət Peyğəmbərin (s) vəfatı, Əbu Bəkrin dövranı və Ömərin xilafətinin əvvəllərinə qədər öz yerində idi. Bundan sonra Ömər dedi: Camaat bu məqamın üzərində izdiham yaratmışdır. Sizlərdən hansınız onun cahiliyyət dövründə olan yerini tanıyır? Bir kişi dedi: Mən onun yerini ölçmüşəm. Dedi: O ölçü sənin yanındadırmı? Dedi: Bəli.

Dedi: Onu bura gətir. Beləliklə də ölçü gətiriləndən sonra, məqamın əvvəlki və bu gün yerləşən yerə aparılmasına göstəriş verdi».[216]

## *İBRAHİM MƏQAMI BARƏDƏ İZAH*

«İbrahim məqamı» Allahın aydın nişanələrindən olub, məşhur nəzəriyyəyə əsasən Kə`bə yaxınlığında yerləşən tanınmış yerə deyilir. Bu daş Həzrət İbrahimin (ə) Kə`bə evinin divarlarını qaldırarkən, ayağının altına qoyduğu daşdır ki, bu daşın üzərində insan ayaqlarının izləri görsənir və bu da böyük İlahi mö`cüzələrdəndir. Belə ki, bərk və möhkəm bir cismdə ayağın batıb iz qoyması və uzun illər boyu olduğu kimi qalaraq, sellər, müharibələr və qarətləri arxada qoyması bir növ mö`cüzə sayılır. «İbrahim məqamı» barədə İbni Abbas (rə) və Mücahiddən üç ayrı təfsir də nəql olunmuşdur, lakin rəvayətlər məşhur nəzəriyyəni dəstəkləyir.

Bu ilahi mö`cüzənin baş verməsi və İbrahim (ə)-ın onun üzərində durmasının zamanı barədə də müxtəlif nəzərlər irəli sürülmüşdür. Belə ki, bə`zilərinin nəzərinə əsasən, həzrət İbrahim (ə) Kə`bə divarlarını qaldırarkən, əlini divarın yuxarı hissəsinə çatdırmaq üçün onu ayaqlarının altına qoymuşdur.

Başqa bir nəzərə əsasən, həzrət İbrahim (ə) Allah-taalanını «xalqı həccə də`vət etmək» göstərişini e`lan edərkən, onu ayaqları altına qoymuş və onun üzərinə çıxmışdır.

Bu barədə başqa nəzərlər də mövcuddur ki, o cümlədən Qəffal deyir: «Bu daş, qeyd olunmuş bütün işlərdə həzrət İbrahim (ə) tərəfindən işlədilmişdir».

## *İBRAHİM (Ə) MƏQAMININ YERİ BARƏDƏ İZAH*

«İbrahim məqamı»nın yerinin dəyişdirilməsi, tarixin inkaredilməz mətləblərindən biri sayılır. Belə ki, bir çox «Hədis», «Tarix» və «Sirə» kitabları onun indiki məkanından Kə`bəyə daha yaxın və hətta Kə`bəyə birləşmiş olduğunu bildirmişlər. Bir sıra hədislərdən başa düşüldüyü kimi, cahiliyyət dövründə «İbrahim məqamı»nı Kə`bədən uzaqlaşdırılmış, həzrət Peyğəmbər (s) isə Məkkə fəth olunandan sonra onu əvvəlki yerinə qaytarmışdır. Daha sonra Ömər onu hal-hazırda olan yerə aparmışdır.

Ömərin bu işinin səbəbi barədə müxtəlif nəzərlər irəli sürülmüşdür. Belə ki, bə`ziləri onun sel vasitəsi ilə Kə`bədən uzaqlaşması, bə`ziləri təvaf yerini genişləndirmək, bə`ziləri isə onun təvaf edənlərin ayaqları altında qalmaması üçün yerinin dəyişdirilməsinə tə`kid edirlər.

## *QARA DAŞ*

***1. Qara daş, Allahın əlidir:***

183. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, yer üzərində Allahın əlidir ki, ona əl vuran şəxs, Allahın əlinə əl vurmuşdur».[217]

184. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, Allahın yer üzərində olan əlidir ki, onun vasitəsi ilə bəndələri ilə görüşür».[218]

185. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, Allahın yer üzərində olan əlidir ki, hər kəs ona əl çəksə, itaətdən boyun qaçırmamaq üçün Allahla bey`ət etmişdir».[219]

186. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, Allahın əlidir. Beləliklə də hər kəs istəsə onun vasitəsi ilə Allahla bey`ət etsin».[220]

*2. Qara daşın əsli:*

187. Uqbətibni Bəşir nəql etmişdir ki, həzrət imam Baqir (ə) buyurub: «Allah-taala həzrət İbrahim (ə) Kə`bəni tikib, divarlarını qaldırmaq və xalqa həcc əməllərini öyrətməsini göstəriş verdi və beləliklə də həzrət İbrahim (ə) və İsmail (ə) hər gün bir sıra tikirdilər. Qara daşın yerinə çatdıqda,...Əbu Qubəys dağı həzrət İbrahim (ə) səsləyərək dedi: Sənin, mənim yanımda tapşırılmış bir əmanətin var. Beləliklə də qara daşı ona verdi və həzrət İbrahim (ə) onu öz yerinə qoydu».[221]

188. Həzrət imam Əli (ə), ondan yer üzərinə qoyulmuş ilk daşı soruşan yəhudinin cavabında buyurdu: «Sizin dediyinizə görə o daş, Beytul-

müqəddəsdədir. Amma yalan deyirsiniz. Çünki birinci daş, Adəmin Behiştdən yerə gətirdiyi daş olmuşdur». Yəhudi dedi: And olsun Allaha ki, düz dedin. Bu söz Musanın imlası və Harunun xətti ilə yazılmışdır».[222]

189. Həzrət Peyğəmbər (s) buyurub: «Yer üzərində olan üç şey Behiştdəndir: Bir növ yaxşı xurma, hər gün Behişt bərəkətindən fərat çayına tökülən bir neçə su ölçü tərəzisi və Qara daş».[223]

190. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, Behiştdəndir».[224]

191. Həzrət Peyğəmbər (s) buyurub: «Qara daş, Behişt daşlarındandır».[225]

192. Munzir Suri nəql edib ki, həzrət imam Baqir (ə)-dan Qara daş barədə soruşduqda, buyurdu: «Üç daş Behiştdən nazil olmuşdur: həzrət İbrahim (ə)-a əmanət olaraq tapşırılmış Qara daş, İbrahim məqamı və Bəni İsrail daşı».

Həzrət (ə) buyurub: «Allah-taala həzrət İbrahimə (ə) kağızdan daha ağ olan bir daşı tapşırmış, amma Adəm övladlarının günahları nəticəsində qaralmışdır.»[226]

*3. Cahiliyyət dövründə qara daşın qoyulması:*

193. Həzrət Peyğəmbər (s) buyurub: «Qüreyş tayfası Qara daşın öz yerinə qoyulması günündə ixtilafa çıxdıqda, mən öz əllərim ilə onu öz yerinə qoydum».[227]

194. İbni Şəhab nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) həddi-büluğ yaşına çatdıqda, bir qadın (müşk və ətirli maddələri oda atmaqla) Kəˈbəni ətirləyərkən od qabından Kəˈbənin pərdəsinə bir çınqı düşdü və yandı. Ərəblər Kəˈbəni sökərək yenidən tikməyə başladılar, amma Qara daşın yerinə çatdıqda, Qara daşın hansı qəbilənin əli ilə qoyulması barədə Qüreyş tayfası arasında ixtilaf düşdü. Onlar dedilər: Bura gələn birinci şəxsi özümüz üçün hakim qərar veririk.

Elə bu vaxt Həzrət Peyğəmbər (s) gəldi və onlar Həzrəti (s) özləri üçün hakim qərar verdilər. Həzrət Peyğəmbər (s) daşın bir parça arasına qoyulmasını göstəriş verdi və daha sonra hər qəbilənin başçısını çağıraraq parçanın bir guşəsini ona verdi. Özü isə yuxarı çıxaraq Qara daşı o parça ilə qaldırdılar və Həzrət (s) onu öz yerinə qoydu».[228]

# 4. Əbdül-məlikin dövranında:

195. Şeyx Səduq (r.ə.) nəql etmişdir ki, Həccac Kəˈbəni tikib qurtardıqdan sonra «Qara daş»ı yerinə qoymağı həzrət imam Səccad (ə)-dan xahiş etdi. O həzrət (ə) da daşı götürərək onu öz yerinə qoydu.[229]

196. Ravəndi nəql etmişdir ki, Həccac ibni Yusib, Əbdullah ibni Zubeyr ilə vuruşub, Kəˈbəni viran etdikdən sonra onu yenidən tikib abadlaşdırdı. Amma o, qara daşı alimləri, qazilərin və zahidlərin əli ilə yerinə qoymaq istədikdə daş yerindən qopur və yerə düşürdü. Həzrət imam Səccad (ə) gəlib, qara daşı əlinə götürdü və bismillah dedikdən sonra onu öz yerinə qoydu və daş da öz yerində möhkmə qaldı. Camaat ucadan təkbir dedi.[230]

5. Qərmətilər əsrində:

197. Cəʾfər ibni Məhəmməd ibni Qoləveyh nəql etmişdir ki, (Hicri-qəmər tarixi ilə) 339-cu ildə Qərmətilərin qara daşı Kəʾbədə öz yerinə qoyduğu ildə - Həcc səfəri üçün Bağdada çatdıqda ən böyük fikrim qara daşı öz yerinə qoyan şəxsi görməyimdən ibarət idi. Çünki (hədis) kitablarında nəql olunuşdur ki, qara daş Həccacın zamanında imam Səccad (ə)-ın əli ilə yerinə qoyulub sabit qaldığı kimi, (bu) zamanda da onu Allahın höccəti (İmam Zaman (ə)) onu yerinə qoyacaqdır. Ağır bir xəstəliyə düşdüm və hətta ölümümdən qorxdum və fikirimdə olana çata bilmədim. İbni Hişam adlı bir nəfəri özüm üçün naib edib, ona möhürlənmiş bir məktub verdim. Məktubda ömrümün müddəti, həmçinin bu xəstəliklə vəfat edib-etməyəcəyimi soruşmuşdum. İbni Hişama dedim: Səndən xahişim budur ki, bu məktubu qara daşı öz yerinə qoyan şəxsə verib, məktubun cavabını alasan. Mən səni bu iş üçün naib etmişəm.

İbni Hişam deyir: Mən Məkkəyə çatdıqda, qara daşı öz yerinə qoymaq istəyirdilər. Allah evinin xadimlərinə bir az pul verib, qara daşı yerinə qoyan şəxsi görə bildim. Həmçinin xalqın izdihamına düşməyim deyə, xadimlərdən birinə də müəyyən məbləğdə pul verdim. Hər kəs qara daşı yerinə qoysa da öz yerində qalmır( və düşürdü). Elə bu vaxt qarabuğdeyi və gözəl bir gənc oğlan gələrək onu əlinə alıb öz yerinə elə qoydu ki, sanki daş öz yerindən ayrılmamış kimi idi. Bundan sonra məsciddə səs-küy qalxdı. O gənc ayağa qalxıb məsciddən xaric olmaq istədikdə mən də yerimdən qalxaraq onun ardınca getdim. Camaatı öz sağ və solundan kənara çəkir və camaat da mənim dəli olduğumu güman edərək mənə yol verirdilər. Xalqdan ayrılanadək gözümü ondan çəkmirdim. Onun ardınca tələsik gedir, onun asta getməsinə baxmayaraq özümü ona çatdıra bilmirdim. Məndən başqa ayrı bir adam olmayan bir yerə çatdıqda dayandı və üzünü mənə tutaraq buyurdu: yanında olanı ver. Mən məktubu ona uzatdım amma o məktubu oxumamış buyurdu: «Ona de ki, bu xəstəlikdən qorxusu olmasın sən 30 ildən sonra vəfat edəcəksən». (Bu sözdən sonra) dəhşətə gəlib yol getməkdən aciz qaldım. O isə məni qoyub qayıtdı.[231]

## *HİCRİ-İSMAYIL (Ə) VƏ ONUN QAYDALRI*

198. Həzrət imam Sadiq (ə) buyurub: «Hicr, İsmayılın evidir, İsmayıl və (anası) Hacərin qəbri orada yerləşir.[232]

199. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət İsmayıl (ə) 130 yaşında ikən vəfat etmiş və anası ilə birlikdə «Hicr»də dəfn olunmuşdur.[233]

200. Müaviyə ibni Əmmar nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan Hicr barəsində soruşaraq dedim: Hicr Kəʾbənin bir hissəsidir, yoxsa Kəʾbənin bir hissəsi onun üstünə düşmüşdür?

Həzrət (ə) buyurdu: Hətta tutulmuş dırnaq ölçüsündə bu cür deyildir. İsmayıl (ə) orada anası dəfn etmiş, (lakin) onun üzərinə ayaq qoymaq istəmədiyi üçün, ətrafına hasar çəkmişdir. Bir sıra peyğəmbərlərin də qəbirləri oradadır.[234.]

201. Həzrət imam Sadiq (ə) buyurub: Hicrdə, üçüncü rüknün yaxınlığında həzrət İsmayılın subay qızları dəfn olunmuşdur.[235.]

202. Əbu Bilal Məkki deyir: Həzrət imam Sadiq (ə)-ı Kə`bə qapısı tərəfindən Hicrə daxil olub namaza durduğunu gördükdə dedim: Sənin ailəndən heç kimi novdan qarşısında namaz qıldığını görməmişəm. Həzrət (ə) buyurdu: Bura Harunun (ə) Şəvvər və Şəbir (adlı) oğlanlarının namaz qıldığı yerdir.[236]

203. Əbu Nəim Ənsari həzrət İmam Zaman (ə)-dan nəql etmişdir ki, həzrət imam Səccad (ə) bu məkanda (Hicri və nodana işarə edərək) öz səcdəsində deyirdi: Sənin kiçik bəndə qapın ağzındadır. Sənə möhtac olan qapın ağzındadır. Mən Səndən başqa bacarıq olmayan (höccəti) Səndən istəyirəm.[237]

204. Tavus Fəqih nəql edir ki, həzrət imam Səccad (ə)-ı Hicrdə namaz qılan halda gördüm ki, belə dua edirdi: Sənin kiçik bəndən qapın ağzındadır. Sənin əsirin qapın ağzındadır. Sənə möhtac olan (bəndən) qapın ağzındadır. Sənin miskinin qapın ağzındadır. Sənə bir şikayəti vardır ki, (o şikayət) Sənə gizli deyildir.

-Ayrı bir hədisdə isə deyilib- Məni öz dərgahından qaytarma.[238]

205. Əliyyibni Məzid Bəyya-saburi deyir: Həzrət imam Sadiq (ə)-ı Hicrdə novdanın altında Kə`bəyə tərəf durub əllərini açaraq belə dua etdiyini gördüm: Pərvərdigara! Mənim zəifliyim və çarəsizliyimə rəhm et. Pərvərdigara! Mənə öz rəhmətindən iki nəsib əta et və geniş ruzindən mənə (verərək) məni cin və insan azğınları və ərəb, qeyri-ərəb fasiqlərinin şərindən uzaqlaşdır. İlahi! Mənim ruzimi genişləndirərək mənə çətin tutma. İlahi! Mənə rəhm et və mənə əzab vermə. Məndən razı ol və mənə qəzəb etmə. Sən duanı eşidən daha yaxın və icabət edənsən.[239]

## *HƏTİM*

206. Müaiviyə ibni Əmmar deyir ki, Həzrət imam Sadiq (ə)-dan Hətim barəsində soruşduqda buyurdu: (Hətim) qara daş ilə Kə`bənin qapısı arasındadır.

Soruşdum: Nə üçün ona Hətim deyilir?

Həzrət imam Sadiq (ə) buyurdu: Çünki, xalq orada bir-birini sıxır (və izdiham yaradırlar).[240]

207. Əbu Bilal Məkki deyir: Həzrət imam Sadiq (ə)-ı Kə`bə ətrafında təvaf edərkən gördüm. Daha sonra Kə`bə qapısı ilə qara daşın arasında iki rəkət namaz qıldıqda ona dedim: Sizlərdən heç birinizin burada namaz qılmasını görməmişəm. Həzrət (ə) buyurdu: bura Adəmin (ə) tövbəsi qəbul olan yerdir.[241]

208. Həzrət Peyğəmbər (s) buyurub: Kə`bənin qapısı kənarında Cəbrail iki dəfə mənim imam camaatım olmuşdur. (Ona iqtida etmişəm).[242]

209. Hələbi Həzrət imam Sadiq (ə)-dan Hicr barəsində soruşduqda o həzrət (ə) buyurdu: Siz onu hətim adlandırırsınız, ora İsmailin qoyunlarının yeri idi və anasını orada dəfn etmişdir. Onun üstünə ayaq qoymaq istəmədiyi üçün ətrafına bir hasar çəkmişdir. Orada bə`zi peyğəmbərlərin də qəbirləri vardır.[243]

## *MÜLTƏZƏM*

210. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs bu mültəzəmdə Allahdan bir şey istəmişsə (duası) qəbul olunmuşdur.[244]

211. Həzrət Peyğəmbər (s) buyurub: Mültəzəm, dua qəbul olan bir yerdir ki, Allah-taala orada dua edən hər bir bəndənin duasını qəbul etmişdir.[245]

212. Həzrət Peyğəmbər (s) buyurub: Rükn ilə məqam arası mültəzəmdir ki, orada dua edən hər bir (xəstə) sağalmışdır.[246]

213. Həzrət Peyğəmbər (s) buyurub: Adəm (ə) yerə endikdə Kə`bə ətrafında yeddi dəfə təvaf etdi. Daha sonra Kə`bə qarşısında iki rəkət namaz qılıb, mültəzəmə gələrək belə dedi: Pərvərdigara! Sən gizlin və aşkarı bilənsən. Beləliklə üzrümü qəbul et. Sən mənim qəlbim və yanımda olanı bilirsən, beləliklə günahlarımı bağışla. Sən mənim ehtiyacımı bilirsən və xahişimi əta et. İlahi! Səndən qəlbim ilə birgə olan iman, yalnız Sənin mənə yazdığın işin mənə çatmasını bilmək üçün düzgün yəqin və hökm etdiyinə razılıq istəyirəm.

Allah-taala onu vəhy etdi: Ey Adəm! Bə`zi dualar etdin və Mən onları qəbul etdim. övladlarından hər biri belə dua edərsə onun qəm-qüssə və giriftarçılığının aradan aparar, əldən verdiyini ona kifayət edər, həmçinin yoxsulluq qəlbindən xaric edər, ehtiyacsızlığı iki gözü arasında qərar verər və hər bir tacirin ticarəti ardınca onun üçün ticarət edərəm (ona fayda

yetirərəm). Habelə özü istəməsə də dünyanı zəlil halında onun yanına gətirərəm.[247]

214. Həzrət imam Sadiq (ə) buyurub: Adəm (ə) Allah evini təvaf edib mültəzəmə çatdıqda, Cəbrail (ə) ona dedi: Ey Adəm! Bu məkanda öz günahlarına Allah qarşısında e`tiraf et... Daha sonra Allah-taala vəhy edərək buyurdu: Ey Adəm! Sənin günahlarını bağışladım. Adəm (ə) dedi: Pərvərdigara! Nəslim və övladlarım üçün? Allah-taala onu vəhy etdi: Ey Adəm! Sənin övladlırından hər biri bura gəlib sənin etdiyin kimi öz günahlarına e`tiraf edərək tövbə və istiğfar edərsə, onu bağışlayaram.[248]

215. Həzrət imam Əli (ə) buyurub: «Mültəzimin kənarında yadında olan və olmayan günahlarına e`tiraf et və belə de: (İlahi!) Sənin gözətçilərinin, günahlarımızdan əzbərləyəni və unutduqlarımızı əfv et».

Hər kəs bu məkanda öz günahlarına e`tiraf edib, onları sayaraq xatırlayıb və Allahdan bağışlanmaq istəyərsə, onu bağışlamaq Allahın öhdəsində haqq olar».[249]

216. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət imam Səccad (ə) Mültəzimin kənarına gəldikdə, belə deyərdi: İlahi mənii çoxlu günah və xətalarım, Sənin isə rəhmət və məğfirətdən çoxlu dəstələrin vardır. Ey nəzərində hamıdan qəzəbli olan şəsin (Şeytanın) duasını qəbul edən! — O zaman ki, dedi: İlahi! Mənə qiyamət gününədək möhlət ver — mənim də duamı qəbul et və ...»[259]

217. Müaviyə ibni Əmmar deyir: Həzrət imam Sadiq (ə) Mültəzəmə çatdıqda buyurdu: Məndən aralı olun ki, bu məkanda Rəbbimin yanında günahlarıma e`tiraf edim. Bura elə bir yerdir ki, hər bir bəndə burada Rəbbinin hüzurunda öz günahlarına e`tiraf edib, tövbə və istiğfar edərsə, Allah-taala da onu bağışlayar.[251]

218. Həzrət imam Sadiq (ə) buyurub: Təvaf qurtarıb, Kə`bənin axırına — Müstəcarın müqabilində və rükni yəmaniyə bir az qalmış — çatdıqda, əllərini Kə`bəyə doğru aç və (bədənini) ona söykəyərək üzünü Kə`bəyə qoyub belə de: İlahi! Ev sənin və bəndə də sənin bəndəndir. Bura Cəhənnəmdən Sənə pənah gətirənin yeridir.

Daha sonra Allah qarşısında (günahlarına) e`tiraf et. Həqiqətən Allah-taala bu yerdə öz günahlarını e`tiraf edən şəxsi bağışlayar. İnşaallah. Həmçinin belə dei:

İlahi! Rəhmət, fərəc və afiyət sənin tərəfindəndir. İlahi! Mənim əməlim çox azdır. Beləliklə onu mənim üçün çox et və Sənin agah (saleh) olduğun və xalqdan gizli olan (pis əməllərimi) bağışla.

Bundan sonra Cəhənnəm odundan Allaha pənah aparır və istədiyin hər bir şeyi özün üçün dua edirsən. Daha sonra rküni yəmaniyə əlini sürt və qara daşa doğru get.[252]

## *MÜSTƏCAR*

219. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət İbrahim (ə) Kəʾbəni tikib onun üçün iki qapı qoydu ki, onların biri gün çıxan, digəri isə günbatana tərəf idi. Müstəcar isə günbatan tərəfə olan qapıdır».[253]

220. Həzrət imam Səccad (ə) buyurub: «Adəm (ə) yerə endikdən sonra Kəʾbənin ətrafına təvaf etdi. Müstəcara çatdıqda isə Kəʾbəyə yaxınlaşaraq əllərini göyə qaldırıb dedi: Pərvərdigara! Məni bağışla. Nida oldu: Səni bağışladım. Dedi: Pərvərdigara! övladlarımı da bağışla! Nida olundu: Sənin övladlarından hər biri mənim yanıma, günahını bura gətirsə, Mən onun günahını bağışlayaram».[254]

221. Əliyyibni Cəʾfər (r.ə) nəql edərək deyir: «Qardaşım (imam Kazim (ə)) gördüm ki, iki və ya üç dəfə təvaf — hər dəfə yeddi dövrə — edir və təvafları bir-birinə birləşdirirdi. Amma müstəcada durur və yeddi dövrənin hər birinin əvvəlində dua edərək həcərül-əsvədə (Qara daşa) yaxınlaşıb ona əl vurur və daha sonra təvafe dirdi».[255]

## *RÜKNİ YƏMANİ*

222. Cabir ibni Əbillah nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) qara daşa əl vurub onu öpür, amma rükni yəmaniyə əl vuraraq öz əlini öpdü.[256]

223. İbni Abbas nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) rükni yəmanini öpüb, üzünü ona qoydu.[257]

224. Mücahid nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) Kəʾbəni təvaf edərkən hər təvafda qara daş və rünkə əl çəkirdi.[258]

225. Nafeʾ ibni Ömərdən nəql edib ki, Həzrət Peyğəmbər (s) Kəʾbəni təvaf edərkən hər təvafda qara daş və rüknə əl çəkirdi.[259]

226. Əta nəql edib ki, Həzrət Peyğəmbərə (s) dedilər: Ey Allahın elçisi! Rükni yəməniyəyə çox əl çəkməyini görmüşük. Həzrət buyurdu: həmişə rükni yəmaninin yanına gəldikdə, Cəbrail orada durub, ona əl vuranlar üçün istiğfar etdiyini görmüşəm.[260]

227. İbni Ömər nəql edib ki, Həzrət Peyğəmbərin (s) Rükni yəmənlən başqa bir yerinə əl vurduğunu görmədim.[261]

228. Həzrət Peyğəmbər (s) yəmani və qara daş rüknlərinə əl vurur, amma bundan başqalarına toxunmurdu.[262]

229. Həzrət imam Baqir (ə) buyurub: Həzrət Peyğəmbər (s) qara daş və Yəmani rüknlərindən başqa yerlərə əl vurmurdu. Daha sonra bu iki rüknu öpərək, üzünü onlara qoyurdu. Atamında belə etdiyini gördüm.[263]

230. Humeyd ibni Əbi Səviyyə deyib: İbni Hişamdan eşitdim ki, Kəʾbəni təvaf edərkən Əta ibni Əbi Rəbahdan Yəmani rüknü barədə soruşdum. Əta cavabında dedi: Əbu Hüreyrə Həzrət Peyğəmbərdən (s) nəql etmişdir buyurub: Orada yetmiş min mələk məʾmur olunmuşdur ki, hər kəs bu duanı orada oxusa, mələklər amin deyərlər:

ilahi! Mən səndən dünya və axirətdə əfv və afiyət istəyirəm. İalhi! Dünyada bizə yaxşılıq bağışla və axirətdə də bizə yaxşılıq əta et və bizi od əzabından saxla.

Daha sonra qara daş rüknünə çatdıqda dedi: Ey Əba Məhəmməd! Bu qara daş rüknü barəsində nə eşitmisən? Əta dedi: Əbu Hüreyrə nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs qara daşa əl verərsə rəhman Allahın əli ilə görüşmüşdür (beyət etmişir).[264]

231. Əbu Məryəm nəql edərək deyir: İmam Baqir (ə) ilə təvaf etməyə məşğul idik. O həzrət (ə) hər təvafına rükni yəmaniyə çatdıqda ona əlini çəkir və belə deyiri: İlahi! Tövbə edim deyə mənə tərəf qayıd və bir daha günaha qayıtmayım deyə məni saxla.[265]

232. Həzrət imam Sadiq (ə) buyurub: Rükni yəmani behişt qapılarından biridir ki, Allah-taala onu açan gündən indiyədək bağlamamışdır.[266]

233. Həzrət imam Sadiq (ə) buyurub: Rükni yəmani bizim qapımızdır ki, biz bu qapıdan behiştə daxil olarıq.[267]

234. Zeyd Şəhham Əbu Usamə nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) ilə təvafa məşğul idim ki, o həzrət (ə) qara daşa çatdıqda əlini ona sürtüb və öpürdü. Həmçinin rükni yəmaniyə çatdıqda özünü ona yapışdırırdı. Dedim: Sizə fəda olum! Nə üçün qara daşa əl çəkir amma rükni yəməniyə özünüzü yapışdırırsınız? Həzrət buyurdu: Həzrət Peyğəmbər (s) buyurmuşdur: Həmişə Rükni yəməniyə gəldikdə Cəbrailin (ə) məndən qabaq gələrək özünü ona yapışdırdığını görmüşəm.[268]

235. Həzrət imam Sadiq (ə) Rükni yəməninin yanından keçdikdə buyururdu: Burada elə bir mələk vardır ki, yer əhlinin eşitmə qabiliyyəti ona verilmişdir. Hər kəs bura çatarkən Həzrət Peyğəmbərə (s) salavat göndərərsə, bu mələk onun salavatını Peyğəmbərə (s) çatdırar.[269]

236. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala sizin dualarınıza amin demək üçün Rükni yəməniyə zikr deyən bir mələk məʾmur etmişdir.[270]

## *ZƏMZƏM*

1. Onun adları:

237. Həzrət imam Sadiq (ə) buyurub: Zəmzəmin adları belədir: Cəbrail qədəmgahı, İsmail quyusu, Əbdülmüttəlib quyusu, Zəmzəm, Bərrə (xeyirli və faydalı), Məznunə (nəfis, dəyərli və zəhmətlə tapılmış xəzinə), Rəva (sirabidən), Şubʾə (doyuzduran), Təʾam, Mətʾəm və Xəstəlik şəfası.[271]

238. Hacərin əhvalatı barəsində nəql olumuşdur ki, günorta çağı İsmail suslayaraq su istədikdə, Hacər Sʾəy məhəllinin vadisində durub dedi: Bu vadidə bir adam varmı? İsmail (ə) gözündən itdi və Səfa dağının hündürlüyünə qalxdı. Vadinin ilğımı nəzərində parıldadığı üçün, orada suyun olduğunu güman edib vadiyə enərək qaçmağa başladı. Amma Sʾyə məhəllinə çatdıqda İsmail (ə) onun gözündən itdi. Bu dəfə Səfa dağı tərəfində onun gözünə ilğım dəydiyi üçün yenidən vadiyə enib suyun ardınca getdi.

İsmail onun gözündən itdiyi üçün bir daha Səfa dağına qayıdıb ətarfa nəzər saldı. O bu işi yeddi dəfə təkrar etdi və yeddinci dəfə mərvə dağının üstündən İsmailə nəzər saldıqda onun ayağı altından su axdığını gördü. Su axdığı üçün qayıdaraq qumları onun ətrafına topladı və buna görə də o su zəmzəm adlandı.[272]

(Zəmmə sözü ərəb dilində bir şeyin qarşısını alamaq və toplamaq mə᾽nasını daşıyır).

2. Onun başlanğıcı:

239. Ubey ibni Kə᾽b nəql etmişdir ki, Cəbrail (ə) öz dabanı ilə zəmzəmə vurduqda, İsmailin anası Hacər daş qırıntılarını onun ətrafına yığdı. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala İsmailin (ə) Hacərə rəhmət etsin. Əgər zəmzəmi özbaşına qoysaydı ondan su axardı.[273]

240. Həzrət imam Sadiq (ə) buyurub: (İbrahim (ə) qayıtmaq üçün) üz döndərdikdə, Hacər dedi: Ey İbrahim! Bizi kimə tapşırırsan? Buyurdu: Sizi bu evin Allahına tapşırıram.

Su qurtardıqda o uşaq susuzladı. Hacər səfa dağının hündürlüyünə çıxaraq səslədi: Bu vadilərdən bir kəs varmı? Daha sonra aşağı enərək mərvə dağına çatıb o sözü dedi. O bundan sonra övladının yanına qayıdarkən, birdən onun dabanı altında su olduğunu gördü. Beləliklə də suları bir yerə yığdı və su bulağa çevrildi. Əgər suyu özbaşına qoysaydı axar olardı.[274]

241. Həzrət imam Sadiq (ə) buyurub: İbrahim (ə) İsmaili Məkkədə qoyub getdikdə, uşaq susuzladı. Səfa və Mərvə dağları arasında bir ağac var idi. Anası çölə çıxaraq səfa dağının üstündən durub dedi: Bu səhrada bir kəs varmı? Heç kim onun cavabını vermədi. O gedib mərvə dağına çataraq dedi: Bu vadidə bir insan varmı? Amma heç bir cavab eşitmədi. Yenidən səfa dağına qayıdıb o sözü dedi və bu işi yeddi dəfə təkrar etdi. Elə buna görə də Allah-taala onu sünnə qərar vermişdir. Cəbrail (ə) Hacərin yanına gələrək soruşdu. Sən kimsən? Dedi: Mən İbrahimin kəniziyəm. Soruşdu: Sizi kimin ümidi ilə bura qoymuşdur? Dedi: O, getmək istədikdə ona dedim: Ey İbrahim! Bizi kimə tapşırdın? Dedi: Mütəal Allaha. Cəbrail (ə) dedi: o, sizi kifayətedici kəsə tapşırmışdır. Camaat sul olmadığı üçün Məkkədən ötməkdən çəkinirdilər. Uşaq ayağı ilə yerə vurdu və beləliklə də zəmzəm suyu qaynamağa başladı. Hacər mərvə dağından uşağa tərəf qayıtdıqda, su qaynayırdı və su axmasın deyə onun ətrafına torpaq yığmağa başladı. Əgər bu işi etməsəydi su axıb gedərdi.

Həzrət (ə) buyurdu: Quşlar suyu görən kimi, onun ətrafına toplandılar. Səfər məqsədi ilə yəməndən bir karvan keçirdi ki, onlar quşları gördükdə dedilər: Quşlar yalnız su olan yerə toplaşırlar. Daha sonra onların yanına gəlib, onlara su və yemək verdilər və beləliklə də Allah-taala bu vasitəylə onların ruzisini yetirdi. Belə ki, camaat Məkkədən keçir və onlara yemək su verirlər.[275]

242. Həzrət Əli (ə) buyurdu: Əbdülmüttəlib hicridə yatmışdır ki, yuxuda ona deyildi: Bərrəni qaz (bərrə zəmzəmin adıdır). Dedi: Bərrə nədir? Daha

sonra onun yanından getdi. Sabahısı gün yenə də orada yatarkən bir nəfər onun yanına gəlib dedi: Məznunəni qaz. Dedi: Məznunə nədir? Yenə də getdi. Növbəti gündə yenə də orada yatdıqda ona dedilər: Tibəni qaz. Dedi: Tibə nədir? Yenə də getdi.

Sabahısı gün yenə də öz yerinə qayıdıb orada yuxuya getdi və bir nəfər gəlib dedi: Zəmzəmi qaz. Dedi: Zəmzəm nədir? Cavabında dedi: O elə bir sudur ki, qurumaz və suyu azalmaz. Daha sonra yerini onun üçün vəsf etdi. Əbdülmüttəlib ayağa qalxaraq ona vəsf olunmuş yeri qazdıqda Qüreyş tayfası dedilər: Ey Əbdülmüttəlib! Bu nə işdir? Dedi: Zəmzəmi qazmağa mə᾿mur olmuşam. Beləliklə də torpağı kənara tökdü və suyu gördükdə dedilər: Ey Əbdülmüttəlib! Bizim səninlə birlikdə onda payımız vardır. Çünki bu quyu atamız İsmailindir. Əbdülmüttəlib dedi: Bu sizin deyil, yalnız mənim özümə məxsusdur.[276]

3. Onun fəziləti:

243. Həzrət Peyğəmbər (s) buyurub: Zəmzəm suyu onun üçün içilən xəstəliyin şəfasıdır.[277]

244. Həzrət imam Əli (ə) buyurub: Zəmzəm suyu yer üzərində olan ən üstün sudur.[278]

245. Əliyyibni Məhziyar nəql etmişdir ki, həzrət imam Cavad (ə)-ı ziyarət axşamı gördüm. O həzrət (ə) nisa təvafını əncam verib, məqamın arxasında namaz qıldı. Daha sonra zəmzəmdən qara daşın yaxınlığından olan bir qab ilə su çəkib içdi və onu bədəninin bə᾿zi yerlərinə tökdü. Daha sonra iki dəfə Zəmzəmin içinə baxdı. Bizim dostlarımızdan biri mənə xəbər vermişdir ki, o növbəti ildə də həzrəti (ə) belə görmüşdür.[279]

4. Onun suyunu içmək:

246. Səhabələrdən biri olan Əbu Əyyub Mədaini nəql etmişdir ki, həzrət Əbul-həsən (ə) Zəmzəm suyundan içdikdə buyurdu: Allahın adı ilə, həmd Allah üçün və şükr Allah üçündür.[280]

247. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs təvafı qurtarıb, iki rəkət namaz qılarsa, Zəmzəmin yanına gedib bir və ya iki qab su çəkərək ondan içsin və onu öz başı, arxası və qarnına tökərək desin: İlahi! Bunu faydalı elm, geniş ruzi və hər bir dərd və xəstəlik üçün dərman qərar ver.

Bundan sonra qara daşın yanına qayıtsın.[281]

5. Zəmzəm suyunu hədiyyə vermək:

248. Həzrət imam Baqir (ə) buyurub: Həzrət Peyğəmbər (s) Mədinədə olarkən Zəmzəm suyundan ona hədiyyə gətirməsini istəyirdi.[282]

## *MƏSCİDUL-HƏRAMIN DAHA ÜSTÜN YERİ*

249. Əbu Həmzə Sumali nəql etmişdir ki, həzrət imam Səccad (ə) bizə buyurdu: Hansı yer daha üstündür? Dedim: Allah, onun elçisi və peyğəmbərinin övladı daha yaxşı bilir. Həzrət (ə) buyurdu: Ən üstün yer Rükn və məqam arasıdır.[283]

250. Məysir nəql etmişdir ki, həzrət imam Baqir (ə) öz səhabələrindən soruşdu: Bilirsinizmi Allah yanında hansı yer daha üstündür? Bizlərdən heç kim bir cavab vermədikdə o həzrət (ə) buyurdu: Daha üstün yer Məkkədir ki, Allah-taala onu öz hərəmi olaraq bəyənmiş və öz evini onda qərar vermişdir. Sonra buyurdu: Bilirsinizmi Allah yanında Məkkənin hansı yeri daha ucadır? Bizlərdən heç kim cavab vermədikdə, həzrət (ə) buyurdu: O, Məscidul-həramdır. Daha sonra buyurdu: Bilirsinizmi Məscidul-həramın hansı yerinin hörməti daha böyükdür? Biz yenə də cavab vermədikdə, o həzrət buyurdu: Qara daşın rüknü, İbrahim məqamı və Kəˈbə qapısının arası daha böyük hörmətə malikdir. Bu yer İsmail hətimi adlanır və İsamil orada öz qoyunlarına yem verir və namaz qılardı.[284]

251. Əbu Ubeydə nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdu: Hərəmin bütün yerlərində namaz qılmaq bərabərdirmi? Həzrət (ə) buyurdu: Ey Əbu Ubeydə! Məscidul-həramın hər yerində namaz qılmaq bərabər (eyni savaba malik) deyildir. Hərəmin hər yerində namaz qılmaq necə bərabər ola bilər?

Soruşdum: Bəs hansı yer daha üstündür? Həzrət (ə) buyurdu: Kəˈbə qapısı ilə qara daşın arası daha üstün sayılır.[285]

252. Həzrət imam Sadiq (ə) buyurub: Bütün vacib və qeyrid-vacib namazlarını Hətim məkanında qıla bilsən, elə orada yerinə yetir. Çünki Hətim yer üzünün ən üstün nöqtəsidir.[286]

253. Zürarə nəql edir ki, İmam (ə) soruşdum: Bir kişi Məkkədə namaz qılırdı. Amma qibləyə tərəf durmasına baxmayaraq İbrahim məqamını arxasında qoymuşdur. Həzrət (ə) buyurdu: Heç bir eybi yoxdur. Məscidin hər bir yerində namaz qılsın — istər məqamdan qabaq, istərsə də arxada namaz qıla bilər. Amma bununla belə ən üstün yer Hətim, Hicr və Məqamın kənarıdır. Hətim isə Kəˈbə qapısının müqabilində yerləşir.[287]

254. Həsən ibni Cəhm nəql etmişdir ki, həzrət imam Rza (ə)-dan soruşdum. Namaz qılmaq üçün Məscidul-həramın hansı yeri daha üstündür? Həzrət buyurdu: Hətim, həmçinin qara daşı ilə Kəˈbə qapısının arası daha üstündür. Soruşdum: Daha hansı yer üstündür? Buyurdu: İbrahim məqamının kənarı daha üstünüdr.

Soruşdum: daha sonra? Buyurdu: Hicrin daxili.

Soruşdum: Daha sonra? Buyurdu: Kəˈbəyə daha

4. Əbdül-məlikin dövranında:axın olan hər hansı bir yer.[288]

axın olan hər hansı bir yer.[288]

## *MƏSCİDUL-HƏRAMDA PEYĞƏMBƏRLƏRİN MƏZARI*

255. Həzrət Peyğəmbər (s) buyurdu: İlahi peyğəmbərlərdən birinin ümməti həlak olduqda, Məkkəyə gəlir və o peyğəmbər onunla birgər olanlarla ömürlərinin sonunadək orada ibadətə məşğul olurdular. Nuh (ə), Hud (ə),

Saleh (ə) və Şuəyb (ə) Məkkədə vəfat etmiş və onların məzarları Zəmzəm ilə qara daş arasındadır.[289]

256. Həzrət imam Baqir (ə) buyurub: Rükn ilə məqam arası, peyğəmbərlərin qəbri ilə doludur və Adəm (ə) da Allah-taala hərəmindədir.[290]

257. Həzrət imam Sadiq (ə) buyurub: Rükn Yəmani ilə qara daşın arasında yetmiş peyğəmbər dəfn olunmuşdur.[291]

## *MƏSCİDUL-HƏRAMDA YERLƏŞƏN MÜQƏDDƏS MƏKANLAR BARƏDƏ TƏHQİQAT*

1. Hətim: Məscidul-həramın bir hissəsi olub, onun ən müqəddəs məkanı sayılır. Hətimin təqribi məsafəsi qara daş rüknundan, Kə᾽bənin indiki qapısı və İbrahim məqamına qədərdir. Bu məkan izdihamla doludur və xalq qara daşa əl vurub dua və vidalaşmaq üçün Kə᾽bə qapısına çatsınlar deyə bir-birini sıxmaq və əzmək yerinə deyilir.

2. Mültəzəm: Ona Mütə᾽əvvəz və Əl-Muddəa da deyilir. Mültəzəm Kə᾽bənin arxa divarının bir hissəsidir ki, Yəmani rüknünün yaxınlığı və təqribən indiki qapının qarşısında yerləşir. Bu isə şiə alimləri və fəqihlərinin qəbul etdiyi nəzəriyyədir. Amma bu barədə sünnü hədis alimləri müxtəlif nəzərlər irəli sürmüşlər. Belə ki, onların bə᾽zisi Mültəzəmin Rükn ilə İbrahim məqamı arasında yerləşdiyini, bir çoxları isə onun Kə᾽bənin indiki qapısı ilə qara daş rüknü arasında yerləşdiyini söyləmişlər. Bəlkə də bu ixtilafın əsas səbəbi, həzrət Peyğəmbərin (s) bu məkanda dua etməsini yetirən hədislə bağlılığı olmuşdur ki, şiə məzhəbi də vidalaşarkən bu yerdə dua etməyi xüsusilə müstəhəb bir əməl sayır.

3. Müstəcar: Kə᾽bənin qərb hissəsində yerləşir ki, həzrət İbrahim (ə) onu Kə᾽bənin arxa hissəsində tikmiş, Qüreyş tayfası isə Kə᾽bəni tə᾽mir edərkən onu dağıtmışdır. Müstəcar, Mültəzəmin kənarında yerləşir və onların hər ikisi eyni dua və qaydalara malikdir. Elə buna görə də hədis alimləri və fəqihlər onu Mültəzəm ilə birgə bilmişlər.

Həmçinin qeyd etmək lazımdır ki, sənədi e᾽tibarsız olan bir rəvayətdə Müstəcarın qara daş ilə Kə᾽bə qapısı arasında yerləşdiyi bildirilmişdir.

## *KƏ᾽BƏNİN BƏZƏK VƏ ÖRTÜYÜ*

258. Həzrət Peyğəmbər (s) Osmana buyurdu: İki buynuzun (İsmailin əvəzində kəsilən qoyunun buynuzunun) üstünü örtmək göstərişini sənə verməyimi unutdum. Çünki (Allah) evində namaz qılanları özünə məşğul edən bir şeyin olması layiqli deyildir.[292]

259. Həzrət imam Sadiq (ə) buyurub: Adəm (ə) Kə᾽bəni tikib onun əsasını qoyan, onu heyvan tükü ilə örtən və həcc əməlini əncam verən ilk şəxs olmuşdur. Adəmdən (ə) sonra Tubbə᾽ onu dəri örtük ilə örmüşdür. Daha

sonra həzrət İbrahim (ə) onu xurma ağacının yarpaqları ilə toxunmuş örtüklə örmüşdür. Kəʾbəyə ilk dəfə olaraq paltar geyindirən, Süleyman ibni Davud (ə) olmuşdur ki, o ağ rəngli qibti parça ilə onu örmüşdür.[293]

260. İbni Əbi Muləykə nəql etmişdir ki, Kəʾbədə cahiliyyət əhlinin çoxlu örtükləri olmuşdur ki, bir-birinin üstünə yığılmış dəri, paltar və əbadan olan geyimlər o cümlədən idi.[294]

261. İsmail ibni İbrahim ibni Əbi Həbib atasından nəql etmişdir ki, cahiliyyət dövründə Kəʾbəni dəri örtüklərlə örmüşdülər. Daha sonra həzrət Peyğəmbər (s) onu Yəmən parçaları ilə örtdürdü. Bundan sonra Ömər və Osman onu qitbi parçalarla örtdürmüşlər. Həmçinin bundan sonra Həccac ibni Yusif onu ipək parça ilə örtmüşdür. Deyilənə görə Kəʾbəni ilk dəfə olaraq ipək parça ilə örtən Yəzid ibni Müaviyə və ya İbni Zubeyr və yaxud Əbdül-məlik olmuşdur.[295]

262. Ömərin zamanında Kəʾbə evinin bəzək, örtük və onların çoxluğundan söz düşdükdə bir dəstə dedi: Ey kaş onları Kəʾbədən götürüb, müsəlman ordusuna verəydin ki, bunun savabı daha çox olacaqdır. Kəʾbə bəzək-düzəki nə edir? ömər bu haqda qəti qərara gəlib onu Əmirəl-möʾminin Əli (ə)-dan soruşduqda, həzrət (ə) buyurdu: Bu Qurʾan həzrət Peyğəmbərə (s) nazil olduqdan sonra var-dövlət dörd hissədən ibarət idi:

1. Müsəlmanların malları; (Həzrət Peyğəmbər (s)) onu müəyyən pay əsasında varislər arasında bölüşdür.

2. Qənimətlər; (ki, Peyğəmbər (s)) onu haqqı olanlar arasında bölüşdürdü.

3. Xüms; (ki,) Allah-taala onu xüsusi bir yerdə qərar vermişdir.

4. Sədəqələr; (zəkat ki,) onu da Allah-taala təʾyin etmişdir.

O gün bəzək və örtüklər Kəʾbənin üstündə idi və Allah-taala da onu o cür saxladı. Bu isə yaddaşsızlıq üzündən deyil və heç bir yerdə ondan gizli qalmamışdı. Beləliklə də Allah və onun elçisinin qərar verdiyi kimi qalmasına imkan ver.

Ömər dedi: Sən olmasaydın, biz rusvay olmuşduq. Və örtükləri öz vəziyyətində saxladı.[296]

263. Həzrət imam Baqir (ə) buyurub: Əliyyibni Əbi Talib (ə) Kəʾbənin örtüyünü hər il İraqdan göndərirdi.[297]

## *KƏʾBƏ ÖRTÜYÜNƏ TƏBƏRRÜK ETMƏK*

264. Əbdül-məlik həzrət imam Kazim (ə)-dan soruşdu ki, bir kişi Kəʾbə örtüyündən bir miqdarını alaraq onun bir hissəsi ilə öz ehtiyacını ödəmiş, bir hissəsi isə əlində qalmışdır. (Əlində qalan hissəni) sata bilərmi?

Həzrət (ə) buyurdu: İstədiyini satıb, istəmədiyini isə hədiyyə versin və ondan faydalanaraq, bərəkət tələb etsin. Soruşdum: Onunla ölüyə kəfən bükmək olarmı? Həzrət (ə) buyurdu: Xeyr.[298]

265. Əbdül-məlik ibni Utbə nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum. Kəʾbə örtüyündən əlimizə gələn parçanı bir hissəsini paltar olaraq

geyinə bilərikmi? Həzrət (ə) buyurdu: (O parçadan) uşaqlar, Qur`an və balış üçün istifadə edib Allah izni ilə onun vasitəsiylə bərəkət axtarmaq olar.[299]

266. Həzrət imam Sadiq (ə) buyurub: Kə`bənin ipək parçasını götürüb onu Qur`an üzü və ya üzərində namaz qılmaq üçün namaz parçası — səccadə düzəltməyin heç bir eybi yoxdur.[300]

## *KƏ`BƏYƏ BAXMAĞIN FƏZİLƏTİ*

267. Həzrət Peyğəmbər (s) buyurub: Kə`bəyə baxmaq ibadətdir.[301]

268. Həzrət Peyğəmbər (s) buyurub: Kə`bəyə məhəbbət üzündən baxmaq ibadətdir (və belə bir baxış) günahları tamamilə aradan aparır.[302]

269. Həzrət Peyğəmbər (s) buyurub: Dörd halda asimanın qapıları açılır və dua müstəcəb olur: (...Onlardan biri də) Kə`bəyə baxan haldır.[303]

270. Həzrət imam Əli (ə) buyurub: Allah evinin həcci üçün səfərə çıxdıqda, Allah evinə çoxlu baxın. Çünki Allah-taala öz evinin kənarında 120 rəhmət qərar vermişdir: Onun altmış rəhməti təvaf edənlər, qırx rəhməti namaz qılanlar və iyirmi rəhməti isə Kə`bəyə baxanlara məxsusdur.[304]

271. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs Kə`bəyə baxsa gözünü ondan çəkənəcən ardıcıl olaraq onun üçün savab yazılır və günahı bağışlanır.[305]

272. Həzrət imam Sadiq (ə) buyurub: Kə`bəyə baxmağın ən az savabı budur ki, Allah-taala hər baxış üçün bir savab yazar, bir günahı bağışlayar və onun üçün bir dərəcə artırar.[306]

273 Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs mərifət ilə Kə`bəyə baxıb onun ehtiramını tanıdığı kimi bizim haqqımızı tanıyarsa, Allah-taala onun günahlarını bağışlayar, həmçinin onu dünya və axirət qəm-qüssəsindən kifayətləndirər.

# İKİNCİ HİSSƏ

## *HƏCC VƏ ÖMRƏ*

# BİRİNCİ FƏSİL

## *HƏCC*

## *HƏCCİN VACİBLİYİ VƏ ŞƏRTLƏRİ*

**Qur᾿an:**

Allah evinin həccini yerinə yetirmək Allahın xalq, ona tərəf yol tapa bilənlərin boynunda olan haqqıdır. Hər kəs küfr edərsə həqiqətən Allah aləmlərdən ehtiyacsızdır.[308]

**Hədis:**

274. Həzrət imam Əli (ə) buyurub: Allah-taala öz evinin həccini sizə vacib etmişdir. Xalqın qibləsi qərar verdiyi evi... Onun haqqını fərizə, həccini vacib, ziyarətini isə vacib bilmişdir. Allah-taala buyurur: Allah evinin həccini yerinə yetirmək Onun xalq, — ona tərəf yol tapa bilənlərin — boynunda olan haqqıdır. Hər kəs küfr edərsə, həqiqətən Allah aləmlərdən ehtiyacsızdır.[309]

275. Həzrət imam Baqir (ə) buyurub: İslam dini beş əməl əsasında möhkəmlənmişdir:

1. Namaz;
2. Zəkat;
3. Həcc;
4. Oruc;
5. Vilayət. (Əhli-beytin ilahi rəhbərliyi).[310]

276. Ömər ibni Uzəynə nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan «həcc və ömrəni Allah üçün tamamlayın»[311] ayəsi barəsində soruşduqda, o həzrət buyurdu: Onun bu iki əməli tamamlamaqdan məqsədi, onları əncam vermək və bu iki əməldə möhrim olan şəxsi pəhriz etdiyi işlərdən çəkinməsindən ibarətdir.[312]

277. Əbdrrəhman ibni Həccac nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim: Həcc əməli varmı və yoxsula vacibdirmi? Həzrət (ə) buyurdu: Həcc istər böyük, istərsə də kiçik olan hamıya vacibdir. Beləliklə Allah-taala üzr olan hər bir kəsi üzürlü bilmişdir.[313]

278. Həzrət imam Sadiq (ə) buyurub: Allah evinin həcci istitaəti (imkanı) olan hər bir şəxsə vacibdir. İstitaət isə yol azuqəsi, səfər vasitəsi, sağlamlıq, insanın ailəsi üçün bir şey (pul və s.) qoyub getməsi, həmçinin həcc səfərindən qayıtdıqdan sonra bir şeyinin (dolanışıq üçün imkanı) olmasınıdan ibarətdir.[314]

279. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs vacib həcc əməlini yerinə yetirsə, oddan olan bir düyünü öz boynundan açmışdır.[315]

## *HƏCCİN FƏLSƏFƏSİ*

**Qur᾿an:**

Allah Kə᾽bə və beytul-həramı xalq üçün qiyam və dirçəliş vasitəsi qərar vermişdir.[316]

Xalqı həcc üçün çağır ki, hər yerdən gəlib öz mənfəətlərinə şahid olub müəyyən günlərdə Allahın onlara ruzi etdiyi dörd ayaqlı heyvanlar üçün Allah adını xatırlasınlar. Beləliklə də onlardan yeyin, həm də çarəsiz yoxsullara yedizdirin.[317]

**Hədis:**

280. Həzrət Peyğəmbər (s) buyurub: Yalnız Allah zikrinin dirçəlməsi üçün, Allah evinin ətrafında təvaf etmək, səfa və mərvə dağları arasında sə᾽y etmək və şeytanları daşlamağa fərman verilmişdir.[318]

281. Həzrət imam Əli (ə) buyurub: Allahd-taala öz evinin həccini sizə vacib etmiş və onu xalqın qibləsi qərar vermişdir. Hacılar dörd ayaqlılar izdihamı kimi bu evə daxil olur və göyərçinlər kimi şövq ilə ona tərəf tələsirlər. Allah-taala həcci xalqın öz əzəməti qarşısında təvazökarlıq həmçinin öz izzətinə nisbət təslim və qəbul nişanəsi qərar vermişdir. Və öz bəndələrindən söz eşidən bəndələri seçmişdir ki, onlar ilahi də᾽vətlə ləbbeyk deyir, Onun sözünü qəbul edir və peyğəmbərləri yerlərində durmuşlar. Onlar öz təvafları ilə Allah ərşinin ətrafında təvaf edən mələklərə oxşamışlar.

Onlar allahpərəstlik ticarətxanasında çoxlu faydalar əldə edir və o (vaxtda) ilahi əfv yerinə tələsirlər.

Allah-taala həcci islamın ucalmış bayrağı və pənah gətirənlərin asayiş pənah yeri qərar vermişdir.[319]

282. Həzrət imam Əli (ə) Qasiə xütbəsində buyurub: Allah-taalanın Adəm (ə)-ın zamanınad bu aləmin sonuncu insanlarını ziyan və fayda yetirməyən və habelə görməyib-eşitməyən daşlarla imtahana çəkməsini görmürsünüzmü? Beləliklə də onları öz evi (Beytullahil-həram) qərar vermişdir ki, xalqın möhkəmlik rəmzidir. Və onu daşlı və torpaq və kəssəyi az olan bir diyarda, dar və suyu az olan bir dərədə, kobud dağlar və yumşaq qumlar, həmçinin suyu az olan bulaqlar, pərakəndə kəndlər və yağışsız (yerin) arxasında qərar vermişdir ki, dörd ayaqlı heyvanlar orada kölgələnməzlər.

Daha sonra Adəm (ə) və onun övladlarına ona tərəf üz gətirmələrini fərman verdi. Beləliklə Allah evi onların səfər və yük atmaqları üçün bir məqsədi oldu. Qəlblər hər tərəfdən — quru, alçaq və hündur səhralardan, dəryaların pərakəndə adalarından və dərələrin dibindən təvazökarlıqla «La ilahə illəllah» deyən və hərvələ edən halda ona tərəf tələsdirlər. Tozlu və saçları qarışmış, paltarları və niqablarını çıxarıb arxaya atan, həmçinin üzləri pərişan halda (ona tərəf gəldilər). Allah-taala onları böyük, çəkin, əzəmətli və aydın təvazökarlıqla sınaqdan keçirdi və onu öz rəhməti, behiştə çatmaq, əfv və xalqın sınağı üçün səbəb qərar verdi. Əgər Allah-taala öz evi və ibadətgahlarını bağlıq, çaylar, düz, yaşıl, meyvə ilə dolu, həmçinin abad, əkinçilik, bir-birinə birləşmiş abadlıqlar, gözəl düzənliklər, bol buğda sahələri və habelə yaşıl bostan, gözəl və məhsul verən yerlər, abad yollar və çoxlu bağlarda qərar versəydi, belə bir halda imtahanın asan olduğu üçün onun

savabı da az olardı. Əgər bu evin sütunları və əsasının daşları parlaq yaşıl zümrüd və qırmızı yaqutdan olsaydı, qəlblərdə az şəkk yaranar və şeytanın qəlbləri ələ almaq üçün təlaşı azalar, həmçinin xalqın da şəkkə giriftar olması azalardı. Lakin Allah-taala öz bəndələrini müxtəlif çətinliklər, rəngarəng müşkillər və müxtəlif narahatçılıqlarla imtahana çəkir ki, bu vasitə ilə təkəbbürlük onların qəlbindən xaric olub, təvazökarlıq onun yerini tutsun. Bunu isə öz fəzlinə tərəf bir qapı, həmçinin öz əfv və imtahanı üçün hazır bir vasitə qərar versin.[320]

283. İsa ibni Yunis nəql etmişdir ki, İbni Əbil-əvca Həsən Bəsrinin şagirdlərindən idi ki, sonradan tövhid (təkallahlıq) yolundan azmışdı... Bir gün həzrət imam Sadiq (ə)-ın hüzuruna gəlib, əyləşdi və daha sonra belə dedi: Nə vaxta qədər bu xırmanı ayaqla döyüb, bu daşa (Kə᾿bəyə) pənah gətirəcək və kərpic və kəssək ilə tikilmiş bu evi pərəstiş edəcəksiniz? Həmçinin (nə vaxta qədər) fərar etmiş dəvələr kimi bu evin ətrafında qaçacaqsınız? Hər kəs bu barədə fikirləşsə, bu işin qeyri-alim və düşüncəsiz şəxs tərəfindən yaranmasını biləcəkdir. İndi isə bu məzhəbin rəisi və başçısı olan özün, bu (barədə bir söz) de.

Həzrət Sadiq (ə) buyurdu: Allah-taala bir şəxsi azdırıb, qəlbini kor etdikdə, haqqı onun üçün xoşagəlməz edər və haqq onun üçün şirin olmaz. Həmçinin şeytan onun dostu olub, onu həlakət vadisinə çəkər və (heç vaxt) ondan xaric olmaz. Bu belə bir evdir ki, Allah-taala onun vasitəsilə bəndələrinin itaət həddini sınaqdan keçirmək üçün onları öz ibadətinə çağırmışdır. Elə buna görə də bəndələrini onun ehtiramı və ziyarəti üçün şövqləndirmiş və onu peyğəmbərlərin yeri və namaz qılanların qibləsi qərar vermişdir. Beləliklə də o, (Kə᾿bə), ilahi razılığın bir şö᾿bəsi, həmçinin kamal bərabərliyi, əzəmət və cəlal yerində möhkəmlənmiş Allahın əfvinə doğru bir yoldur.[321]

284. Əba ibni Osman bir vasitə ilə imam Baqir (ə)-dan nəql etmişdir ki, deyib: O həzrətə (ə) ərz etdim ki, nə üçün həccə, həcc deyilmişdir? Həzrət (ə) buyurdu: Filankəs həcc etdi — yə᾿ni səadətə nail oldu.

285. Həzrət imam Baqir (ə) buyurub: Özləri üçün bir sıra mənfəətlərə şahid olsunlar (həcc/28) — ayəsində mənfəətlər sözündən məqsəd, əfv və məğfirətdən ibarətdir.[323]

286. Səlmə ibni Mühriz nəql etmişdir ki, Ədul-vərd adlı bir şəxs həzrət imam Sadiq (ə)-ın yanına gəlib ərz etdi: Allahın rəhməti sənə olsun, ey kaş bədənini kəcavə (və səfər əziyyəti)-dan asudə edərdin!

Həzrət buyurdu: Ey Əbul-vərd! Mən Allah-taalanın (Liyəşhədu mənafiə ləhum — özləri üçün mənfəətlərə şahid olsunlar) buyurduğu mənfəətlərə şahid olmaq istəyirəm. Həqiqətən Allah-taala həccə gələn hər bir şəxsə xeyir bağışlayır. Siz bağışlanmış halda qayıdacaqsınız, başqalarının isə yalnız ailə və mal-dövləti qorunacaqdır.[324]

287. Rəbi᾿ ibni Həysəm nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-ı ağır xəstə halında gördüm ki, bir taxtın içinə qoyulub, Kə᾿bə ətrafında təvaf edilirdi. O həzrət (ə) hər dəfə Rükni-yəmaniyə çatdıqda yerə qoyulmasını göstəriş verir və daha sonra əlini o taxtın bir yerindən çölə çıxardaraq yerə vurur və bundan sonra təvafını davam etdirirdi. Bu işi hər dəfə təkrar etdikdə, o həzrətə (ə) ərz etdim: Ey peyğəmbər övladı! Sizə fəda olum! Bu iş sizin üçün çətindir. Həzrət (ə) buyurdu: Allahdan eşitmişəm ki, buyurdu: (Liyəşhədu mənafiə ləhum — özləri üçün mənfəətlərə şahid olsunlar).

Soruşdum: Dünya mənfəətləri, yoxsa axirət?

Həzrət (ə) buyurdu: Hamısı.[325]

288. Həzrət imam Rza (ə) Məhəmməd ibni Sənanın suallarının cavabında yazdı: Həccin səbəbi, Allahın (qonaqlığına) daxil olmaq, çoxluq tələb etmək,

günahlardan xaric olmaq, həmçinin öz keçmişindən tövbə edib, işləri bağışlamaqdan ibarətdir. Habelə həccdə sərvətləri xərcləmək, əziyyət və yorğunluq, bədənləri istəklər və ləzzətlərdən saxlmaq, ibadətdə isə Allaha yaxınlaşmaq, (Onun qarşısında) təvazökarlıq və zillət, həmçinin ardıcıl bir hərəkət olaraq isti və soyuqda və habelə asayiş və qorxuda çölə çıxmaq vardır. Bundan əlavə həcc (mərasimin)-də xalqın hamısı üçün bir sıra mənfəətlər və Allaha doğru şövq və rəğbət vardır. Həmçinin (həcc əməli) daş ürəkli olmaq, dəyərsizlik, qəflət və ümidsizliyi tərk edib, hüquqları təzələmək, canları fəsaddan saxlmaq və şərq, qərb, quruluq və dəryada olan hər bir kəsin fayda aparmasıdır. Habelə istər həcc (əməlini yerinə yetirən), istərsə də tacir, mal gətirən, satıcı, alıcı, kasıb və miskin kimi həcc etməyənlərin fayda aparmasından ibarətdir. Həmçinin ətraf yerlərdə yaşayan və orada toplaşa bilən yerlərin xalqlının öz mənfəətlərinə şahid olsunlar deyə, ehtiyaclarını oradan aparmaqdır.[326]

289. Hişam ibni Həkəm nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum: Nə üçün Allah-taala öz bəndələrini həccə gedib, Kəʾbə evini təvaf etməyə məʾmur etmişdir?

Həzrət buyurdu: Allah-taala xalqları yaratdı... (və daha sonra) onları dində itaətçilik, dünya işlərində isə məsləhətlərinə fərman verdi. Sonra şərq və qərbdən həcc (mərasimində) toplanmağı qərar verdi ki, (bu vasitə ilə) bir-birlərini tanısınlar. Həmçinin bu yolla kirayə verən və dəvəçi (də belə) fayda aparsın.

Beləliklə də həzrət Peyğəmbərin (s) əlamətləri və xəbərləri tanınıb, öyrənilsin və yaddan çıxmasın. Əgər hər millət öz şəhərləri və onlarda mövcud olan (imkanata) arxalansaydı, həlak olar, şəhərləri dağılar, malı cəlb edib (onlardan) fayda aparmaq aradan gedər, həmçinin xəbərlərdən agah olmazdılar. Bu (isə) həccin səbəbidir.[327]

290. Həzrət imam Sadiq (ə) buyurub: Kəʾbə bərpa olanadək, din də bərpa və möhkəm olacaqdır.[328]

291. Həzrət Fatimeyi Zəhra (ə) buyurub: Allah-taala imanı çirkdən paklaşmaq..., həcci isə dini cilvələndirmək üçün vacib etmişdir.[329]

## *HƏCCİN FƏZİLƏTİ*

1. İbrahim (ə)-ın çağırışlarının cavabı:

**Qurʾan:**

**«Xalq arasında həccə dəʾvət et (və beləliklə də) xalq piyada və arıq miniklərə minən halda hər bir uzaq yerdən gəlsinlər».[330]**

Hədis:

292. Həzrət imam Baqir (ə) buyurub: Allah-taala İbrahim (ə)-a (xalqı) həccə çağırmaq fərmanını verdikdə, o həzrət (ə) məqamının üzərinə çıxaraq Əbu Qubəys dağı ilə üz-üzə durdu və daha sonra xalqı həccə çağırıb (bu çağırışı)

qiyamət gününədək (ataların) belə və (anaların) rəhmində olanların qulağına çatdırdı.[331]

293. İbni Abbas nəql etmişdir ki, həzrət İbrahim (ə) Kə᾽bəni tikdikdən sonra Allah-taala ona xalqı həccə çağırmağı vəhy etdi və beləliklə də həzrət İbrahim (ə) dedi:

«Agah olun! Rəbbiniz bir evi seçmiş və onu ziyarət etməyinizi sizə fərman vermişdir.»

O həzrətin (ə) çağırışını eşidən hər bir kəs (və hətta) daş, təpə və torpaq «Ləbbəykəllahummə ləbbəyk» sözünü dedilər.[332]

294. Əliyyibni Cə᾽fər nəql etmişdir ki, həzrət imam Kazim (ə)-dan «ləbbəyk» deməyin vacibliyi barədə soruşduqda, həzrət (ə) buyurdu: Allah-taala İbrahimə (ə) Xalq arasında həccə çağır ki, sənə tərəf piyada halında gəlsinlər — göstərişini verdikdən sonra, bu çağırışı e᾽lan edib xalqın qulağına çatdırdı. Beləliklə də xalq hər tərəfdən «ləbbəyk» deyən halda (ona tərəf) üz gətirdilər. Elə buna görə də «ləbbəyk» demək vacib oldu.[333]

2. Zəiflərin cihadı:

295. Həzrət Peyğəmbər (s) buyurub: Həcc, hər bir zəif şəxsin cihadıdır.[334]

296. Əbdullah ibni Yəhya Kahili nəql etmişdir ki, imam Sadiq (ə)-ın həcc barədə söhbət etdiyini eşitdim. O həzrət (ə) buyurdu: O (həcc) iki cihaddan biridir (və) o zəiflərin cihadıdır, biz isə zəiflərik.[335]

297. Həzrət imam Hüseyn (ə) buyurub: Bir kişi həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: Mən qorxaq və zəifəm. Həzrət (s) ona buyurdu: Tikansız cihada doğru tələs! (Yə᾽ni) həcc (ə doğru tələs!)[336]

298. Ayişə nəql etmişdir ki, həzrət Peyğəmbərin (s) həyat yoldaşları o həzrətdən (s) cihad haqqında soruşduqda buyurdu: Həcc, yaxşı bir cihaddır.[337]

299. Ayişə həzrət Peyğəmbərə (s) dedi: Ey Allahın elçisi! Biz cihadı ən üstün bir əməl bilirik, cihada getməyəkmi?

Həzrət (s) buyurdu: Xeyr, lakin cihadın daha üstünü, yaxşı bir həcc (əməlindən) ibarətdir.[338]

3. Cihaddan sonra ən üstün əməl:

301. Əbu Hüreyrə nəql etmişdir ki, həzrət Peyğəmbərdən (s) soruşdular: İşlərin hansı daha fəzilətlidir? Həzrət (s) buyurdu: Allaha və onun Peyğəmbərinə iman gətirmək.

Soruşdular: Ondan sonra (hansı əməl üstündür?) həzrət buyurdu: Allah yolunda cihad etmək. Dedilər: Ondan sonra hansı (əməl üstündür)? Həzrət (s) buyurdu: Qəbul olunmuş həcc əməli.[340]

302. Həzrət imam Sadiq (ə) buyurub: Qılınc ilə qiyam edib, şəhid olanadək Allah yolunda vuruşandan başqa, Allah yollarından heç biri həccədən üstün deyildir.[341]

303. Bir kişi imam Səccad (ə)-ın hüzuruna gəlib dedi: Həcci cihaddan üstün tutmusan? Bir halda ki, Allah-taala buyurur: (Allah mö᾽minlərin can və mallarını behişt müqabilində alır...)[342]

İmam Səccad (ə) buyurur: Ardını da oxu: (...Tövbə edənlər, ibadət edənlər...), ayənin sonuna çatdıqda buyurdu: Hər gah bunları görsən, o gün cihad onlarla birlikdə həccdən üstün olacaqdır.[343]

4. Həccin namaz və orucdan üstünlüyü:

304. Həzrət Peyğəmbər (s) buyurub: Qəbul olunmuş bir həcc (əməli), iyirmi müstəhəb namazından üstündür. Hər kəs bu evi təvaf edib, onu yeddi dəfə sayaraq iki rəkət (təvaf) namazını yaxşı yerinə yetirərsə, Allahd-taala onu bağışlayar.[344]

305. Həzrət imam Sadiq (ə) buyurub: Atam (imam Baqir (ə)) buyururdu: Həcc, namaz və orucdan daha üstündür. Namaz qılan şəxs vaxtından bir saatını öz ailəsindən ayırır. Oruc tutan şəxs isə bir gün (müddətindən öz ailəsindən ayrı qalır.) Amma həccə gedən şəxs heç bir pul və ticarət niyyəti olmadan öz bədənini əziyyətə və özünü narahatçılıq və darıxmağa atır və pulunu xərcləyib uzun müddətə qədər öz ailəsindən uzaqlaşır.

Atam (ə) buyurdu: Öz ailəsi ilə gələn kişidən kim üstün ola bilər? Bir halda ki, xalq ərəfatda, sağ və sol tərəflərdə durmuşdur ki, onları həccə gətirir və onlarla birlikdə Allahdan istəyir.[345]

5. Həcc, sədəqə verməkdən üstündür:

306. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət Peyğəmbər (s) Minadan hərəkət etdikdə səhrada yaşayan bir ərəb, «Əbtəh»*də o həzrətlə (s) üzləşib dedi: Ey Allahın elçisi! Mən həcc niyyəti ilə (evdən) xaric olmuşam, lakin bir maneə məni həccdən saxlamışdır. Mən varlı və pullu bir adamam. Hacların savabına nail olum deyə, pulumu xərcləmək üçün mənə bir göstəriş ver.

Həzrət Peyğəmbər (s) üzünü «Əbu Qubəys» dağına tutub buyurdu: «Əbu Qubəys» dağı miqdarında qızılın olub, onları Allah yoluqnda infaq etsəydin, heç vaxt həcc əməlini əncam verən şəxsin savabına çata bilməzdin.[346]

307. Əbdürrəhman ibni Əbi-əbdillah nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim: Bu nağıl qoşanların bə᾽zisi deyir ki, əgər bir şəxs bir dəfə həccə gedib (növbəti dəfədə həccə getmək əvəzinə) sədəqə verib, qohum-

əqrəbaya baş çəkərsə, bu (əməl) onun üçün (həccdən) daha üstündür.

Həzrət imam Sadiq (ə) buyurdu: Onlar yalan demişlər. Əgər xalq bu cür etsə, həcc (mərasimi) tə`til olar. Həqiqətən Allah-taala bu evi xalq üçün qiyam yeri qərar vermişdir.[347]

**Bəyan:**

Qeyd olunmuş sonuncu rəvayət və habelə sair rəvayətlərdən belə başa düşülür ki, həccin sədəqədən üstün olması, həcc əməlinin çətinliyi və əziyyəti üçün sədəqəyə üz gətirərək bu böyük mərasimi tə`til edib, zəiflətmək hallarına aiddir. Beləliklə də hal-hazırda hacıların sayı müqəddəs məkanların tutumundan çox olduğu üçün, qeyd olunmuş məsələ qarşıya çıxmaz və belə bir halda sədəqə vermək, həccə getməkdən çox üstün sayılır. Sözümüzün şahidi Əbu Bəsirin Həzrət imam Baqir (ə)-dan nəql etdiyi rəvayətdən ibarətdir ki, o həzrət (ə) buyurur: Müsəlman ailələrinin yaşayış xərcini ödəyib, onları doyuzdurmaq və habelə onları geyindirib xalqdan ehtiyacsız etməyim, mənim nəzərimdə yetmiş dəfə həccə getməkdən daha sevimlidir.

Qeyd etmək lazımdır ki, bu müqayisələr vacib və həcc və sədəqəyə deyil, əksinə müstəhəb olan həcc və sədəqəyə aiddir. Çünki heç bir əməl vacib bir əməldən qabaq ola bilməz.

6. Həcc yolunda pul xərcləməyin fəziləti:

308. Həzrət Peyğəmbər (s) buyurub: Həcc yolunda infaq etməyin Allah yolunda yeddi yüz dəfə infaq etmək bərabərində savabı vardır.[348]

309. Həzrət imam Əli (ə) «Dörd yüz moizə» hədisində buyurub: Bir nəfərin həcc yolunda xərclədiyi bir dirhəm min dirhəmə bərabərdir.[349]

310. Həzrət imam Sadiq (ə) buyurub: Həcc yolunda xərclədiyin bir dirhəm, haqq yolunda xərclədiyin iyirmi min dirhəmdən üstündür.[350]

311. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs həcc yolunda bir dirhəm xərcləsə, (bu bir dirhəm) onun üçün haqq yolunda xərclədiyi yüz min dirhəmdən daha üstündür.[351]

312. Həzrət imam Sadiq (ə) buyurub: «Həcc yolunda xərclənən bir dirhəm, Allah yolunda xərclənən iki milyon dirhəmdən üstündür».[352]

7. Həcc üçün borc almağın yaxşı olması:

313. Uqbə nəql etmişdir ki, Sədir Səyrəfi mənim yanıma gəlib dedi: Həzrət imam Sadiq (ə) sənə salam çatdırır və buyuru ki, nə üçün həccə getmirsən? Borc alıb həccə get.[353]

314. Müaviyətibni Vəhəb müxtəlif sənədlərlə nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim: Mən borclu bir adamam. Borc alıb həccə gedə bilərəmmi? Həzrət (ə) buyurdu: Bəli, həcc borcu yaxşı ödəyir.[354]

8. İmam Zaman (ə)-ın hər il həccə gəlişi:

315. Həzrət imam Sadiq (ə) buyurub: Xalq həcc mərasimində hazır olan bir imamı görmürlər. (İmam) onları görür, onlar isə imamı görmürlər.[355]

316. Məhəmməd ibni Osman Əmri buyurub: And olsun Allaha ki, həzrət Sahibbəz-zəman (ə) hər il həcc mövsümündə hazır olur, xalqı görür və tanıyır. Xalq isə onu görür amma tanımırlar.[356]

317. Əbdullah ibni Cə`fər Himyəri nəql etmişdir ki, Məhəmməd ibni Osman Əmridən soruşdum: Həzrət imam Zamanı (ə) görmüsənmi? Dedi: Bəli, sonuncu dəfə o həzrət (ə)-ı Allah evinin kənarında gördüm ki, belə deyirdi: İlahi! Mənə və`də verdiyini həyata keçir! Məhəmməd ibni Osman (r.ə.) dedi: Həmçinin o həzrəti (ə) «Müstəcar»da gördüm ki, Kə`bənin pərdələrin tutub belə deyirdi:

İlahi! Mənim intiqamımı öz düşmənlərindən al.[357]

318. Əbu Məhəmməd Həsən ibni Vəcna nəql etmişdir ki, — əncam verdiyim 54-cü — həccin dördüncü Ömrə əməlindən sonra novdanın altında səcdə halında dua etməyə məşğul idim ki, bir nəfər məni sirkələyərək dedi: Ey Həsən ibni Vəcna qalx ayağa!

Bədənim lərzəyə düşdü və ayağa qalxdıqda qırx yaşlı arıq və üzünün rəngi saralmış bir qadını gördüm. O qabaqda gedir, mən isə ondan bir söz soruşmurdum. Həzrət Xədicə (ə)-ın evinə çatdıqda orada ortasında qapısı olan bir otaq var idi ki, taxta pilləkən ilə ondan yuxarı gedirdilər. O qadın yuxarı qalxdıqda, belə bir səs qulağıma çatdı ki, deyirdi: Həsən! Gəl yuxarı. Mən də yuxarı qalxıb, otağın kənarında durdum.

Həzrət Sahibbəz-zaman mənə buyurdu: Ey Həsən! Elə güman etdin ki, mənim gözümdən gizlisən? And olsun Allaha ki, bütün həcclərində səninlə birgə olmuşam.

Daha sonra onları mənim üçün saymağa balşadıqda üzü üstə yerə düşdüm. Daha sonra bir əlin bədənimə toxunmasını hiss edib ayağa qalxdım. Həzrət (ə) mənə buyurdu: Ey Həsən! Mədinədə Cə`fər ibni Məhəmməd (ə)-ın evindən müğayət ol və su, yemək və paltar fikrində olma.

Sonra mənə yazılmış bir (kağız) verdi ki, onda «fərəc duası» və o həzrət (ə)-a salavat var idi.

Həzrət (ə) buyurdu: Bu dua ilə məni çağır və mənə salavat göndər. Amma onu mənim xüsusi dostlarımdan başqa heç bir kəsə vermə. Həqiqətən Allah-taala sənə tofiq verəcəkdir.[358]

319. Məhəmməd ibni Əhməd Ənsari nəql etmişdir ki, (Məkkədə) Müstəcar kənarında təqribən otuz nəfər ilə birgə əyləşmişdik və Məhəmməd ibni Qasimdən başqa onların heç biri müxlis (yə`ni şiə) deyildi. Biz bu vəziyyətdə 293-cü ilin Zi-hiccə ayının altıncı günündə (Müstəcar ətrafında) əyləşmişdik ki, elə bu vaxt ayaqqabıları əlində olan və iki ehram paltarı geyinmiş gənc bir oğlanın təvafdan xaric olduğunu gördük. Onu gördükdə heybətinin tə`siri altına düşüb hamılıqla ayağa qalxdıq.

O isə bizə salam verib aramızda əyləşdi. Daha sonra sağ və sol tərəfə baxıb dedi: Bilirsinizmi ki, imam Sadiq (ə) (ilhah) duasında nə deyirdi? (Dedik: nə deyirdi?) Buyurdu: (O həzrət belə) deyirdi:

«İlahi! Səni elə bir adla çağıraram ki, göy və yer o adla durur, onun vasitəsilə haqq və batil arasını ayırd edir və onunla pərakəndə olanları (bir yerə) toplayırsan. Onun vasitəsilə qumların ədədi, dağların ağırlığı və dəryaların ölçüsünü sayırsan. Səni çağırıram ki, Məhəmməd və onun Əhli-beytinə salavat göndərib, məni işimdə çıxış yolu qərar verəsən». Daha sonra ayağa qalxıb, yenidən təvafa daxil oldu və onun ayağa qalxması ilə təvafa qayıdanadək biz də ayağa qalxdıq. Amma onun kim olduğunu öyrənməyi yaddan çıxartdıq.

Sabahısı gün yenə də təvafdan xaric olub bizə tərəf gəldi və sağ və sol tərəflərə baxdıqdan sonra dedi: Əmirəl-mö᾽minin Əli (ə)-ın vacib namazdan sonra nə dediyini bilirsinizmi? Soruşduq: Nə deyirdi? Buyurdu: (O həzrət) belə deyirdi: Səslər Sənə tərəf ucalmış (və dualar Sənə tərəfdir). Üzlər Sənə görə xaşe᾽ (qorxan) olmuş və boyunlar Sənin üçün aşağı düşmüşdür. Əməllərdə hökm vermək Sənə məxsusdur. Ey daha üstün çağrılmış və ey daha yaxşı bağışlayan! Ey düz danışan! Ey xaliq! Ey və᾽dəsinə yalançı çıxmayan! Ey dua etməyə göstəriş verib, icabət və᾽dəsi buyuran! Ey «çağırın məni, icabət edim sizi» deyən! Ey — «hər gah bəndələrim səndən mənim haqqımda soruşsalar, həqiqətdə mən daha yaxınam, dua edənin duasını icabət edirəm. Beləliklə məni icabət etsinlər və artım yolu tapsınlar deyə, mənə iman gətirsinlər» — (sözünü) deyən!

Ey — «özlərinə israf etmiş bəndələrim! Allah rəhmətindən naümid olmayın, Allah bütün günahları bağışlayır. Həqiqətən O bağışlayan (və) mehribandır — (sözünü) deyən!

Ləbbeyk və sə᾽dəyk, indi isə bu mənəm, qarşında (olan) israfkar (mənəm) və Sən bu — «Allah rəhmətindən mə᾽yus olmayın. Allah bütün günahları bağışlayır» — sözünü deyənsən.

O daha sonra sağ və sol tərəfə baxıb dedi: Əmirəl-mö᾽minin Əli (ə)-ın şükr səcdəsində nə dediyini bilirsinizmi? Soruşduq: Nə deyirdi? Dedi: (O həzrət şükr səcdəsində) belə deyirdi: Ey o kəs ki, çoxlu bəxşiş ona vüs᾽ət və ətadan başqa bir şey artırmır! Ey xəzinələri sonsuz olan! Ey asimanlar yer xəzinələrinin maliki! Ey kiçik və böyük xəzinələrin maliki! Məni pisliyim Sənin yaxşı etməyinə mane olmur. Sən özünə layiq olan tərzdə mən ilə rəftar edirsən. Sən bəxşiş və səxavət əhlisən, əfv və güzəşt (edənsən). Pərvərdigara! Ey Allah! Mən ilə layiq olduğum tərzdə rəftar etmə. Həqiqətən mən cəzalanmağa layiqəm və bu mənim haqqımdır. Sənin qarşında da heç bir dəlil və üzrüm yoxdur. Bütün günahlarımla Sənin yanına gəlir və onları e᾽tiraf edirəm ki, məndən güzəşt edəsən. Və Sən onlara məndən daha çox agahsan. Mürtəkib olduğum hər bir günah, çiynimə çəkdiyim hər bir xəta və əncam verdiyim hər bir pis işlə Sənə tərəf qayıdıram. Pərvərdigara! Bağışla, rəhm et

və bildiyin (günahlarımdan) güzəşt et ki, həqiqətən Sən daha qüdrətli və daha kəramətlisən.

O (gənc bu sözlərdən sonra) ayağa qalxıb təvafa daxil oldu və onun qalxmağı ilə bizdə hamılıqla ayağa qalxdıq.

Sabahısız gün yenə də o vaxtda qayıtdı və ötən günlər kimi, onun gəlişi ilə ayağa qalxdıq. O, bizim aramızda əyləşərək sağ və sol tərəfə baxdıqdan sonra dedi: İmam Zeynül-abidin (ə) bu yerdə — əlilə Hicr və novdanın altına işarə etdi — öz səcdəsində belə deyirdi:

«Kiçik bəndən qapın ağzındadır, çarəsiz bəndən qapın ağzındadır. Möhtacın dərgahındadır. Sənin istəyinin dərgahındadır. Səndən elə bir şey istəyir ki, Səndən başqa ona heç kəs qadir deyildir».

Daha sonra sağ və sol tərəfə baxıb bizim aramızda Məhəmməd ibni Qasimə nəzər edərək dedi: Ey Məhəmməd ibni Qasim! İnşəallah sən xeyir və yaxşılıq yolundasan — Məhəmməd ibni Qasim şiə idi — sonra ayağa qalxıb təvafa daxil oldu.

Biz isə onun oxuduğu duanı qəlbimizə salıb yadda saxladıq, amma onun haqqında söhbət etməyi unutmuşduq. Sonuncu gündə Əbu Əli Məhmudi dedi: Onu tanıyırsınızmı? And olsun Allaha ki, o, sizin sahibbəz-zamanınızdır. Dedim: Ey Əbu Əli! Haradan bildin? Dedi: O yeddi il müddətində qalıb Alladan həzrət Sahibbəz-zamanı görməsini istəmişdir.

Dedi: Bir dəfə ərəfə gününün gün batan çağı onu əzbərlədiyim bu duanı oxuyan halda gördüm. Ondan soruşdum: Bu dua kimdəndir? Dedi: Xalqdandır! Dedim: Hansı xalqdan? Dedi: Ərəb xalqından.

Dedim: Ərəb xalqının hansı tayfasından? Dedi: Onların daha şərafətlisindəndir. Dedim: Onlar kimdir? Dedi: Bəni-haşim. Dedim: Bəni-haşimin hansından? Dedi: Ən üstün, daha qabaqcıl və daha parlaq nəslə malik olanlardandır. Dedim: Kimlərdən? Dedi: Düşmənin başını ayrıcından yaran, (məhrumlara) yemək yedizdirən və xalq yuxuda olarkən namaz qılan (şəxsdəndir). Mən onun şiə olduğunu başa düşdüm və şiə olduğu üçün qəlbimdə ona qarşı əlaqə yarandı. Daha sonra onu öz qarşımda itirdim və hara getdiyini başa düşmədim. Onun ətrafında olanlardan soruşdum: Siz bu şiəni tanıyırsınızmı? Dedilər: Bəli, hər il bizlə birlikdə piyada olaraq həccə gəlir. Dedim: Sübhanəllah! And olsun Allaha ki, onda piyada getmək əlamətlərini görmürəm.

Ondan ayrıldığım üçün qəm-qüssə halında «müzdələfə»yə gəlib o gecəni orada yatdım. Yuxu aləmində həzrət Peyğəmbəri (s) gördüm ki, mənə buyurdu: Ey Əhməd! İstədiyini gördünmü? Soruşdum: Ey mənim sərvərim! O kimdir? Buyurdu: Dünən gecə gördüyün şəxs sənin Sahibbəz-zamanın idi.

Məhəmməd ibni Əhməd deyir: Biz bu sözü ondan eşidən kimi, onları bundan qabaq bizə demədiyi üçün onu danlamağa başladıq. O isə belə dedi: O, (həzrət) biz ilə bu barədə danışdığı müddətdə bu mətləbi unutmuşdum.[359]

## *HƏCCİN SAVABI*

320. Həzrət Peyğəmbər (s) buyurub: Gözəl həccin savabı, behiştdən başqa bir şey deyildir.[360]

321. Həzrət Peyğəmbər (s) buyurub: Hər ömrə (əməli) növbəti ömrə (əməlinədək fasilədə olan günahların) kəffarəsi, qəbul olunmuş həccin savabı isə Behiştdir.[361]

322. Həzrət Peyğəmbər (s) buyurub: Həcc (əməlini) əncam verən şəxs hər bir «Sübhanəllah», «La ilahə illəllah» və «Allahu əkbər» deməklə ona bir müjdə verilir.[362]

323. Həzrət Peyğəmbər (s) hacıların dəvə karvanına baxıb buyurub: Onların götürdüyü hər bir addım üçün savab yazılır və qoyduqları hər bir addım üçün günahlarının bir aradan aparılır. Həcc əməllərini sona yetirdikdən sonra onlara deyilir: Bir ev tikdiniz, beləliklə onu viran etməyin. Keçmiş günahlarınız bağışlanmışdır. Gələcək üçün yaxşı işlər əncam verin.[363]

324. Həzrət Peyğəmbər (s) buyurub: Hacılar üç növdür: (Onların arasında) daha çox bəhrə görən (hacı) keçmiş və gələcək günahları bağışlanan və Allahın onu qəbr əzabından saxlayan şəxsdir. Ondan sonra keçmiş günahları bağışlanan şəxsdir ki, ömrünün ardında (yaxşı əməlləri əncam verməyə) başlamalıdır. Ondan sonra isə yalnız ailə və mal-dövləti qorunan şəxsdir.[364]

325. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs həcc və ömrə (əməlləri) üçün evindən xaric olarsa, onun hər bir addımı müqabilində yarpağın ağacdan töküldüyü kimi, bədənindən günahları tökülər. Mədinəyə daxil olub, mən ilə salamla görüşdükdə, mələklər (də) onunla salam ilə görüşərlər. Zul-huləyfə daxil olub, qüsl etdikdə, Allah-taala onun günahlarını pak edər. İki ədəd təzə paltar geyindikdə, Allah-taala onun üçün savabları təzələyər.

«Ləbbəyk əllahummə ləbbəyk» dedikdə, Allah-taala da «Ləbbəyk və səˋdəyn» ilə onun cavabında buyurar: «Sözünü eşitdim və sənə baxıram». Məkkəyə daxil təvaf və habelə Səfa və Mərva dağları arasında səˋy etdikdə Allah-taala xeyir əməlləri onun üçün ardıcıl edər. Ərəfat (çölündə) dayanıb, səslər, hacətlər üçün ucaldıqda Allah-taala onlar üçün yeddi asiman mələklərinə fəxr edərək, buyurar: Ey mələklərim və asimanlarımın sakinləri! Hər bir dərin dərə (və uzaq yoldan) toz-torpaq içində mənim yanıma gələn bəndələrimə baxmırsınızmı? (Onlar) pulları xərcləyib, bədənlərini əziyyətə salmışlar. İzzətim və əzəmətimə and olsun ki, onların pis əməl sahibini, yaxşı əməl sahibinə xatir bağışlayıb, günahlardan amanda olduqları kimi, xaric edəcəm.

Şeytanı daşlayıb, başları qırxaraq Kəˋbəni ziyarət etdikdə, ərşin daxilindən bir nidaçı belə nida edər: Qayıdın ki, bağışlandınız və (saleh) əməlləri yenidən başlayın.[365]

326. Həzrət Peyğəmbər (s) Ənsardan olan bir kişiyə buyurdu: Bil ki, sən həcc yoluna üz tutub, öz miniyinə minərək «Bismillah» deyib, miniyin

hərəkət edən vaxt, Allah-taala miniyinin atdığı hər bir addım müqabilində sənə bir savab yazıb, bir günahını aradan aparar.

Ehram bağlayıb, ləbbəyk dedikdə, Allah-taala hər bir ləbbəyk müqabilində sənin üçün on savab yazıb, on günahı aradan aparar. Allah evini yeddi dəfə təvaf etdikdə, ondan sonra Allahın sənə əzab verməkdən həya etməsi barədə Onun yanında bir əhdin və zikrin olacaqdır.

İbrahim məqamının kənarında namaz qıldıqda, Allah-taala onun üçün sənə iki min rükət qəbul olunmuş namaz yazar. Səfa və Mərva dağları arasında yeddi dəvə səʾy etdikdə Allah-taala yanında öz diyarından piyada həccə gələn şəxs kimi savabı nail olacaq və yeddi yüz möʾmin qulu azad edən şəxs kimi savab qazanacaqsan.

Günəş batanadək Ərəfatda dayandıqda, günahların səhralar və dəryaların diblərinin qumları qədər olsa belə Allah tərəfindən bağışlanar.

Xırda daşları «cəmərə»lər vurduqda, Allah-taala hər daşın müqabilində ömrünün ardında on savab yazar. Başını qırxdıqda, Allah-taala hər tükün müqabilində ömrünün davamında bir savab yazar. Qurbanlığını və ya dəvəni kəsdikdə, onun hər damcısı üçün ömrünün ardında bir savabı olacaqdır. Allah evinin ətrafında yeddi dəfə təvaf edib, İbrahim məqamında iki rəkət namaz qıldıqda uca məqamlı bir mələk çiyninə vurub deyər: Keçmiş günahların bağışlandı, indidən qarşında olan yüz iyirmi günədək (saleh) əməllərini yenidən başla.[366]

327. Həzrət imam Baqir (ə) buyurub: Həccə (getmək istəyən şəxs) səfər ləvazimatını hazırladıqda, bu yolda onu sona çatdıranadək götürdüyü hər bir addımı üçün Allah-taala ona on savab yazıb, on günahını bağışlayır və onun üçün on dərəcə artırır. Miniyi ilə həccə doğru düzəldikdə, Allah-taala onun hər bir addımı üçün əməllərini sona çatdıranadək o savabı yazır. Əməllərini sona çatdırdıqda, Allah-taala onu günahlarını bağışlayar və Zi-hicc, Məhərrəm, Səfər və Rəbiul-əvvəl aylarında onun üçün savablar yazılar, amma günahları yazılmaz. Böyük bir günah əncam verdikdə isə, günahı yazılar. Bu dörd ay keçdikdən sonra sair camaat kimi olub, onlara qarışmış olar.[367]

328. Həzrət imam Sadiq (ə) buyurub: Möʾmin bəndə həcc niyyəti ilə evindən xaric olduqda, Allah-taala onun miniyinin hər bir addımı müqabilində ona bir savab yazıb, bir günahını aradan aparar və onun üçün bir dərəcə artırar. Ərəfatda dayandıqda, günahları torpaq dənələri qədər olsa belə anasında doğulduğu kimi qayıdar və günahsız olar. Həmçinin ona deyilər: Saleh əməllərini yenidən başla.

Allah-taala buyurur: Hər kəs tələsib Allah zikrini iki gündə və hər kəs onu təʾxirə salıb üç gündə əncam verərsə onun üçün heç bir günah yoxdur; təqvalı olanlar üçün.[368]

329. Həzrət imam Sadiq (ə) buyurub: Hacılar üç halda həccdən qayıdırlar: Bir dəstə cəhənnəm odundan nicat tapır, bir dəstənin günahları ondan

doğulduğu gün kimi paklaşır, bir dəstənin isə yalnız ailə və mal-dövləti qorunur ki, bu da hacının özü ilə gətirdiyi ən az bir şeydir.[369]

330. Müştəil Əsədi nəql etmişdir ki, bir dəfə həccə getmişdim. Qayıdarkən Həzrət imam Sadiq (ə)-ın hüzuruna çatdım. Həzrət (ə) soruşdu: Müştəil! Haradan gəlirsən? Ərz etdim: Sənə fəda olum! Həccə getmişdim. Həzrət (ə) buyurdu: Hacını nə kimi savaba maliki olduğunu bilirsənmi? Dedim: Sizdən öyrənirəm. Həzrət (ə) buyurdu: Bəndə bu evin ətrafında yeddi dəfə təvaf etdikdən sonra iki rəkə təvaf namazı qılıb, Səfa və Mərva dağları arasında səʾy etdikdə, Allah-taala onun üçün altı min savab yazıb, altı min günahını bağışlayar və onun üçün altı min dərəcə artırar. Həmçinin onun altı min dünyaya aid hacətlərini həyata keçirib bu miqdar hacətlərini axirəti üçün saxlayar.

Dedim: Sənə fəda olum, bu çox böyük savabdır! Buyurdu: Bundan daha çox və böyük olanını sənə deyimmi? Dedim: Bəli. Həzrət (ə) buyurdu: Bir möʾminin hacətini həyata keçirmək on həccdən üstündür.[370]

331. Həzrət imam Sadiq (ə) buyurub: Musa peyğəmbər (ə) həcc əməlini əncam verdikdə Cəbrail (ə) nazil oldu və Musa (ə) ona dedi: ...Düzgün niyyət və halal pul ilə bu evi ziyarət edənin savabı nədir? Cəbrail (ə) Allaha tərəf qayıtdı və Allah-taala həzrət Musa (ə)-a bu sözləri çatdırmağı ona vəhy etdi: Ona de ki, belə bir şəxsi daha uca olan mələkut aləmində peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə birgə qərar verərəm və bunlar necə də yaxşı rəfiqlərdir![371]

332. Həzrət imam Sadiq (ə) buyurub: Qəbirdə olan şəxs arzu edir ki, ey kaş dünya və dünyada olanların müqabilində bircə həcc əməlini yerinə yetirmiş olaydı.[372]

## *ARDICIL OLARAQ HƏCCƏ GETMƏK*

1. Hər ildə həccə getməyə təʾkid olunması:

333. Əzafir nəql etmişdir ki, imam Sadiq (ə) məndən soruşdu: Hər il həccə getməyinə maneə olan nədir? Dedim: Sənə fəda olum, əyalım buna maneə olur.

Buyurdu: Ölsən, ailənə kim kömək edəcəkdir? Ailənə sirkə və zeytun yağı yedizdir, amma hər ildə onları həccə apar.[373]

334. Həzrət imam Sadiq (ə) İsa ibni Mənsura buyurdu: Duz və çörək yeyib, amma hər il həccə getməyi bacarsan belə et.[374]

335. Əbu Həmmam nəql etmişdir ki, həzrət imam Rza (ə)-a dedim: Əlinə pul çatan borclu bir şəxs, o pul ilə borcunu ödəsin yoxsa həccə getsin? Həzrət (ə) buyurdu: Onun bir hissəsi ilə borcunu ödəyib, qalan hissəsi ilə həccə getsin. Dedim: Onun əlinə çatan pul yalnız həcc səfərinin məxarici qədərdir. Həzrət (ə) buyurdu: Bir il borcunu ödəyib, o biri il həccə getsin. Dedim: Bu pul hökumət tərəfindən verilsə necə? Həzrət (ə) buyurdu: Sizin üçün heç bir eybi yoxdur.[375]

336. Həzrət imam Sadiq (ə) buyurub: Hər il həccə getməyinizə mane olan nədir? Dedilər: Pulumuz çatmır. Həzrət (ə) buyurdu: Sizlərdən birinizin qardaşı həccə getdikdə, ona bir qurbanlıq pulunu verib, onun tərəfindən yeddi dəfə təvaf edərək qurban kəsməsini istəməsi həmçinin ərəfə günü olduqda ehram paltarlarını geyinərək məscidə gedib günəş batanadək ardıcıl olaraq dua etməyi bacarmırmı?[376]

2. Hər ildə həccə getmək üçün dua:

337. Həzrət imam Səccad (ə) öz duasında belə buyururdu: İlahi! Həcc, ömrə və peyğəmbərinin qəbrini — salavat və rəhmətin ona və əhli-beytinə olsun — ziyarəti ilə həmişə məni diri saxladığın vaxta qədər, bu il və hər il (də) mənə minnət qoy. Bu həcc və ziyarəti məndən qəbul edib, savab almış qərar ver ki, Sənin yanında yad olaraq gizli qalsın.[377]

338. Həzrət imam Səccad (ə) belə buyururdu: İlahi! Öz ne῾mət verməyini mənə tamamla ki, Sən ne῾mət verənlərin daha yaxşısısan və ey aləmlərin Pərvərdigarı! ömrünü ardını həcc və ömrə əməllərində Sənin razılığını əldə etmək üçün qərar ver.[378]

339. Həzrət imam Sadiq (ə) buyurub: İşa namazının nafiləsini qurtardıqdan sonra belə de: İlahi! Cilvə, ucalıq, gözəllik və əzəmətin (ehtiramına)... Səndən istəyirəm ki, həcc və ömrə əməllərini bu il və hər ildə mənə ruzi edib, gözümü günahdan yumaraq məni iffətli saxlayasan. Həmçinin ruzi genişləndirib, hər bir pislikdən qoruyasan. Ey mehribanların mehribanı![379]

340. Həzrət imam Sadiq (ə) buyurub: Ramazan ayının hər gecəsində belə de: İlahi! Ey Ramazan ayının Pərvərdigarı! Qur῾anın nazil etdiyin və bu ayda bəndələrinə oruc tutmağı vacib etdiyin (ayın Pərvərdigarı!) Məhəmməd və onun Əhli-beytinə salavat göndərib, bu il və hər ildə öz evinin həcci və peyğəmbərin və imamların (ə) qəbrinin ziyarətini mənə ruzi et.[380]

341. Həzrət imam Sadiq (ə) və imam Kazim (ə)-dan nəql olunmuşdur ki, Ramazan ayının əvvəlindən sonunadək hər vacib namazdan sonra belə de: İlahi! Bu il və məni diri saxladığın bütün illərdə asanlıq, sağlamlıq və ruzi bolluğu ilə öz evinin həccini mənə ruzi et. Və məni bu dəyərli yerlər, şərafətli hərəmlər və peyğəmbərinin qəbr ziyarətindən uzaq salmayıb, bütün dünya və axirət hacətlərimdə məni üçün ol.

İlahi! Səndən istəyirəm ki, qədr gecəsində heç vaxt dəyişilməyən təqdir etdiyin və buyurduğun fərmanda məni də öz evinin — həccləri qəbul olunmuş, təlaşlarından təşəkkür edilmiş, günahları bağışlanmış və pislikləri örtülmüş — hacılarından qərar verəsən. Həmçinin hökm verib, təqdir etdiyin (müqəddəratda) ömrünün öz itaəti üçün uzanması, ruzimin çoxalması və əmanət və borcumun məndən əda olunmasını da qərar ver.

Amin ya rəbbil aləmin.[381]

3. Ardıcıl olaraq həccə getməyin nəticələri:

342. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs dünya və axirəti istəyirsə, bu evin ziyarətinə getsin və Məkkədən qayıdaraq gələn il də həccə getməsini niyyət edən şəxsin ömrü çoxalar.[382]

343. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs ardıcıl olaraq həcc və ömrəyə gedərsə, yoxsulluq və qızdırma ona üz gətirməz.[383]

344. Həzrət Peyğəmbər (s) buyurub: Həcc və ömrəyə çoxlu getmək, yoxsulluğun qarşısını alır.[384]

345. Həzrət imam Sadiq (ə) buyurub: Çoxlu həcc və ömrəyə getmək, yoxsulluq və pis ölmü uzaqlaşdırır.[385]

346. Həzrət imam Sadiq (ə) buyurub: Bu (Kə`bə) evinin ziyarətinə gedin və Allah evini ardıcıl olaraq ziyarət edin. Çünki, ardıcıl olaraq həccə getməklə dünya giriftarçılıqları və qiyamət qorxuları sizdən uzaqlaşdırılır.[386]

347. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs ömründə iki dəfə həccə gedərsə ölənədək həmişə xeyir içində olar.[387]

348. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs üç dəfə həccə gedərsə heç vaxt yoxsul olmaz.[388]

349. Mənsur ibni Hazim nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum: Dörd dəfə həccə gedən şəxsin savabı nədir? Həzrət (ə) buyurdu: Ey Mənsur! Dörd dəfə həccə gedən şəxsə heç vaxt qəbr əzabı çatmayacaqdır.[389]

350. Əbu Bəkr Həzrəvi nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan soruşdum: Beş dəfə həccə gedən şəxsin savabı nədir? Həzrət (ə) buyurdu: Hər kəs beş dəfə həccə gedərsə, Allah-taala heç vaxt ona əzab verməz.[390]

351. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs on dəfə həccə gedərsə Allah-taala heç vaxt ondan hesab çəkməz.[391]

352. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs iyirmi dəfə həccə gedərsə cəhənnəmi görməyəcək və onun səsini eşitməyəcəkdir.[392]

353. Həzrət imam Kazım (ə) buyurub: Hər kəs qırx dəfə həccə gedərsə ona deyilər: İstədiyin hər hansı bir şəxsi şəfat et. (Həmçinin) behişt qapılarından biri onun üzünə açılar və beləliklə də o və şəfatə etdiyi şəxslər o qapıdan (behiştə) daxil olarlar.[393]

354. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs əlli dəfə həccə gedərsə, Allah-taala behiştdə onun üçün yüz min qəsri olan bir şəhər yaradar ki, hər qəsrdə behişt hurilərindən bir huri və min zövcə olar. Həmçinin belə bir şəxs behiştdə Həzrət Peyğəmbər (s)-ın dostlarından olar.[394]

355. Həzrət imam Rza (ə) buyurub: Hər kəs əlli dəfədən çox həccə gedərsə, Həzrət Peyğəmbər (s) və onu canişinləri ilə — Allahın rəhməti onlara olsun — əlli dəfə həccə getmiş bir şəxs kimi olar, həmçinin Allah-taalanın hər cümə günu ziyarət etdiyi şəxslərdan olar və Allahın öz əli (qüdrəti) ilə yaratdığı daha uca behiştə daxil olanlardan olar ki, heç bir göz onu görməmiş və heç bir məxluq ondan agah deyildir.

Hər kəs çoxlu olaraq həccə gedərsə, Allah-taala hər bir həccin müqabilində ona behiştdə otaqları olan bir şəhər verər ki, hər bir otaqda xalqın heç vaxt onların gözəlliyinin oxşarını görmədiyi üç yüz kənizlə birlikdə olan bir behişt hurisi vardır.[395]

4. Ardıcıl olaraq həccə getməyin mə`nası:

356. Həzrət imam Sadiq (ə) buyurub: Bir il fasilə ilə həccə gedən şəxs ardıcıl olaraq həccə gedənlərdən sayılır.[396]

357. Həzrət imam Baqir (ə) buyurub: Hər kəs üç il ardıcıl olaraq həcc gedib, sonra həccə gedib-getməsə də ardıcıl həccə gedənlər kimidir.[397]

358. Rəvayət olunmuşdur ki, şərab tapan halda onu içən şəxs şərabxor adlandığı kimi, imkanı olan şəxs həccə gedən şəxs ardıcıl olaraq həccə gedən sayılır.[398]

5. İmkanı olan şəxsin ardıcıl olaraq həccə getməməsinin pisliyi:

359. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala buyurur: Əcəlini tə`xirə salıb, ruzisini genişləndirdiyim və sağlamlıq verdiyim, lakin hər beş ildə bir dəfə mənim ziyarətimə gəlməyən şəxs «məhrum»dur.[399]

360. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs imkanı olarkən beş il müdddətində Allah evinin həccinə getməsə, şübhəsiz məhrumdur.[400]

361. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala buyurur: Ruzisini genişləndirdiyim, amma hər dörd ildə bir dəfə Mənim ziyarətimə gəlməyən şəxs məhrumdur.[401]

6. Yenidən həccə gəlmək istəməyənə xəbərdarlıq:

362. Həzrət Peyğəmbər (s) buyurub: Məkkədən qayıdarkən yenidən həccə getmək qərarına gəlməyən şəxsin əcəl və əzabı şübhəsiz yaxınlaşmışdır.[402]

363. Salim ibni Mukrim nəql etmişdir ki, imam Sadiq (ə) ilə birlikdə yol gedirdik ki, yolda yerə endik. Və həzrət (ə) buyurdu: Bu Saqil dağını görürsünüzmü? Yəzid ibni Müaviyə həccdən Şama tərəf qayıdarkən belə bir şe`r oxuyurdu. Sağ tərəfdə olan Saqil dağını arxada qoyduqda, diri olduğumuz illər boyu bir daha həcc və ömrə üçün gedib qayıtmayacağıq.

(Elə buna görə də) Allah-taala onu əcəlindən qabaq öldürdü.[403]

## HƏCC NİYYƏTİNİN SAVABI

364. Həzrət imam Sadiq (ə) buyurub: hər gah hər ildə həccə getməyə imkanı olan şəxs bir il həccə getməsə yer üzünün mələkləri dağlarda olan mələklərə deyərlər: (Bu il) filankəsin səsini eşitmədik! Onlar deyərlər: «Yaxşı axtarın». Beləliklə axtarır, lakin onu tapa bilmədikdə Allah ərz edərlər: İlahi! Əgər onun (qarşısında olan mane) borcudursa, borcunu ödə, xəstəlikdirsə ona şəfa ver, yoxsulluqdursa onu varlı et, həbsdədirsə onu azad et və əgər bir işdirsə işinə əncam ver.

Xalq özü üçün, o mələklər isə həccdən qalanlar üçün dua edirlər.[404]

365. Ziyad Qəndi nəql etmişdir ki, həzrət imam Kazim (ə)-a dedim: Mən bə`zi vaxtlar Məscidul-həramda əyləşərək təvaf edən camaata baxır və (təvaf edə bilmədiyim üçün) qəmgin oluram. Həzrət (ə) buyurdu: Ey Ziyad! Heç bir eybi yoxdur. Mö`min həcc niyyəti ilə evindən xaric olduqda (evinə qayıdana qədər) təvaf və sə`y halında sayılar.[405]

## *HƏCC YOLUNDA ÖLƏN ŞƏXSİN SAVABI*

366. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs ehram halında ölsə, ləbbəyk deyən halda (qəbirdən) qalxacaqdır.[406]

367. İbni Abbas nəql etmişdir ki, möhrim bir kişi miniyindən yerə yıxılıb (boynu sındığı üçün) öldü. Həzrət Peyğəmbər (s) buyurdu: Ona su və sidr ilə qüsl verib, ehram paltarı ilə kəfənə bükün və həmçinin onun başı və üzünü örtməyin. Həqiqətən o qiyamət günündə ləbbeyk deyən halda gələcəkdir.[407]

368. Həzrət Peyğəmbər (s) buyurub: İstər həcc və ya ömrə (əməlləri) üçün gələn şəxs bu yolda (Kəˋbə yolunda) ölsə hesab üçün məşhərə gətirilməz və ona belə deyilər: Behiştə daxil ol.[408]

369. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrə (əməlləri) axirət bazarlarından ikisidir və onun işçisi Allah pənahındadır. Əgər istədiyinə nail olsa Allah-taala onu bağışlayar, amma (istədiyinə nail olmazdan qabaq) əcəli çatsa onun savabı Allah öhdəsində olar.[409]

370. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəsi Məkkə yolunda — istər gedərkən, istərsə də qayıdarkən — ölüm haqlayarsa qiyamət gününün böyük qorxularından amanda qalar.[410]

## *HACININ XÜSUSİYYƏTLƏRİ*

1. Allah hüzuruna çatan:

371. Həzrət Peyğəmbər (s) buyurub: Üç dəstə Allah hüzuruna çatmışdır: Döyüşçü, hacı və ömrəni əncam verən.[411]

372. Həzrət imam Əli (ə) buyurub: Həcc və ömrə (əməllərini) əncam verən şəxs Allah qonağıdır və öz qonağına hörmət etmək isə Allah öhdəsindədir (ki,) öz əfvi ilə ona əcr versin.[412]

373. Həzrət imam Həsən (ə) buyurub: Üç nəfər Allah pənahındadır: ...Yalnız Allaha görə həcc və ömrə (əməlləri) üçün (evindən) xaric olan şəxs ki, belə bir şəxs ailəsinə qayıdanadək Allah qonaqlarından sayılır.[413]

374. Həzrət imam Səccad (ə) «Risalətul-hüquq»da buyurub: Həccin hüququ onun ilahi dərgaha gəlib günahlardan Ona tərəf qaçmaq, həmçinin tövbənin qəbul olunması və onun vasitəsilə Allahın sənə vacib etdiyi göstərişin yerinə yetirilməsi olduğunu bilməyindən ibarətdir.[414]

375. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrə (əməllərini yerinə yetirinlər) Allah qonaqlarıdır. Allahdan bir şey istəsələr, əta edər və Onu çağırsalar icabət edər. Əgər şəfat etsələr, şəfatlərini qəbul edər və əgər sükut edib (bir şey istəməsələr), ...??? (səh-237) (ərə)[415]

# 2. Allah-taalanın qonağı:

376. Allah-taalanın həzrət Adəm (ə)-a vəhy etdiklərindən biri də bu idi ki, buyurmuşdur: Bəkkə (Məkkə) sahibi olan Allah mənəm. Onun əhalisi Mənim qonşularım, zəvvarları isə Mənim qonaqlarımdır. O (yeri) göy və yer əhli ilə

abadlaşdırıram (zəvvarlar) dəstə-dəstə pərişan halda və toz-torpaq içində onun ziyarətinə gəlir, təkbir və ləbbeyk deyən halda Allah dərgahına tərəf nalə edirlər. Beləliklə hər kəs yalnız və yalnız ziyarət niyyəti ilə (ora) gəlsə, Mən ilə görüşmüş və belə bir şəxs Mənim qonağımdır ki, ona öz kəramətlərim ilə hədiyyə verməyim layiqlidir.[416]

377. Xalid ibni Ribʾi nəql etmişdir ki, həzrət Əmirəl-möʾminin Əli (ə) bir iş üçün Məkkəyə daxil olduqda Kəʾbənin pərdələrindən asılmış səhrada yaşyan bir ərəbi gördü ki, belə deyirdi: Ey (bu) evin sahibi! Ev sənin qonaq da sənindir və hər bir qonağın öz qonaqlığından bir bəhrəsi vardır. Beləliklə bu gecə bağışlanmağımı mənə nəsib et. Həzrət imam Əli (ə) səhabələrinə buyurdu: Bu ərəbin sözünü eşidirsinizmi? Dedilər: Bəli. Həzrət (ə) buyurdu: Allah-taala öz qonağını rədd etməkdən çox ucadır.[417]

378. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrəyə gedən şəxs Allah qonağıdır. Beləliklə o evinə qayıdanadək Allah qonağıdır.[418]

379. Həzrət imam Sadiq (ə) Ərafat çölündə belə deyirdi: İlahi! Mən Sənin qonağınam. Beləliklə bu gecə behişti mənim üçün bəhrə qərar ver.[419]

380. Həzrət imam Sadiq (ə) bir nəfərin — nə üçün təşriq günlərində oruc tutmaq məkruhdur? — sualının cavabında buyurdu: Çünki xalq (bu günlərdə) Allahın zəvvarı və qonaqlarıdır. Qonaqın isə ziyarətinə getdiyi və onu qonaq etdiyi şəxsin yanında oruc tutması yaxşı deyildir.[420]

3. Allah-taalanın zəmanətində olmasıı:

381. Həzrət Peyğəmbər (s) buyurub: Hacı istər (həccə getdikdə), istərsə də (həccdən) qayıdarkən Allah zəmanətindədir. Beləliklə əgər səfərdə əziyyətə düşüb və ya yorularsa ona görə günahları bağışlanar və atdığı hər bir addımın müqabilində behiştdə min dərəcə yuxarı gedər və üstünü yağan hər bir yağış müqabilində isə bir şəhid savabına nil olar.[421]

382. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrə əməllərini əncam verən şəxs, Allah zəmanətindədir. Əgər həccə gedən yolda vəfat etsə, Allah-taala onun günahlarını bağışlayar. Ehram halında ölsə, Allah-taala onu ləbbəyk deyən halda (qəbirdən) xaric edər. Əgər iki hərəmdən (Allah evi və peyğəmbər hərəmi) birində vəfat etsə, Allah-taala onu (əzabdan) amanda qalan dəstə ilə gətirər. Əgər (həccdən) qayıdarkən vəfat etsə, Allah-taala onun bütün günahlarını bağışlayar.[422]

383. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrə axirət bazarlarında ikisidir. Hər kəs ardıcıl olaraq həcc və ömrəyə gedərsə, Allahın zəmanətində olar. Əgər onu (diri) saxlasa, öz ailəsinə çatdırar və əgər öldürsə behiştdə daxil edər.[423]

384. Həzrət imam Sadiq (ə) buyurub: İmanlı hacının zəmanəti Allah öhdəsindədir. Əgər səfər yolunda ölsə, onu behiştdə daxil edər və əgər onu öz ailəsinə qaytarsa, (evə qayıdrakən) yetmiş gecəyədək onun üçün heç bir günah yazılmaz.[424]

385. Kəşb ibni Müaviyə nəql etmişdir ki, imam Sadiq (ə)-a dedim: Sizin şiələriniz deyir ki, həccə gedən şəxsin ailəsi də malı Allah zəmanətindədir və

(bu müddətdə) Allah onun ailəsi üzərində canişinidir. Bir halda ki, bə᾽zi vaxtlar həccə gedən şəxsin ailəsi üçün bir sıra hadisələrin baş verdiyini görürük. Həzrət (ə) buyurdu: Əlbəttə Allah-taala onun yetişdiyi işlərində canişini sayılır. Lakin özü hazır olan halda belə qarşısını ala bilmədiyi işlərdə canişini deyildir.[425]

4. Duası müstəcabdır:

386. Həzrət Peyğəmbər (s) buyurub: Üç dua müstəcabdır: Hacının öz ailəsinin qorunması barədə duası, xəstənin duası; — beləliklə ona əziyyət verməyin və darıxdırmağın və məzlumun duası.[426]

387. Həzrət Peyğəmbər (s) buyurub: Həcc və ömrə (əməllərini) yerinə yetirənlər, Allahın çağırdığı və onu icabət etdikləri qonaqlarıdır. Onlar Allahdan istəmiş və Allah da onlara əta etmişdir.[427]

## *HƏCCİN NƏTİCƏLƏRİ*

1. Paklıq:

388. Həzrət Peyğəmbər (s) buyurub: Allah evinin həccinə gedin. Çünki su çirki yuyan kimi, həcc də günahı aradan aparır.[428]

389. Həzrət Peyğəmbər (s) buyurub: Ardıcıl olaraq həcc və ömrəyə gedin. Çünki bu iki əməl, dəmirçi kürəsi dəmirin pasını aparan kimi, yoxsulluq və günahları aradan aparır.[429]

390. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs həcc əməlini əncam verib, (ehram halında) cinsi yaxınlıq və günah etməsə keçmiş günahları bağışlanar.[430]

391. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs yalnız Allahı niyyət edib həcc üçün evindən xaric olsa, Allah-taala onun keçmiş və gələcək günahlarını bağışlayar və dua etdiyi şəxsin haqqında olan şəfaətini qəbul edər.[431]

392. Həzrət Peyğəmbər (s) buyurub: Ey camaat! Allah-taala (Mina və Ərəfat) da dayanan hər bir mö᾽minin o vaxta qədrə olan keçmiş günahlarını bağışlayır. Həcc (mərasimi) qurtardıqdan sonra əməlləri yenidən (yazılmağa) başlanır.[432]

393. Həzrət Peyğəmbər (s) buyurub: İlahi! Hacını və hacının əfv tələb etdiyi şəxsi bağışla.[433]

394. Həzrət imam Səccad (ə) buyurub: Həccə gedən şəxs bağışlanmış və behişt ona vacib olmuşdur. (Hacı) əməlini yenidən başlayır, həmçinin onun ailəsi və malı qorunmuşdur.[434]

395. Həzrət imam Baqir (ə) buyurub: Hər kəs təkəbbürsüz halda həcc və ömrə niyyəti ilə bu evin ziyarətinə gəlsə, anadan olduğu gün kimi günahsız halda qayıdar. O həzrət (ə) daha sonra bu ayəni oxudu: «Fəmən təəccələ fi yəvməyni fəla ismə ələhy — hər kəs iki gündə tələsərsə, onun üçün heç bir günah yoxdur.»[435]

396. Həzrət imam Sadiq (ə) buyurub: Hər kəs riyakarlıq və şöhrət qazanmaq üçün deyil, məhz Allaha görə həccə gedərsə Allah-taala hökmən onu bağışlayar.[436]

397. Həzrət imam Sadiq (ə) həccin fəziləti barədə buyurub: Bəndə (həcc üçün) evindən xaric olduqda ona xeyir nəsib olur. Məscidul-hərama çatıb, vacib təvafı yerinə yetirir və daha sonra İbrahim məqamına qayıdıb iki rəkət təvaf namazı qıldıqda bir mələk gələrək onun sol tərəfində durur.

Bundan sonra qayıtdıqda əlini onun çiyinlərinə vurub deyir: Filankəs! Keçmiş günahların bağışlandı, amma gələcəkdə təlaş et.[437]

2. Ehtiyatcsızlıq:

398. Həzrət Peyğəmbər (s) buyurub: Həccə gedin, heç vaxt yoxsul olmayın.[438]

399. Həzrət Peyğəmbər (s) buyurub: Həcc və ömrə əməlləri dəmirçi kürəsinin dəmir pasını aradan aprana kimi, yoxsulluğu aradan qaldırır.[439]

400. Həzrət Peyğəmbər (s) buyurub: Həccə gedin (ki, həccə getdikdə) varlı olarsınız.[440]

401. Həzrət Peyğəmbər (s) buyurub: Ey camaat! Allah evinin həccini yerinə yetirin. Allah evinə daxil olan hər bir alilə varlanır, həccdən boyun qaçıranlar isə yoxsullaşırlar.[441]

402. Həzrət imam Əli (ə) buyurub: Allah dərgahına təvəssül edənlərin ən üstünü vasitəsi Allaha və onun peyğəmbərinə iman gətirmək... həmçinin Allah evinin həcci və ömrədən ibarətdir.[442]

403. Həzrət imam Səccad (ə) buyurub: Sağlam olmağımız ruzilərinizin genişlənməsi və ailənizin yaşayın məxaricinin tə`min olunması üçün həccə və ömrəyə gedin.[443]

440. İshaq ibni Əmmar nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-a dedim: Mən hər ildə özüm və ya ailəmdən bir nəfəri öz pulum ilə həccə aparmaq qərarına gəlmişəm. Həzrət (ə) buyurdu: Bu barədə ciddi qərara gəlmisənmi? Dedim: Bəli. Həzrət (ə) buyurdu: Belə etsən mal-dövlətinin çoxalması üçün sənə müjdə olsun.[444]

405. İshaq ibni Əmmar nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) buyurdu: Həccə gedən şəxs heç vaxt «imlaq»a giriftar olmaz. Ərz etdim: «İmlaq» nədir? Həzrət (ə) buyurdu: Müflis və yoxsul olmaqdır.[445]

3. Nur:

406. Həzrət imam Sadiq (ə) buyurub: Həccə gedən şəxs, özünü bir günaha bulaşdırmayınca, həccin nuru onunladır.[446]

4. Dünya və Axirət xeyri:

407. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs dünya və Axirət (xoşbəxtliyini) istəyirsən bu evin (ziyarətinə) gəlsin ki, Allah-taala ona (Kə`bəyə) üz gətirib, Ondan dünyanı istəyən hər bir bəndəyə dünyadan əta etmiş (və Ondan) axirət istəyən üçünsə zəxirə etmişdir.[447]

## İKİNCİ FƏSİL

## *HƏCCİN TƏ᾿XİRƏ SALINMASI VƏ TƏRK EDLİMƏSİ*

### *HƏCCİN TƏRK EDİLMƏSİ ÜÇÜN XƏBƏRDARLIQ*

408. Həzrət Peyğəmbər (s) buyurub: Hər bir bəndə həcc əməlini dünyəvi işlərdən biri üçün tərk edərsə, işi həyata keçməzdən qabaq hacıların başlarını qırxdırmış halda (həccdən qayıtmasını) görəcəkdir.[448]

409. Həzrət imam Baqir (ə) buyurub: Əmirəl-mö᾿minin (ə)-ın vəsiyyətində buyurulmuşdur ki, Rəbbinizin evinin həccini tərk etməyin (onu tərk etdikdə) həlak olacaqsınız.[449]

410. Həzrət imam Sadiq (ə) buyurub: Həccin tərk edilməsində heç bir xeyir yoxdur.[450]

411. Səmaə nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) mənə buyurdu: Nə üçün bu il həccə getmirsən? Dedim: Bir camaat ilə mənim aramda alver işləri vardır ki, ümidvaram o işlərdə bir xeyir (fayda) olmuş ola.

Həzrət (ə) buyurdu: Xeyr, and olsun Allaha ki, Allah-taala o işdə sənin üçün bir xeyir qərar verməmişdir.

Daha sonra buyurdu: Heç bir bəndə günahdan başqa bir səbəbə görə bu evin ziyarətindən məhrum olmur. Allah-taalanın bağışladığı (günahlar) isə daha çoxdur.[451]

### *HƏCCİ TƏRK EDƏNİN XÜSUSİYYƏTLƏRİ*

1. Kafirdir:

**Qur᾿an:**

**«Xalqın: —Ona tərəf yol tapa bilənin Allahın evinin həccini yerinə yetirməsi, Allah üçündür. Hər kəs küfr etsə, həqiqətən Allah aləmlərdən ehtiyacsızdır.»[452]**

**hədis:**

412. Həzrət Peyğəmbər (s) imam Əli (ə)-a olan vəsiyyətində buyurub: Ya Əli! Bu ümmətdən on dəstə Allaha kafir olmuşdur:... (Onlardan biri də) imkanı olan halda həcci tərk edib dünyadan gedənlərdir.[453]

413. Həzrət Peyğəmbər (s) imam Əli (ə)-a olan vəsiyyətində buyurub: Ya Əli! İmkanı olan halda

# həcci tərk edən şəxs kafirdir. Allah-taala buyurur: Xalqın; — Ona tərəf yol tapa bilənin (bacaranların) Allah evinin həccini yerinə yetirməsi, Allah üçündür — hər kəs küfr etsə, həqiqətən Allah aləmlərdən ehtiyacsızdır.

Ya Əli! Hər kəs ölənədək vacib həcci tə᾽xirə salsa Allah-taala qiyamət günündə onu yəhudi və ya nəsrani (məsihi) halda gətirər.[454]

414. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs onu Allah evinə çatdıran və azuqə və miniyi olan halda həccə getməsə, onun yəhudi və ya məsihi ölməsi arasında heç bir fərq yoxdur. Çünki Allah-taala Qur᾽anda buyurur: Xalqın; — ona tərəf imkanı olanın, Allah evinin həccini yetinə yetirməsi Allah üçündür.[455]

415. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəsi aşkar bir hacət, zülmkar hakim və ya saxlayan bir xəstəlik həcc əməlindən saxlamayıb, (vacib olan) həcci əncam vermədən vəfat edərsə, istər yəhudi, istərsə də nasrani ölsün.[456]

416. Həzrət Peyğəmbər (s) buyurub: Ey camaat! Allah-taala həcc əməlini imkanı və yolu olan şəxsə vacib etmişdir. Ona əncam verməyən şəxs istədiyi hər bir halda: — yəhudi, məsihi və ya atəşpərəst halında ölsün. Amma qarşını alan bir xəstəlik və ya maneəçilik törədən zalım hakim (ə görə həccə getməyənlər bu sözdən müstəsnadırlar). Agah olun ki, belə bir (imkanı olarkən həcci tərk edən) şəxs mənim şəfaətimdən bəhrə aparmaz və mənim hovuzuma daxil olmaz.[457]

2. İslam göstərişini tərk edəndir:

417. Həzrət imam Sadiq (ə) buyurub: Həcc üçün imkanı olan şəxs üzür sayılan bir işi olmadan həcc getməsə şübhəsiz islam göstərişlərindən birini tərk etmişdir.[458]

418. Həzrət imam Sadiq (ə)-dan ticarət və borcumdan başqa məşğuliyyəti olmayan və həcci tə᾽xirə salan bir kişi barədə sual olunduqda həzrət (ə) buyurdu: Onu bəhanəsini qəbul etmirəm və onun həcci tə᾽xirə salması layiqli deyildir. Əgər (bu halda ölsə) şübhəsiz islam göstərişlərindən biri tərk etmişdir.[459]

419. Həzrət imam Kazim (ə) — həl nun əbdikum bil-əxsərinə ə᾽malən — sizə daha ziyankarların kim olduğunu xəbər verimmi? (Kəf-103) ayəsinin təfsirində buyurdu: Onlar vacib həcc əməlini tə᾽xirə salıb, bu gün sabah edənlərdir.[460]

3. Ölüm vaxtı dünyaya qayıtmaq arzusunda olacaqdır:

420. Həzrət imam Sadiq (ə)-dan «fəəssəddəqə və əkum minəssalihin — yə᾽ni İlahi! Sədəqə verib salehlərdən olum deyə, məni (bir daha dünyaya qaytar ) — (Münafiqun-10) ayəsi barədə soruşulduqda həzrət (ə) buyurdu: «Əssəddqu» — yə᾽ni sədəqə verim, «Və əkun minəssalihin» isə həcc əməlini yerinə yetirim (deməkdir).[461]

421. İbni Abbas (r.ə.) buyurdu: Allah evinin ziyarətinə çatdıran mal-dövləti və ya vacib zəkatı əncam verməyən şəxs, ölüm vaxtı (bir daha dünyaya qayıtmağı) xahiş edənlərdən olacaqdır.

Bir nəfər dedi: Ey İbni Abbas! Allahdan qorx! Yalnız kafirlər qayıdış xahişini edirlər. İbni Abbas dedi: Bu barədə sizin üçün Qur᾽andan oxuyuram. «Ey iman gətirənlər! Mal-dövlət və övladlarınız sizi Allah zikrindən saxlamasın. Ölüm sizlərdən biriniz üçün gəlməzdən qabaq sizə ruzi verdiklərimizdən infaq edin... və Allah əncam verdiklərinizdən agahdır.» (Münafiqun 9-11).[462]

4. Qiyamət günü kor halında gələcəkdir:

422. Əbu Bəsr nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan hər kəs bu dünyada (qəlbi) kor olsa, axirətdə də (qəlbi) kor və daha azğın olacaqdır — (İsra-72) ayəsi barədə soruşduqda o həzrət (ə) buyurdu: Ayədən məqsəd öz vacib həccini bugün sabah etməklə tə᾽xirə salıb vəfat edən şəxsdir.[463]

423. Əbu Bəsr nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) buyurdu: Hər kəs sağlam və varlı olan halda həccə getməmiş ölərsə, Allah-taalanın — qiyamət günündə onu kor gətirərik — buyurduğu kəslərdən olar. Soruşdum: Subhanəllah! Kor (olacaqdırmı)? Həzrət buyurdu: Bəli, Allah-taala onu haqq yolundan kor etmişdir.[464]

424. Həzrət imam Sadiq (ə) hər kəs bu dünyada (qəlbi) kor olarasa axirətdə də (qəlbi) kor və daha azğın olacaqdır — ayəsi barədə buyurdu: Bu ayə həcci tə᾽xirə salıb vəfat edənlər barəsində nazil olmuşdur. Beləliklə o kordur və ilahi göstərişlərindən birini əncam verməkdən kor olmuşdur.[465]

## *ALLAH EVİNİN TƏ᾽TİL ETMƏK BARƏDƏ XƏBARDARLIQ*

425. Həzrət Peyğəmbər (s) buyurub: Əgər xalqın hamısı bir ildə həccə getməyi tərk etsələr onlara möhlət verilməyəcək (cəzalandırılacaqlar).[466]

426. Həzrət Peyğəmbər (s) buyurub: Hər gah ümmətim Allah evinin ziyarətinə gəlmək niyyətini tərk edərsə, onlara möhlət verilməz.[467]

427. Həzrət imam Əli (ə) buyurub: Rəbbinizin evi barədə Allahı, Allahı nəzərə alın ki, heç vaxt sizdən boş qalmasın. Əgər (Allah evi) tərk edilsə, sizə möhlət verilməyəcəkdir.[468]

428. Sədr nəql etmişdir ki, imam Baqir (ə)-ın yanında Allah evini yad etdikdə həzrət (ə) buyurdu: Əgər bir il bunu tərk etsələr onlara möhlət verilməyəcəkdir. (Və ayrı hədisə əsasən): — Onlara əzab nazil olacaqdır.[469]

429. Hüseyn Əl-əhməsi nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) buyurub: Əgər xalq həcci tərk edərsə, əzabın nazil olmasında onlara heç bir möhlət verilməyəcəkdir (və ya onlara əzab nazil olacaqdır.)[470]

430. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala bizim həccə gedən şiələrimizə xatir, həccə getməyənlərdən əzabı götürür. (Amma) xalqın hamısı həccin tərk edilməsində əlbir olsa, hamısı həlak olacaqdır.[471]

431. Həzrət imam Sadiq (ə) buyurub: Camaat həcci tərk edərsə, istəyib-istəməmələrinə baxmayarq həccə vadar etməsi vacibdir. Çünki bu ev həcc üçün qərar verilmişdir.[472]

432. buyurub: Əgər xalq həcci tərk edərsə, onları həccə göndərmək və Allah evinin yanında qalmağa vadar etmək hakimin vəzifəsidir... Əgər onların pulu olmasa, müsəlmanların beytul-malından onların xərcini ödəsin.[473]

# ÜÇÜNCÜ FƏSİL
# *HƏCCİN VACİB ƏMƏLLƏRİ*

## *HƏCCİN VACİB ƏMƏLLƏRİNİN KÜLLİYATI*

433. Həzrət imam Əli (ə) buyurub: Həccin hüdudu (qaydaları) dörd şeydir: Ehram, Kə᾽bənin təvafı, Səfa və Mərva (dağları) arasında s᾽əy etmək, iki dayanacaqda (Ərəfat və Minada) dayanmaq və bu əməllərə aid olan və birləşən (əməllər). Beləliklə hər kəs bu hüdudu tərk edərsə, kəffarə verib, yenidən həcc (əməlini əncam verməsi) vacibdir.[474]

434. Həzrət imam Sadiq (ə) buyurub: Həccin vacib əməlləri belədir:Ehram, dördlük təlbiyə (yə᾽ni, ləbbəykəllahummə ləbbəyk, ləbbəyk la şərikə ləkə ləbbəyk, innəl-həmdə vən-ni᾽mətə ləkə vəl-mulk, la şərikə ləkə). Ömrə əməli üçün Allah evinin təvafı vacibdir. İbrahim məqamının kənarında iki rək᾽ət təvaf namazı qılmaq vacibdir. Səfa və Mərva dağları arasında sə᾽y etmək vacibdir. Həcc təvafı və İbrahim məqamı yaxınlığında iki rək᾽ət həcc təvafının namazı vacibdir. Daha sonra Səfa və Mərva dağları arasında sə᾽y etmək vacibdir. Nisa təvafı və İbrahim məqamı yaxınlığında iki rək᾽ət nisa təvafının namazı vacibdir. Ondan sonra isə Səfa və Mərvə arasında sə᾽y etməlidir. Məş᾽ərdə dayanmaq və «təməttö» həcci əncam verən şəxsin qurban kəsməsi vacibdir. Ərəfatda dayanmaq vacib, başı qırxdırıb şeytana daş atmaq isə sünnədir.[475]

Bəyan:

Rəvayətlərdə Allahın birbaşa olaraq verdiyi göstərişlərə «fərizə» (vacib), həzrət Peyğəmbər (s) vacib etdiyi əməllərə isə «sünnə» deyilmişdir ki, əməl və vəzifə məqamında onların heç biri tərk olunası deyildir.

Qeyd etmək lazımdır ki, «sünnə» sözü iki mə᾽nadan ibarətdir. Belə ki, vacib sünnədən əlavə müstəhəb (və bəyənilmiş) sünnə də varımızdır.

## TƏMƏTTÖʾ ÖMRƏSİNİN VACİB ƏMƏLLƏRİ

1. Ehram:

### *EHRAMIN HİKMƏTİ*

435. Həzrət imam Sadiq (ə) buyurub: Ehram, hərəmə görə vacib olmuşdur.[476]

436. Həzrət imam Rza (ə) buyurub: Həqiqətən xalq ilahi hərəmə daxil olmazdan qabaq (Allahdan qorxu) tapmaq, dünyanın işləri, bəzəkləri və ləzzətlərinə məşğul olmamaq və üz gətirdikləri (Allah yolunda) dözümlü olub, bütün varlıqları ilə Allah evinə üz gətirmək üçün ehram bağlamağa məʾmur olmuşlar. Bundan əlavə ehramda Allah-taala və Onun evinin ehtiramı, həmçinin ilahi savaba ümidvar və ilahi qəzəbdən qorxan halda Allaha tərəf getmək istəyən və habelə Ona tərəf gedən və təvazökarlıqla Allaha üz gətirən hacılar qarşısında təvazökarlıqdır.[477]

### *EHRAMIN MİQATLARI*

437. Həzrət imam Sadiq (ə) buyurub: Ehram, Həzrət Peyğəmbərin (s) təʾyin etdiyi beş miqatdan biridir. Həcc və ömrə əməllərini əncam verən şəxsin ondan qabaq və ya sonra ehram bağlaması layiq deyildir. Həmiçinin heç bir kəsin həzrət Peyğəmbərin (s) miqatlarından üz döndərməsi də layiq deyildir.[478]

438. Həzrət imam Sadiq (ə) buyurub: Həcc və ömrə əməllərinin tamamlanmaq şərtlərindən biri də Həzrət Peyğəmbərin (s) təʾyin etdiyi miqatlardan ehram bağlayıb ehramsız halında o yerlərdən keçməməyindir. Həqiqətən həzrət Peyğəmbər (s) o gün İraq olmayan vaxtda onun əhalisi üçün «əqiq» vadisi, Yəmən əhalisi üçün «yələmləm», Taif əhalisi üçün «tərnəl – mənazil», Məğrib yəʾni, Şam əhalisi üçün «cuhfə və ya muhəyəʾə» və Mədinə əhalisi üçün «zul-huləyfə» miqatlarını təʾyin etmişdir. Hər kəsin evi Məkkəyə tərəf bu miqatların arxasında olarsa, onun mənzili öz miqatı sayılır.[479]

439. İbni Abbas buyurub: Həzrət Peyğəmbər (s) Mədinə əhalisi üçün zul-huləyfə, Şam əhalisi üçün cuhfə, Nəcd əhalisi üçün qərnəl-mənazil və Yəmən əhalisi üçün yəlmələm miqatlarını qərar vermişdir. Bu miqatlar onlar və o yerlərə daxil olanlara məxsusdur. Onlardan hər biri Məkkəyə daha yaxın olsa, hərəkət etdiyi hər bir yerdən, hətta Məkkə əhalisinin miqatı Məkkənin özündən sayılır.[480]

## *EHRAMIN NECƏLİYİ*

440. Həzrət imam Sadiq (ə) buyurub: Ehram yalnız vacib namazdan sonra həyata keçir və namazın salamından sonra möhrim olursan. Namaz müstəhəb olduqda isə, iki rəkət namaz qılıb salamdan sonra ehram bağlayırsan. Namazı bitirdikdən sonra Allaha həmd və səna deyərək, Peyğəmbərə salavat göndər və daha sonra belə de: İlahi! Səndən istəyirəm ki, məni öz çağırışına cavab verən, verdiyin və᾿də iman gətirən və göstərişindən itaət edənlərdən qərar verəsən. Mən Sənin bəndən və Sənin ixtiyarındayam. Yalnız Sənin hifs etdiyini hifs edir və yalnız Sənin əta etdiyini alıram. Həcci yad etmisən. Səndən istəyirəm ki, qəsdimi onun üçün möhkəmləndirib, Qur᾿anı, Peyğəmbərini davranışı və əncam verməyə gücüm çatmayan işlərdə mənə qüvvə bağışlayasan. Həmçinin mənim əməllərimi öz asanlıq və güzəştin ilə qəbul edib məni Öz qonaqlarından; — razı oludğun, əməllərini bəyəndiyin, adlarını çəkdiyin və yazdığın şəxslərdən qərar verəsən.

İlahi! Həcc və ömrə əməllərimi kamala çatdır. İlahi! Mən Sənin kitabın və peyğəmbərinin davranışı əsasında təməttö᾿ ömrəsi ilə həccə getmək istəyirəm. Beləliklə həccimin tamamlanmasının qarşısını alan bir mane olarsa, elə o yerdə məni ehramdan xaric et. İlahi! əgər həcc əməli mənə qismət olmasa ömrə əməlini mənə qismət et. Sənə görə tük, dəri, ət, qan, sümük, beyin və əsəbimi, qadınlar və gözəl geyim və ətirlərə haram edir və bu işlə Sənin razılığını və axirət evini axtarıram. Həzrət (ə) daha sonra buyurdu: Ehram vaxtı bunu bir dəfə də desən kafidir. Beləliklə ayağa qalxıb yol get və yer qarşında düz olduqda — istər piyada, istərsə də minmiş halda — ləbbəyk de.[481]

441. Həzrət imam Sadiq (ə) buyurub: Ehram və təməttö᾿ niyyətində olduqda belə de: İlahi! Fərman verdiyin təməttö᾿dən ömrə vasitəsilə həccə qədər əməlləri yerinə yetirmək istəyirəm. Beləliklə onu mənə asanlaşdır, məndən qəbul et və onları əncam verməkdə mənə kömək olub, Öz təqdirin ilə məni getmək saxladığın hər bir yerdə ehramdan xaric et. Mən dərimi qadınlar və gözəl ətir və paltarlara haram edirəm.

Bu duanı istəsən ayağa qalxan halda və ya istəsən tə᾿xirə salıb miniyinə minərkən onu qibləyə tərəf tutduqdan sonra de.[482]

442. Həzrət imam Sadiq (ə) buyurub: İraq tərəfdən «əqiq» və ya bu miqatlardan birinə çatıb Allahın izni ilə ehram bağlamaq istədikdə qolunun altının tüklərini qırxıb, dırnaqlarını tut və övrətini tüklərini təmizlə. Həmçinin buğunun tüklərini də azalt — bunların hansı birindən başlamağın fərqi yoxdur — daha sonra dişlərini yuyub, qüsl et və iki ehram paltarlarını geyin. Elə et ki, bu işlərdən zöhr çağı qurtara biləsən və zöhr çağı bu işləri qurtarmasan heç bir eybi yoxdur. Amma ixtiyar halında bu işlərin zöhr çağı qurtarmasını sevirəm.[483]

443. Həmmad ibni İsa nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-dan ehrama hazırlıq barədə soruşduqda buyurdu: Dırnaqları tutmaq, buğu azaltmaq və övrət tüklərini təmizləmək ehram üçün hazırlıq işlərindəndir.[484]

## *EHRAMDA LƏBBƏYK DEMƏK*

1. Ləbbəyk deməyin məˈnası:

444. Səhabələrdən biri nəql edib ki, Həzrət imam Sadiq (ə)-a dedim: Nə üçün ləbbəyk deməyə «təlbiyə» deyilir. Həzrət (ə) buyurdu: Bu icabət cavab verməkdir. Musa (ə) Pərvərdigarına belə cavab vermişdir.[485]

445. Süleyman ibni Cəˈfər nəql etmişdir ki, imam Rza (ə)-dan ləbbəyk demək və onun səbəbi barədə soruşduqda, o həzrət buyurdu: Xalq ehram bağladıqda, Allah-taala onları çağırıb buyurur:Ey Mənim bəndələrim və kənizlərim! Mənə görə ehram bağlıdığınız kimi, sizi oda haram edəcəyəm. Beləliklə də xalq Allahın bu çağırışına cavab olaraq «Ləbbəykəllahummə» ləbbəyk deyirlər.[486]

446. Həzrət imam Əsgəri (ə) buyurub: Həzrət Peyğəmbər (s) Musa (ə)-ın Allah ilə danışığını nəql edərək buyurmuşdur: Rəbbimiz çağırdı: Ey Məhəmməd ümməti! Beləliklə də onların hamısı ataların beli və anaların rəhmində olan halda belə cavab verdilər: «Ləbbəykəllahummə ləbbəyk, ləbbəykə la şərikə ləkə ləbbəyk, innəl-həmdə vən-niˈmətə ləkə vəl-mulk, la şərikə ləkə».

Elə buna görə də Allah-taala bu cavabı, həccin şüarı qərar verdi.[487]

2. Ləbbəyk deməyin qaydası:

447. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət Peyğəmbər (s) Məkkə yaxınlığında yerləşən «Bəda» yerinə çatdıqda onun üçün bir dəvə gətirirdilər və həzrət (s) dəvəyə minib hərəkət etdikdə ləbbəykləri belə deyirdi: «Ləbbəykəllahummə ləbbəyk, ləbbəykə la şərikə ləkə ləbbəyk, innəl-həmdə vən-niˈmətə ləkə vəl-mulk, la şərikə ləkə».[488]

448. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət Peyğəmbər (s) ləbbəyki belə deyirdi. «Ləbbəykəllahummə ləbbəyk, ləbbəykə la şərikə ləkə ləbbəyk, innəl-həmdə vən-niˈmətə ləkə vəl-mulk, la şərikə ləkə».

Həmçinin o həzrət (s) «Zil-məˈaric»i çox buyurur, minikli bir şəxslə üzləşib, bir təpəyə qalxdıqda və bir vadiyə endikdə və habelə gecənin sonu və namazlardan sonra ləbbəyk deyirdi.[489]

449. Huzəymətibni Sabit nəql etmişdir ki, həzrət Peyğəmbər (s) ləbbəyk deyib qurtardıqdan sonra, Allahdan behişt və əfv tələb edir və cəhənnəm odundan Onun rəhmətinə pənah aparırdı.[490]

450. Həzrət imam Sadiq (ə) buyurub: Ləbbəyk demək belədir: «Ləbbəykəllahummə ləbbəyk, ləbbəykə la şərikə ləkə ləbbəyk, innəl-həmdə vən-niˈmətə ləkə vəl-mulk, la şərikə ləkə ləbbəyk, ləbbəykə zəl-məˈarici ləbbəyk, ləbbəykə daˈmən ila daris-səlam ləbbəyk, ləbbəykə ğəffarəz-zunubi ləbbəyk, ləbbəykə əhlət-təlbiyəti ləbbəyk, ləbbəykə zəl-cəlali vəl-ikrami

ləbbəyk, ləbbəykə tubdiu vəl-məʾadu iləykə ləbbəyk, ləbbəykə təstəğni və yuftəqərru iləykə ləbbəyk, ləbbəykə mərhuvən və mərğubən iləykə ləbbəyk, ləbbəykə ilahəl-həqqi ləbbəyk, ləbbəykə zən-nəʾmai vəl-fəzli vəl-həsəni-cəmili ləbbəyk, ləbbəyk kəşşafəl-kurbil-izami ləbbəyk, ləbbəykə əbdukə vəbnu əbdəykə ləbbəyk, ləbbəykə ya kərimu ləbbəyk».

Bunları hər vacib və ya müstəhəb namaz, miniyinin hərəkət üçün qalxan, hündürlüyə çatan, vadiyə enən, minikli bir şəxsə çatan, yuxudan ayılan hallarda və habelə səhər çağları deyirsən. İmkanın olan qədər bunları çoxlu və aşkar tərzdə de və bunun bir hissəsini deməməyinin heç bir eybi yoxdur. Lakin onun hamısını demək daha yaxşıdır. Bil ki, əvvəldə olan dörd ləbbəyki demək vacib və zəruridir. Bu isə tövhiddir və peyğəmbərlər də belə demişlər.

Onun — zil-məʾaric hissəsini çox de, çünki həzrət Peyğəmbər (s) da onu çox demişdir. İlk dəfə ləbbəyk deyən həzrət İbrahim (ə) olmuşdur. Buyurdu: Allah-taala sizi öz evinin həccinə çağırır. Beləliklə də ona ləbbəyk deməklə cavab verdilər və bununla da peyman bağlanmış bütün atalar beli və analar rəhmində olanlar ləbbəyk ilə cavab verdilər.[491]

3. Ləbbəyk deməyin savabı:

451. Həzrət Peyğəmbər (s) buyurub: Gündüzü ləbbəyk deməklə sona yetirən hər bir şəxsin günəş batmaqla birlikdə günahları da gizlənər.[492]

452. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs bir gündə günəş batanadək ləbbəyk deyərsə anası onu dünyaya gətinrən gün kimi günahları aradan gedər.[493]

453. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs ehram halında iman və ilahi savaba ümidlə yetmiş dəfə ləbbəyk deyərsə, Allah-taala onu cəhənnəm və nifaqdan uzaq etməsi üçün minlərlə mələyi şahid tutar.[494]

4. Hər bir şey ləbbəyk deyən ilə birgədir:

454. Həzrət Peyğəmbər (s) buyurub: Ləbbəyk deyən bir şəxs ilə birgə göz işləyənədək sağ və solunda olan bütün daş, ağac və kəssək ləbbəyk deyərlər.[495]

455. Həzrət imam Əli (ə) buyurub: Ləbbəyk deyən hər bir şəxs ilə göz işləyənədək sağ və solunda olan hər bir şey birgə olaraq ləbbəyk deyirlər və iki mələk ona deyərlər: Ey Allahın bəndəsi! Müjdə olsun sənə! Allah-taala isə heç bir bəndəyə behiştdən başqa bir şeyi müjdə verməz.[496]

## *LƏBBƏYK DEMƏYİN QAYDALARI*

1. Xüşey (qorxu):

456. Süfyan ibni Üyəynə nəql etmişdir ki, həzrət imam Səccad (ə) həccə gedib, ehram bağladıqdan sonra miniyinə mindikdə, rəngi saraldı və bədəni titrəyib ləbbəyk deyə bilmədi. Bir nəfər o həzrətə (ə) dedi: Nə üçün ləbbəyk demirsiniz? Həzrət (ə) buyurdu: Qorxuram ki, Allah-taala mənim cavabımda «la ələbbəyk» və «la səʾdəyk» desin. Daha sonra ləbbəyk dedikdə özündən

gedərək miniyindən yerə düşdü. Onun bu halı həccini qurtaranadək davam etdi.[497]

457. Malik ibni Ənəs nəql etmişdir ki, bir dəfə imam Sadiq (ə) ilə birlikdə həccə getmişdim. O həzrət (ə) ehram bağlayıb miniyinə mindikdə hər nə qədər ləbbəyk demək istəsə də səsi boğazında tutulur və az qalmışdı ki, yerə düşsün.

Dedim: Ey Peyğəmbər övladı! De, naçar qalıb ləbbəyk deməlisən. Həzrət (ə) buyurdu: Ey Əbu Amir oğlu! Allah-taalanı mənə «la ləbbəyk» və «la səˈdəyk» deməsindən qorxan halda necə cürˈət edib ləbbəyk deyim?[498]

2. Çoxlu ləbbəyk demək:

458. Məhəmməd ibni Münkədir nəql etmişdir ki, həzrət Peyğəmbər (s) ləbbəyk sözünün çoxlu təkrar edirdi.[499]

459. Həzrət imam Sadiq (ə) buyurub: Şəcərə məscidində ehram bağladıqda piyada olduğun halda o məsciddə olarkən belə ləbbəyk de: «Ləbbəykəllahummə ləbbəyk, ləbbəykə la şərikə ləkə ləbbəyk, ləbbəykə zəl-məˈarici ləbbəyk, ləbbəykə bihəccətin təmamuha ələyk».

Miniyə minən, minikdən düşən, bir vadiyə enən, bir hündürlüyü qalxan, həmçinin minikli bir görən hallarda və habelə səhər çağı bu ləbbəyki aşkarcasına de.[500]

3. Kişilərin ləbbəyki uca səslə deməsi:

460. Həzrət Peyğəmbər (s) buyurub: Cəbrail mənim yanıma gələrək dedi: Allah-taala sənə göstəriş verir ki, səhabələrinə uca səslə ləbbəyk demələrinin fərmanını verəsən. Çünki o, həccin şüarıdır.[501]

461. Saib ibni Xəllad nəql etmişdir ki, Cəbrail (ə) həzrət Peyğəmbərin (s) hüzuruna gələrək dedi: Əccac və Səccac ol! Əcc — ləbbəyk demək, Səcc isə dəvəni qurban etməkdir.[502]

462. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala həccdən dörd əməli seçmişdir: Ləbbəyk demək, qurban kəsmək, ehram bağlamaq və təvaf etmək.[503]

463. Həriz nəql etmişdir ki, həzrət Peyğəmbər (s) ehram bağladıqda, Cəbrail (ə) onun yanına gələrək dedi: Səhabələrinə əcc və səcc etməyi göstəriş ver.

Əcc uca səslə ləbbəyk demək, səcc isə dəvəni qurban etməkdir.[504]

464. Həzrət imam Sadiq (ə) buyurub: Əgər piyada olsan Şəcərə məscidində uca səslə «La ilahə illəllah» və «ləbbəyk» de, amma minik üstündə olduqda bu sözləri Bəyda çöllüyünə çatarkən de.[505]

465. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala dörd işi qadınlardan götürmüşdür: Uca səslə ləbbəyk demək, Səfa və mərvə dağları arasında qaçmaq, Kəˈbəyə daxil olmaq və Qara daşa əl çəkmək.[506]

466. Həzrət imam Sadiq (ə) buyurub: Qadınlara uca səslə ləbbəyk demək lazım deyildir. [507]

4. Məkkə evlərini görməklə ləbbəyk demək:

467. Həzrət imam Sadiq (ə) buyurub: Təməttö᾽ həccini yerinə yetirən şəxsin gözləri Məkkə evlərini gördükdə ləbbəyk deməyi saxlasın.[508]

468. Həzrət imam Sadiq (ə) buyurub: Təməttö᾽ ömrəsində Məkkəyə daxil olarkən, Məkkə evlərini gördükdə ləbbəyk deməyi saxla. Məkkə evlərinin həddi əvvəllər Mədinə əhalisinin əqəbəsi idi. Amma camaat Məkkədə qabaqlar olmayan yerlərdə bir sıra evlər tikdilər. Beləliklə də ləbbəyk deməyi saxlayıb, bacardığın qədər təkbir (Allahu əkbər) və La ilahə illəllah zikrlərini, həmçinin Allah üçün həmd və səna de.[509]

## *EHRAMDA HARAM OLAN İŞLƏR*

Qur᾽an:

«Ey iman gətirənlər! Möhrim olan halda ov etməyin və sizlərdən hər kəs bilərəkdən ov edərsə, dörd ayaqlı heyvanlardan öldürdüyünün oxşarı miqdarında kəffarə verməli, (və onların oxşarlığını) öz aranızdan iki adil təsdiq etməli və qurbanlıq kimi Kə᾽bəyə çatmalıdır. Və ya (onun) kəffarəsi ilə miskinlərə yemək verməli, yaxud da onun bərabərində oruc tutmalıdır ki, (beləliklə də) öz pis əməlinin cəzasını dadsın. Allah keçmişdə baş verən (pis əməlləri) əfv edir, (amma) hər kəs pis işi təkrar etsə, Allah ondan intiqam alar və Allah bacarıqlı və intiqam sahibidir».

**«Dəniz ovu və yeyintiləri sizə və müsafirlər üçün bir fayda olsun deyə halal olmuşdur. (Amma) — möhrüm olduğunuz halda — çöllük ovu sizin üçün haram olmuşdur. Və (bir gün) hüzurunda məhşur olacağınız Allahdan qorxun (təqvalı olun).**[510]

Hədis:

469. Əbdullah ibni Ömər nəql etmişdir ki, bir kişi ayağa qalxaraq soruşdu. Ey Allahın elçisi! Ehram halında nə geyək? Həzrət Peyğəmbər (s) buyurdu: Ehram halında köynək, şalvar, gecə papağı, əmmamə və çəkməy geyinməyin. Amma nə᾽leyn olmayan şəxs, çəkmə geyindikdə onları topuqdan aşağı kəssin. Həmçinin zə᾽fəran və vərs (ətirli bitki) dəyən paltarı geyməyin. Möhrüm qadın isə üzünü örtməsin və əllərinə əlcək salmasın.[511]

470. Həzrət imam Sadiq (ə) buyurub: Ehram halında ətir və yağ vurma və xoş iydən çəkin. Burnunu yaxşı iydən tut, amma pis iydən tutma. Çünki möhrüm şəxsin yaxşı iydən ləzzət aparması layiqli deyildir. Həmçinin azuqənin xoş ətirli şeylərindən də çəkin. Hər kəs bunlardan birinə mübtəla olsa, qüslünü yenidən əncam verib, bacardığı qədər sədəqə verməlidir. Yaxşı şeylərdən dörd şey ehram halında sənə haramdır: Müşk, ənbər, vərs və zə᾽fəran.

Bundan əlavə möhrüm üçün xoş iyli yağlar da məkruhdur. Amma zeytun yağı və onun kimi yağlarla özünü müalicə etməyə məcbur olan şəxs üçün məkruh deyildir.[512]

471. Həzrət imam Sadiq (ə) buyurub: Ehram halında olanadək heç bir ovu özün üçün halal sayma və ehram halında olmayarkən, hərəm daxilində də

ovu halal bilmə. Möhrüm və qeyri möhrim ov etmək üçün, ov yerinə göndərmə və hətta sənin işarə etməyinlə ovu halal saymasın deyə, ova tərəf işarə etmə. Çünki bilərəkdən ov edən şəxsə qurban kəsmək vacibdir. [513]

472. Həzrət imam Sadiq (ə) buyurub: Ehram halında hər növ quru yerlərin ovu və başqasının etdiyi ov ətindən pəhriz et, həmçinin başqasına ov etmək üçün işarə etmə. [514]

473. Həzrət imam Sadiq (ə) buyurub: Möhrim şəxs evlənməz, birinə ərə getməz, elçilik etməz və başqasının nikahına şahid ola bilməz. Əgər evlənsə, nikahı batil olar. [515]

474. Həzrət imam Sadiq (ə) buyurub: Möhrim olan halda güzgüyə baxma. Çünki, bu iş bir növ bəzəkdir. Həmçinin qadın ehram halında qara sürmədən istifadə etməsin ki, bu da bir növ bəzək sayılır. [516]

475. Əbdullah ibni Muğəyrə nəql etmişdir ki, imam Kazim (ə)-dan möhim şəxs üçün kölgə barəsində soruşduqda həzrət (ə) buyurdu: Ehram bağladığın Allah üçün qurbun kəs. Dedim: Mənim istəyimə taqətim çatmır. Həzrət (ə) buyurdu: Günəşin möhrim şəxslərin günahlarını gizlətməsini bilirsənmi? [517]

## *EHRAMDA HARAM OLAN İŞLƏR HAQQINDA İZAH*

Ehramda haram sayılan işlər iyirmi dörd işdir ki, onların on doqquzu həm kişilər, həm də qadınlara, biri yalnız qadınlara dördü isə yalnız kişilərə məxsusdur.

Həm kişilər, həm də qadınlara məxsus olan işlər belədir:

1) Güzgüyə baxmaq;

2) Hər növ ətir və xoş iydən istifadə etmək;

3) Bəzək üçün sürmə çəkmək;

4) Bədənə yağ sürtmək;

5) Bəzək üçün barmağa üzük taxmaq;

6) Cinsi yaxınlıq, öpmək və sair bu kimi hər növ cinsi ləzzət aparmaq;

7) İstimna;

8) Özü və ya başqası üçün kəbin kəsmək və yaxud nikah üçün şahid olmaq;

9) Bədən tüklərini təmizləmək;

10) Dırnaqları tutmaq və azaltmaq;

11) Diş çəkdirmək;

12) Bədənin cızılmaq və ya dişləri yumaqla qanatması;

13) Ağcaqadan və sair bu kimi bədəndə olan heyvanları öldürmək;

14) Bədənə silah bağlamaq; amma özü ilə silah aparmaq məkruhdur;

15) Yer heyvanlarını ovlamaq və ya ovlanmış heyvanın ətindən yemək;

16) İstisna olunmuş hallardan və əşyalardan başqa hərəmdə bitmiş ağac və ya otu qırmaq və sındırmaq

17) Füsuq — yəʾni yalan danışmaq, söyüş söymək və qürurlanmaq;

18) Mücadilə etmək (çəkişmə);

19) Qadınların daha çox istifadə etdiyinə baxmayaraq bəzək əşyalarından istifadə etmək.

Kişilərə məxsus olan işlər belədir:

20) Tikilmiş paltar geymək;

21) Ayağın bütövlükdə üstünü tutan ayaqqabı geymək;

22) Başı örtmək;

23) Başın üzərində kölgə yaratmaq üçün örtük tutmaq;

Qadın məxsus olan işlər isə belədir:

24) Üzü niqab və sair şeylərlə örtmək.

## *MÖHRİMƏ YARAŞMAYAN İŞLƏR*

476. Hüseyn ibni Muxtar nəql etmişdir ki, imam Sadiq (ə)-a dedim: Kişi qara paltarda ehram bağlaya bilərmi? Həzrət (ə) buyurdu: Qara parçada ehram bağlamasın və onunla ölünü kəfənə bükməsin. [518]

477. Həmmad ibni İsa nəql etmişdir ki, həzrət imam Sadiq (ə) buyurmuşdur: Möhrim şəxsi bir nəfər çağırdıqda, ehram halından xaric olanadək onun cavabında ləbbəyk deməsin. Soruşdum: Bəs nə desin? Həzrət (ə) buyurdu: Ya səˋd desin. [519]

478. Həzrət imam Sadiq (ə) buyurub: Möhrim şəsin hamama getməsinin heç bir eybi yoxdur, amma hamamda kisə çəkməsin. [520]

479. Həzrət imam Sadiq (ə) buyurub: Möhrim şəxs üçün (ərə) tərzində əyləşmək məkruhdur. Həmçinin Məscidul-həramda da bu cür əyləşmək məkruh sayılır. [521]

480. Əliyyibni Cəˋfər qardaşı imam Kazim (ə)-dan nəql etmişdir ki, o həzrətdən (ə) soruşdum: Möhrim şəxsin güləşməsi rəvadırmı? Həzrət (ə) buyurdu: Bu iş möhrim şəxs üçün yaxşı və rəva deyildir. Çünki, onun yaralanması və tüklərindən bəˋzisinin tökülməsi qorxusu vardır. [522]

2. Təvaf:

## *TƏVAFIN FƏZİLƏTİ*

481. Həzrət Peyğəmbər (s) buyurub: Təvaf Kəˋbənin bəzəyidir. [523]

482. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala təvaf edənlərlə fəxr edir. [524]

483. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala hər gün yüz iyirmi rəhmət nazil edir ki, altmış rəhmət təvaf edənlər, qırx rəhmət Allah evinin ətrafının sakinləri və iyirmi rəhmət isə Allah evinin tamaşaçıları üçündür. [525]

484. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs Allah evini yeddi dəfə təvaf edib onu sayarsa, onun hər addımı üçün bir savab yazılar, bir günahı aradan aparırlar, bir dərəcəsi artırılar və (belə bir şəxsin) bir qulu azad etməklə bərabər savabı vardır. [526]

485. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs Allah evinin ətrafında yeddi dəfə təvaf edib, — Subhanəllah vəlhəmdulillahi, la ilahə illəllah, Allahu əkbər,

la həvlə vəla qüvvətə illa billah — zikrlərindən başqa bir söz deməsə, on günahı bağışlanıb, onun üçün on savab yazılar və onun vasitəsilə on dərəcə yuxarı gedər. Amma təvaf edərkən zikrdən başqa sözlər danışan şəxs, iki ayağı suya batan kimi ilahi rəhmətə daxil olar. [527]

486. Həzrət imam Baqir (ə) buyurub: Allah-taala bu (Allah) evini yeddi dəfə təvaf edib, iki rəkət namaz qılan və təvaf və namazını yaxşı tərzdə yerinə yetirən hər bir imanlı bəndəni bağışlayar. [528]

487. Həzrət imam Sadiq (ə) buyurub: Atam buyurdu: Hər kəs bu evi yeddi dəfə təvaf edib, məscidin istədiyi hər hansı bir yerində iki rəkət namaz qılarsa, Allah-taala onun üçün altı min savab yazıb, onun altmış günahını bağışlayar və onun üçün altı min savab yazıb, onun altmış min günahını bağışlayar və onun üçün altı min dərəcə artırıb, altı min hacətini həyata keçirər. Bu hacətlərdən tez həyata keçən hər bir Allah rəhmətinə görə, tə᾿xirə düşəni isə Allahın o şəxsin duasına olan şövqinə görədir. [529]

488. Həzrət imam Sadiq (ə) buyurub: Hər gündə Kə᾿bənin elə bir anı vardır ki, o onda Kə᾿bəni təvaf edən və ya qəlbində təvaf etmək istəyən, amma müəyyən bir üzr və mane üçün təvaf edə bilməyən şəxs bağışlanır. [530]

489. Həzrət imam Sadiq (ə) buyurub: Təvaf həccin böyük əməllərindəndir. Hər kəs vacib təvafı biləəkdən tərk etsə, həcc əməlini əncam verməmişdir. [531]

## *TƏVAFIN QAYDASI*

490. Həzrət Peyğəmbər (s) buyurub: Kə᾿bəni təvaf etmək namaz qılmaq kimidir. Beləliklə təvaf vaxtı az danışın. [532]

491. Həzrət Peyğəmbər (s) buyurub: Allah evinin təvafı, namaz kimidir. Lakin Allah-taala təvaf halında danışmağı sizə halal etmişdir. Beləliklə hər kəs danışsa, xeyirdən başqa bir söz danışmasın. [533]

492. Əbdürrəhman ibni Səyabə nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum: Təvafa tələsən halda, yoxsa asta və yavaş halında əncam verim? Həzrət (ə) buyurdu: Təvafı orta halda yol getmək kimi əncam ver. [534]

493. Salim atasından nəql etmişdir ki, deyib: Həzrət Peyğəmbər (s) — Məkkəyə gələrkən — qara daşa əl vurduğunu gördüm. O həzrət (s) təvafın əvvəlində yeddi dövrə təvafdan üç dövrəsini qaçmağa bənzəyən halda əncam verirdi. [535]

494. Cabir nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) Məkkəyə gələndə Məscidul-hərama daxil olur və qara daşa əl vururdu. Daha sonra onun sağ tərəfindən üç dövrə hərvələ halda yerimək və dörd dövrə adi halda yol getdi.

Daha sonra İbrahim (ə) məqamının yanına gəlib buyurdu: İbrahim məqamından namaz yeri seçsinlər.

İbrahim məqamın onunla Kə᾿bə arasında olan halda iki rəkət namaz qıldıqdan sonra Səfa dağına tərəf çölə getdi. [536]

495. Əbu Tufəyl nəql etmişdir ki, İbni Abbasa dedim: Sənin nəzərinə görə təvafın üç dövrəsini qaçmağa bənzər halda, qalan dörd dövrəsini isə adi

halda təvaf etmək müstəhəb və sünnədəndirmi? Sənin qəbilən bunun sünnə olduğunu güman edirlər. İbni Abbas dedi: Düz və yalan demişlər. Soruşdum: Necə də həm düz, həm də yalan demişlər? Dedi: Həzrət Peyğəmbər (s) Məkkəyə daxil olduqda müşriklər dedilər: Məhəmməd və onun səhabələri arıq olduqları üçün Kə`bəni təvaf edə bilməyəcəklər və beləliklə də həsəd edirdilər. Elə buna görə də həzrət Peyğəmbər (s) öz səhabələrinə üç dövrəni qaçmağa bənzər və qalan dörd dövrəsini isə adi halda təvaf etməyi göstəriş verdi. [537]

496. Bəkr ibni Məhəmməd nəql etmişdir ki, imam Sadiq (ə) ilə birlikdə təvafa məşğul idim. O həzrət (ə) təvafı qurtardıqdan sonra kənara gedib Kə`bənin rüknü və qara daş ilə iki rəkət namaz qıldı və səcdədə bu sözləri dediyini eşitdim:

Mənim üzüm übudiyyət və bəndəçilik üzündən Sənin üçün səcdə edir və Səndən başqa heç bir mə`bud yoxdur. Həqiqətən Sən hər bir şeydən birinci və hər bir şeydən sonra sonuncusan. İndi isə mən Sənin qarşındayam və varlığım Sənin qüdrət əlindədir. Məni bağışla ki, Səndən başqa heç kim böyük günahı bağışlamır. Məni bağışla ki, öz günahlarıma e`tiraf edirəm və böyük günahı Səndən başqa heç kəs aradan aparmır.

Daha sonra başını səcdədən qaldırdı və həzrətin (ə) üzü elə yaş idi ki, sanki suya batmışdı. [538]

497. Sə`d ibni Müslim nəql etmişdir ki, imam Kazim (ə)-ı gördüm ki, qara daşa əl çəkdi və daha sonra təvaf etməyə məşğul oldu. Təvafın yeddinci dövrəsi sona çatdıqdan sonra Allah evinin ortasına gəlib, bizim dostların dua üçün yapışdığı Mültəzimi tərk etdi. Əlini Kə`bəyə açıb, bir az dayandı və daha sonra qara daşın kənarına gedib əlini ona çəkdi. Bundan sonra İbrahim məqamının arxasında namaz qılıb, yenidən geri qayıdaraq qara daşa əl çəkdi. Sonra gedib yeddinci təvaf dövrəsində Mültəzəmə çatdı. Allah evinin ortasına gəlib əlini açaraq bir daha qara daşa əl çəkdi və İbrahim (ə) məqamının arxasında iki rəkət namaz qıldı.

Bundan sonra qara daşa əl çəkib, təvafa məşğul oldu və yeddinci dövrənin sonunda Allah evinin ortasına gələrək yenə də əlini qara daşa çəkdi. İbrahim (ə) məqamının arxasında iki rəkət namaz qılıb bir daha qara daşın yanına gedərək qara daş ilə Kə`bə qapısının arasına əl çəkdi. O həzrət (ə) bir az dayandıqdan sonra qara daşın kənarına gəlib səkkiz rəkət namaz qıldı. Kə`bə ilə sonuncu görüşü novdanın altında idi ki, əllərini açıb dua etdi. Daha sonra bir ay dayanıb, hənnatin qapısından xaric oldu. [539]

## *ÇOXLU TƏVAF ETMƏK*

498. Həzrət imam Sadiq (ə) buyurub: Çoxlu təvaf edin, çünki təvaf qiyamət günü əməl kitablarınızda olan ən az olan əməl sayılacaqdır. [541]

500. Həzrət imam Sadiq (ə) buyurub: Zi-hiccə ayının ilk on günündə bir dəfə təvaf etmək, həcc mövsümündə yetmiş dəfə təvaf etməkdən üstündür. [542]

501. Həzrət imam Sadiq (ə) buyurub: Həccdən qabaq bir dəfə əncam verilən təvaf, həccdən sonra əncam verilən yetmiş təvafdan üstündür. [502]

502. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət Məhdi (ə)-ın aşkra etdiyi ilk ədalətli iş budur ki, bir nəfə o həzrətin tərəfindən belə e᾿lan edəcəkdir: Müstəhəb təvafı əncam verən şəxs, qara daş və təvaf yerini vacib təvafı əncam verən şəxsə təhvil versin. [544]

503. Əbdürrəhman ibni Həccac nəql etmişdir ki, imam Sadiq (ə)-a dedim: Məkkədə e᾿tikaf bağlamaq istəyirəm. Nə edim? Həzrət (ə) buyurdu: Zi-hiccə ayının hilalını (ay parasını) gördükdə, Cə᾿ranəyə gedib orada həcc üçün ehram bağla. Dedim: Məkkəyə daxil olub, Tərviyə gününədək orada qalır, amma Kə᾿bəni təvaf etmirəm. Nə edim? Həzrət (ə) buyurdu: On gün qalır, amma təvaf etmirsənmi? On gün çoxdur və Kə᾿bə tərk olunmuş halda qalmamalıdır. [545]

## *QARA DAŞIN İSTİLAMI VƏ ONUN QAYDALARI*

1-İstilam etməyin müstəhəbliyi:

504. Həzrət imam Sadiq (ə) buyurub: Həzrət Peyğəmbər (s) hər bir vacib və müstəhəb təvafda qara daşa əl çəkərdi. [546]

505. Cabir ibni Əbdillah nəql etmişdir ki, gün çıxan vaxtda Məkkəyə daxil olduqda həzrət Peyğəmbər (s) məscidin qapısı kənarına gəlib dəvəsini əyləşdirərdi və daha sonra məscidə daxil oldu. Qara daşdan başlayaraq əlini ona çəkir və gözləri yaşla dolmuşdu. Sonra üç dövrə qaçışa bənzər və dörd dövrə adi yerişlə təvaf edib, onları sona çatdırdı. O həzrət (s) daha sonra qara daşı öpüb əllərini onun üzərinə qoyaraq üzünə çəkdi. [547]

506. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbər (s) qara daşa üz tutub dodaqlarını ona qoyaraq çoxlu ağladı. Daha sonra üzünü döndərərək Ömər ibni Xəttabı ağlayan halda görüb, buyurdu: Ey Ömər! Elə burada göz yaşları tökülməlidir.[548]

507. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbərin (s) qara daşa əl çəkdiyini gördükdən sonra mən də həmişə onun yanından keçəndə ona əl çəkdim.[549]

508. Müaviyətibni Əmmar nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum. Bir nəfər həcc əməlini yerinə yetirmiş, lakin qara daşa əl çəkməmişdir. Həzrət (ə) buyurdu: Bu əməl müstəhəbdir və əgər bunun bacarmasa, Allah-taala üzrü qəbul etmək üçün daha layiqlidir. [550]

2. İstilamın hikməti:

509. Həzrət imam Baqir (ə) buyurub: Qara daş, peyman kimi və ona əl çəkmək bey᾿ət etmək kimidir. O həzrət ona əl çəkdikdə belə deyirdi: İlahi! Bu mənim əda etdiyim əmanətim və bağladığım əhdimdir ki, onu çatdırmağı Sənin yanında mənim üçün şəhadət versin.[551]

510.Hələbi nəql etmişdir ki, imam Sadiq (ə)-a dedim: Nə üçün qara daşa əl çəkmək sünnə olmuşdur? Həzrət (ə) buyurdu: Allah-taala Adəm (ə)

övladlarından əhd aldıqda, behiştdən qara daşı çıxararaq ona göstəriş verdi və qara daş da o əhdi aldı. Beləliklə də qara daş öz əhdinə vəfa edən hər bir şəxs üçün vəfalı olmağa şəhadət verir.[552]

511. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala öz bəndələrindən əhd-peyman aldıqda, qara daşa göstəriş verdi və beləliklə də o göstəriş aldı. Elə buna görə də deyilir: Bu mənim əda etdiyim əmanət və vəfa qıldığım əhdimdir ki, vəfalı olmağıma şəhadət versin. [553]

3. İstilamın necəliyi:

512. Yə`qub ibni Şüəyb nəql etmişdir ki, imam Sadiq (ə)-dan röknə istilam etmək barədə soruşduqda buyurdu: İstilam belədir ki, öz qarnını ona yapışdırır, məsh isə əlini ona çəkməkdir. [554]

513. Səid Ə`rəc nəql etmişdir ki, imam Sadiq (ə)-dan qara daşa Kə`bənin qapısı tərəfdən əl çəkmək barədə soruşduqda buyurdu: Rüknə əl çəkmək istəmirsənmi? Dedim: İstəyirəm. Həzrət (ə) buyurdu: Əlin hər hansı bir yerdən çatsa, kafidir.[555]

4. Təkbir:

514. Həzrət imam Sadiq (ə) buyurub: Adəm (ə) rükndə yerləşən qara daşa nəzər saldıqda, Allahu əkbər, və la ilahə illəllah deyərək Allahı əzəmətlə yad etdi. Elə buna görə də təkbir demək və Səfa dağından qara daş olan rüknə tərəf getmək sünnə oldu. [556]

515. Yə`qub ibni Şüəyb nəql etmişdir ki, imam Sadiq (ə)-a dedim: Qara daş ilə üzbə-üz durduqda nə deyim? Həzrət (ə) buyurdu: Təkbir de və Məhəmməd və onun Əhli-beytinə (ə) salavat göndər.

Həmçinin o həzrətin (ə) qara daşın qarşısında durub Allahu əkbər və Əssəlamu əla Rəsulillah (s) deməsini eşitdim. [557]

5. Dua:

516. Həzrət imam Həsən (ə) buyurub: Qara daşın rüknuna üzünü yapışdırdıqda belə dua et: İlahi! Mənə ne`mət verdin, amma məni şükr edən tapmadın. Məni bəlaya atdın, amma səbrli tapmadın. Ne`mətini mənim şükr etməməyim üçün məndən almayıb və səbirziliyim üçün giriftarçılığımı davam etdirmədin. İlahi! Böyükdən kərəm və böyüklükdən başqa bir şey gəlməz. [558]

517. Həzrət imam Sadiq (ə) buyurub: Qara daşa yaxınlaşdıqda, əllərini yuxarı qaldırıb Allah üçün həmd və səna et və Peyğəmbərə (s) salavat göndərərək Allahdan əməllərini qəbul etməsini istə. Daha sonra qara daşa əl çəkib, onu öp və əgər onu öpə bilməsən əlini ona çək. Həmçinin əl çəkə bilmədikdə ona işarə edib belə de: İlahi! Əmanətimi əda edib əhdimə vəfa etdim ki, mənim öz əhdimə vəfalı olmağıma şəhadət versin. İlahi! Sənin kitabın və peyğəmbərinin davranışını qəbul etdim. Şəhadət verirəm ki, yeganə və şəriksiz Allahdan başqa bir mə`bud yoxdur. Məhəmməd Onun bəndəsi və elçisidir. Allaha iman gətirib, cibt (müşriklərin bütü), tağut, lat, uzza, şeytan pərəstiş və Allahdan başqa mə`bud adlanan hər bir şeyə küfr etdim.

Bunların hamısını deyə bilməsən, onun bir hissəsini de və belə de: İlahi! Əlimi Sənə tərəf açdım. Mənim Sənin yanında olanlara rəğbətim çoxdur. Beləliklə mənim təsbih deməyimi qəbul et və məni bağışlayaraq, rəhmətini göndər. İlahi! Küfr, yoxsulluq, həmçinin dünya və axirətin zəlillik yerlərindən Sənə pənah aparıram.

6. İzdiham halında istilam etmək:

518. Həzrət Peyğəmbər (s) Ömərə buyurdu: Ey Ömər! Sən güclü adamsan. Gücsüz şəxslərə əziyyət etməyəsən deyə qara daşa çatmaq üçün xalqı sıxma. Xəlvət bir yer tapdıqda ona əl vur. Əks təqdirdə isə üzünü ona tərəf tutub la ilahə illəllah və Allahu əkbər de. [560]

519. Ayişə nəql etmişdir ki, həzrət Peyğəmbər (s) həcətul-vida mərasimində dəvəyə minən halda Kəʾbənin ətrafında təvaf edir və rüknə əl vururdu. Çünki xalqı ondan uzaqlaşdırmağı xoşlamırdı. [561]

520. Əbut-tüfeyl nəql etmişdir ki, həzrət Peyğəmbəri (s) Kəʾbənin ətrafında təvaf edən halda gördüm ki, o həzrət (s) əlində olan əsanı qara daşa vurur və daha sonra o əsanı öpürdü. [552]

521. Haris nəql etmişdir ki, həzrət Əli (ə) qara daşın yanından ötərkən onun ətrafında izdihamı gördükdə, üzünü ona tərəf tutub Allahu əkbər deyir, həmçinin belə dua edirdi: İlahi! Sənin kitabın və peyğəmbərinin davranışına inanıram. [563]

522. Həzrət imam Sadiq (ə) buyurub: Əvvəllər təvafın qara daşdan başlanıb, qara daşda sona yetirilməsini deyirdik. Amma bu gün xalq çoxalmışdır. [564]

523. Səyf Təmmar nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-a dedim: Qara daşın yanına getdikdə, oranı izdihamlı halda görüb, öz dostlarımızdan yalnız bir nəfəri orada gördüm. Ondan soruşduqda dedi ki, qara daşa əl çəkmək lazımdır. Həzrət (ə) buyurdu: Oranı boş gördükdə belə et, əks təqdirdə isə uzaqdan salam ver.[565]

524. Həmmad ibni Osman nəql etmişdir ki, bir nəfər imam Sadiq (ə)-ın hüzuruna gəlib dedi: Ey Əba Əbdillah! Qara daşa əl çəkmək barədə nə deyirsən? Həzrət (ə) buyurdu: Həzrət Peyğəmbər (s) ona əl çəkmişdir. O şəxs soruşdu: Mən sizin ona əl çəkməyinizi görməmişəm?

Həzrət buyurdu: Bir gücsüzü incitmək və ya özümün əziyyət çəkməsini sevmirəm.

Dedi: Siz Peyğəmbərin (s) ona əl çəkdiyini söylədiniz? Həzrət (ə) buyurdu: Bəli belə demişəm. Lakin xalq həzrət Peyğəmbəri (s) gördükdə o həzrətin (s) haqqını tanıyır və ona yol açırdılar. Mənim isə haqqımı tanımırlar.[566]

525. Əbdürrəhman ibni Həccac nəql etmişdir ki, imam Sadiq (ə) buyurub: Təvaf etməyə məşğul idim ki, Süfyan Suri də mənim yaxınlığımda idi. O dedi: Ey Əba Əbdillah! Həzrət Peyğəmbər (s) qara daşa çatdıqda nə edirdi? Dedim: Həzrət Peyğəmbər (s) istər vacib, istərsə də müstəhəb təvaflarda qara daşa əl çəkirdi. Həzrət (ə) buyurdu: O bir az məndən arxaya keçdi və qara daşa çatdıqda ona əl vurmadan ötüb keçdim. O özünü mənə çatdırıb dedi: Ey

Əba Əbdillah! Həzrət Peyğəmbərin (s) vacib və müstəhəb təvaflarda ona əl çəkdiyini söyləmədinmi? Dedim: Xalq həzrət Peyğəmbər (s) üçün hörmət edir, amma mənim üçün hörmət etmirlər. O həzrət (s) qara daşa çatdıqda, ona əl çəksin deyə, yol açırdılar. Mən isə xalqı sıxıntıya salmağı sevmirəm.[567]

526. Məhəmməd Hələbi nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum. Qara daşın ətrafında izdiham olan halda ona əl çəkə bilməsəm nə edim? Həzrət (ə) buyurdu: Qoca kişi, zəif və xəstə şəxslərin ona əl çəkməməsi üçün icazəsi vardır. Çarəsiz olandan başqa, onra əl çəkməyi tərk etməyi sevmirəm.[568]

527. Məhəmməd ibni Ubəydullah nəql etmişdir ki, həzrət imam Rza (ə)-dan soruşdum. Xalqın sayı çox olduqda qara daşa əl çəkmək üçün onlarla dava etmək lazımdırmı? Həzrət (ə) buyurdu: Belə olan halda əlinlə ona işarə et.[569]

## *TƏVAF DUASI*

528. Əbdullah ibni Salib nəql etmişdir ki, həzrət Peyğəmbəri (s) Rükni Yəmani ilə qara daşın arasında gördüm ki, belə deyirdi: «Rəbbəna atina fid-dünya həsənəh, vəfil axirəti həsənəh və qina əzabənnar — yəʾni İlhai! Bizə həm dünya, həm də axirətdə yaxşılıq əta et və bizi cəhənnəmdən saxla».[570]

529. İbni Məsʾud nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Kəʾbəni təvaf edərkən əlini ona çəkir və belə dua edirdi:

«İlahi! Ev Sənin evin, biz isə Sənin bəndələrinik. Bizim ixtiyarımız və get-gəlimiz Sənin qüdrət əlindədir. Əgər bizə əzab versən, bu bizim günahlarımıza görə, bizi bağışladıqda isə bu Sənin rəhmətinə görədir. Öz evinin həccini ona tərəf yol və imkanı olana vacib etmisən. Bu yolu bizim üçün qərar verdiyinə görə Sənə həmd olsun. İlahi! Şükr edənlərin savabını bizə ruzi et. [571]

530. Əbdül-əʾla Təymi nəql etmişdir ki, həzrət Xədicə (ə.s.) dedi: Ey Allahın elçisi! Allah evini təvaf edən halda nə deyim? Həzrət (s) buyurdu: Belə de: İlahi! İşlərimdə olan günahlar, xətalar (ərə) və israfımı bağışla. Çünki, Sən məni bağışlamasan, məni həlak edərsən. [572]

531. Səid ibni Müsəyyib nəql etmişdir ki, həzrət Peyğəmbər (s) rükni yəmaninin yanından keçdikdə belə deyirdi:

İlahi! Sənə küfr, zəlillik, yoxsulluq və dünya və axitərin zəlillik yerlərindən pənah aparıram. İlahi! Həm dünya, həm də axirətdə bizə yaxşılıq əta edib, bizi cəhənnəm odundan saxla. [573]

532. Osman nəql etmişdir ki, həzrət Peyğəmbərin (s) dövranında bir kişi qara daş ilə rükni yəmani arasında durub belə deyirdi: İlahi! Sən Allah və Rəhmansan və Səndən başqa heç bir məʾbud yoxdur. Sən Pərvərdigarsan və Səndən başqa ayrı bir Rəbb yoxdur. Sən həmişə öz zatına arxalanan və qəflətə düşməyənsən. Görüləsi və görülməyəsi varlıqları yaradan Sənsən və öyrənməmiş bütün şeyləri bilən Sənsən.

Həzrət Peyğəmbər (s) onun işindən xəbərdar olub buyurdu: Əgər belə demişdirsə — Allah daha bilicidir — Ona behişt müjdəsi verin və ona deyin ki, o öz qövmü arasında Yasin sahibinin öz qövmü arasında olduğu kimidir. [574]

533. Həzrət imam Sadiq (ə) buyurub: Allah evinin ətrafında yeddi dəfə təvaf edib, təvafde belə de: İlahi! Səni elə bir adınla çağırıram ki, onun vasitəsilə dəryaların sinəsi və yerin yolları ilə yol gedir, ərşin titrəyir və mələklərinin addımları lərzəyə düşür. Həmçinin Musa (ə) onun vasitəsilə Tur vadisi tərəfindən Səni səsləmiş və Sən də ona cavab verərək, öz məhəbbətini onu üçün genişləndirdin. Səni elə bir adla çağırıram ki, ona xatir həzrət Məhəmmədin (s) keçmiş və gələcəyini bağışlayıb, neʾmətini ona tamaladın. Səndən isətyirəm ki,... (burada istədiyin duaları etməlisən).

Həmçinin Kəʾbə qapısını hər dəfə açdıqda, həzrət Peyğəmbərə (s) salavat göndər, həmçinin rükni yəmani ilə qara daşın arasında durub belə deyirsən:

İlahi! Həm dünya, həm də axirətdə bizə yaxşılıq əta et və bizi od əzabından saxla.

Həmçinin təvafda de: İlahi! Mən Sənə möhtac, Səndən qorxan və Sənə pənah gətirənəm. Nə cismimi, nə də adımı dəyişdirmə. [575]

534. Həzrət imam Səccad (ə) buyurub: Təvafın yeddinci dövrəsində olarkən Kəʾbənin arxasında onun qapısı ilə üz-üzə olan mütəəvvəzə (pənah aparılan) yerə gedib belə de: İlahi! Ev sənin evin, bəndə isə Sənin bəndəndir. Və bura Cəhənnəmdən Sənə pənah aparan yerdir. İlahi! Sevinc və açılış Sənin tərəfindəndir.

Sonra rükni yəmaniyə əl çək və daha sonra qara daşa tərəf gedib təvafı onunla sona yetir. [577]

536. Həzrət imam Səccad (ə) buyurub: Kəʾbə qapısına çatdığın hər dəfədə həzrət Peyğəmbərə (s) salavat göndərib təvafda belə de: İlahi! Sənə möhtac, Səndən qorxan və Sənə pənah gətirənəm. Adımı və cismimi dəyişdirmə.

Yeddinci dövrədə Kəʾbənin axırına rükni yəmaniyə bir az qalmış, müstəcara çatdıqda, əllərini açıb üz və qarnını Kəʾbəyə yapışdır və daha sonra belə de: İlahi! Ev, Sənin evin, bəndə isə Sənin bəndəndir və bu yer, oddan Sənə pənah gətirənin yeridir. Daha sonra Allah qarşısında öz günahlarına eʾtiraf et. Çünki, Allah-taala bu məkanda, Allah dərgahında öz günahlarına etʾtiraf edən hər bir möʾmin bəndəni bağışlayır.

Həzrət imam Sadiq (ə) öz xadimlərinə buyurdu: Məndən uzaqlaşın ki, Rəbbimin dərgahında əncam verdiyim işlərə eʾtiraf edim.

İlahi! Sevinc, açılış və afiyət Sənin tərəfindəndir. İlahi! Saleh əməlim azdır, onu çoxalt və mənim işlərimdən agah olub, bəndələrinə isə gizli qalan pis əməllərimi bağışla. Cəhənnəm odundan Allaha pənah aparıb, istədiyin hər hansı bir duanı tələb edirsən. Daha sonra rükni yəmani və qara daş yerləşən ruknə üz tutub, təvafı onunla bitirirsən. Amma bunu bacarmasan heç bir eybi yoxdur.

Həmçinin belə deyirsən: İlahi! Mənə ruzi verdiyin ne᾿mətlərinə qane edib, mənə verdiyin ne᾿mətləri bərəkətli qərar ver.[578]

537. Əbdüs-səlam ibni Əbdür-rəhman nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-a dedim: Həm təvaf, həm də Səfa və Mərvə dağları arasında əncam verdiyim) sə᾿ydə dilimə həzrət Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) salavatdan başqa heç bir dua gəlmədi. Həzrət (ə) buyurdu: Heç bir istəyi dua edən şəxsə, sənə əta olunmuşdan üstün bir şey əta olunmamışdır.[579]

538. Əhməd ibni Musa ibni Sə᾿d nəql etmişdir ki, həzrət imam Rza (ə) ilə birlikdə təvafa məşğul idim ki, rükni yəmaninin qarşısına çatdıqda, o həzrət (ə) dayandı və əllərini yuxarı qaldıraraq belə dedi: Ya Allah! Ey afiyət sahibi! Ey afiyət xaliqi! Ey afiyəti ruzi verən! Ey mənə və bütün bəndələrinə afiyətlə ne᾿mət verən, minnət qoyan və yaxşılıq edən! Ey dünya və axirəti mehriban və bağışlayan! Məhəmməd və onun Əhli-beytinə (ə) salavat göndər və bizə dünya və axirətdə afiyət, afiyət davamı, kamalı, həmçinin afiyət üçün şükr etməyi ruzi et. Ey mehribanların mehribanı![580]

3. Təvaf namazı:

539. Həzrət imam Baqir (ə) buyurub: Vacib təvafın iki rəkət namazını İbrahim (ə) məqamının kənarından başqa bir yerdə qılmağın layiqli deyildir. Amma müstəhəb təvafın namazını məscidin hər bir yerində istəsən qıla bilərsən.[581]

540. Həzrət imam Sadiq (ə) buyurub: Təvafı qurtardıqdan sonra İbrahim (ə) məqamının yanına gedib, onu öz qarşında qərar verərək iki rəkət namaz qıl. Namazın birinci rəkətində Qul huvəllahu əhəd surəsi, ikinci rəkətində isə Qul ya əyyuhəl kafirin surəsini oxu. Daha sonra təşəhhüdü deyib, Allah üçün həmd və səna de və həzrət Məhəmmədə (s) salavat göndərdikdən sonra Allahdan bu əməllərini qəbul etməsini istə. Bu iki rəkət namazı hər hansı bir saatda qılmağın vacibdir. Amma təvafını əncam verib sona yetirdikdə onu tə᾿xirə salma və o iki rəkət namazı yerinə yetir.[582]

541. Həzrət imam Sadiq (ə) buyurub: Vacib təvafın iki rəkət namazından sonra bu duanı oxuyursan: İlahi! Səndən və peyğəmbərindən itaət etdiyim üçün mənə rəhmət göndər. İlahi! Məni öz itaətinin hüdudundan xaric olmaqdan uzaq et və məni özün, peyğəmbərin, mələklərin və saleh bəndələrini sevənlərdən qərar ver.[583]

542. Hüseyn ibni Osman nəql etmişdir ki, həzrət imam Kazim (ə)-ı İbrahim (ə) məqamının qarşısında və Məscidul-həramın kölgələrində iki rəkət vacib təvafın namazını qılan halda gördüm.[584]

543. Həzrət imam Hüseyn (ə)-ı Allah evini təvaf edən halda gördüm ki, o həzrət (ə) təvafdan sonra İbrahim (ə) məqamının yanına gəlib təvaf namazı qıldı. Daha sonra üzünü məqama qoyub ağlamağa başladı və ağlayarkən belə deyirdi: Kiçki bəndən Sənin qapındadır, Səni istəyən və Sənin miskinin hüzurundadır. O həzrət (ə) bu duaları ardıcıl olaraq təkrar edirdi.[585]

4. Səfa və Mərvə dağları arasında sə᾿y etmək:

544. Həzrət imam Sadiq (ə) buyurub: Allah yanında heç bir ev səʾy yerindən sevimli deyildir. Çünki hər bir təkəbbürçü şəxs, orada zəlil olur. [586]

545. Həzrət imam Sadiq (ə) buyurub: Səʾy, təkəbbürçülərin zəlil edilməsi üçün vacib olmuşdur. [587]

## SƏʾYİN HİKMƏTİ

Qurʾan:

**«Səfa və Mərvə Allah şüarlarındandır. Beləliklə Allah evinin həcc və ömrə əməllərin əncam verənin onların arasında səʾyə etməsinin heç bir eybi yoxdur. Hər kəs yaxlışıq əncam versə, Allah şükr edən və biləndir».**[588]

**Hədis:**

546. Həzrət imam Sadiq (ə) buyurub: Səfa və Mərvə arasında səʾy etmək ona görə vacib olmuşdur ki, Şeytan özünü həzrət İbrahim (ə)-a göstərdi və Cəbrail (ə) da o həzrətə (ə) Şeytana həmlə etməsini göstəriş verdi və beləliklə şeytan qaçdı. Elə buna görə də hərvəl sünnəti qərar verildi. [589]

547. Əliyyinbi Cəʾfər nəql etmişdir ki, imam Kazim (ə)-dan Səfa və Mərvə arasında səʾy etməkdən soruşduqda buyurdu: İbrahim (ə)-ın səʾy etməsi üçün qərar verilmişdir. [590]

## SƏʾYİN QAYDASI

548. Müaviyətibni Əmmar imam Sadiq (ə)-dan nəql etmişdir ki, həzrət Peyğəmbər (s) təvaf və onun iki rəkət namazını yerinə yetirdikdən sonra buyurdu: Allahın başladığı yerdən başlayıram. Allah-taala buyurur: Səfa və Mərvə Allah şüarlarındandır.

Həzrət imam Sadiq (ə) buyurdu: Daha sonra həzrət Peyğəmbərin (s) xaric olduğu və qara daşın qarşısında olan qapıdan o vadini vüqarla ötmək üçün Səfa dağına tərəf get, sonra Səfa dağından Kəʾbəyə baxmaq və qara daş yerləşən rüknə üz tutmaq üçün yuxarı qalx və bundan sonra Allah üçün həmd-səna edib sənə qarşı neʾmət və yaxşılıqlarını bacardığın qədər say. Sonra yeddi dəfə Allahu əkbər, yeddi dəfə Əlhəmdu lillah və yeddi dəfə La ilahə illəllah zikrlərini deyib, bu duanı üç dəfə oxu:

«Yeganə Allahdan başqa heç bir məʾbud yoxdur və onun heç bir şəriki yoxdur. Mülk və sitayiş ona məxsusdur. Dirildir və öldürür və O, heç vaxt ölməyən bir diridir və hər bir şeyə qadirdir. Daha sonra həzrət Peyğəmbərə (s) üç dəfə salavat göndərib, belə de: Allah daha böyükdür. Bizi hidayət və imtahan etdiyi üçün Allaha şükr olsun və həmd-sən öz zatına arxalanan və əbədi Allah üçündür.»

Sonra üç dəfə de: Şəhadət verirəm ki, Allahdan başqa heç bir məʾbud yoxdur və Məhəmməd (s) Onun bəndəsi və elçisidir. Ondan başqa heç kimə pərəstiş etmir və müşriklərin xoşuna gəlməsə belə dini onun üçün xalisləşdirmişik.

Həmçinin üç dəfə de: İlahi! Dünya və axirətdə bizə yaxşılıq əta et və bizi Cəhənnəm əzabından saxla.

Bundan sonra yüz dəfə Allahu əkbər, yüz dəfə La ilahə illəllah, yüz dəfə Əlhəmdu lillah və yüz dəfə Suhanəllah deyib bunu oxu: Bir olan Allahdan başqa heç bir mə᾽bud yoxdur. Və᾽dəsinə əməl etmiş, bəndəsinə kömək etmiş və təklikdə dəstələrə qalib olmuşdur. Mülk və sitayiş təkcə Ona məxsusdur. İlahi! Ölümdə, ondan sonranı mənim üçün bərəkətli qərar ver. İlahi! Qəbrin qaranlıq və vəhşətindən Sənə pənah aparıram. İlahi! Sənin kölgəndən başqa bir kölgə olmayan gündə məni öz ərşinin kölgəsində qərar ver.

Daha sonra öz dinin, canın və ailəni ardıcıl olaraq Allaha tapşırıb de:

Dinim, canım və ailəmi, əmanətləri zay etməyən Allaha tapşırıram. İlahi! Məni öz kitabın və peyğəmbərinin davranışı əsasında yaşaydıb, Onun dini əsasında dünyadan apar və məni fitnədən saxla.

Sonra üç dəfə təkbir deyib, o duanı iki dəfə oxu və yenə də bir dəfə təkbir deyərək o duanı bir daha oxu. Əgər bunların hamısını yerinə yetirə bilməsən, onun bir hissəsini oxu.

Həzrət imam Sadiq (ə) buyurub: həzrət Peyğəmbər (s) Bəqərə surəsini sakit halda oxunan miqdarda Səfa dağında durdu.[591]

549. Cabir ibni Əbdillah nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Səfa dağında durduqda, üç dəfə təkbir deyir və daha sonra belə buyururdu: Yeganə Allahdan başqa heç bir mə᾽mud yoxdur və Onun heç bir şəriki yoxdur. Mülk və sitayiş yalnız Ona məxsusdur və O, hər bir şeyə qadirdir.

O həzrət (s) bu işi üç dəfə təkrar edərək, duanı oxuyur və bu əməli Mərvə dağında da əncam verirdi.[592]

550. Cabir ibni Əbdillah həzrət Peyğəmbərin (s) həcc hədisini nəql edərək deyir: O həzrət (s) Məscidul-həramın qapısından Səfa dağına tərəf xaric oldu. Səfa dağına yaxınlaşdıqda, «İnnəs-Səfa vəl-Mərvətə min şəairillah» ayəsini oxuyub buyurdu: Allahın başladığı ilə başlayıram. Daha sonra Səfa dağından sə᾽y etməyə başlayıb, Allah evini görənədək ondan yuxarı qalxdı. Bundan sonra «La ilahə illəllah» və «Allahu əkbər» deyib buyurdu: Allahdan başqa heç bir mə᾽bud yoxdur. Şəriksizdir, mülk və sitayiş yalnız Ona məxsusdur. Dirildir, öldürür və O hər bir şeyə qadirdir. Allahdan başqa heç bir mə᾽bud yoxdur. Və᾽dinə əməl etmiş, bəndəsinə kömək olmuş və təklikdə bütün müşrik dəstələri dağıtmışdır. Sonra bu fasilədə dua edib, üç dəfə onu təkrar etdi. Bundan sonra Mərvə dağına tərəf yenə enib ayaqlarını Səfa və Mərvə arasında yerləşən vadiyə qoydu və sonra Mərvə dağına qalxaraq Səfa dağında əncam verdiklərini orada da əncam verdi. O həzrətin (s) təvafını sonu Mərvədə idi.[593]

551. Əliyyibni No᾽man nəql etmişdir ki, Əmirəl-mö᾽minin Əli (ə) Səfa dağına qalxdıqda əllərini qaldırıb belə deyirdi: İlahi! Mənim bütün günahlarımı bağışla və əgər bir daha günah etsəm, Sən yenə də bağışla. Həqiqətən Sən bağışlayan və mehribansan. İlahi! Mənlə özünə yaraşan tərzdə rəftar et. Əgər özünə yaraşan tərzdə mənlə rəftar etsən, məni bağışlayarsan.

Amma mənə əzab versən, Sən mənə əzab verməkdən ehtiyacsız, mən isə Sənin rəhmətinə möhtacam. Ey rəhmətinə möhtac olduğum! Mənə rəhm et! İlahi! Mənə layiq olduğum tərzdə rəftar etmə ki, əgər belə etsən, mənə zülm deyil, əksinə əzab verəcəksən. Elə bir haldayam ki, Sənin ədalətindən qorxur, lakin zülmdən qorxmuram. Ey zülmsüz ədalətli! Mənə rəhm et. [594]

552. Məhəmməd ibni Əmr ibni Yəzid öz dostlarının birindən nəql etmişdir ki , imam Kazim (ə) Səfa və ya Mərvə dağlarının üstündə olarkən o həzrətin (ə) arxasında idim və həzrət (ə) bu iki sözdən artıq bir şey demirdi: İlahi! Səndən hər bir halda özünə olan hüsnü-zənn (yaxşı güman) və Sənə təvəkkül etməkdə düzgün niyyət istəyirəm. [595]

553. Həzrət imam Sadiq (ə) buyurub: Mal-dövlətinin çoxalmasını istəyən hər bir şəxs, Səfa və Mərvə dağlarında durmağı uzatsın. [596]

554. Həzrət imam Sadiq (ə) buyurub: Yorulduqdan başqa hallarda Səfa və Mərvə dağları arasında oturma. [597]

## *SƏ՚YİN SAVABI*

555. Həzrət Peyğəmbər (s) buyurub: Həcc əməlini əncam verən şəxs, Səfa və Mərvə arasında sə՚y etdikdə günahlarından xaric olur. [598]

556. Həzrət imam Səccd (ə) buyurub: Mələklər, Səfa və Mərvə arasında sə՚y edən şəxsə şəfatə edər və şəfaətləri qəbul olunar. [599]

5. Təqsir:

557. Həzrət imam Sadiq (ə) buyurub: Təməttö՚ ömrəsində olduqda sə՚yi sona çatdırdıqdan sonra başının ətrafı və saqqalının tüklərindən azalt və buğundan da bir hissəsini alıb dırnaqlarını tut. Onun bir miqdarını isə həccin üçün saxla. Belə etdikdə ehramdan — ehram bağladığın bütün işlərdən xaric olmusan. Beləliklə istədiyin qədər Kə՚bə ətrafında müstəhəb təvaf əncam ver.[600]

558. Həzrət imam Sadiq (ə) buyurub: Mütəməttti՚ təvafı odur ki, Kə՚bəni təvaf edib Səfa və Mərvə arasında sə՚y etsin. Həmçinin öz tükünü azaltsın. Belə etdikdə isə ehramdan xaric olmuşdur. [601]

559. Həzrət imam Sadiq (ə) buyurub: Allah evinin ətrafında yeddi dəfə təvaf et, İbrahim (ə) məqamının yanında iki rəkət namaz qılıb, Səfa və Mərvə arasında sə՚yi əncam ver və öz tükündən azalt. Tərviyə günü çatdıqda isə üsl edib, həcc üçün ehram bağlayaraq xalq kimi əncam ver. [602]

## *TƏMƏTTÖ՚ HƏCCİNİN VACİB ƏMƏLLƏRİ*

1. Ehram:

560. Həzrət imam Sadiq (ə) buyurub: Adəm (ə) tövbə etməyə mə՚mur olduqda Cəbrail (ə) ona dedi: Ey Adəm! Qalx ayağa. Beləliklə təviyə günündə onu çölə gətirərək qüsl verib, ehram bağlamasını göstəriş verdi... Zi-hiccə ayının səkkizinci günü olduqda, Cəbrail (ə) onu Minaya tərəf çölə gətirdi və

gecə orada qaldı. Sübh açılanda onu Ərəfat çölünə tərəf gətirdi. Onu Məkkədən çölə gətirdikdə ehram bağlamaq və ləbbəyk deməyi ona öyrətdi və Ərəfə günü zöhr çağı ləbbəyk deməyi saxladı. [603]

561. Həzrət imam Sadiq (ə) buyurub: Təməttö᾽ ömrəsini əncam verən şəxs... tərviyə günü həcc üçün ehram bağlamalıdır. [604]

562. Həzrət imam Sadiq (ə) buyurub: Tərviyə günü çatdıqda, Əqiq vadisinin əməllərinin yerinə yetirir və daha sonra rükn ilə ehram arasında həcc ehramı bağalyırsan. Bundan sonra ərəfat və məş᾽ər çöllərində dayanıb şeytanları daşlamaq, qurban kəsmək, ehram paltarlarını bədənindən çıxarmaq və qüsl edib, Allah evini ziyarət edənədək möhrim sayılırsan. Amma bunları əncam verdikdə ehram halından xaric olursan. [605]

563. Həzrət imam Sadiq (ə) buyurub: Tərviyə günü möhrim olmaq istədikdə ehram halında əncam verdiyin işləri yerinə yetir. Buğunu azaldıb, dırnaqlarını tut, övrətində tük olduqda onları və habelə qollarının altını təmizlə və habelə qüsl edərək ehram paltarlarını geyinib, Məscidul-hərama get. Ehramdan q qabaq orada altı rəkət namaz qılıb dua edərək Allahdan kömək istə və belə de: İlahi! Həccə getmək istəyirəm. Onu mənim üçün asanlaşdır. Mənim üçün etdiyin və Öz təqdirin ilə saxladığın hər bir yerdə məni ehramdan xaric et.

Sonra belə de: Tük, dəri, ət və qanımı Sənə görə qadınlar, paltarlar və gözəl ətirlərdən çəkindirir və bu işimlə yalnız Səni və axirət evini istəyirəm. Məni getməkdən saxladığın hər bir yerdə və müqəddər etdiyin o müqəddəratınla ehramdan xaric et. Daha sonra ehram vaxtında dediyin kimi, Məscidul-həramdan başlayaraq ləbbəyk de və belə deyirsən: Ləbbəyk bihəccətin təmamuha və bəlağuha ələyk.

Sonra zöhr çağı Minaya gedə bilsən belə et. Amma buna imkanın çatmadıqda Tərviyə gününün sənə asan olan hər bir vaxtında onu əncam ver.[606]

2. Ərəfat çölündə dayanmaq:

## *ƏRƏFATA GETMƏYİN QAYDALARI*

564. Ubəydullah ibni Əli Hələbi nəql etmişdir ki, həzrət imam Sadiq (ə)-dan soruşdum: Nə üçün tərviyə gününə tərviyə deyilir? Həzrət (ə) buyurdu: Çünki Ərəfatda su yox idi və hacılar su içmək üçün Məkkədən su gətirir və bir-birinə deyirdilər. Su götürdünüz? Elə buna görə də o gün tərviyə adını aldı.[607]

565. Həzrət imam Sadiq (ə) buyurub: Tərviyə günü ona görə tərviyə adlanmışdır ki, Cəbrail (ə) belə bir gündə həzrət İbrahimə (ə) dedi: E᾽tiraf et və öz ibadətlərinlə tanış ol. Elə buna görə də o gün Ərəfə günü adlandı. Daha sonra ona dedi: Məş᾽ərə yaxınlaş — və buna görə də o yer Müzdələfə adlandı.[608]

566. Məhəmməd ibni Müslim nəql etmişdir ki, həzrət imam Baqir (ə)-dan soruşdum. Həzrət Peyğəmbər (s) tərviyə günü zöhr namazını Minada qılmışdırmı? Həzrət (ə) buyurdu: Bəli, hətta sübh namazını da Ərəfə günündə Minada qılmışdır.[609]

567. Həzrət imam Sadiq (ə) buyurub: Tərviyə günü olduqda həcc üçün ehram bağla və əgər imkanın olsa, zöhr namazını Minada qıl.[610]

568. Həzrət imam Sadiq (ə) buyurub: İmamın tərviyə gününün zöhr namazını Minada qılması, Ərəfə gecəsini Minada yatması və Ərəfə gününün sübha çağı günəş çıxdıqdan sonra Minadan Ərəfəyə getməsi layiqlidir.[610]

569. Həzrət imam Sadiq (ə) buyurub: Tərviyə günü olduqda Alahın istəyi ilə qüsl et və daha sonra ehram paltarlarını geyinib ayaqyalın və habelə vüqarlı və sakit halda Məscidul-hərama daxil ol.

Sonra İbrahim (ə) məqamı və ya Hicri İsmail (ə)-da iki rəkət namaz qılıb, zöhrə qədər orada əyləş. Vacib olan zöhr orada qılıb, namazdan sonra Şəcərə məscidində ehram bağlayarkən dediklərin de. Sonra vüqar və sakitliklə həcc ehramını bağlayıb yola düş və Rədmdən qabağa çatdıqda ləbbəyk de. Rədmin özünə çatıb Məkkə düzənliyinə üz gətirdikdə Minaya çatanadək uca səslə ləbbəyk de.[611]

570. Həzrət imam Sadiq (ə) buyurub: Minaya üz tutduqda belə de: İlahi! Yalnız Sənə ümid edir və yalnız Səni çağırıram. Beləliklə məni arzuma çatdırıb əməlimi saleh et.[612]

571. Həzrət imam Sadiq (ə) buyurub: Minaya çatdıqda belə de: Pərvadigara! Bu Mina və mənə minnət qoyduğun ibadətlərdən biridir. Səndən istəyirəm ki, peyğəmbərlərinə minnət qoyduğun ne᾽mətlərlə mənə də minnət qoyasan. Həqiqətən mən Sənin bəndən və Sənin ixtiyarındayam...[613]

Həzrət (ə) daha sonra buyurdu: Minanın həddi Əqəbədən Müsəhər vadisinə qədərdir.[614]

## *ƏRƏFATIN ADLANMA SƏBƏBİ*

572. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə)-dan Ərəfatın adlanma səbəbini soruşduqda, o həzrət (ə) buyurdu: Cəbrail (ə) həzrət İbrahimi (ə) Ərəfə günü çölə apardı və zöhr çağı olduqda ona dedi: Ey İbrahim! Günahlarına e᾽tiraf et və ibadətlərini tanı. Elə buna görə də o yer Ərəfat adlandı. Çünki, Cəbrail (ə) dedi: E᾽tiraf et və o da e᾽tiraf etdi.[615]

## *ALLAHIN ƏRƏFAT ƏHALİSİNƏ FƏXR ETMƏSİ*

573. Həzrət Peyğəmbər (s) buyurub: Ərəfənin gün batan çağı Allah-taala Ərəfinin əhalisi vasitəsilə mələklərə fəxr edib, buyurur: Mənim bəndələrimə baxın! Onlar pərişan və toz-torpaq içində olarkən Mənim yanıma gəlmişlər.[616]

574. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala Ərəfat əhalisinə ne᾽mət vermiş və onların vasitəsilə mələklərə fəxr edərək buyurur: Ey mələklərim!

Bəndələrimə baxın ki, hər bir uzaq yoldan pərişan və toz-torpaq içində olaraq gəlmişlər. Sizi şahid tuturam ki, onların dualarını müstəcab edib, hacətlərini həyata keçirib və yaxşı əməl sahiblərinə görə günahlarını bağışladım. Habelə öz aralarında olan haqqun-nasdan başqa yaxşı əməl sahiblərinin istədiyi hər bir şeyi onlara əta etdim. [617]

575. Həzrət Peyğəmbər (s) buyurub: Allah-taala Ərəfə günündən başqa heç bir gün kimi bəndələri cəhənnəm odundan azad etmir. Həqiqətən Allah-taala yaxınlaşıb, mələklərinə fəx edərək buyurur: Bunlar nə istəyirlər. [61]

## *ƏRƏFATIN ƏHƏMİYYƏTİ*

576. Həzrət Peyğəmbər (s) buyurub: Həcc ərəfatdır, həcc ərəfatdır, həcc ərəfatdır. Mina günləri üç gündür: Beləliklə hər kəs iki gündə tələsərsə, onun üçün heç bir günah yoxdur və hər kəs onu təˋxirə salarsa, onun üçün də heç bir günah yoxdur. Hər kəs fəcr açılışından qabaq Ərəfədə olarsa, həcci dərk etmişdir. [619]

577. Əbdürrəhman ibni Yəˋmur nəql etmişdir ki, Ərəfatda Yəmən xalqından bir dəstəsi həzrət Peyğəmbərin (s) hüzuruna gələrək sual soruşdular: Həzrət (s) də bir nəfərin xalqa bu sözləri çatdırmasını göstəriş verdi ki: Həcc Ərəfədir. Gecə çağı fəcr açılışından qabaq Məşˋərul-hərama gələn şəxs həcci dərk etmişdir. Mina günləri üç gündür. Beləliklə hər kəs iki gündə tələsərsə, onun üçün heç bir günah yoxdur və hər kəs onu təˋxirə salarsa, onun üçün də heç bir günah yoxdur. [620]

## *ƏRƏFATDA DAYANMAQ QAYDASI*

578. Həzrət Peyğəmbər (s) buyurub: Ərəfatın bir yeri movqif (dayanacaq yeridir). Beləliklə Ürnənin (Ərəfada olan yerin) daxilindən yuxarı qalxın. [621]

579. Həzrət imam Sadiq (ə) buyurub: Ərəfatın bütün yeri dayanacaq yeridir, dayanmaq üçün daha yaxşı yer isə dağın ətəyidir. [622]

580. Həzrət imam Sadiq (ə) buyurub: Dağın sol tərəfində dayan. Çünki həzrət Peyğəmbər (s) Ərəfatda olarkən dağın sol tərəfində dayanmışdır. Həzrət Peyğəmbər (s) Ərəfatda olarkən dağın sol tərəfində dayanmışdır. Həzrət Peyğəmbər (s) orada dayandıqda, camaat dəvənin endiyi yerə hücum çəkib, onun ətrafında dayandılar. Peyğəmbər (s) öz dəvəsini uzaqlaşdırdıqda, onlar da belə etdilər. Daha sonra buyurdu: Ey camaat! Mənim dəvəmi dayandığı yer dayanacaq yeri deyil, əksinə bu yerin hamısı dayanacaq yeridir və əli ilə dayanacq yerinə işarə etdi. O həzrət (s) Müzdələfədə də belə etmişdir.

Beləliklə boş gördüyün hər bir yeri özün və yüklərinlə doldur. Allah-taala bu yerlərin dolu olmasını sevir. Həmçinin hündürlüklərə və Əraka getməkdən pəhriz et. [623]

581. Həzrət imam Sadiq (ə) buyurub: Ərəfatda dəstəmazsız halda dayanmaq layiqli deyildir. [624]

582. Həzrət imam Sadiq (ə) buyurmuşdur ki, Əmirəl-mö҆minin Əli (ə)-dan nə üçün Ərəfatda hərəmdən çöldə dayanmaq hərəmdə dayanmamaq kimi sayılmır? Həzrət (ə) buyurdu: Çünki Kə҆bə Allah evinin daxilində yerləşir, hərəm isə evin özüdür. Hacılar Allaha tərəf üz gətirdikdə, onları öz dərgahına yalvarıb, naləetsin deyə, qapısı ağzında saxlayır. [625]

583. Həzrət Peyğəmbər (s) buyurub: Məndən qabaqkı peyğəmbərlərin duası olan Ərəfə gününün duasını sənə öyrədimmi? Əli (ə) buyurdu: Bəli. Həzrət (s) buyurdu: Belə deyirsən: Yeganə və şəriksiz Allahdan başqa bir mə҆bud yoxdur. Mülk və sitayiş Ona məxsusdur. Dirildir, öldürür və O heç vaxt ölməyən diridir. Xeyir Onun əlindədir və O hər bir şeyə qadirdir. İlahi! Səna, Özünün dediyin kimi, bizim dediyimizdən üstün və başqalarının dediyindən daha uca olaraq Sənə məxsusdur. İlahi! Namaz və ibadətim, ölüm və Sənə görə üz döndərdiyim, güc və qüvvəm Səndəndir. İlahi! Yoxsulluq, daxili vəsvəsələr, işin qarışıqlığı və qəbr əzabından Sənə pənah aparıram. İlahi! Ən üstün nəsimləri Səndən tələb edir və tufanların gətirdiyi şərlərdən Sənə pənah aparır, Səndən gecə və gündüz xeyrini istəyirəm. İlahi! Qəlb, qulaq, göz, ət, qan, sümüklər və damarlarım, həmçinin əyləşmək və durmaq yerlərim və habelə daxil və xaric olmağım da nur və işıqlıq qərar ver və Səninlə görüşdüyüm gündə nurumu çox et ki, həqiqətən Sən hər bir şeyə qadirsən. [626]

584. Həzrət Peyğəmbər (s) buyurub: Ərəfə gününün axşam çağında bu duanı oxuyan şəxsin günaha də҆vət etməyib və ya sileyi-rəhimi kəsməyincə duası müstəcabdır. Ərşi asimanda olan Allah münəzzəhdir. Qədəmgahı yerdə olan Allah münəzzəhdir. Yolu dənizdə olan Allah münəzzəhdir. Hökm və qəzavəti qəbrlərdə olan Allah münəzzəhdir. Behiştdə rəhməti olan Allah münəzzəhdir. Hökmranlığı cəhənnəmdə olan Allah münəzzəhdir. Ruhu havada olan Allah münəzzəhdir. Asimanı ucaldan Allah münəzzəhdir. Yeri genişləndirən Allah münəzzəhdir. Ondan yalnız Özünə tərəf qurtuluş yolu olmayan Allah münəzzəhdir. [627]

585. Həzrət imam Sadiq (ə) buyurub: . Həzrət Peyğəmbər (s) Ərəfatda dayandı. Günəş batmaq istədikdən qabaq belə dua etdi: İlahi! Yoxsulluq, işin qarışıqlığı, gecə və gündüzdə qarşıya çıxan pis işlərdən Sənə pənah aparıram. Zülmümü Sənin əfvin pənahına, qorxumu isə Sənin amanın pənahına gətirmişəm. Zəlilliyimi Sənin izzətinə sığındırmış, fani çöhrəmi isə Sənin əbədi zatının pənahında qərar vermişəm. Ey daha yaxşı istənilən! Ey daha yaxşı bağışlayan! Rəhmət və afiyət libasını mənə geyindir və bütün məxluqlarının şərrini məndən qaytar. [628]

586. Həzrət imam Sadiq (ə) buyurub: Sübh çağı Ərəfata tərəf getdikdə, yol gedən halda belə de:

İlahi! Sənə tərəf üz gətirmiş, Sənə arxalanmış və Səni istəmişəm. Səndən bu köçməyimi bərəkətli etməyin, hacətimi həyata keçirməyin və məni bu gün

fəxr etdiyin və məndən daha üstün olanlardan qərar verməyini istəyirəm. Daha sonra Ərəfata doğru gedən halda ləbbəyk deyirsən. [629]

587. Həzrət imam Sadiq (ə) buyurub: Xalq ərəfatda dayanır və günəş batanadək dua edib, rəğbət göstərir və bacardıqları qədər Allahın fəzli və rəhmətindən istəyirlər. [630]

588. Əbu Bilal Məkki nəql etmişdir ki, imam Sadiq (ə)-ı Ərəfatda gördüm ki, özü ilə əlli ədəd tum gətirmiş və «Qur huvəllahu əhəd» surəsi ilə namaz qılırdı. O həzrət (ə) «Qul huvəlləh» surəsi ilə yüz rəkət namaz qılıb onu Ayətəl-kürsi ilə sona yetirdikdən sonra soruşdum: Sənə fəda olum! Sizlərdən heç biriniz bu yerdə namaz qılan halda görməmişəm. Həzrət (ə) buyurdu: Buraya gələn bütün peyğəmbər və peyğəmbər canişinləri namaz qılmışdır. [631]

589. Həzrət imam Sadiq (ə) buyurub: Qəlbin dua etmək üçün hazır və asudə olsun deyə namazını tez və bir-birinin ardınca qılırsan. Çünki, o gün dua və istək günüdür. Sakit və vüqarlı halda dayanacaq yerinə gələrək Allaha həmd və səna edir, La ilahə illəllah, ləbbəyk və səna de. Həmçinin yüz dəfə Allahu əkbər, Əlhəmdu lillah və Subhanəllah zikrlərini deyib, yüz dəfə «Qulhuvəllah» surəsini oxu. Daha sonra istədiyin qədər dua və təlaş et. Çünki o gün dua və istək günüdür. Qovulmuş şeytanın şərrindən Allaha pənah apar. Çünki şeytanın sənə qəflət salmaq üçün daha sevimli yer oradır. Belə ki, xalqa tamaşa etməkdən pəhriz edib, özünə məşğul ol və dualarından biri də bu olsun.

İlahi! Mən Sənin bəndənəm, məni daha məhrum olan qonaqlarından qərar vermə və uzun yoldan gəldiyimə görə mənə rəhm et. Həmçinin dualarından biri də bu olsun:

İlahi! Ey bütün ibadətgahların Rəbbi! Cəhənnəm odundan məni xilas edib, ruzimi genişləndir, həmçinin cinə və insan azğınlarının şərrini məndən uzaqlaşdır.

Habelə deyirsən: İlahi! Mən ilə hiylə yolu ilə rəftar etmə və məni tədriclə cəzalandır.

Həmçinin deyirsən: İlahi! Səni qüdrət, kərəm, böyüklük, minnət və ehsanınla çağırıram. Ey eşidənlərin eşidəni! Ey görənlərin görəni! Ey hesab edənlərin daha tez hesab edəni! Və ey mehribanların mehribanı! Məhəmməd və onun Əhli-beytinə salavat göndər və mən ilə... (hacətlərini istəyirsən).

Başını göyə qaldıran halda belə deyirsən:

İlahi! Hacətim Sənin dərgahınadır. O elə bir hacətdir ki, əgər onu əta etsən başqa hacətlərimi rədd etməyin ziyansızdır. Amma onu həyata keçirməsən, başqa hacətlərimi rəva etməyin faydasızdır. Mən Səndən cəhənnəmdən xilas olmağı istəyirəm.

Dualarında belə deyirsən: İlahi! Mən Sənin bəndən və qulunam. İxtiyarım Sənin əlində, əqlim isə Sənin elminə bağlıdır. Səndən Sənin məndən razı qalmağına səbəb olanları istəyirəm. Mənə tövfiq verib ibadətlərimi — dostun İbrahim (ə) və peyğəmbərin Məhəmmədə (s) göstərib, istiqamətləndirdiyin ibadətlərimi — qəbul et.

Həmçinin dualarında belə deyirsən:

İlahi! Məni əməllərini qəbul etdiyin, ömürlərini uzatdığın və ölümdən sonra gözəl həyatla diriltdiyin bəndələrdən qərar ver.

Ərəfə gecəsini qul azad etməklə, sədəqə verəmklə keçmirməyin müstəhəbdir.[632]

590. Həzrət imam Sadiq (ə) buyurub: Ərəfə günü günəş batanda belə de:

İlahi! Bu dayanmağımı burada son dayanış qərar vermə və olduğum müddətdə mənə ruzi ver. Bu gün məni səadətə nail olmuş, arzusuna çatmış, duası müstəcab olmuş və bağışlanmış halda qonaqlar və zəvvarlarının hər birinin qayıtdığı ən yaxşı bir halda evimi qaytar.

Bu gün məni ən hörmətli qonaqlarından qərar verib, onlara verdiyin ən üstün xeyir, bərəkət, rəhmət, razılıq behişt və məğfirətini mənə əta et. Ailəm və — istər az, istərsə də çox olan — mal-dövlətimə tərəf qayıdışımı bərəktəli edib, onlara da mənə nisbət bərəkət ver.

Beləliklə Ərəfatdan getmək istədikdə sakit və vüqarlı olub, bir çox adamların bu dağ və düzənlikdə əncam verdikləri tez-tez getməyi tərk et.[633]

591. Əbu Yəhya Zəkəriyya Movsili nəql etmişdir ki, həzrət imam Kazim (ə)-dan soruşdum: Ərəfada dayanmış bir kişiyə Allahı çağırıb dua etməzdə qabaq, atası və ya övladlarından birinin ölüm xəbəri çatdığı üçün ağlayıb dua etməkdən qalır və daha sonra Ərəfadan çıxıb gedir.

Həzrət (ə) buyurdu: Onun öhdəsində heç bir şey yoxdur, amma pis iş görmüşdür və Allahdan bağışlanmağını istəməlidir. Lakin o, Allaha görə səbr etsəydi, Ərəfadan çıxıb gedərkən orada onların savab əməllərindən bir şey azalmadan onların bütün savablarını özü ilə apardı.[634]

## *ƏRƏFTADA DAYANMAĞIN SAVABI*

592. Ənəs ibni Malik nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Ərəfatda dayanıb gün batmağa az qalmış buyurdu: Ey Bilal! Xalqı sakitləşdir ki, mənim sözlərimi dinləsinlər. Bilal ayağa qalxıb dedi: Həzrət Peyğəmbərin (s) sözlərinə qulaq asın! Həzrət Peyğəbmər (s) buyurdu: Ey camaat! Cəbrail (ə) elə indicə mənim yanıma gəlib Rəbbimin salamını mənə çatdıraraq dedi: Mütəal Allah ərəfat və Məş̓ər əhlini bağışlayıb, onların borclarının ödənilməsinə zəmanət verdi. Ömər ayağa qalxıb dedi: Ey Allahın elçisi! Bu bizə aiddirmi? Həzrət (s) buyurdu: Bu sizə və sizdən sonra qiyamət gününədək bura gələnlərə aiddir.[635]

593. Həzrət Peyğəmbər (s) buyurub: Hər bir müsəlman Ərəfə gününün günbatan çağında ərəfatda qibləyə tərəf duraraq yüz dəfə: — Allahdan başqa bir mə̓bud yoxdur, yeganə və şəriksizdir. Mülk və sitayiş Ona məxsusdur və O, hər bir şey qadirdir — sözünü, həmçinin yüz dəfə: «Qul huvəllahu əhəd» surəsi və daha sonra yüz dəfə: — İlahi! İbrahim və onu əhli-beytinə salavat göndərdiyin kimi, Məhəmmədə (s) salavat göndər. Həqiqətən Sən bəyənilmiş və ucasan. Bizə də onlarla birlikdə salavat göndər — duasını oxuyarsa, Allah-

taala buyurar: Ey mələklər! Mənim bu bəndəmin savabı nədir? O mənim üçün təsbih, La ilahə illəllah, təkbir və tə᾽zim deyib, Məni tanıdı, tə᾽riflədi və peyğəmbərə salavat göndərdi. Ey mənim mələklərim! Onu bağışlamağım və özü haqqında olan şəfaətini qəbul etməyimə şahid olun. Əgər bu bəndəm Məndən istəsə, onun şəfaətini bütün ərəfat əhli haqqında qəbul edərəm.[636]

594. Həzrət Peyğəmbər (s) buyurub: Günahlardan bə᾽zisi ərəftadan başqa bir yerdə bağışlanmır.[637]

595. Həzrət imam Əli (ə) nəql etmişdir ki, həzrət Peyğəmbərdən (s) soruşdum: Ərəfat əhlindən kimin günahı daha böyükdür? Həzrət (s) buyurdu: Ərəfatdan qayıdarkən bağışlanmamasını güman edən şəxsin günahı daha böyükdür.

Həzrət imam Sadiq (ə) buyrudu: Həzrətin (ə) məqsədi Allah rəhmətindən mə᾽yus olan şəxsdir.[638]

596. Həzrət imam Sadiq (ə) buyurub: Həccə gedən şəxsin özü, malı və onun zəmanəti Allah öhdəsindədir.

Məscidul-hərama daxil olduqda, Allah-taala onun təvaf, namaz və sə᾽yini saxlasınlar deyə, iki mələyi mə᾽mur edər. Ərəfə gününün gecəsi çatdıqda, onun sağ çiyininə vurub, deyərlər: Filankəs! Keçmiş əməllərindən kifayət olunmusan, gör gələlcəkdə nə cür olacaqsan![639]

597. Səid ibni Yəsar nəql etmişdir ki, həzrət imam Sadiq (ə) Minada olarkən gün batan çağlardan birində məni həccə şövqləndirən halda buyurdu: Ey Səid! Allah-taala hər bir bəndəyə ruzi verərsə və o da ruzidən götürərək özü və ailəsi üçün xərcləyib onları həccə gətirərsə, həmçinin onları günəş altında qərar verib və daha sonra Ərəfənin gün batan çağı onları dayanacaq yerinə gətirərək istirahət etsə, — orada yerləşən və heç bir kəs olmayan yırtıqları görməmisənmi? Dedim: Sənə fəda olum, görmüşəm. Buyurdu: Öz ailəsini gətirib onlarla o dağın yırtıqlarını doldurarsa, mütəal və şəriksiz Allah buyurar: Bəndəmə öz ruzimdən verdim. O isə onu götürüb, özü və ailəsi üçün xərclədi və daha sonra onları çölə həccə gətirərək onlarla bu boş yerləri doldurdu. Məndən əfv istədikdə, günahlarını bağışlayar və fikrini məşğul edən çətinliyini öz öhdəmə alaraq, ona ruzi verərəm.

Səid ibni Yəsar deyir: O həzrət (ə) ona yaxın bir sıra başaq sözlər də buyurdu:[640]

## *ƏRƏFATDAN KÖÇMƏK*

Qur᾽an:

**«Rəbbinizin fəzli və ehsanı ardınca olmağınızın heç biri eybi yoxdur. Beləliklə Ərəfatdan köçdükdə məş᾽ərul-həram yanında Allahın əvvəllər azğın olmağınıza baxmayaraq sizi hidayət etdiyi kimi yad edib Onu xatırlayın».**[641]

**Hədis:**

598. İbni Abbas nəql etmişdir ki, həzrət Peyğəmbər (s) təmkinlə və Usamə onun arxası tərəfində olan halda ərəfatdan köçərək buyurdu: Ey camaat! Təmkinli olun! At və dəvəni sür᾽ətlə sürməyiniz heç də yaxşılıq deyildir.

İbni Abbas deyir: Həzrət Peyğəmbərin (s) miniyini heç vaxt çapıb qaçan halda görmədim və beləliklə də cəmə çatdı. [642]

599. İbni Abbas nəql etmişdir ki, həzrət Peyğəmbərlə (s) birlikdə ərəftadan köçdük. Həzrət Peyğəmbər (s) arxadan gələnlərin öz dəvələrinə vurub çoxlu səs-küy etdiklərini eşitdikdə, əlində olan qırmancla onlara işarə edib buyurdu: Ey camaat! Sakit olun, yaxlışı sür᾽ətlə çapmaqda deyil. [643]

600. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə) buyurub: Müşriklər gün batmazdan qabaq ərəfatdan köçərdilər. Həzrət Peyğəmbər (s) isə onlarla müxalifətçilik edib, gün batandan sonra köçdü. Həzrət imam Sadiq (ə) daha sonra buyurdu: Günəş batandan sonra təmkinli və vüqarlı halda camaatla birgə ərəfatdan köçüb, Allahdan bağışlanmaq istə ki, Allah-taala buyurdu: Xalq oradan köçərkən siz də köçüb, Allahdan bağışlanmaq istə ki, Allah-taala buyurur: «Xalq oradan köçərkən (siz də) köçüb, Allahdan bağışlanmaq diləyin ki, Allah bağışlayan və mehribandır.» Yolun sağ tərəfində Ə-Kəsibul-Əhmər dağına çatdıqda de: «İlahi! Müvəffəqiyyətimə rəhm edib, elmimi çoxalt və dinimi salamat saxlayıb, ibadətlərimi qəbul et».

Heç vaxt camaatın çoxu kimi sür᾽ətlə çapma! Çünki həzrət Peyğəmbər (s) buyurmuşdur: «Həcc at çapmaq və dəvə qaçırtmaq yeri deyildir. Allahdan qorxub yaxşı seyr edin. Zəif və müsəlmanı ayaq altında qoymayın və yol getməkdə orta vəziyyətdə yol gedən olun». Həzrət Peyğəmbər (s) öz dəvəsini saxlayaraq buyurdu: «Ey camaat! Sakit olun!» Beləliklə də Peyğəmbərin (s) sünnəsinə itaət olunmalıdır.

Müaviyətibni Əmmar deyir: İmam Sadiq (ə)-dan eşitdim ki, buyurdu: «İlahi! Mənə oddan nicat ver». O həzrət (ə) bu duanı camaat köçüb gedənədək təkrar edirdi. Ərz etdim: Siz köçürmünsünüzmü? Camaat hamılıqla gediblər. Həzrət (ə) buyurdu: «Mən izdihamdan və camaata əziyyət etməkdə şərik olmaqdan qorxuram.»[644]

601. Həzrət imam Sadiq (ə) buyurub: Allah-taala qəlbində təkəbbür olmayan halda «Mə᾽ziməyn»dən (Məş᾽ər yolunun əvvəlində olan iki yol ayrıcı) keçən hər bir kəsə rəhmət nəzəri ilə baxar.

Soruşdular: Təkəbbür nədir? Həzrət buyurdu: Təkəbbür xalqı incidib, haqqı qəbul etməməkdən ibarətdir.

Həmçinin buyurdu: Mə᾽ziməyndə iki mələk mə᾽mur olmuşdu ki, «sağlıqla qalın, sağlıqla qalın» deyirlər.[645]

## *MÜZDƏLİFƏDƏ DURMAĞIN SAVABI*

602. Həzrət Peyğəmbər (s) Minada buyurdu: «Əgər Məş᾽ər əhli kimin qapısında enib, kimin hüzuruna gəldiklərini bilsəydilər, bağışlanmaqdan sonra bir-birlərinə Rəbbin fəzlini müjdə verərdilər.»[646]

603. Bilal ibni Rəbah nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Müzdəlifənin sübh çağı mənə buyurdu: «Ey Bilal! Xalqı sakitləşdir və ya onlara de ki, sözlərimə qulaq assınlar. Daha sonra buyurdu: Allah-taala öz məş`ərində sizə ne`mət bağışlayıb, saleh əməllərinizə görə günahlarınızı bağışladı və yaxşılarınızın tələb etdikləri hər bir şeyi onlara verdi. Allah adı ilə hərəkət edir.[647]

604. Əbu Həmzə Sumali nəql etmişdir ki, bir kişi həzrət imam Səccad (ə)-a ərz etdi: Cihad və onun çətinliyini tərk edib həcc əməli və onun rahatlıqlarına məşğul olmuşam.

O həzrət (ə) söykənmişdi və bu sözü dinlədikdən sonra əyləşib buyurdu: Vay olsun sənə! həzrət Peyğəmbər (s) Həccətül-vidada buyurduğu sözünü eşitməmisənmi? Belə ki, o həzrət (s) Ərəfatda dayandı və günəş batana yaxın buyurdu: «Ey Bilal! Camaata de ki, sözlərimə qulaq assınlar».

Daha sonra o həzrət (s) buyurdu: Bu gün Rəbbiniz öz ne`mətini sizə vermiş, yaxşılarınızı bağışlamış və onların günahkarlarınız haqqında olan şəfaətini qəbul e tmişdir. Köçün ki, bağışlanmısınız.

Bundan başqa bir hədisdə isə belə buyurmuşdur: Borclulardan başqa — ki, Allah-taala adildir və zəifin haqqını güclüdən alır — ..............................................

Məş`ərin gecə çağı ardıcıl olaraq öz Rəbbi ilə münacat edir və borclular üçün dua edirdi. O həzrət (s) məş`ərdə dayandıqda Bilala dedi: Xalqa de ki, qulaq assınlar. Daha sonra buyurdu: Rəbbiniz bu gün sizə ne`mət verib, yaxşılarınızı bağışladı və yaxşılarınızın günahlarınız barədə olan şəfaətini qəbul etdi. Köçün ki, bağışlanmısınız. Həmçinin özü tərəfindən borcular üçün razılığa zəmanət verdi.[648]

## *MÜZDƏLİFƏDƏ QALMAQ QAYDASI*

605. Həzrət Peyğəmbər (s) buyurub: Müzdəlifənin hər bir yeri dayanacaq yeridir. Müsəhhər vadisindən yauxarı qalxın.[649]

606. Həzrət Peyğəmbər (s) buyurub: Hər kəs bu dörd gecəni yatmayıb oyaq qalarsa, Behişt onun üçün vacib olar. Tərviyə gecəsi, Ərəfə gecəsi, Qurban bayramı gecəsi və fitr bayramı gecəsi.[650]

607. Əmirəl-mö`minin Əli (ə)-a dedilər: Nə üçün məş`ərul-həram hərəmdə qərar verilmişdir? Həzrət (ə) buyurdu: Çünki Allah-taala zəvvarlara daxil olmaq icazəsi verib, onları ikinci qapının astanasında saxlamışdır. Onların nalə və duaları uzandıqda, qurbanlıqlarını qabaqcadan gətirməklərinə icazə verəcəkdir. Onlar çirkinlikləri kənara qoyub, Allah ilə öz aralarında olan hicabı təmizlədikdə isə onlara təmizliklə ziyarətə gəlmək icazəsi verəcəkdir.[651]

608. İmam Sadiq əleyhissalam buyurub: Məş`ərul-hərama çatmayınca məğrib namazını qılma. Ora çatdıqda isə məğrib və işa namazlarını bir azan və iki iqamə ilə orada yerinə yetirib, yolun sağ tərəfi və məş`ərin yaxınlığına

en. İlk dəfə həccə gələn şəxsin məş῾ərul-hərəmda durub ona ayaq qoyması və Müzdəlifə gecəsi su arxlarından keçərək belə deməsi müstəhəbdir:

İlahi! Bura cəmdir. Səndən istəyirəm ki, kamil xeyirləri mənim üçün toplayasan. İlahi! Məni qəlbimdə toplamağını istədiyim xeyirdən mə῾yus etmə. Səndən istəyirəm ki, burada öz dostlarına öyrətdiyin həqiqətləri mənə tanıtdırıb, məni bütün pisliklərdən saxlayasan.

O gecəni oyaq qalmağı bacarsan, oyaq qal və yatma. Bizə çatmışdır ki, o gecədə asiman qapıları mö῾minlərin səsləri üzünə bağlanmır və onların bal arılarının vızıltısı kimi səs-küyləri vardır.

Allah-taala buyurur: Mən sizin Rəbbiniz, siz isə mənim bəndələrimsiniz. Mənim haqqımı əda etdiniz və sizin dualarınızı müstəcab etmək də mənim öhdəmdə olan haqqınızdır.

O gecə Allah-taala istədiyi hər bir şəxsin günahlarını aradan aparar və istədiyi hər bir şəxsi bağışlayar.[652]

609. İmam Sadiq əleyhissalam buyurub: Sübh namazından sonra gününü dəstəmazla başla və istəsən dağın yaxınlığı və ya qaldığın yerdə durub Allaha həmd və səna de. Həmçinin bacardığın qədər Onun ne῾mətləri və sınaqlarını xatırlayıb, həzrət Məhəmməd səlləllahu ələyhi və alihi və səlləmə salavat göndər və daha sonra belə dua et:

İlahi! Ey məş῾ərul-həramın Pərvərdigarı! Məni Cəhənnəm odundan xilas edib, halal ruzimi genişləndir və məni cin və insan azğınlarının şərindən uzaqlaşdır. İlahi! Sən tələb olunan və istənilənlərin daha üstünüsən. hər bir qonaq üçün bir töhfə vardır. Mənim töfhəmi isə bu yerdə günahlarımdan keçib, üzürümü qəbul etməyin və dünyadan çəkinməyimi mənim üçün azuqə etməyimi qərar ver.

Daha sonra Səbir dağını müşahidə edib, dəvə öz ayaqyerini gördükdə oradan get.[653]

610. İmam Sadiq əleyhissalam buyurub: Cəmərat (şeytanlar üçün atılan) daşları məş῾ərdən yığıb götür və əgər onları Minada öz yükünün yerindən də götürsən, sənə kifayət edər.[654]

4. Minada yerə enmək:

## *MƏŞ῾ƏRUL-HƏRAMDAN KÖÇMƏK*

611. İmam Sadiq əleyhissalam buyurub: . Həzrət Peyğəmbər (s) Müzdəlifədən köçərkən sakit halda gedir və buyururdu: Ey camaat! Sakit, sakit və beləliklə də Mühəssir vadisinə çatıb orada dururdu:[655]

612. Fəzlibni Abbas nəql etmişdir ki, mən iki dəfə . Həzrət Peyğəmbərin (s) Məş῾ərul-həramdan köçməsinin şahidi olmuşam ki, o həzrət (s) öz dəvəsinin cilovunu tutan halda vüqarlı və sakitliklə köçmüşdür.[656]

613. Müaviyətibni Əmmar imam Sadiq (ə)-dan nəql etmişdir ki, buyurub: Səbir dağını müşahidə edib, dəvə öz ayaqyerini gördükdə köç. Həzrət (ə) daha sonra buyurdu: Xalq cahiliyyət dövründə deyirdilər: Səbir çıx ki, qarət

edək və onların məqsədi günəşin işığı idi. Həzrət Peyğəmbər (s) isə cahiliyyət əhlinin adətinin əksinə olaraq köçdü. Onlar atçapmaq və dəvə qaçırtmaqla köçür, həzrət Peyğəmbər (s) isə onların əksinə olaraq sakit və vüqarlı halda köçürdü. Beləliklə də Allahı yad edən və istiğfar edən halda köçüb, Allah zikrini dilinə gətir. Məş`ər və Mina arasında yerləşən və Minaya daha yaxın olan böyük Məhəssir vadisinə çatdıqda, ondan sür`ətlə keç. Çünki həzrət Peyğəmbər (s) orada öz dəvəsini tələsdirmiş və buyururdu: İlahi! Əhdimi sağlam saxlayıb, tövbəmi qəbul et və duamı müstəcab et. Həmçinin arxada qoyub gəldiyim şəxslərin arasında mənim canişinim ol.[657]

614. Şəybənin qızı Səfiyyə bir qadından nəql etmişdir ki, deyib: Həzrət Peyğəmbər (s) Məsilin ortasından sür`ətlə keçərkən gördüm ki, belə buyurdu: Bu vadidən yalnız sür`ətlə keçmək lazımdır.[658]

## *MİNANIN ADLANMA SƏBƏBİ*

615. Həzrət imam Rza (ə) buyurub: Minaya Mina deyilməsinin səbəbi budur ki, Cəbrail (ə) orada İbrahim (ə)-a dedi: Hər nə istəyirsənsə Allahdan təmənna et. Həzrət İbrahim (ə) da ürəyində Allahdan övladı İsmailin (ə) əvəzinə bir qoçun qərar verilib, Allahın onu kəsmək üçün göstəriş verməsini istədi və Allah-taala da onun istəyini həyata keçirdi.[659]

## *MİNADA ENMƏYİN QAYDALARI*

Qur`an:

**«Öz həccinizi məxsus əməllərini əncam verdikdən sonra atalarınızı yad etdiyiniz və ya ondan çox Allahı yad edin. Xalqın bə`zisi belə deyir: Pərvərdiagar! Bizə elə bu dünyada əta et. Bir halda ki, axirətdə onun heç bir nəsibi yoxdur.»[660]**

**Hədis:**

616. Hələbi nəql etmişdir ki, həzrət imam Sadiq əleyhissalamdan — Atalarınızı yad etdiyiniz kimi və ya ondan çox Allahı da yad edin — ayəsi barədə soruşduqda buyurdu: Müşriklər Təşriq günlərində Minada öz ata-babalır ilə fəxr edərək deyirdilər: Bizim atamız belə və elə idi... və beləliklə də onların üstünlüklərini yed edirdilər. Elə buna görə də Allah-taala buyurdu: «Atalarınızı yad etdiyiniz kimi və ya ondan çox Allahı da yad edin.»[661]

617. İmam Sadiq əleyhissalam buyurub: «Və Allahı müəyyən günlərdə yad edin» — ayəsinin şərhində buyurdu: Onlar təşriq günləridir. Xalq əvvəllər Minada qurbanlıqdan sonra, bir-birinə fəxr edərək — mənim atam belə və elə idi... — deyirdilər ki, Allah-taala buyurdu: «Ərəfatdan köçdükdə, atalarınızı yad etdiyiniz kimi və ya ondan çox Allahı da yad edin».

Təkbir isə budur ki, belə deyəsən: Allah daha ucadır. Allah daha ucadır. Ondan başqa bir mə`bud yoxdur və Allah daha böyükdür, Allah daha

böyükdür ki, bizi hidayət etdi, Allah daha böyükdür ki, dörd ayaqlı heyvanlardan bizə ruzi verdi[662]

618. Məhəmməd ibni Müslim nəql etmişdir ki, imam Sadiq (ə)-dan — Allahı müəyyən günlərdə yad edin — ayəsi barədə soruşduqda buyurdu: Məqsəd təşriq günlərində Qurban gününün zöhr çağından üçüncü günün sübh namazına qədərdir. Şəhərlərdə isə o namazdan sonradır. Beləliklə birinci namazdan sonra köçərsə, şəhər əhalisi təkbir deməyi saxlasınlar. Minada qalıb zöhr və əsr namazlarını orada qılan isə təkbir desin.[663]

619. Zurarə nəql etmişdir ki, imam Baqir (ə)-a ərz etdim: Təşriq günlərində namazlardan sonra təkbir deyilməlidirmi? Həzrət (ə) buyurdu: Minada təkbir deməyin vaxtı on beş namazdan sonra, başqa şəhərlərdə isə on namazdan sonradır. Birinci təkbir Qurban bayramı gününün zöhr və əsr namazlarından sonradır ki, deyir: Allahu əkbər, Allahu əkbər, La ilahə illəllahu vəllahu əkbər. Allahu əkbəru və lillahil-həmd. Allahu əkbəru əla ma hədana. Allahu əkbəru əla ma rəzəqna min bəhimətil-ən`am.

Və buna görə də tə`yin olunmuşdur ki, başqa şəhərlərdə on namazdan sonra camaat birinci karvanla köçdükdə, başqa şəhərlərin əhalisi təkbir deməsinlər. Həmçinin Mina əhalisi Minada olduğu müddətdə sonuncu dəstə köçənədək təkbir desinlər.[664]

620. İmam Sadiq əleyhissalam buyurub: Mina məscidi olan Xif məscidində namaz qıl. Həzrət Peyğəmbərin (s) dövranında o həzrətin (s) namaz qıldığı yer, məscidin ortasında yerləşən bir minarənin yanı idi ki, onun yuxarısı, sağ, sol və arxa tərəfləri qibləyə tərəf otuz zira` fasiləsindədir. Onu axtar və orada namaz qılmağa imkanın olduqda namazını qıl. Çünki o məkanda min peyğəmbər namaz qılmışdır. Elə buna görə də ona Xif deyilir. Çünki Mina vadisindən hündürlükdə yerləşir və uca olan hər bir şey Xif adlanır.[665]

## *MİNADA DAYANMAĞIN SAVABI*

621. İmam Sadiq əleyhissalam buyurub: Xalq Minada öz yerlərində durduqda bir nida edən belə deyər: Əgər kimin qapısı ağzında etdiyinizi bilsəydiz, ilahi əfvdən xərclədiyiniz mal-dövlətin əvəzinin ödənilməsinə yəqinlik tapardınız.[666]

622. İmam Sadiq əleyhissalam buyurub: Xalq Minada öz yerlərini tutduqda, Allah tərəfindən bir nida edən belə deyər: Mənim razı olmağımı istəyirsinizsə, Mən razı oldum.[667]

623. İmam Sadiq əleyhissalam buyurub: Bir şəxs Minada köçdükdə bir mələk öz əlini onun çiynınə vuraraq deyər: Yaxşı əməllərini yenidən başla.[668]

624. Mərhum Şeyx Səduq buyurub: Minadan Məkkəyə köçən şəxsin haqqında rəvayət olunmuşdur ki, anadan doğulduğu gün kimi günahlarından paklanar.[669]

## *DAŞ VURMAĞIN HİKMƏTİ*

625. Həzrət Əli (ə) buyurub: Cəmərələrə buna görə daş vurulur ki, Cəbrail ibadət yerlərini həzrət İbrahimə (ə) göstərdikdə, İblis onun gözünə görsəndi və Cəbrail onu qovmağı həzrət İbrahimə (ə) göstəriş verdi. O da şeytanı yeddi daşla qovdu. Belə ki, birinci cəmərənin kənarında yerin altında gizlənib, ikinci cəmərənin yanında baş qaldırdı. Daha sonra onu başqa yeddi daşla qovduqda, ikinci yerdə yerin altına girib, üçüncü cəmərənin yerindən çıxdı. Həzrət İbrahim onu yeddi daşla vurduqda isə elə o yerdə yerin altına getdi.[670]

626. İmam Sadiq əleyhissalam buyurub: Cəmərələrə daş vurmağın səbəbi odur ki, şeytan orada həzrət İbrahimə (ə) aşkar oldu və Cəbrail (ə) da yeddi daşla onu vuraraq hər vurduqda təkbir deməsini İbrahimə (ə) göstəriş verdi. Beləliklə o həzrət (ə) ocür etdiyi üçün bu iş sünnəyə çevrildi.[671]

627. İbni Abbas nəql etmişdir ki, Cəbrail (ə) həzrət Peyğəmbərin (s) yanına gəlib, ibadət yerlərini göstərmək üçün o həzrəti (s) özü ilə apardı. Beləliklə də Səbir dağı bölünərək Minaya daxil oldular və cəmərələri sonra Məş`əri və daha sonra Ərəfatı o həzrətə göstərdi. Şeytan cəmərənin yanında o həzrətə (s) aşkar olduqda, həzrət (s) yeddi daşla onu qovdu və beləliklə gizlənib, ikinci cəmərənin kənarından baş qaldırdı. Həzrət Peyğəmbər (s) onu yeddi daşla vurdu və o da gözdən itib, sonuncu cəmərədə aşkar oldu. Həzrət Peyğəmbər (s) ona bir daha yeddi daş vurduqda gizləndi.[672]

## *DAŞ VURMAĞIN QAYDASI*

628. Həzrət imam Baqir (ə) buyurub: Həzrət Peyğəməbr (s) Müzdələfədən gəldikdə, Qurban bayramı günü Əqəbə cəmərəsindən keçib, ona yeddi daş vurdu və daha sonra Minaya gəldi. Bu isə sünnədəndir.[673]

629. Zuhri nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Mina məscidinin yaxınlığında olan cəmərəyə daş vurduqda, yeddi daş atır və hər dəfə təkbir (Allahu əkbər) deyirdi. Daha sonra qabağa gedərək onun qarşısında qibləyə tərəf durur və əllərini qaldıraraq durmağını uzadırdı. Bundan sonra ikinci cəmərənin yanına gəlib, onu yeddi daşla vurur və hər dəfə təkbir deyirdi. Daha sonra qaydır və əllərini dua üçün qaldıran halda geri qayıdaraq sol tərəfdən vadiyə doğru aşağı enirdi.

Sonra əqəbənin yaxınlığında yerləşən cəmərənin yanına gəlir və ona yeddi daş vuraraq hər dəfə təkbir deyirdi. Daha sonra qayıdır və onun yanında qalmırdı.[674]

630. Həzrət imam Baqir (ə) buyurub: Cəbir ibni Əbdillahın yanına gedərək, ondan həzrət Peyğəmbərin (s) həccindən bir xəbər verməsini istədikdə dedi: Həzrət Peyğəmbər (s) ağacın yaxınlığında olan cəmərəyə daş vurur və daşla təkbir deyirdi. Həmçinin daşları barmaqla atıb, daşı o vadinin ortasına vurur və daha sonra qurbanlıq yerinə qayıdaraq qurban kəsirdi.[675]

631. Süleyman ibni Əmr ibni Əhvəs anasından rəvayət etmişdir ki, həzrət Peyğəmbəri (s) minən halda vadinin daxilində cəmərələrə daş vurub, hər dəfə təkbir deməsini gördüm. Və bir kişi də onu arxadan qoruyurdu. Soruşdum: O kişi kimdir? Dedilər: Fəzl ibni Abbasdır.

Camaat izdiham yaratdıqda həzrət Peyğəmbər (s) buyurdu: Bir-birinizi öldürməyin və daş vurduqda onu barmaqlarınızın ucu ilə atın.[676]

632. İbni Abbas nəql etmişdir ki, həzrət Peyğəmbər (s) mənə buyurdu: Əqəbə cəmərəsini daşlamaq gününün sübh çağı gəlib, mənim üçün xırda daşları yığ. Beləliklə də daşları əlinə aldıqda buyurdu: Bunların oxşarı ilə, bunların oxşarı ilə! Dində həddi aşmaqdan pəhriz edin. Həqiqətən sizdən qabaqkılar dində həddi aşdıqlarına görə həlak olmuşlar.[677]

633. Yə`qub ibni Şüəyb nəql etmişdir ki, imam Sadiq (ə)-dan cəmərələr barədə soruşduqda buyurdu: İki cəmərənin kənarında dur, lakin əqəbə cəmərəsinin kənarında durma.

Soruşdum: Bu sünnədirmi? Həzrət (ə) buyurdu: Bəli. Soruşdum: Daş atanda nə deyim? Buyurdu: Hər daşı atanda təkbir de.[678]

634. İmam Sadiq əleyhissalam buyurub: Hər gün zöhr çağı cəmərələrə daş vurub, əqəbə cəmərəsinə daş vuranda dediyini o halda təkrar et. Beləliklə birinci cəmərədən başlayıb, ona sol tərəfdən vadinin qəlbində daş vur və qurbanlıq günündə dediyini de. Yolun sol tərəfində qibləyə tərəf durub Allaha həm və səna deyərək, həzrət Peyğəmbərə (s) salavat göndər. Sonra bir az qabağa gedib dua et və əməllərinin qəbul olunmasını Allahdan istə. Yenə də qabağa gedib, ikinci cəmərənin yanında bunu təkrar et. Durub, Allahı çağırdığın kimi çağırır və daha sonra üçüncü cəmərənin yanına gedərək vüqarla ona daş vurursan. Lakin onun kənarında duma.[679]

635. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə) buyurub: Cəmərənin xırda daşlarını götürüb, əqəbənin kənarında yerləşən sonuncu cəmərənin yanına get və qarşıdan ona daş vur. Amma yuxarısından vurma. Həmçinin daşlar əlində olan halda belə de: Allahummə haulai həsəyati fəəhsihinnə li vərfə`hunnə fi əməli.

Daha sonra daşları vurur və hər dəfə belə deyirsən:

Allahu əkbər. Allahumməzəhr ənniş-şəytan. Allahummə təsdiqən bititabikə və əla sunnəti nəbiyyikə səllallahu ələyhi və alih. Allahumməcəl`hu həccən məbrura və əmələn məqbula və sə`yən məşkuən və zənbən məğfira.

Səninlə cəmərə arasında on və ya on beş zira həddində fasilə olsun və daş vurduqdan sonra «Allahummə bikə vəsiqtu və ələykə təvəkkəltu fəni`mər-Rəbbu və ni`mən-nəsir».

Həmçinin buyurdu: Daşları təharətli halda vurmaq müstəhəbdir.[680]

636. Həzrət imam Rza (ə) buyurub: Kiçik daşlar barmağın bəndi həddində olsun və qara, ağ və qırmızı daşlardan götürmə. Əksinə xallı daşları götürüb, barmaqlarının ucu ilə vur. Belə ki, daşı baş barmağına qoyur və ikinci barmağın arxası ilə onu atırsan. Cəmərələrə vadinin ortasından daş vurub, onların hamısını sağ tərəfində qərar ver. Cəmərənin yuxarısına isə daş vurma.

Həmçinin birici və ikinci cəmərənin kənarında dur, amma əqəbə cəmərəsinin kənarında durma.[681]

## *DAŞ VURMAĞIN SAVABI*

637. Həzrət Peyğəmbər (s) buyurub: Cəmərələrə daş vurmaq, Qiyamət gününün zəxirəsidir.[682]

638. Həzrət Peyğəmbər (s) buyurub: Cəmərələrə daş vursan, sənin üçün Qiyamətdə bir nur olacaqdır.[638]

639. İbni Ömər nəql etmişdir ki, bir nəfər həzrət Peyğəmbərdən (s) cəmərələrə daş vurmağın savabını soruşduqda, həzrət (s) buyurdu: Onun savabını Rəbbinin yanında ona daha çox möhtac olduğun gündə tapacaqsan.[684]

640. Həzrət Peyğəmbər (s) buyurub: Ərəfə günü olduqda, Allah-taala xalis hacıları, Müzdəlifənin gecəsi çatdıqda isə tacirləri bağışlayır. Mina günündə dəvəçiləri, əqəbə cəmərəsində hazır olmaq zamanı çatdıqda isə istəyənləri bağışlayır və beləliklə də Allah-taala «la ilahə illəllah» deyən o cəmiyyətin hamısına bağışlayır.[685]

641. Həzrət Peyğəmbər (s) buyurub: Hacı cəmərələrə daş vurduqda günahlarından xaric olur.[686]

642. İmam Sadiq əleyhissalam cəmərələrə daş vurmaq barədə buyurub: Hacıdan vurduğu hər bir daşın müqabilində həlakət edən bir günah bağışlanar.[687]

6. Qurbanlıq:

Qur᾽an:

**«Bu (həcc əməlləridir) və hər kəs ilahi nişanələri tə᾽zim etsə, həqiqətən bu qəlblərin təqvasındandır».[688]**

**«Və dəvələri sizin üçün ilahi nişanələrdən qərar verdik ki, ondan sizin üçün xeyir və bərəkət vardır. Beləliklə (qurbanlıq edərkən) sıraya duran halda Allah adını onlara zikr edin. (Can verdikdə) isə onların ətindən yeyib, qane (yoxsul) və yoxsullara yedizdirin. Şükr edəsiniz deyə onları beləcə sizin ixtiyarınızda qoyduq. Onların ət və qanları heç vaxt Allaha çatmır və Ona çatan yalnız sizin təqvanızdır. Allahı sizi hidayət etdiyi üçün böyük sayasınız deyə onları beləcə sizin ixtiyarınızda qoymuşdur və yaxşı (əməl sahiblərinə) müjdə ver.[689]**

**Hədis:**

643. Həzrət Peyğəmbər (s) buyurub: Qurbanlıq ona görə vacib olmuşdur ki, imkansızlar onun ətindən yeyib doysunlar. Beləliklə qurban ətindən onlara yedizdirin.[690]

644. Əbu Bəkr nəql etmişdir ki, həzrət Peyğəmbərdən (s) soruşdular: Həccin yaxşılığı nədir? Həzrət (s) buyurdu: Ləbbəyk demək və qurbanlıq qanı tökməkdən ibarətdir.[691]

645. Həzrət imam Əli (ə) buyurmuşdur ki, həzrət Peyğəmbər (s) Qurban bayramı günündə xütbə oxuyaraq buyururdu:

Bu gün Səcc və Əcc günüdür. Səcc tökdüyünüz qurbanların qanıdır. Beləliklə hər kəsin niyyəti düz olsa, onun qurbanlığının ilk qan damcısı, bütün günahlarının kəffarəsidir. Əcc isə duadır. Beləliklə Allah dərgahına dua edin. And olsun Məhəmmədin canı əlində olan Allaha ki, burada heç kəs bağışlanmamış qayıtmaz. Amma böyük günah əncam verib ona tə᾽kid edən və onu tərk etmək qərarına gəlməyən şəxs bağışlanmaz.[692]

646. Bəşir ibni Zeyd nəql etmişdir ki, həzrət Peyğəmbər (s) həzrət Fatimə (ə.s)-a buyurdu: Qurbanlığın kəsilən səhnəsində hazır ol. Həqiqətən Allah-taala onun ilk damcısı ilə sənin bütün günahlarını bağışlayıb, xətalarından keçər.

Müsəlmanlardan bə᾽zisi soruşdu: Ey Allahın elçisi! Bu yalnız sənin Əhli-beytinə məxsusdur, yoxsa bütün müsəlmanlara aiddir?

Həzrət Peyğəmbər (s) buyurdu: Allah-taala mənə və᾽d etmişdir ki, Əhli-beytimdən heç birinə Cəhənnəm odunu dadızdırmasın. Bu isə hamıya aiddir.[693]

647. Həzrət imam Sadiq əleyhissalam buyurub: Qurbanlıq heyvanını aldıqda onu qibləyə tərəf tutub başını kəs və belə de:

«Vəccəhtu vəchiyə lilləzi fətərəs-səmavati vəl-ərzi hənifən və ma ənə minəl muşrikin. İnnə səlati və nusuki və məhyayə və məmati lillahi Rəbbil-aləmin, la şərikə ləh və bizalikə umirtu və ənə minəl muslimin. Allahummə minkə və ləkə bismillahi vəllahu əkbər. Allahummə təqəbbəl minni».

Daha sonra bıçağı onun boğazına çək və can verməmiş başını bədənindən ayırma.[694]

648. Əbu Xədicə nəql etmişdir ki, imam Sadiq (ə)-ı gördüm ki, kəsmək üçün qurbanlıq dəvəsinin sol əlini bağlamış və onun sağ tərəfində duran halda deyirdi: «Bismillahi vəllahu əkbər. Allahummə haza minkə və ləkə. Allahummə təqəbbəlhu minni». Daha sonra bıçağı dəvənin boğazının altına salıb, onu öz əli ilə çölə çıxardı. Dəvə düşdükdə isə öz əli ilə onun başını yerindən kəsdi.[695]

649. Həzrət imam Səccad əleyhissalam buyurub: Qurbanlığın haqqı budur ki, onun niyyətini Allah üçün xalisləşdirib, özünü Allahın rəhmət və qəbul yerində qərar verəsən və tamaşaçıların baxışınnı ardınca olmayasan. Belə olsa, özünü boş yerə əziyyətə salmayıb, zahiri düzəldən olmamış və niyyətin yalnız Allah-taala olmalıdır.[696]

650. Həzrət imam Sadiq əleyhissalam buyurub: Müstəhəb olaraq qurban kəsən və ya qurbanlıq edən hacının onun ətindən yeyib, sədəqə verməsi layiqlidir. Bunun isə müəyyən həddi yoxdur. Belə ki, istədiyi miqdarda yeyir, yedizdirir və habelə hədiyyə və sədəqə verir.

Allah-taala buyurmuşdur: «**Ondan yeyin və giriftar yoxsulu yedizdirin». (Həcc/128).**

Həmçinin buyurub: «**Ondan yeyin və qane və möhtac məhrumlara da yedizdirin». (Həcc/36).**

7. Başı qırxma:

Qur᾽an:

**«Allah yuxu aləmində öz peyğəmbərinə haqq və düzlükdən ayrı bir şey göstərmədi. Siz hökmən hamılıqla Allahın istəyi ilə Məscidül-hərama asayişlə və başlarınızı qırxmış və ya azaltmış halda, qorxmayaraq daxil olacaqsınız. Allah elə bir şeyləri bilir ki, sizin onlardan xəbəriniz yox idi və ondan qabaq çox yaxın bir fəthi qərar vermişdi».**[698]

Hədis:

651. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbər (s) buyurdu: İlahi! Başını qırxdıranlara rəhm et! Dedilər: Ey Allahın elçisi! Başının saçını azaldanlar necə? Həzrət (s) buyurdu: İlahi! Başını qırxdıranlara rəhm et! Dedilər: Başının saçının azaldanlara necə? Həzrət (s) buyurdu: Allahın rəhməti başının saçını azaldanlara da olsun.[699]

652. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həzrət Peyğəmbər (s) başını qırxan hacılar üçün Allahdan üç dəfə bağışlanmaq istəmişdir.[700]

653. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Baqir (ə) bir dəlləyə ülgücü başının sağ tərəfinə qoyub və daha sonra başını qırxmağı göstəriş verdi. Həmçinin özü Bismillah deyərək dua edib belə dedi: «Allahummə ə᾽tini bikulli şə᾽rətin nurən yəvməl Qiyaməti.»[701]

654. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həqiqətən mö᾽min bəndə başını qırxdıqda Allah-taala onun yerə tökülən tükünün müqabilində qiyamət günü ona bir nur əta edər.[702]

655. Süleyman ibni Mehran nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: İlk dəfə həccə gələn şəxsin başını qırxdırmasının vacib, əvvəllər həccə gələn şəxsin isə başını qırxdırmasının vacib olmaması necə olmuşdur? Həzrət (ə) buyurdu: Bu vasitə ilə amanda olanların əmanətini kəsb etmək üçündür. Allahın sözünü eşitməmisənmi ki, buyurur: **«Allah istəsə asayişlə və başınızı qırxmış və ya azaltmış halda Məscidül-hərama daxil olarsız və heç bir qorxunuz olmaz».**[703]

656. Həzrət imam Sadiq əleyhissalam buyurub: Mö᾽min şəxs Minada öz başını qırxıb, onun tükünü dəfn etsə, qiyamət günündə hər bir tükü öz sahibinin adından ləbbəyk deyən hala məhşərə gələcəkdir.[704]

657. Həzrət imam Sadiq əleyhissalam — «summə liyəqzu təfəsəhum» (Həcc/29) — ayəsi barədə buyurdu: «Təfəsə — başı qırxmaq və insan bədənində olan şeyi aradan aparmaq mə᾽nasındadır.[705]

8. Ziyarət təvafı:

658. Həzrət imam Sadiq əleyhissalam buyurub: Daha sonra başını qırxıb, qüsl et və dırnaqlarını tutaraq buğunu azalt. Bundan sonra Kə᾽bəni Məkkəyə daxil olan gündə (ziyarət və təvaf etdiyin) kimi ziyarət edib, yeddi dəfə təvaf et.[706]

659. Hüseyn ibni Əbil-əla nəql etmişdir ki, imam Sadiq (ə)-dan hacının Minadan gəlib Kə᾽bəni ziyarət etməsi üçün qüslü barədə soruşduqda buyurdu: Mən Minadan qayıdarkən qüsl edir və daha sonra Kə᾽bənin ziyarətinə gedirəm. [707]

660. Həzrət imam Sadiq əleyhissalam buyurub: Təməttö᾽ həccini əncam verən şəxsin Qurban bayramı günü və ya o günün gecəsində Allah evinin ziyarətinə gedib, onu tə᾽xirə salmaması layiqlidir. [708]

661. Həzrət imam Sadiq əleyhissalam buyurub: Kə᾽bəni ziyarət etməyə hərəkət edib gedən günədək tə᾽xirə salmağın heç bir eybi yoxdur. Təkcə hadisələrin qorxusundan onu tez əncam vermək müstəhəbdir. [709]

662. Həzrət imam Sadiq əleyhissalam buyurub: Qurban bayramı günündə Kə᾽bəni ziyarət et və əgər orada izdiham olsa, sabahısı gün Kə᾽bənin ziyarətinə gəlməyinin heç bir eybi yoxdur. Amma bu gündən onu tə᾽xirə salma. Çünki bu iş təməttö᾽ həccini yerinə yetirən və habelə vaxtı geniş olan ifrad həccini əncam verən şəxs üçün məkruhdur. Beləliklə də Qurban bayramı günündə Məscidül-hərama gəldikdə məscidin qapısı ağzında durur və belə deyirsən:

«Allahummə əinni əla nusukikə və səllimni ləhu və səllimhu li. Əs᾽əlukə məs᾽ələtəl-əşliz-zəşlil-mu᾽tərifi bizənbii ən təğfirə li zunubi, və ən tərciəni bihacəti. Allahummə inni əbdukə vəl-bələdu bələdukə vəl-bəytu bəytukə, ci᾽tu ətlubu rəhmətən və əummu taətək, muttəbiən liəmrikə, raziyən biqədərin. Əs᾽əlukə məs᾽ələtələl-muztərri iləyk, əl-mutii᾽ liəmrikə, əl-muşfiqi min əzabik, əl-xaifi biuqubətik, ən tubəlliğəni əfvəkə və tuciəni minən-nari birəhmətik». Bundan sonra qara daşın yanına gedərək, ona əl vurur və öpürsən. Əgər əlini ona çəkə bilməsən, əlini öp və əgər bunu da bacarmasan üzü ona tərəf durub, Məkkəyə ilk gündə daxil olarkən təvafda dediklərini de. Daha sonra Məkkəyə gələrkən sənə vəsf etdiyim kimi Kə᾽bənin ətrafında yeddi dəfə təvaf et.

Bundan sonra İbrahim (ə) məqamının kənarında «Qulhuvəllahu əhəd» və «Qul ya əyyuhəl kafirun» surələri ilə iki rəkət namaz qıl və qayıdaraq qara daşı öp və əgər bacarsan ona tərəf durub, təkbir (Allahu əkbər) de. Daha sonra Səfa dağına tərəf gedib Məkkəyə daxil olduğun gün kimi onun üstünə qalx və sonra Mərvə dağının üstünə gedib Səfa və Mərvə dağları arasında yeddi dəfə təvaf et. Belə ki, Səfa dağından başlayıb Mərvə dağında təvafı sona yetir. [710]

9. Sə᾽y:

663. Həzrət imam Sadiq əleyhissalam buyurub: Təməttö᾽ həccinin ömrəsini əncam verən şəxsin Kə᾽bə ətrafında üç dəfə təvaf və habelə Səfa və Mərvə arasında iki sə᾽y etməsi vacibdir. O, Məkkəyə daxil olduqda Kə᾽bəni təvaf edib, İbrahim (ə) məqamı yanında namaz qılmalı, həmçinin Səfa və Mərvə arasında sə᾽y edərək başının tükü və s. azaltmalıdır. Bu halda da ehramdan xaric olmuşdur. Bu ömrə əməli üçündür. Həccdə isə onun öhdəsində olan əməllər, iki təvaf, Səfa və Mərvə arasında bir sə᾽y və Kə᾽bə ətrafında hər bir

təvafı ilə İbrahim (ə) məqamının yanında iki rəkət namaz qılmasından ibarətdir.[771]

10. Nisa təvafı:

Qur᾽an:

**«Sonra çirkinliklərini təmizləyib öz nəzrlərinə vəfa edərək, azad evin ətrafında təvaf etsinlər».**[712]

Hədis:

664. Həzrət imam Rza əleyhissalam — «Vəl-yəttəvvəfu bil-bəytil-ətiq» (yə᾽ni, aza evin ətrafında təvaf etsinlər) — ayəsi barəsində buyurdu: Vacib təvafdan məqsəd, Nisa təvafıdır.[713]

665. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həccin vacib əməllərini sayaraq buyurdu: Nisa təvafı vacibdir.[714]

666. Həzrət imam Sadiq əleyhissalam buyurub: Ziyarət təvafını əncam verdikdə, qadınlardan başqa sənə haram olan hər bir işdən xaric olmusan. Bundan sonra Kə᾽bəyə tərəf qayıdaraq onun ətrafında yeddi dəfə təvaf et və daha sonra İbrhaim (ə) məqamının kənarında iki rəkət namaz qıl. Bütün bunlardan sonra hər bir haram işdən xaric olmuş, həmçinin öz həcc əməlini və sənə haram olan hər bir işdən qurtarmısan.[715]

## DÖRDÜNCÜ FƏSİL

## *HƏCCİN QAYDALARI*

### *HƏCC MÖVSÜMÜ ÇATMAZDAN QABAQ LAYİQLİ OLAN İŞLƏR*

1. Hazırlıq:

Qurʾan:

**«Həcc müəyyən aylardadır. Beləliklə bu aylarda həcci özünə vacib edən hər bir şəxs bilməlidir ki, həccin əsnasında cinsi yaxınlıq, günah və çəkişmə rəva deyildir. Allah sizin əncam verdiyiniz hər bir yaxşı işi bilir. Özünüz üçün azuqə götürün ki, həqiqətən ən yaxşı azuqə pəhrizkarlıqdır. Va ey ağıl sahibləri! Məndən təqvalı olun».**[716]

**Hədis:**

667. Həzrət imam Əli əleyhissalam buyurub: Həccə getmək istədikdə hər şeydən qabaq sizi səfərdə qüvvələndirən şeyləri alın. Çünki Allah-taala buyurur: **«Xaric olmaq niyyətində olduqda, onun üçün imkanat hazırlasınlar». (Tövbə/46).**

668. Həzrət imam Sadiq əleyhissalam İsəbni Mənsura buyurdu: Ey İsa! Allahın səni iki həcc arasında olan fasilədə həcc üçün hazırlaşan halda görməyini sevirəm.[718]

669. Həzrət imam Sadiq əleyhissalam buyurub: Sizlərdən biri pul qazandıqda, ondan bir miqdarını götürüb kənara qoyaraq «bu həcc üçündür» deyərsə, habelə bir daha pul qazandıqda ondan bir hissəsini götürüb, kənara qoyaraq «bu həcc üçündür» desə həcc mövsümü çatdıqda onun səfər xərci əlində hazır olar və Allah-taala da onun üçün həcc səfərini müqəddər edər və o şəxs həccə gedər. Amma sizlərdən bəʾzisi pul qazandıqda, onu xərcləyir və həcc mövsümündə səfər üçün sərmayəsindən götürmək istəyərkən çətinliklə üzləşir.[719]

670. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həccə getmək qərarına gəlib, onun üçün hazırlaşan, amma həccdən məhrum olan şəxs bir günaha görə həccdən məhrum olmuşdur.[720]

2. İxlas:

671. Həzrət Peyğəmbər (s) buyurub: Xalq üçün elə bir zaman gələcəkdir ki, o zamanda həcc əməli padşahlar, hakimlər üçün istirahət, varlıların həcc ticarəti, yoxsulların həcci isə istək olacaqdır.[721]

672. Həzrət Peyğəmbər (s) buyurub: Xalq üçün elə bir zaman gələcəkdir ki, ümmətimin varlıları istirahət, orta vəziyyətdə olanları al-ver, yoxsulları istək, qariləri isə riyakarlıq üçün həccə gedərlər.[722]

673. Ənəs ibni Malik nəql etmişdir ki, həzrət Peyğəmbər (s) köhnə imkanat və qiyməti dörd dirhəm olan və ya olmayan bir qətifə ilə həcc əməlini əncam

verib buyurdu: İlahi! Bu elə bir həccdir ki, onda heç bir riyakarlıq və şöhrəttələblik yoxdur.[723]

674. Həzrət imam Baqir əleyhissalam buyurub: . Həzrət Peyğəmbər (s) öz yükünü miniyinin üstünə qoyaraq buyurdu: Bu elə bir həccdir ki, onda heç bir riya və şöhrət tələblik yoxdur.[724]

675. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həcc iki növdür: Allaha görə əncan verilən həcc və xalqa görə əncam verilən həcc. Beləliklə hər kəs Allaha görə həcc əməlini əncam versə, Allah-taala behişti onun savabı olaraq qərar verər. Xalq üçün həccə gedən şəxsin qiyamət günündə savabı isə xalqın öhdəsindədir.[725]

3. Tələsmək:

676. Həzrət Peyğəmbər (s) buyurub: Həccə getmək istəyən hər bir kəs tələssin. Çünki o, bəlkə də xəstələnər, yolu itirər və ya onun üçün bir iş maneə qarşıya çıxar.[726]

677. Həzrət Peyğəmbər (s) buyurub: Məkkəyə getmək üçün tələsin. Çünki heç kim qarşısına nə çıxacağını — xəstələnmək və ya başqa bir işin olduğunu bilmir.[727]

4. Həcc əməllərini öyrənmək:

Qur᾽an:

**«Pərvərdigara! Bizi Öz fərmanına təslim olanlardan qərar verib, bizim nəslimizdən də Özünə təslim olan bir ümməti vücuda gətir. Və bizim dini qaydalarımızı bizə göstərib, bizi bağışla ki, həqiqətən Sən tövbələri bağışlayan və mehribansan».[728]**

**Hədis:**

678. Həzrət Peyğəmbər (s) buyurub: Öz əməllərinizi öyrənin. Çünki o dininizin bir hissəsidir.[729]

679. Zurarə nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etim: Sizə fəda olum, mən qırx ildir ki, sizdən həcc haqqında soruşur, siz isə mənə fətva verirsiniz! Həzrət (ə) buyurdu: Ey Zurarə! Adəm (ə)-dan iki min il qabaq ziyarət olan bir evin məsələlərinin qırx il ərzində qurtarmasını istəyirsənmi?[730]

680. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Tərviyə günündən bir gün qabaq xalq üçün xütbə oxuyaraq, həcc əməllərindən onlara xəbər verdi.[731]

681. Məhəmməd ibni İbrahim səhabələrin birindən nəql etmişdir ki, həzrət Peyğəmbər (s) Minada xalqın əməllərini onlara öyrədib buyurdu: Allah-taala bizim qulaqlarımızı açıb, eşidən qərar verdi və beləliklə də öz yüklərimizin yanında olan onun sözünü eşidirik. Dedi: Mühacirlər «Mühacirlər» dərəsi, Ənsar isə «Ənsar» dərəsində və camaat da öz yerlərində yerə endilər. O həzrət (s) xalqa həcc əməllərini öyrədərək buyurdu: Barmaqla qum atan kimi cəmərəyə daş vurun.[732]

682. Huzeyfə nəql etmişdir ki, həzrət Peyğəmbər (s) müəzzinələrə göstəriş verdi ki, aşağı və hündür məntəqələrin arasında belə desinlər: Həzrət

Peyğəmbər (s) bu il xalqa həcci başa salıb, əməllərini onlara öyrətmək, həmçinin onlar üçün sünnə olsun deyə həccə getmək qərarına gəlmişdir.

Beləliklə də müsəlman olanların hamısı hicrətin onuncu ilində öz mənfətlərinə şahid olub, Peyğəmbərdən (s) həcc əməllərini öyrənmək üçün o həzrətlə (s) birlikdə həccə getdilər. Həzrət Peyğəmbər (s) onları və həyat yoldaşlarını özü ilə birlikdə həccə gətirdi ki, o da həccətul-vida mərasimi idi. Camaat öz həcc əməllərini əncam verib, möhtac olduqları əməlləri tanıdıqdan sonra həzrət Peyğəmbər (s) buyurdu: İbrahim (ə)-ın dinini onlar üçün dirçəldib, ondan sonra müşriklərin qondardığı işləri aradan apardım və həcc əməlini onun ilk halətinə qaytardım.[733]

683. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həzrət Peyğəmbərin (s) Bəyda məntəqəsində ləbbeyk deməsinin səbəbi bu idi ki, xalq ləbbeyk deməyi bacarmadığı üçün onlara ləbbeyk və ehram bağlamağı öyrətməyi sevdiyindən ləbbeyk demişdir.[734]

684. həzrət imam Sadiq əleyhissalam buyurub: Şiələr imam Baqir əleyhissalamdan qabaq həcc əməlləri və habelə halal və haramların bilmirdilər. (İmam Baqir əleyhissalam) gəldikdə isə (elm və bilik qapısını) onların üzünə açıb, həcc əməlləri, həmçinin onların halal və haram işlərini onlara bəyan etdi.[735]

685. Şeyx Səduq (rə) Noman ibni Sabitdən nəql etmişdir ki, Cəfər ibni Məhəmməd (imam Sadiq əleyhissalam) olmasaydı, xalq öz həcc əməllərini bilməzdi.[736]

686. həzrət imam Sadiq əleyhissalam buyurub: Ərəfatda belə deyirsən: «Allahummə inni əbdukə və milku yədinə və nasiyəti biyədik, və əcəli bi ilmikə, əsʾalukə ən tuvəffiqəni lima yurzikə ənni və ən təsəlləmə minni mənasiniyəl-ləti ərəytəha İbrahimə xəlilən, və dələltə ələyha həbibəkə Muhəmmədən səlləllahu ələyhi və Alih».[737]

687. həzrət imam Sadiq əleyhissalam buyurub: Allah-taala həzrət Adəm əleyhissalamın tövbəsini qəbul etmək istədikdə, Cəbraili (ə) onun yanına göndərdi. Cəbrail dedi: Ey Adəm! Salam olsun sənə ki, öz sınaq və giriftarçılağına səbr edib, öz günahından tövbə etdin. Allah-taala məni sənə tərəf göndərmişdir ki, sənə tövbənin qəbul olunmasına səbəb olan əməllər və ibadətləri öyrədim. Beləliklə Cəbrail (ə) Adəmin (ə) əlindən tutub, onu Kəʾbənin yerinə apardı. Göydən bir bulud enərək Kəʾbənin yerinə gölgə saldı. Cəbrail (ə) dedi: Ayağınla bulud gölgə salan yerə əlamət qoy ki, o sənin və övladlarının sonuncusunun qibləsidir. Adəm (ə)-da buludun gölgə saldığı yerə ayağı ilə əlamət qoydu. Daha sonra onu Minaya aparıb, Mina məscidini ona göstərdi. Beləliklə də Kəʾbənin yerinə ayağı ilə əlamət qoyub, Məscidul-həramın nəqşini (çəkib) uzatdı. Daha sonra onu Minadan Ərəfata aparıb, eʾtiraf (ərəfat) yerində sakin edərək və dedi: Günəş batanda yeddi dəfə öz günahına eʾtiraf edib, Allahdan yeddi dəfə bağışlanmaq və tövbə istə.

Adəm (ə) belə etdiyi üçün o yer «müərrəf» adlandı. Çünki, Adəm (ə) o yerdə öz günahına eʾtiraf etmiş və buna görə də onun övladlarına Adəm öz

günahına e̓tiraf etdiyi kimi günahlarına e̓tiraf etməsi, həmçinin Adəmin (ə) tövbəni tələb etdiyi kimi tövbə istəmələri sünnə oldu.

Sonra Cəbrail (ə) ona Ərəfatdan köçüb yeddi dağdan ötməsinə, həmçinin hər bir dağın yanında dörd dəfə təkbir deməsini göstəriş verdi. Adəm də bunlara əməl edib, Məş̓ərə çatdı. O, Məş̓ərə çatdıqda, gecənin üçdə biri keçmişdi. Beləliklə də Məğrib və İşa namazlarını o gecə və o yerdə gecənin üçdə birin də birlikdə qıldı. Sonra ona Məş̓ər vadisində üzü üstə düşməsinə göstəriş verdi və o da sübhə qədər o halda qaldı. (Sübh açıldıqda isə) ona Məş̓ər dağına çıxıb, günəş çıxarkən yeddi dəfə günahına e̓tiraf edərək, Allahdan yeddi dəfə tövbə və bağışlanmasını istəməsini göstəriş verdi.

Adəm əleyhissalam Cəbrailin göstəriş verdiyi kimi onları əncam verib, övladları arasında sünnə olsun deyə onu iki dəfə e̓tiraf qərar verdi. Beləliklə onlardan Ərəfatı deyil, Məş̓əri dərk etdikdə öz həccini (Minaya qədər) kamilləşdirmişdir. Daha sonra Məş̓ərdən Minaya köçüb, günorta çağı Minaya çatdıqda, ona Mina məscidində iki rəkət namaz qılmasını göstəriş verdi. Bundan sonra Allahın ondan qəbul etməsi, tövbəsinin qəbul etdiyini bilməsi, və övladları arasında sünnə olsun deyə Allah üçün qurbanlıq etməsinə göstəriş verdi. Adəm (ə) qurbanlıq etdikdə Allah-taala ondan (qurbanlıq) qəbul edərək, göydən bir od göndərib, Adəmin qurbanlığını qəbul etdi. Cəbrail (ə) ona dedi: Ey Adəm! Allah sənə yaxşılıq etdi. Çünki tövbəni qəbul etməsinə səbəb olan əməlləri sənə öyrətmişdir.[738]

688. həzrət imam Sadiq əleyhissalam buyurub: Allah-taala İbrahim əleyhissalama həccə gedib, İsmaylı (ə) özü ilə həccə apararaq orada sakin etməsinə göstəriş verdi. Onların hər ikisi qırmızı bir dəvə ilə həccə getdilər və Cəbraildən (ə) başqa heç kəs onlarla birgə deyildi. Hərəmə çatdıqda, Cəbrail (ə) ona dedi: Ey İbrahim! Yerə enin və hərəmə daxil olmazdan qabaq qüsl edin. Onlar da yerə enərək qüsl etdilər. (həmçinin) ehrama hazırlığı onlara göstərdi və onlar da o cür əməl etdilər. Sonra onlara həcc üçün ehram bağlayıb elçilərin onlarla ləbbəyk dediyi dörd «ləbbəyk»i deməlErinə göstəriş verdi.

Bundan sonra onları Səfa dağına aparıb orada endirdilər. Cəbrail (ə) o iki nəfərin arasında Kə̓bəyə tərəf üz tutub, təkbir dedikdə, onlar da təkbir dedilər. Cəbrail (ə) la ilahə illəllah dedikdə, onlar da təkrar etdilər. O, Allaha tə̓zim etdikdə, onlar da dedilər. O, Allaha səna dedikdə, onlar da o cür dedilər. Cəbrail qabağa getdikdə onlar da Allah üçün (həmd və ) səna deyən halda qabağa getdilər və beləliklə də onları Qara daşın yerinə çatdırdı. Cəbrail (ə) ona əl çəkib o iki nəfərə (Qara daşa) əl çəkmələrini göstəriş verərək, onları yeddi dəfə təvaf etdirdi. Sonra o iki nəfəri İbrahim (ə) məqamında saxladı. İki rəkət namaz qıldıqda, onlar da namaz qıldılar. Daha sonra həcc əməlləri və orada əncam verilən işləri onlara göstərdi. Beləliklə, onların əməlləri sona çatdıqda, Allah-taala İbrahimə (ə) qayıtmağı və İsmayılı orada qoymağa göstəriş verdi.[739]

689. Həzrət imam Baqir əleyhissalam və ya imam Sadiq əleyhissalam buyurub: Allah-taala İbrahimə (ə) Kə᾽bəni tikib, divarlarını yuxarı aparmağı və habelə xalqa həcc qaydaları və əməllərini göstərməyə fərman verdi.[740]

5. Malı halal etmək:

690. həzrət Peyğəmbər (s) buyurub: Həcc səfəri üçün özünü hazırlayan şəxsin yükündə bir haram bayraq olsa belə, Allah-taala onun həccini qəbul etməz.[741]

691. həzrət Peyğəmbər (s) buyurub: Qeyri-halal olan mal ilə həccə gedən şəxs «ləbbəykəllahummə ləbbəyk» dedikdə, Allah buyurar: «La ləbbəyk və la sə᾽dəyk» (yə᾽ni, onu qəbul etməz), bu sənin özünə qayıdır.[742]

920.
921.
922.
923.
924.
925.
926.
927.
928.
929.
930.
931.
932.
933.
934.
935.
93692. həzrət Peyğəmbər (s) buyurub: Pak və halal pul ilə həcc üçün xaric olan şəxs ayağını miniyin üzənginə qoyaraq «ləbbəykəllahummə ləbbəyk» dedikdə, asimandan bir nəfər onu çağırıb belə deyər: Ləbbəyk və sə᾽dəyk. Azuqən və miniyin halal, həccin qəbul olmuşdur və sən günahsızsan.

92. həzrət Peyğəmbər (s) buyurub: Pak və halal pul ilə həcc üçün xaric olan şəxs ayağını miniyin üzənginə qoyaraq «ləbbəykəllahummə ləbbəyk» dedikdə, asimandan bir nəfər onu çağırıb belə deyər: Ləbbəyk və sə᾽dəyk. Azuqən və miniyin halal, həccin qəbul olmuşdur və sən günahsızsan.

Amma halal olmayan pul ilə xaric olub, ayağını miniyinin üzənginə qoyaraq «ləbbəyk» dedikdə asimandan bir nəfər onu çağırıb deyər: La ləbbəyk və la sə᾽dəyk. Azuqən və miniyin haram, həccin isə günaha bulaşmış və qəbul olmamışdır.[743]

693. həzrət imam Sadiq əleyhissalam (s) buyurub: Hər kəs qeyri-halal yoldan pul qazanıb (onunla) həccə gedərək ləbbəyk desə, (cavabında belə deyilər): La ləbbəyk və sə᾽dəyk! Amma (pulu) halal yoldan əldə olunsa (ona belə deyilər): Ləbbəyk və sə᾽dəyk.[744]

694. həzrət imam Sadiq əleyhissalam (s) buyurub: Dörd şey, dörd yerdə caiz deyildir: Xəyanət, ixtilas (mənimsəmə), oğurluq və sələmçilik həcc və ömrə (əməlləri) və habelə cihad və sədəqə caiz deyildir.[745]

695. həzrət imam Kazim əleyhissalam (s) buyurub: Biz Əhli-beytin ilk həccimiz, qadınlarımızı mehriyyəsi və kəfənlərimiz özümüzün pak (və halal) mallarımızdandır.[746]

6. Səfər azuqəsinin təmizliyi:

696. həzrət Peyğəmbər (s) buyurub: Allah-taala yanında orta səviyyədə xərcdən başqa heç bir xərc sevimli deyildir və Allah həcc və ömrədən başqa (işlərdə olan) israfkarlığa nifrət edir. Beləliklə Allahın rəhməti təmiz mal qazanıb, onu orta səviyyədə xərcləyən və ya bir yaxşılığı qabağa göndərən mö᾿min bəndəyə olsun.[747]

697. həzrət Peyğəmbər (s) buyurub: Hər bir ne᾿mət sahibindən o ne᾿mət (barədə) sual olunacaqdır. Amma cihad və ya həccdə xərclənən (ne᾿mət və mal barədə) sual olunmayacaqdır.[748]

698. Mərhu Şeyx Səduq buyurmuşdur ki, imam Səccad əleyhissalam həcc və ömrə üçün Məkkəyə getdikdə, badam, şəhər, (yaxşı) un, və habelə turş və şirin (olan) ən yaxşı səfər azuqələrini özü ilə götürürdü.[749]

7. Həcc səfəri zamanında oxunan dua:

699. həzrət imam Sadiq əleyhissalam (s) buyurub: Həcc səfəri üçün evindən xaric olduqda, fərəc duasını oxu ki, belədir: «La ilahə illəllahul-həlimul-kərim, la ilahə illəllahul-əliyyul-əzim, sübhanəllahi Rəbbis-səmavatis-səb᾿i və Rəbbil-ərşil-əzim. Vəl-həmdu lillahi Rəbbil-aləmin.»

Daha sonra (belə) de: »Allahummə kun li carən min kulli cəbbarin ənid, və min kulli şəytanin mərid».

Sonra (isə belə) de: «Bismillahi dəxəltu və bismillahi xərəctu və fi səbilillah. Allahummə inni uqəddimu bəynə yədəy nisayni və əcələti, bismillahi və ma şaəllahu fi səfəri haza, zəkərtuhu əv nəsəytuh. Allahummə əntəl-mustəanu ələl-umuri kulliha və əntəs-sahibu fis-səfəri vəl-xəlifətu fil-əhli.

Allahumə həvvin ələyna səfərəna, vətvi lənəl-ərzə və səyyirna fiha bitaətikə və taəti rəsulik.allahummə əslih ləna zəhrəna və birik ləna fima rəzəqtəna və qina əzabən-nar. Allahummə inni əuzu bikə min və᾿sais-səfəri və kəabətil-munqələbi və suil-mənzəri fil-əhli vəl-mali vəl-vələd. Allahummə əntə əzudi və nasiri və bikə əhullu və bikə əsiru. Allahummə inni əs᾿əlukə fi səfəri hazəs-sururə vəl-əmələ bima yurzikə ənni. Allahumməqtə᾿ənni bud᾿əhu və məşəqqətəh, vəshəbni fihi, vəxlufni fi əhli bixəyrin və la həvlə və la quvvətə illa billah. Allahummə inni əbdukə və haza humlanukə vəl-vəchu vəchukə vəs-səfəru iləyk. Və qədit-tələ᾿tə əla maləm yəttəli᾿ələyhi əhəd. Fəc᾿əl səfəri haza kəffarətən lima qəbləhu minzunubi və kun əvnən li ələyh, vəkfini və᾿səhu və məşəqqətəhu, və ləqqini minəl-qovli vəl-əməli rizakə, fəinnəma ənə əbdukə və bikə və ləkə.»

Ayağını (miniyinin) üzənginə qoyduqda belə (de): «Bismillahir-rəhmanir-rəhim, bismillahi vəllahu əkbər.»

Miniyinə əyləşib yer tutduqda isə belə de: «Əlhəmdulillahi-ləzi hədana lil-islami və ələmənəl-Qur'anə və mənnə ələyna bi Muhəmmdin səlləllahu ələyhi və Alih. Subhanəllahi, subhanəllzi səxxərə ləna haza və ma kunna ləhu muqrinin, və inna ila Rəbbina ləmunqəlibun, vəl-həmdu lillahi Rəbbil-aləmin. Allahummə əntəl-hamilu ələzzəhri vəl-mustəanu ələl-əmr. Allahummə bəlliğna bəlağən yəbluğu ila xəyrin bəlağən yəbluğu ila məğfirətikə və rizvanin. Allahummə la təyrə illa təyrukə və la xəyrə illa xəyruk və la hafizə ğəyruk.»[750]

## *HƏCC MÖVSÜMÜNDƏ BƏYƏNİLMİŞ İŞLƏR*

1. Gözəl əxlaq:

700. Həzrət imam Baqir əleyhissalam buyurub: «Bu üç xüsusiyyətə malik olan halda bu həcc yolunu gedən şəxs necə də bəhrə aparır! 1) Onu günahkarlıqdan saxlayan pərhizkarlıq; 2) Öz qəzəbini ələ ala biləcək helm (səbr və dözüm); 3) Öz dostları ilə yaxşı dostluq etmək.»[751]

701. Həzrət imam Sadiq əleyhissalam buyurub: «Fəxr etmək və qürurlanmaqdan çəkin və səni Allah qarşısında günahkarlıqdan saxlayan pərhizkarlığa malik ol. Həqiqətən Allah-taala buyurur: Sonra öz çirkinliklərinizi aradan aparın-(həcc\29). Ehramda pis söz danışmaqda bu qəbildəndir. Beləliklə Məkkəyə daxil olaraq Kə'bəni təvaf etsən, gözəl söz

danışmısan. Bu isə onun kəffarəsidir.[752]

2. Dostlara kömək etmək:

702. İsmayıl Xəsˀəmi nəql etmişdir ki, imam Sadiq əleyhisslama ərz etdim: Məkkəyə çatdıqda, dostlarım təvaf üçün Kəˀbəyə gedir və mənə öz yüklərini qorumağı tapşırırlar. Həzrət (ə) buyurdu: Sənin savabın onların savabından daha çoxdur.[753]

703. Muzarim ibni Həkim nəql etmişdir ki, Məhəmməd ibni Müsadiflə birgə idim. Mədinəyə daxil olduqda mən xəstələndim. O da məscidə gedir və məni tək qoyurdu. Mən Müsadifin bu işindən onun atasına şikayətləndikdə o da bu sözü imam

Sadiq əleyhissalama çatdırdı: Həzrət imam Sadiq əleyhissalamda ona belə xəbər göndərdi: Sənin onun yanında əyləşməyin məsciddə namaz qılmaqdan üstündür.[754]

3. Azuqədən muğayat olmaq:

704. Əbu Bəsr nəql etmişdir ki, imam Sadiq əleyhissalamdan qarnına şal bağlayan bir şəxs haqqında soruşduqda, buyurdu: «Xeyr». Daha sonra buyurdu: «Atam imam Baqir əleyhissalam buyururdu: Həccə gedən şəxs, əlində olan pulu ilə həccin tamamlanmasına yəqin etsin deyə yol pulunu bir qayışla belinə möhkəm bağlasın.»[755]

705. Səfvan Cəmmal nəql etmişdir ki, imam Sadiq əleyhissalama ərz

etdim: Ailəmlə birlikdə səfərə gedərkən yol xərcimi belimə bağlayıram. (Sizin bu haqda nəzəriniz nədir?) Həzrət (ə) buyurdu: Bəli, heç bir eybi yoxdur. Atam buyururdu ki, yol xərcini qorumaq müsafirin bacarığındandır.[756]

706. Yunis ibni Yəˀqub nəql etmişdir ki, imam Sadiq əleyhissalama ərz etdim: Möhrim şəxsin öz pul kisəsini belinə bağlaması necədir? Həzrət (ə) buyurdu: Bəli, heç bir eybi yoxdur. Pulu itəndən sonra bu işin ona nə xeyri vardır?[757]

707. Yəˀqub ibni Salim nəql etmişdir ki, imam Sadiq əleyhissalama ərz etdim: Üzərində

şəkil olan bir miqdar pulum vardır ki, ehram halında onları pul kisəsinə qoyub belimə bağlayıram. Həzrət (ə) buyurdu: «Heç bir eybi yoxdur. O pullar sənin özünün deyilmi? Və Allahdan sonra o pullara güvənmirsənmi?[758]

4. Həccdən qabaq Məkkədə qalmaq:

708. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həccdən bir gün qabaq Məkkədə qalmaq, həccdən sonra iki gün qalmaqdan daha yaxşıdır.[759]

5. Başqalarını həccin savabına şərik etmək:

709. Həzrət imam Sadiq əleyhissalam Hişam ibni Həkəmin həcc əməlində öz valideyni və qohumlarını şərik etməsi barədə sualının cavabında buyurdu: Belə bir halda sənin üçün onların həcci kimi savab yazılar, həmçinin sileyi-rəhim (qohum-əqrəba ilə rabitədə olduğun üçün) də sənə savab verilər.[60]

710. Həzrət imam Sadiq əleyhissalam buyurub: «Əgər öz

həccində min nəfəri belə şərik etsən, onların hər biri üçün bir həcc savabı veriləcək və sənin həccinin savabından zərrə qədər də azalmayacaqdır.[761]

## 6. İmamların (ə) adından təvaf etmək:

711. Musa ibni Qasim nəql etmişdir ki, imam Cavad əleyhissalama ərz etdim: Mən sizin və atanızın adından təvaf etmək istəyirəm. Amma mənə dedilər ki, imamların adından təvaf etmək olmaz. Həzrət (ə) buyurdu: «Əksinə, imkanın qədər təvaf et və bu iş caizdir.»

Üç ildən sonra o Həzrətə (ə) ərz etdim: Bir neçə il bundan qabaq sizdən özünüz və atanız adından təfav etmək barədə icazə alaraq, sizin adınızdan çoxlu təvaf əncam verdim. Daha sonra ürəyimə bir şey gəldikdə ona əməl etdim.

Həzrət (ə) soruşdu: «O nə idi?» Dedim: Bir gün həzrət Peyğəmbərin (s) adından təvaf etdim. Həzrət (ə) buyurdu: «Allahın rəhməti Peyğəmbərə (s) olsun.»

İkinci gün Əmirəl-mö᾽minin əleyhissalam, üçüncü gün imam Həsən əleyhissalam, dördüncü gün imam Hüseyn əleyhissalam, beşinci gün imam Səccad əleyhissalam, altıncı gün imam Baqir əleyhissalam, yeddinci gün imam Sadiq əleyhissalam, səkkizinci gün sizin babanız imam Kazim əleyhissalam, doqquzuncu gün atanız imam Rza əleyhissalam və onuncu gündə isə sizin adınızdan təvaf etdim. Bunlar isə vilayətləri dinim sayılan şəxslərdir.

Həzrət (ə) buyurdu: «Bu halda elə bir dinə əqidə bağlamısan ki, Allah-taala ondan başqa bir şey bəndələrindən qəbul etmir». Ərz etdim: Bə᾽zi vaxtlar da həm ananız həzrət Fatimə əleyhissalam tərəfindən təvaf edir, həm də etmirdim.

Həzrət imam Cavad əleyhissalam buyurdu: «Bunu çox əncam ver. Bu iş, əncam verdiyin əməllərin daha üstünüdür. İnşaalah.[762]

7. İmamla görüşmək:

712. Həzrət imam Baqir əleyhissalam buyurub: «Həccin kamilləşməsi, imamla görüşməyə bağlıdır.»[763]

713. Həzrət imam Sadiq əleyhissalam buyurub: «Sizlərdən biri həccə getdikdə, öz həccini bizim görüşümüzlə sona çatdırsın. Çünki, imamla görüşmək həccin kamilləşməsi üçündür.»[764]

714. Sədir nəql etmişdir ki, imam Baqir əleyhissalam Allah evinə daxil olanda və mən oradan xaric olan halda əlimdən tutub, Kə᾽bəyə üz tutaraq buyurdu: Ey Sadir! Həqiqətən xalq bu daşların yanına gəlib onu təvaf etməyə və daha sonra bizim yanımıza gəlib öz həmrəylik və itaətlərin bildirməyə mə᾽mur olmuşlar.[765]

715. Həzrət imam Baqir əleyhissalam buyurub: Həqiqətən xalq bu evin daşları yanına gəlib onu təvaf etmək və daha sonra bizim yanımıza gələrək öz həmrəylik və vilayətləri, həmçinin köməklərini bizə bildirməyə mə᾽mur olmuşlar.[766]

716. Füzəyl nəql etmişdir ki, imam Baqir əleyhissalam Kə᾽bə ətrafında təvaf edən camaata baxıb buyurdu: «Cahiliyyət dövründə də bu cür təvaf edirdilər! Həqiqətən onlara göstəriş verilmişdir ki, Kə᾽bənin ətrafında təvaf etdikdən sonra, bizə tərəf gəlib öz dostluq (itaət) və köməklərini bizə e᾽lan etsinlər.» O həzrət daha sonra bu ayəni tilavət etdi: «Vəc᾽əl əf᾽idətən minən-nasi təhvi iləyhim» - (Yə᾽ni; Xalqdan bə᾽zisinin qəlbini elə qərar ver ki, onlara tərəf meyl etsinlər. İbrahim \37[767]

717. Həzrət imam Baqir əleyhissalam «-fəc᾽əl əfidətən minən-nasi təhvi iləyhim» - (İbrahim (ə) dedi: İlahi! Xalqdan bir hissəsinin qəlbini onlara tərəf meylli qərar ver.) – ayəsinin təfsirində buyurdu:....«Xalqın bu evi ziyarət edib, onu böyük sayması gərəkdir. Çünki, Allah-taala onu böyük saymışdır. Həmçinin hər bir yerdə olsaq da bizim görüşümüzə

gəlmələri gərəkdir. Biz xalqı Allaha tərəf yönəldirik.»[768]

### *HƏCC MƏRASİMİNDƏ ƏNCAM VERİLMƏSİ LAYİQ OLAN İŞLƏRİN KÜLLİYYATI*

Qur᾽an:

«Həcc müəyyən aylardadır. Beləliklə (ehram bağlamaq və sair işlərlə) bu aylarda həcci özünə vacib edənlər (həcc mərasimində) cinsi yaxınlıq, günah və çəkişmədən çəkinsinlər. Allah sizin əncam verdiyiniz yaxşı işləri bilir. Azuqə götürün. Həqiqətən ən yaxşı azuqə pərhizkarlıqdır.»[769]

«Ey iman gətirənlər! İlahi nişanə və hüdudlar, haram aylar, əlamətli və əlamətsiz qurbanlıqlar və habelə Allahın fəzli və razılığını əldə etmək üçün Allah evinin niyyəti ilə gələnləri halal saymayın (onlara qarşı laqeyid olmayın). Ehramdan xaric olduqda ov edin və sizi Məscidul-həramdan saxlayanlarla düşmənçilik sizi təcavüzkarlığa vadar etməsin. Yaxşılıq və pərhizkarlıqda bir-birinizə kömək etməyin. Allah qarşısında günahkarlıqdan çəkinin. Həqiqətən Allahın cəzası çox ağırdır.»[770]

# Hədis:

718. Həzrət Peyğəmbər (s) «Qədir günündə» buyurdu: «Ey camaat! Allah evini kamil dindarlıq və dini düşüncə ilə ziyarət edib, o müqəddəs məkanlardan yalnız tövbə və günahları tərk edən halda qayıdın.»[771]

719. Həzrət Peyğəmbərdən (s) soruşuldu: Həccin yaxşılığı nədir? Həzrət (s) buyurdu: «Başqalarına yemək vermək və yaxşı danışmaqdır.»[772]

720. Həzrət imam Baqir və imam Sadiq əleyhissalamdan «Və ətimmul-həccə və vəl-umrətə lillah» (Həcc və ömrə əməllərini Allaha görə tamamlayın) ayəsi barədə soruşulduqda, buyurdular: «Həccin tamamlığı onda cinsi yaxınlıq, günah və çəkişmənin olmamasından ibarətdir.»[773]

721. Həzrət imam Sadiq əleyhissalam buyurub: Ehram bağladıqda təqvalı olub, Allahı çoxlu yad et və yaxşılıqdan başqa az danış. Çünki həcc və ömrənin kamillyi, insanın xeyir (və yaxşı) sözlərdən başqa hallarda öz dilini saxlamasından ibarətdir. Necə ki, Allah-taala buyurur: «Beləliklə haram aylarda həcci özünə vacib edənlər həcc mərasimində cinsi yaxınlıq, söyüş və çəkişmədən çəkinsinlər. «Rəfəs»-(cinsi) yaxınlıq, «fusuq»-söyüş, «cidal»-isə insanın mübahisə edərək, yox vallah, bəli vallah deməsidir.[774]

# 722. Əliyyibni Cə᾽fər nəql etmişdir ki, qardaşım imam Kazim

əleyhissalamdan soruşdum: Rəfəs, fusuq və cidal nə deməkdir və onları əncam verən şəxsin kəffarəsi nədir?

Həzrət (ə) buyurdu: «Rəfəs»-qadınlarla yaxınlıq etmək, «fusuq»-yalan və fəxr (qürurlanmaq), «cidal»-isə bir şəxsin «yox vallah», «bəli, vallah» deməsindən ibarətdir.

Cinsi yaxınlıq edən şəxsin kəffarəsi bir dəvəni qurban kəsməkdir. Amma dəvə tapa bilməsə bir qoyunu qurban kəsməlidir. Ehram halında yalançılıq və fəxrin kəffarəsi isə sədəqə verməkdir».[775]

723. Həzrət imam Sadiq əleyhissalama nisbət verilmişdir ki, o həzrət buyurub: Həccə getmək qərarına gəldikdə, qəlbini yalnız Allaha görə hər bir məşğul edən amil və hicabdan boşaldaraq, işlərini Pərvərdigarına tapşır və dayanış və hərəkətində Ona təvəkkül et. İlahi təqdirin qəza və qədərinə təslim olub, dünya, asayiş və xalqı kənara qoyaraq xalqın hüququnu əda etb Azuqə, minik, dostlar, güc, cavanlıq və mal-dövlətinə güvənmə. Heç vaxt onlar sənin üçün düşmən və əzab vasitəsi olmasınlar. Həqiqətən hər kəs başqa bir şeyə güvənən halda, Allah rizasını iddia etsə, Allahdan başqa heç bir kəsin qüdrət və tədbirə malik ola bilmədiyini başa düşsün deyə Allah-taala o şeyi onun üçün düşmən və əzab qərar verər.

Həmçinin qayıdışa ümidi olmayan kimi hazır ol. Dostlarınla yaxşı rəftar edib, həmişə ilahi vacib əməllərin vaxtları, həzrət Peyğəmbərin (s) davranışları, həmçinin səbr, dözüm, şükr, mehribanlıq, hər bir zamanda sənə vacib halda öz azuqəndən keçib, onu başqasına bağışlamaq kimi ədəb qaydalarına riayət et.

Daha sonra xalis tövbə suyu ilə günahlarını yuyub, doğruluq, səfa və ilahi təvazökarlığı və qorxusu olan ehramı bağla. Səni Allah yadı və itaətindən saxlayan hər bir şeyi özünə haram et. Dediyin ləbbəyk sözü möhkəm ilahi ipindən yapışan halda Allahın çağırışına pak və təmiz sayılan cavab olsun.

Müsəlmanlarla birlikdə Kə`bənin ətrafında təvaf etdiyin kimi, qəlbinlə də mələklərlə birlikdə ərşin ətrafında təvaf et. Hərvlə (qaçmağınla) öz nəfsani istəyindən qaçıb, bütün güc və bacarığından uzaqlaş. Minaya tərəf çölə çıxmağınla birgə qəflət və günahlarından xarix ol. Sənə halal olmayan və layiq olmadığın şeyləri istəmə. ərəfatda öz günahlarına e`tiraf edib, Allahınla (tövhid və yeganə Allaha pərəstiş etmək) əhdini təzələ və yəqinliklə Müzdələfədə Allaha yaxınlığı axtar.

Dağdan yuxarı qalxmaqla yanaşı ruhunu da uca mələkut (aləminə) qaldır və qurbanlıq edərkən, həvəs və tamahının damarını da kəs. Çəmərələrə daş vurmaqla şəhvət, alçaqlıq və xoşagəlməzliyi (özündən) uzaqlaşdır.

Başını qırxmaqla aşkar və gizlin (olan) eyblərini aradan apar və Allah evinə gəlməklə, Allahın amanı və himayəsi, həmçinin işlərinin Onun öhdəsində olması ilə daxil ol. Kə`bəni isə Onun sahibinin böyüklüyü və habelə Onun əzəmət və qüdrətinin mə`rifətinə inanan halda ziyarət et.

İlahi qismətə razılıq və Onun ucalığı qarşısında təvazökar olan halda Qara daşa əl vur və vida təvafı ilə Ondan başqa bütün şeylərlə vidalaş. Səfa dağında durmaqla öz ruhunu və daxilini Allah-taala ilə görüş günü üçün təmizləyib, cilalandır. Mərvə dağının yanında isə mürüvvətli və gözəl xüsusiyyətlərə malik ol. Və öz həccinin bu şərtləri və Pərvərdigarın ilə əhd bağlayıb özünə vacib etdiyin (və`dlər və əhdlərə) Qiyamət gününədək vəfalı ol».[776]

# 724. Seyyid Əbdullh «Şərhun-nuxbə» kitabında yazmışdır ki, ...imam Səccad əleyhissalam həccdən qayıtdıqda, Şibli (adlı bir səhabə) o həzrəti qarşıladı. Həzrət (ə) ondan soruşdu: «Şibli! Həcc əməlini əncam verdinmi?» Dedi: Bəli, ey peyğəmbər övladı.

Həzrət (ə) soruşdu: «Miqatda yerə enib, tikilmiş paltarlarını soyunaraq qüsl etdinmi?» Dedi: Bəli.

Həzrət (ə) soruşdu: «Miqatda yerə endikdə, günahkarlıq paltarlarını soyunub, itaət paltarlarını geyinməyi niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) soruşdu: «Tikilmiş paltarları soyunduqda, özünü riyakarlıq, nifaq (ikiüzlülük) və şübhələrə daxil olmaqdan üryan etməyə niyyət etdinmi?» Dedi: Xeyir.

Həzrət (ə) buyurdu: «Beləliklə, nə Miqatda yerə enmiş, nə tikilmiş paltarları soyunmuş və nə də qüsl etmisən!

Həzrət imam Səccad əleyhissalam daha sonra soruşdu: «Təmizlik edib, ehram bağlayarq həcc üçün niyyət etdinmi?» Dedi: Bəli.

Həzrət (ə) soruşdu: «Təmizlik edib, ehram bağlayarq həcc üçün niyyət edərkən xalis tövbə nurası ilə özünü paklaşdırmaq niyyəti də etdinmi?» Dedi: Xeyir.

Həzrət (ə) soruşdu: «Ehram bağlayarkən Allahın haram etdiyi bütün işləri özünə haram etməyi niyyət etdinmi? Dedi: Xeyir.

Həzrət (ə) soruşdu: «Həcc niyyəti edərkən, bütün qeyri-İlahi düyünləri açmaq niyyətini etdinmi?» Dedi: Xeyir.

Həzrət (ə) buyurdu: «Beləliklə nə təmizlik etmiş, nə ehram bağlamış, nə də həcc niyyəti etmisən!»

O həzrət (ə) daha sonra soruşdu: «Miqata daxil olub, iki rəkət ehram namazı qılaraq "ləbbəyk" dedinmi?» Dedi: Bəli.

Həzrət (ə) soruşdu: «Miqata daxil olarkən, ziyarət niyyətində olmağını niyyət etdinmi?» Dedi: Xeyir.

Soruşdu: «İki rəkət namaz qıldıqda, - əməllərin üstünü və bəndələrin yaxşı əməllərinin daha ucası sayılan – namazla Allaha yaxınlaşmaq niyyətini etdinmi?» Dedi: Xeyir.

Soruşdu: «Ləbbəyk deyərkən (yalnız Allahın itaəti yolunda danışıb) hər bir günahdan susmağını niyyət etdinmi?» Dedi: Xeyir.

Həzrət (ə) buyurdu: «Beləliklə nə Miqata daxil olmuş, nə namaz qılmış və nə də ləbbəyk demisən!»

O həzrət (ə) daha sonra soruşdu: «Hərəmə daxil olub, Kəʾbəni görərək namaz qıldınmı?» Dedi: Bəli.

Soruşdu: «Hərəmə daxil olduqda hər bir müsəlmanın qeybətini özünə haram etməyi özünə niyyət etdinmi?» Dedi: Xeyir.

Soruşdu: «Məkkəyə çatdıqda Allahı niyyət etməyi qəlbində niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət buyurdu: «Beləliklə nə hərəmə daxil olmuş, nə Kəʾbəni görmüş, nə də namaz qılmısan!

Daha sonra soruşdu: «Kəʾbəni təvaf edərək, sütunlara əl vurub (Səfa və Mərvə dağları arasında) səʾy etdinmi?» Dedi: Bəli. Soruşdu: «Səʾy edərkən Allaha tərəf qaçdığını niyyət etdinmi?» Və bilikli Allah qeybdən bunu səndən tanıdımı?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə nə Kəʾbəni təvaf etmiş, nə sütunlara əl vurmuş və nə də səʾy etmisən».

Həzrət (ə) daha sonra soruşdu: «Qara daşa əl qoydunmu? İbrahim məqamında durdunmu? Və iki rəkət namaz qıldınmı?» Dedi: Bəli. [Elə burada imam Səccad əleyhissalam fəryad çəkdi və az qaldı ki, dünyadan getsin]. O həzrət daha sonra buyurdu: Ah! Ah! Qara daşa əl qoyan şəxs Allah-taala ilə görüşmüşdür. Beləliklə ey çarəsiz, yaxşı bax ki, hörməti böyük olan işin savabını xarab etməyib, bu əl verməyi (beyʾti) günahkarlar kimi günah əncam verməklə sındırmayasan». Sonra soruşdu: «İbrahim (ə) məqamı yanında durduqda, hər bir itaət (yolunda) möhkəm qalıb, günahkarlıqdan üz döndərməyini niyyət etdinmi?»

Dedi: Xeyir. Soruşdu: «Orada iki rəkət namaz qıldıqda, İbrahim (ə) kimi namaz qılıb, öz namazınla şeytanın burnunu (yerə) sürtməyi niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə nə Qara daşa əl qoymuş, nə İbrahim (ə) məqamında durmuş və nə də orada iki rəkət namaz qılmısan!» Sonra belə soruşdu: «Zəmzəm quyusunun başına gedib, ondan içdinmi?» Dedi: Bəli. Soruşdu: «Allah itaətinə üz gətirib, günahdan göz yummağını niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə nə Zəmzəm (quyusunun) başına getmiş və nə də onun suyundan içmisən!»

Daha sonra soruşdu: «Səfa və Mərvə arasında səʽy edərək o iki dağın arasında yeridinmi?» Dedi: Bəli. Soruşdu: «Qorxu və ümüd arasında olduğunu niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə, nə səʽy etmiş, nə yol getmiş və nə də Səfa və Mərvə arasında get-gəl etmisən!»

Sonra soruşdu: «"Mina"ya tərəf getdinmi?» Dedi: Bəli. Soruşdu: «Xalqı öz dilin, qəlbin və əlində asayişdə qoymağını niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: Beləliklə Minaya getməmisən!» Sonra soruşdu: «Ərəfatda dayanıb, "Cəbəlur-Rəhmət" (Rəhmət dağının) üstünə getdinmi? Nəmirə vadisini tanıyıb, Cəmərələr kənarında Sübhan Allahı çağırdınmı?» Dedi: Bəli.

Soruşdu: «Ərəfatda dayanmaqla Allahın mə`rifətlər və biliklər işinə olan agahlığını, Allah-taalanın sənin əməl kitabını alacağını və habelə daxilin və qəlbində olanlardan agah olduğunu düşündünmü?» Dedi: Xeyir. Soruşdu: «"Cəbəlur-Rəhmət"ə qalxarkən Allahın bütün imanlı kişi və qadını bağışlaması və hər bir müsəlman kişi və qadına başçılıq etməsini niyyətindən keçirdinmi?» Dedi: Xeyir. Soruşdu: Nəmirə vadisinin yanında fərmanı yerinə yetirməmiş fərman verməməyin və özün pərhiz etməyincə nəhy etməməyini niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə nə Ərəfatda dayanmış, nə Cəbəlur-Rəhmətin üstünə çıxmış, nə Nəmirəni tanımış, nə dua etmiş və nə də Nəmiratın kənarında durmusan!»

O həzrət (ə) daha sonra soruşdu: «İki əlamət arasından keçib və oradan keçməzdən qabaq iki rəkət namaz qıldınmı? Müzdəlifəyə gedib, orada xırda daşlar yığdınmı? Məş`ərul-həramdan keçdinmi?» Dedi: Bəli. Soruşdu: «İki rəkət namaz qılarkən o namazın onuncu günün şükr namazı olduğu və habelə hər bir çətinliyi aradan apararaq, hər bir asanlığı gətirməsini niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «İki əlamətin arasından keçib, sağ və sol tərəflərinə nəzər salmayarkən, haqq (olan) dindən sağ və sol (tərəflərinə) üz döndərməməyini niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «Müzdəlifəyə gedərkən oradan xırda daşlar yığdıqda, hər bir günah və nadanlığı özündən uzaqlaşdıraraq, özündə hər bir elm və saleh əməli adətə çevirməyini niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «Məş`ərul-həramdan keçdikdə qəlbini təqva əhli və Allahdan qorxanların görnüşü ilə bəzəməyini niyyət etdinmi?» Dedi: Xeyir. Həzrət (ə) buyurdu: «Beləliklə nə iki əlamətin (yanından) keçmiş, nə iki rəkət namaz qılmış, nə Müzdəlifəyə getmiş, nə ondan xırda daşlar yığmış və nə də Məş`ərul-həramdan keçmisən!» Sonra (yenidən) soruşdu: «Minaya çatıb xırda daşlar atdınmı? Başını qırxdırıb, qurbanlığını kəsdinmi? "Xif" məscidində namaz qılıb, Məkkəyə qayıdaraq "köçmək təvafını" əncam verdinmi?» Dedi: Bəli. Həzrət (ə) buyurdu: «Minaya çatıb, cəmərələrə daş vurduqda, istəyinə çatmağın və Allahın sənin bütün hacətlərini həyata keçirməsini niyyət etdinmi?» Dedi: Xeyir.

Həzrət (ə) soruşdu: «Cəmərələrə xırda daş vurarkən, düşmənin olan İblisə daş vurub, bütün dəyərli həccinlə onu qəzəbə gətirdiyini niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «Başını qırxdırdıqda, çirkinliklər, xalqın qalıqları və habelə anan səni dünyaya gətirən gün kimi günahalardan çıxıb, pak olduğunu niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «"Xif" məscidində namaz qılarkən yalnız Allah-taala və öz günahından qorxub, məhz Allah rəhmətinə ümidvar olduğunu niyyət etdinmi?» Dedi: Xeyir. Soruşdu: «Qurbanlığını kəsərkən, tamah boğazını pərhizkarlıq həqiqəti ilə kəsdiyini, həmçinin öz

ürəyinin meyvəsi və qəlbinin gözəl ətirli gülü olan övladını qurban yerinə gətirib onu gələcək nəsil üçün bir sünnə və Allaha yaxınlıq vasitəsi qərar verən Həzrət İbrahim əleyhissalamın sünnəsindən itaət etdiyini niyyətindən keçirdinmi?» Dedi: Xeyir. Soruşdu: «Məkkəyə qayıdıb "köçmək təvafı"nı əncam verərkən, Allah rəhmətindən köçüb, onun itaətinə qayıtmağın və habelə Onun məhəbbətindən əl ataraq, vacib göstərişlərini əncam verməyin və Allaha yaxınlığına çatmağını niyyət etdinmi?» Dedi: Xeyir.

Həzrət imam Səccad əleyhissalam ona buyurdu: «Beləliklə nə Minaya çatmış nə daş atmış, nə başını qırxmış, nə öz həcc əməllərini əncam vermiş, həmçinin nə "Xif" məscidində namaz qılmış, nə (köçmək təvafını) yerinə yetirmiş və nə də Allah yaxınlığına çatmısan. Geri qayıt, çünki sən həcc əməlini əncam verməmisən.

Şibli həcc əməllərində etdiyi səhlənkarlıqlarına görə ağlamağa başladı. O, bu göstərişləri ardıcıl olaraq öyrənir və bir ildən sonra məʾrifət və yəqinliklə həcc əməlini əncam verdi».[777]

## HƏCCDƏN SONRA ƏNCAM VERİLMƏSİ LAYİQ OLAN ƏMƏLLƏR

1. Allah evi ilə vidalaşmaq:

725. Əbu İsmayıl nəql etmişdir ki, imam Sadiq əleyhissalama ərz etdim: Sizə fəda olum! Mən hal-hazırda Məkkədən xaric oluram. Allah evi ilə haradan vidalaşım? Həzrət (ə) buyurdu: «Qara daş ilə Kəʾbənin qapısı arasında yerləşən Kəʾbə divarının kənarına gedib, oradan vidalaşır və daha sonra çölə çıxaraq Zəmzəm suyundan içir və gedirsən.» Ərz etdim: Zəmzəm suyundan başıma da tökümmü? Həzrət (ə) buyurdu: «Belə bir işə yaxınlaşma!»[778]

726. Qusəm ibni Kəʾb nəql etmişdir ki, imam Saddiq əleyhissalam mənə buyurdu: «Ardıcıl olaraq həccə gedirsənmi?» Dedim: Bəli. Həzrət (ə) buyurdu: «Kəʾbə ilə son görüşündə əlini onun qapısına qoyaraq belə de: "Əl-miskinu əla babikə, fətəsəddəq ələyhi bil-cənnəti"-Yəʾni; İlahi! Bir miskin bəndə Sənin qapının astanasındadır. Beləliklə, Behişti ona əta et».[779]

727. Müaviyətibni Əmmar nəql etmişdir ki, həzrət imam Sadiq əleyhissalam buyurdu: «Məkkədən xaric olub, ailənin yanına qayıtmaq istədikdə, Kəʾbə ilə vidalaşıb, yeddi dəfə təvaf et. İmkanın olduqda hər dövrdə Qara daş və Rükni-Yəmaniyə əl çək, əks təqdirdə isə hər təvafın əvvəli və sonunda belə et. Əgər buna da imkanın çatmazsa, azarsan.

Daha sonra Müstəcarın yanına gedir və Məkkəyə daxil olduğunu ilk gündə əncam verdiyin işləri (yenidən) əncam verir və bundan sonra özün üçün istədiyin hər bir duanı oxuyursan.

Daha sonra Qara daşa əl vurub öz qarnını Allah evinə yapışdır. Bir əlini Qara daşa, digər əlini isə qapıya tərəf qoyub, Allah-taala üçün həmd və səna de. Həmçinin Məhəmməd və onun Əhli-beytinə salavat göndərərək belə de:

«Allahummə səlli əla Muhəmmədin əbdikə və rəsulikə və nəbiyyikə və əminikə və həbibikə və nəciyyikə və xiyərətikə min xəlqik.

Allahummə əqlibni muflihən, muncihən, mustəcabən li biəfzəli ma yərciu bihi əhədun min vəfdikə minəl-məğfirəti vəl-bərəkəti vər-rizvani vəl-afiyəh.

Allahummə in əməttəni fəğfirli və in əhyəytəni fərzuqnihi min qabil. Allahummə la təcˈəlhu axirəl-əhdi min bəytik.

Allahummə inni əbdukə vəbnu əbdikə vəbnu əmətik, həməltəni əla dəvvabikə və səyyərtəni fi biladikə hətta əqdəmtəni hərəməkə və əmnəkə və qəd kanə fi husni zənni bikə ən təğfirə li zunubi fəin kuntə qəd ğəfərtə li zunubi, fəzdədənni rizən və qərribni iləykə zulfa, la tubamdni və in kuntə ləm təğfir li fə minəl-anə fəğfirli qəblən tənəya ən bəytikə dari. Fəhaza əvanun-sirafi-inkuntə əzintə li ğəyrə rağibin ənkə və la ən bəytikə və la mustəbdilin bikə və la bih. Allahumməhfəzni min bəyni yədəyyə və min xəlfi və ən yəmini və ən şimali hətta tubəlliğəni əhli, fə iza bəlləğtəni əhli fəkfini məˈunətə ibadikə və iyali fəinnəkə və muyuzalikə min xəlqikə və minni.»

Daha sonra Zəmzəm quyusuna yaxınlaşaraq onun suyundan içib çölə çıx və belə de:

«Aibunə taibunə abidunə li-rəbbina hamidunə, ila rəbbina rağibunə, iləllahi raciunə inşaallah.»

Həqiqətən imam Sadiq (ə) Allah evi ilə vidalaşıb, Məscidul-həramdan xaric olmaq istədikdə, məscidin qapısı kənarında uzun müddət səcdədə qaldı və sonra ayağa qalxıb xaric oldu.[780]

728. İbrahim ibni Əbi-məhmud nəql etmişdir ki, imam Kazim əleyhissalamı Allah evi ilə vidalaşan halda gördüm. O həzrət (ə) məsciddən xaric olmaq istədikdə, səcdəyə düşdü və daha sonra ayağa qalxıb üzünü Kəˈbəyə tutaraq belə dedi:

«Allahummə inni ənqəlibu əla ənla ilahə illa əntə.»[781]

729. Əlliyyibni Məhziyar nəql etmişdir ki, 215-ci Hicri-qəməri ilində imam Cavad (ə)-ı gördüm ki, günəş çıxdıqdan sonra Allah evi ilə vidalaşdı. O həzrət (ə) Allah evini yeddi dəfə təvaf edib hər dövrədə rükni-yəmaniyəyə əl çəkir yeddinci dövrdə isə rükni-yəmani və qara daşa əl çəkərək əlini üzünü çəkirdi. Sonra İbrahim (ə) məqamının yanına gəlib onun arxasında iki rəkət namaz qıldı. Bundan sonra Kəˈbəni arxası — olan Mültəzəmə gəlib, paltarını kənara çəkib özünü Allah evinə yapışdırdı. O həzrət (ə) uzun müddət dua edərək bu halda qaldıqdan sonra «Hənnatin» qapısından xaric oldu.

Həmçinin o həzrəti (ə) 217-ci Hicri ilində gördüm ki, gecə çağı Allah evi ilə vidalaşır və hər təvaf dövründə rükni-yəmani və qara daşa əl çəkirdi. Yeddinci dövrədə isə Kəˈbə arxasında, rükni-yəmaninin yaxınlığı və Müstətil daşının üstündə özünü Allah evinə yapışdırdı. Sonra qara daşa tərəf gedib, onu öpərək əlini ona çəkdi. Daha sonra İbrahim (ə) məqamına tərəf gedərək

onun arxasında namaz qıldıqdan sonra getdi və geri qayıtmadı. O həzrət (ə) Mültəzəm kənarında durduğu müddətdə səhabələrdən bə᾽zisi yeddi dövrə, bə᾽zisi isə səkkiz dövrə təvaf etdilər.[782]

2. Mədinəyə getmək:

730. Əhməd ibni Əbdillah atasından nəql etmişdir ki, Həzrət imam Baqir əleyhissalamdan soruşdum: Ziyarəti Mədinədən başlayım, yoxsa Məkkədə? Həzrət (ə) buyurdu: Məkkədən başlayıb Mədinədə qurtar ki, bu daha üstündür.[783]

731. Həzrət imam Baqir əleyhissalam buyurub: Ziyarətinizi Məkkədən başlayın və bizi ziyarət etməklə sona çatdırın.[784]

3. Tez qayıtmaq:

732. Həzrət Peyğəmbər (s) buyurub: Sizlərdən biri öz həcc əməlini əncam verdikdə, ailəsinə tərəf tez qayıtsın. Çünki bu iş onun savabını çoxaldır.[785]

733. Həzrət Peyğəmbər (s) Məkkədən qalmağın müddəti barədə buyurub: Camaat getdikdən sonra mühacir üçün üç gündür.[786]

734. Həzrət Peyğəmbər (s) buyurub: Mühacir (başqa şəhərdən həccə gələn şəxs) öz həcc əməlini əncam verdikdən sonra orada üç gün qalır.[787]

735. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həcc əməllərini qurtardıqdan sonra evə qayıt. Çünki bu iş səni həccə qarşı daha çox şövqləndirir.[788]

4. Sədəqə vermək:

736 Həzrət imam Sadiq əleyhissalam buyurub: Həcci əncam verən şəxs öz əməllərini qurtarıb xaric olmaq istədikdə həcc əsnasında bədənini qaşımaq (ağcaqanadın) düşməsi də bu kimi işlərin vasitəsilə boynuna gələn günahın kəffarəsi olsun deyə, bir dirhəmlik xurma alıb onu sədəqə verməsi layiqlidir.[789]

737 Həzrət imam Sadiq əleyhissalam buyurub: Məkkəyə daxil olarkən bir dirhəmlik xurma alıb onu ömrə əməlinin ehram halında səndən baş vermiş günahlar üçün sədəqə ver. Həmçinin öz həcc əməlini sona çatdırdıqdan sonra və Mədinəyə daxil olarkən bir dirhəmlik xurma alıb, onları sədəqə ver.[790]

738. Həzrət imam Sadiq əleyhissalam buyurub: Kişi və qadın üçün Məkkədən xaric olmazdan qabaq ehram halı və Allah hərəmində olarkən onlardan baş vermiş günahlara görə bir dirhəmlik xurma alıb sədəqə verməsi müstəhəbdir.[791]

5. Sovqat:

739. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həcc sovqatı həccdən sayılır.[792]

740. Həzrət imam Sadiq əleyhissalam buyurub: Sovqat həcc səfərinin xərcindəndir.[793]

## *HƏCCDƏN QAYITDIQDAN SONRA ƏNCAM VERİLMƏSİ LAYİQLİ OLAN İŞLƏR*

1. Günahları tərk etmək:

741. . Həzrət Peyğəmbər (s) buyurub: Həccin qəbul olunma səbəbi budur ki, bəndə əvvəllər əncam verdiyi günahları tərk etsin.[794]

742. . Həzrət Peyğəmbər (s) buyurub: Həccin qəbul olunma əlamətlərindən biri də hacının əncam verdiyi günahlardan qayıtmasından ibarətdir. Bu da həcc əməlinin qəbul olunma əlamətidir. Amma həccdən qayıtdıqdan sonra əvvəlki kimi zinakarlıq, ya xəyanət və ya günah çirkabında batmış olarsa, onun həcci özünə qaytarılar (və qəbul olunmaz).[795]

2. həccdən gəlmiş hacı ilə görüşmək:

743. . Həzrət Peyğəmbər (s) buyurub: Həccdən qayıtmış hacı ilə görüşdükdə ona salam verib, onunla qucaqlaş və evinə daxil olmazdan qabaq sənin üçün Allahdan bağışlanmağı diləməsini ondan istə, çünki onun özü bağışlanmışdır.[796]

744. Həzrət imam Əli əleyhissalam buyurub: Din qardaşın Məkkədən qayıtdıqda onun iki gözünün arası və qara daşı öpdüyü ağzını öp ki, Həzrət Peyğəmbər (s) də qara daşı öpmüşdür.

Həmçinin Allah evinə baxdığı gözünü, alnını və üzünü də öp. Hacıya təhniyət demək istədikdə belə deyin: Allah ibadətlərini qəbul və səy`inə rəhm etsin. Çəkdiyin xərcinin əvəzini verib, bu həcci sənin üçün evinin son görüşü qərar verməsin.[797]

745. Əbdül-vəhhab ibni Səbah atasından nəql etmişdir ki, Həzrət imam Sadiq əleyhissalamın xidmətçisi Məkkədən gələn Əhdəb adlı bir şəxs ilə görüşərək ona dedi: Allaha şükr olsun ki, yolunu asan və yol göstərənini hidayət edib sənin salamat, həmçinin həcc əməlin sona yetmiş və vüstətə kömək edən halda qaytardı. Allah-taala bu həcci səndən qəbul edib çəkdiyin xərclərin əvəzini versin və həcc əməlini qəbul olunmuş və günahlarını paklaşdıran əməllərdən qərar versin.

Bu söz imam Sadiq (ı)-a çatdıqda ona buyurdu: Nə demisən? Əhdəb o duanı bir daha təkrar etdi və həzrət (ə) ondan soruşdu: Bu duanı sənən kim öyrədib? Dedi: Həzrət Kazim (ə) onu mənə öyrətmişdir. İmam Sadiq (ə) ona buyurdu: Yaxşı bir şeyi öyrətmişir. Həccdən qayıdan din qardaşlarından birini görüdkdə ona bu cür dua et. Həqiqətən hidayət yalnız bizim vasitəmizlə hidayətdir. Onlarla görüşdükdə isə özlərinin deyən duanı de.[798]

746. Həzrət imam Səccad əleyhissalam buyurub: Həcc və ömrədən qayıdan şəxslərə günaha batmazdan qabaq salam verib görüşün.[799]

747. Həzrət imam Səccad əleyhissalam buyurub: Ey həccə getməyənlər! Həccdən qayıdan şəxsin gəlişini müjdə verib onlarla görüşün (və onlara hörmət edin) ki, bu işi sizə lazımdır və belə olan halda onların savabı ilə şərik olacaqsınız.[800]

748. Həzrət imam Baqir əleyhissalam buyurub: Həcc və ömrə əməllərini əncam verənlərə hörmət edin. Çünki bu iş sizə lazımdır.[801]

749. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həccdən gəlmiş şəxsin görüşünə gedib onunla görüşən şəxs, sanki qara daşa əl vurmuşdur.[802]

750. Həzrət imam Sadiq əleyhissalam buyurub: Həccdən qayıtmış və toz içində olan hacı ilə qucaqlaşan şəxs sanki qara daşa əl vurmuşdur. [803]

# BEŞİNCİ FƏSİL

## *NADİR MÖVZULAR*

### *MÜŞRİKLƏRDƏN BƏRAƏT ETMƏK*

Qurʾan:

**«Bu ayələr Allah və Onun peyğəmbəri tərəfindən əhd bağladığınız müşriklərə qarşı bəraət (və nifrətdir). Beləliklə (ey müşriklər!) Dörd ay müddətində yer (üzərində) asayişlə gəzin və bilin ki, siz Allahı acizliyə çəkməyə qadir deyilsiniz. Kafirləri rüsvay edən isə bu Allahdır. Və (bu ayələr) Allah və Onun peyğəmbəri tərəfindən böyük həcc günündə xalqa müşriklərin qarşısında heç bir (məsʾuliyyətə malik deyillər). Amma (küfr və şirkdən) tövbə etsələr, o sizin üçün daha yaxşıdır. Əgər üz döndərsəniz, bilin ki, siz Allahı aciz edə bilməyəcəksiniz. Və küfr edənlərə dərdli əzabdan müjdə ver.»** [804]

**«Şübhəsiz sizin üçün İbrahim və onunla olanların davranışında gözəl ülgü vardır. O vaxt öz qövmünə dedilər: Biz sizdən və Allahın yerinə pərəstiş etdiyiniz (bütlərdən) nifrət edirik. Sizə küfr edirik və yalnız (yeganə) Allaha iman gətirənədək bizlə sizin aranızda əbədi düşmənçilik və kin yaranmışdır. İbrahimin sözündən başqa ki, öz (atalığına) dedi: Allah qarşısında sənin üçün bir şeyə ixtiyarımın olmadığına baxmayaraq, hökmən sənin üçün (Allahdan) bağışlanmaq istəyəcəyəm. Pərvədigara! Biz Sənə arxalanıb, Sənə tərəf qayıtdıq və qayıdış yeri Sənə tərəfdir.»** [805]

Hədis:

**751.** Həzrət imam Sadiq əleyhissalamdan nəql olunuşdur ki, buyurub: Həzrət Peyğəmbər (s) Əbu Bəkri «bəraət» ayələrini xalq üçün oxunsun deyə həcc mərasiminə göndərdikdə Cəbrail (ə) nazil olaraq dedi: Bu ayələri Sənin tərəfindən Əli (ə)-dan başqa heç kim çatdırmasın. Həzrət Peyğəmbər (s) da həzrət Əlini çağırıb «Əzba» dəvəsinə minərək özünü Əbu Bəkrə çatdırmaq və bəraət ayələrini ondan alaraq Məkkə əhalisi üçün şəxsən özünün oxumasını göstəriş verdi. Əbu Bəkr dedi: (Həzrət Peyğəmbərin (s) mənə acığı tutmuşdurmu?) həzrət Əli (ə) buyurdu: Xeyr, əksinə ona nazil olmuşdur ki, bu bəraəti onun özündən olan şəxsdən başqa heç kəs çatdırmasın. Həzrət Əli (ə) Məkkəyə çatdıqda, böyük həcc mərasiminin qurban bayramının günortadan sonrası idi ki, xalqın qarşısında durub buyurdu: Mən Allah elçisinin sizə tərəf göndərdiyi nümayəndəsiyəm. Daha sonra bəraət ayələrini onlara oxudu: Bu ayələr Allah və Onun peyğəmbəri tərəfindən əhd bağladığınız müşriklərə qarşı bəraət və nifrətdir. Beləliklə dörd ay ərzində yer üzərində asayişlə gəzin. Belə ki, Zi-hiccə ayından iyirmi gün, Məhərrəm, Səfər və Rəbiyul-əvvəl ayları və habelə Rəbius-sani ayından on gün müddətində sizə möhlət verilmişdir. Daha sonra buyurdu: Nə üryan qadın və kişi nə də

müşrik şəxslərin Kə'bəni təvaf etməyə haqqı yoxdur. Amma həzrət Peyğəmbərlə əhd və müqaviləsi olanlar bu hökmdən müstəsnadırlar. Onlar Məhəmməd ibni Müslümün nəql etdiyi rəvayətdə deyilir: Əbu Bəkr dedi: Ya Əli! Peyğəmbərdən ayrıldıqdan sonra mənim haqqımda bir ayə nazil olmuşdurmu? Həzrət Əli (ə) buyurdu: Xeyr, lakin Allah-taala bu xəbərin Məhəmməd tərəfindən olan şəxsdən başqa vasitəsilə çatdırılmasını istəməmişdir.

O həzrət (s) daha sonra həcc mərasiminə çataraq Ərəfə, Məş'ər və qurban günündə cəmərələr kənarı və habelə təşriq günlərində bəraət ayələri və qətnamələrini Allah və Onun peyğəmbəri tərəfindən xalqa çatdırır və uca səslə «Bəraətun minəllahi və rəsulihi...» ayələrini oxuyur, həmçinin — üryan şəxsin Kə'bəni təvaf etməyə haqqı yoxdur kimi qətnamələrini onlara çatdırırdı.[806]

752. Əbus-səhva Bəkri nəql etmişdir ki, həzrət Əliyyibni Əbu Talib (ə)-dan böyük həcc barədə soruşduqda buyurdu: Həzrət Peyğəmbər (s) həcci xallq üçün dirçəltsin deyə Əbu Bəkri Məkkəyə göndərdi və məni də bəraət (Tövbə) surəsinin qırx ayəsi ilə Məkkəyə göndərdi. Ərəfəyə çatdıqda ərəfə günündə xalq üçün xütbə oxudu və xütbəsi sona yetdikdən sonra üzünü mənə tutub dedi: Ya Əli Peyğəmbərin (s) sözünü xalqa çatdır.

Mən ayağa qalxıb bəraət surəsinin qırx ayəsini onlara oxudum və daha sonra çölə çıxıb minaya çatdıq. Cəmərəyə daş vurub dəvəmi qurban kəsdim və başımı qırxdım.

Məş'ər əhalisinin Əbu Bəkrin xütbə oxuyarkən ərəfə günündə olmadığını bilib, onların xeymələrinə gedir və bəraət ayələrini onlar üçün oxuyurdum.[807]

## *MÜŞRİKLƏRDƏN BƏRAƏT MƏRASİMİ BARƏDƏ TƏDQİQAT*

İmam Xumeyni (r.ə.) nəzərinə əsasən, həcc əməlinin vacib işlərində biri də müşriklərdən bəraət (nifrət) etməkdir. Bu nəzərin əsasları və onun icra olunmasının bu günkü dünyada islam dini hədəflərini həyata keçirməkdə olan rolu ilə tanışlıq üçün bir neçə mövzunu araşdırmağa ehtiyac duyulur:

1. Şirk və müşrikin mə'nası:

Şirk, tohidin ziddi olub əsassız və mövhum qüdrətlərə əqidə bağlamaq mə'nasını daşıyır. Müvəhhid, həqiqət və yeganəpərəst, müşrik isə mövhumpərəst və xəyali qüdrətlərə tabe olandır. Müşriklərin pərəstiş etdiyi mövhum qüdrətlər üç hissəyə bölünür: Başqa sözlə desək, şirk və müşriklərin dünya görüşündə üç növ büt vardır ki, onlar nəfs, daş və taxta, həmçinin tağut qüdrətlərinin bütlərində ibarətdir.

Mövhum və puç qüdrət, Qur'ani-kərimin buyurduğuna əsasə, bə'zi vaxtlar insanın «əmmarə» (pisliklərə də'vət edən) nəfsidir ki, buyurur: «Əfərə'əytə

mənit-təxəzə ilahəhu həvahu — yəʾni öz nəfsini özü üçün məʾbud tutan şəxsi gördünmü?»

Bəʾzi vaxtlar Lat və Hubəl kimi islam peyğəmbərindən qabaq Ərəbistan yarımadasında düzəlib pərəstiş olan bütlər daş və taxtadandır. Bəʾzi vaxtlar isə büt, qeyri-qanuni və tağut hakimiyyətlərindən ibarətdir. İmam Xomeynidə (rə) istismarçı qüdrətləri əsrin yeni bütləri adlandırmışdır.

Müvəhhid şəxs, həqiqətpərəst və yeganə pərəstdir. O nə öz nəfsi, nə bütlər, nə də tağuta pərəstiş etmir. Müvəhhid şəxs yalnız Allahı qüdrət sahibi bildiyi üçün yalnız ona pərəstiş və itaət edir. Müvəhhid şəxs yalnız Allahı xeyir və ziyanın maliki bildiyindən, yalnız ondan kömək diləyir və ondan qorxur. O, Allahdan başqa heç bir qüdrətə güvənməz və Allahdan başqa heç bir qüdrətdən qorxmaz.

Mövhumpərəst müşrik isə xəyali qüdrətlərə tabedir. Belə ki, bəʾzi vaxtlar öz nəfsi, bəʾzi vaxtlar öz əli ilə düzəltdiyi bütləri, bəʾzi vaxtlar da dünyanın tağutlarına və bəʾzi vaxtlar isə onların hər üçünə pərəstiş edir.

Bu gün təkallahlıq cəmiyyətlərini təhdid edən ən böyük təhlükə şirk sözünün üçüncü məʾnasında olan əməli şirk və ya dünyanın yeni bütlər və tağutlarına pərəstiş etməkdən ibarətdir. Müşriklərdən bəraət (və nifrət) mərasiminin bu günkü dünyada fəlsəfəsi müsəlmanların istiqlalı, izzəti və iqtidarını istismar edən tağut qüdrətlər ilə mübarizə etmək deməkdir. 22 59 641 (051-kod) telefon nömrəsi Alim.

2. İlahi dinlər və müşriklərdən bəraət:

Həzrət İbrahim peyğəmbər (ə) şirk və müşriklərdən açıq şəkildə bəraət edən ilk ilahi peyğəmbər olmuşdur ki, elə buna görə də Qurʾani-kərim müsəlmanların o həzrətdən ülgü almasına göstəriş vermişdir.

«Qəd kanət ləkum usvətun həsənətun fi İbrahimə vəl-ləzinə məʾəhu iz qalu liqovmihim inna burəaun minkum və mimma təʾbudunə min dunillah...»

«Şübhəsiz sizin üçün İbrahim və onunla olanların davranışında gözəl ülgü vardır. O vaxt öz qövmünə dedilər: Biz sizdən və Allhın yerinə pərəstiş etdiyiniz (bütlərdən) nifrət edirik...»

Elə buna görə də islam ümməti müşriklərə öz nifrətlərini bildirmək üçün tarixin o böyük ülgüsünə iqtida etmişdir. Lakin Qurʾani-kərimə diqqətlə nəzrər saldıqda bütün ilahi peyğəmbərin xalqı Allah pərəstişinə dəʾvət etməklə yanaşı tağut qüdrətlər və hər növ şirk və müşriklərdən çəkindirməyə məʾmur olduğunu müşahidə edirik. Qurʾani-kərimdə buyurulur:

«Və ləqəd bəʾəsna fi kulli ummətin rəsulən əniʾbudullahə vəctənibut-tağut»—(Yəʾni; Şübhəsiz hər bir ümmət arasından bir peyğəmbər göndərdik ki, xalqı Allah pərəstişinə çağırıb, tağutdan çəkindirsinlər).

Tağut yalnız cahiliyyət əsrinin əldə düzəldilmiş bütləri deyil, əksinə onun daha aydın simvolu, insanları ilahi peyğəmbərin məqsədi olmayan yollara çəkən şirk qüdrətləridir.

İmam Sadiq (ə) Zümər surəsinin 17-ci ayəsində zikr olunmuş «tağut» sözünün izahında buyurmuşdur:

«Mən ətaə cəbbarən, fəqəd əbədəhu»—(Yə`ni; Hər kəs zalım hakimdən itaət etsə, şübhəsiz ona pərəsitiş etmişdir).

Daha mühüm məsələ, islam tarixində tağut, şirk və müşrikin aydın misdaqını gizlətmək və beləliklə də müsəlman cəmiyyətlərinin onlardan deyil, məhz ilk cahiliyyət dövrünün (taxta və daşlardan düzəldilmiş) bütlərinə nifrət etməsi hiyləsidir.

Həzrət imam Sadiq (ə) öz ərində bu hiylənin üzərindən pərdəni götürərək aşkar şəkildə buyurmuşdur: «Əməvilər iman tə`limini azad qoymuş, amma şirk tə`limini qadağan etmişlər ki, xalqı şirkə doğru çəkdikdə, onu tanımasınlar».

3. Müşriklərdən bəraət etməyin zaman və məkanı:

Şübhəsiz müşriklərdən bəraət etməyin zaman və məkan baxımından heç bir məhdudiyyəti yoxdur və bütün müsəlmanlara lazım olan hər hansı bir zaman və məkanda fərdi və ictimai tərzdə müşriklərə öz nifrətlərini bildirməsi vacibdir.

Əlbəttə müsəlmanların vəliyyi-əmri (rəhbəri) bu vacib əməl üçün müəyyən bir zaman və ya məkan tə`yin etdikdə, onun göstərişlərindən itaət etmək (hamıya) vacib olur.

Lakin əsaslı sual budur ki, görəsən müsəlmanların ümumi şəkildə müşriklərdən bəraət (və nifrət) etməsi hansı bir zaman və məkanda daha çox faydalı və tə`siredicidir?

Şübhəsiz Allahın tovhid evi olan (Məscidul-həram) və həcc mövsümü müsəlmanların şirk və müşrikdən bəraət etməsi üçün ən dəyərli və münasib sayılan məkan və zamandır.

İmam Xomeyni (rə) bu barədə buyurur:

Dildə və əməldə hər növ təcavüzkarlıq, zülm, istismar, qulçuluq və pisliyi kənara qoyub, (fitrət) əhdini təzələmək, həmçinin müxtəlif mə`bud bütləri və ərbabların sındırılması və habelə islam peyğəmbərinin (s) böyük həcc mərasimində etdiyi böyük siyasi hərəkatın dirçəlib, təkrar olunması üçün hansı bir ev, Kə`bə evi, əminamanlıq, paklıq və xalq evindən başqa bu işə layiqlidir? Çünki həzrət peyğəmbərin (s) sünnəsi və müşriklərdən bəraət etmək heç də köhnəlik bir iş deyil və bu iş yalnız həcc mövsümü və mərasimində məhdudlaşmamışdır. Müsəlmanlar bütün aləmə Allaha qarşı məhəbbət və eşq, Allaş düşmənlərinə qarşı isə əməli şəkildə nifrət və acıqla doldurmalıdırlar...

Hətta bə`zi cahillər deyə bilərlər ki, Allah evi və müqəddəs Kə`bənin şüar, mitinq və bəraət mərasimi ilə sındırılmamalıdır. Həcc, sıraya düzülüb vuruşmaq yeri deyil, əksinə ibadət və zikr etmək məkanıdır.

Həmçinin bə`zi (ərəb) alimlər belə iddia edə bilərlər ki;—mübarizə aparıb, bəraət etmək və vuruşmaq dünya əhli və dünya sevənlərin işidir. Həcc mövsümündə isə siyasi məsələlərə qoşulmaq alimlər və din xadimlərinə yaraşmaz!

Bu isə düşmənlərin yeritdiyi gizli siyasətləri və planlarından sayılır. Hər halda həccdə müşriklərdən bəraət etmək, mübarizə əhdini təzələyib,küfr, şirk və bütpərəstliklərlə mübarizəni davam etdirmək üçün mücahidlərin təşəkkül imtahanıdır və heç də şüarla yekunlaşmır. əksinə mübarizə bəyannaməsini aşkar edib, Allah qoşununun İblis və İblis sifətlər qoşunu qarşısında hazırlanmasından ibarətdir. Müşriklərdən bəraət mərasimi «tovhid»in ilk əsaslarından sayılır. Müsəlmanlar xalq və Allah evində Allah düşmənlərinə öz nifrətlərini bildirməsə, görəsən bunu harada izhar etməldirlər?

Əgər hərəm, Kə᾽bə, məscid və mehrab, səngər, ilahi əsgərlərin himayə, peyğəmbərlərin isə hörmətini müdafiə edən deyildirsə, görəsən onların pənah gətirdiyi yer haradır?

Bir sözlə, bəraət (və nifrət) bildirmək mübarizənin ilk mərhələsi olub, onun sair mərhələlərini davam etdirmək isə bizim vəzifəmiz sayılır. Həmçinin bu iş hər bir əsrdə özünə uyğun yollar və proqramları tələb edir. Biz yaşadığımız bu əsrdə (və başqa sözlə) tovhidin varlığını təhlükəyə salaraq, millətlərin şəhvətlərinin oyuncağına çevrilmiş küfr və şirk başçıları ilə neçə mübarizə aparacağımızı fikirləşməliyik. Görəsən evlərdə əyləşərək səhv təhlillər, insanın məqamına hörmətsizlik, həmçinin müsəlmanlara çarəsizlik və bacarıqsızlıq ruhiyyəsini verməklə, əməli şəkildə şeytandan əmələ gəlmişlərlə keçinib, cəmiyyəti son arzu sayılan ixlasa çatmaqdan saxlamaq olarmı? Görəsən peyğəmbərlərin büt və bütpərəstliklərlə mübarizəsini cansız daş və taxtalara aid edib, İbrahim (ə) kimi bir peyğəmbəri bütləri sındırmaqda qabaqcıl bir şəxs kimi bilib, amma zalımlarla mübarizədə meydanı tərk edən kimi qələmə vermək olarmı?

Bir halda ki, həzrət İbrahimin (ə) bütsındırmaq, Nəmrudun dəstəsi və habelə ay, günəş və ulduzlara pərəstiş edənlərlə vuruşub mübarizə aparması böyük bir hicrət üçün müqəddimə, o hicrət, çətinliklərə dözmək, otsuz bir vadidə sakin olmaq, ev tikmək və İsmayılı qurban vermək isə Kə᾽bənin ilk və sonuncu banilərinin sözünü təkrar edən və öz əbədi peyğəmbərliyini —«inni bəriun mimma tuşrikun» (Mən sizin şirklərinizdən nifrət edirəm)—sözü ilə çatdıran bir peyğəmbərin gəlişi üçün zəminə yaratmaq olmuşdur.

Əgər bundan başqa bir təhlil və təfsiri versək, müasir zamanda heç bir büt və bütpərəstin olmaması ilə üzləşəcəyik.

Görəsən hansı ağıl sahibinin bütpərəstliyin özünəməxsus olan yeni tərzlər, hiylələr və formalarda olmaından xəbəri yoxdur?

Həmçinin görəsən hansı ağıl sahibi islam ölkələri, habelə müsəlmanlar və (ərəb)-ın qanı və namusuna əl atmış qara ev kimi bütxanalardan xəbərsizdir?

## *ADƏM, NUH, XIZIR, SALEH, İBRAHİM, MUSA, SÜLEYMAN, YUNUS VƏ İSA ƏLEYHİSSALAM PEYĞƏMBƏRLƏRİNİN HƏCCƏ GETMƏSİ*

753. Zürarə nəql etmişdir ki, imam Baqir (ə)-dan soruşuldu: İslam peyğəmbərindən (s) qabaq Allah evi ziyarət olunurdumu? Həzrət (ə) buyurdu: «Bəli, (onlar) xalqın çoxunun həcci əncam verməsini bilmirlər və biz sizə xəbər veririk ki, Adəm, Nuh və Süleyman cinlər, insanlar və quşlarla birlikdə Allah evinin həccini əncam vermişlər. Musa (ə) qırmızı bir dəvəyə minərək ləbbəyk, ləbbəyk deyən halda həccə getmişdir.

Həqiqətən Allah-taalanın buyuduğu kimi;—«Xalq üçün ilk dəfə tikilmiş ev, Məkkədir ki, aləmlər üçün bərəkətli və hidayətedicidir».[808]

754. Həzrət imam Sadiq (ə) buyurub: «Adəm (ə) Minadan köçdükdə, mələklər onu qarşılayaraq dedilər: Ey Adəm! Həccin qəbul olsun. Biz səndən iki min il qabaq bu evi ziyarət (həcc) etmişik».[809]

755. İmam Rza (ə) nəql etmişdir ki, bir kişi Əmirəl-mö᾿minin (ə)-dan soruşdu: Adəm (ə) neçə dəfə həccə getmişdir? Həzrət (ə) buyurdu: «O, yetmiş dəfə piyada həccə getmişdir. İlk dəfə həccə gedəndə ona su yerini göstərsin deyə Behiştdən onunla birgə xaric olmuş bir şahin quşu ilə həccə getmişdir. Həmçinin ov edən şahin quşu və qaranquş ətindən yeməkdən nəhy olunmuşdu».

Soruşdu: Göy əhlindən həccə gedən ilk şəxs kim olmuşdur?

Həzrət (ə) buyurdu: «Cəbrail (ə)».[810]

756. İbni Abbas nəql etmişdir ki, həzrət Peyğəmbər (s) həcc vaxtı Usfan vadisindən keçdikdə buyurdu: «Ey Əbu Bəkr! Bu hansı vadidir?» Dedi: Bura Usfan vadisidir. Həzrət (s) buyurdu: «Hud və Saleh də cilovu xurma lifindən olan qırmızı dəvələrə minmiş və əba geyinmiş halda bu vadidən keçimş və ləbbəyk deyərək Azad evin (Kə᾿bənin) həccinə gedirdilər».[811]

757. Həzrət imam Baqir (ə) buyurub: «İbrahim (ə) xalq arasında onları həccə çağırıb dedi: Ey camaat! Mən İbrahim, Allah dostuyam. Allah bu evin həcc əməlini əncam verməyinizi sizə fərman vermişdir. Beləliklə bu evin həccini əncam verin».

Qiyamət gününədək həccə gələn hər bir şəxs o həzrətə (ə) cavab vermişdir. O həzrətə (ə) cavab verən ilk şəxs isə Yəmən əhalisindən idi. İbrahim (ə)

807.

808.

809.

810.

ailəsi və övladları ilə həcc əməlindən əncam verdilər».[812]

ailəsi və övladları ilə həcc əməlindən əncam verdilər».[812]

758. Həzrət imam Rza (ə) buyurub: «Xızır (ə) həyat suyundan içib, diri qalmışdır və Qiyamət günündə şeypur üfürülənədək ölməyəcəkdir. O bizim yanımıza gələrək salam verir və bizdə onun səsini eşidirik. Lakin onun özünü görmürük. Həqiqətən O, yad olan yerdə hazır olur. Beləliklə onu yad etdikdə ona salam verin. Həqiqətən O, hər il həcc mövsümündə hazır olaraq bütün ibadətləri əncam verir və Ərəfatda dayanaraq mö`minlərin duasına amin deyir.

Allah-taala tezliklə onun vasitəsi ilə bizim qaimimizin (Həzrət Məhdinin) qeyb olduğu zamanda vəhşətini ünsiyyətə çeviriəcək, onun təkliyini onun vasitəsi ilə bitişdirəcəkdir».[813]

759. Həzrət imam Baqir (ə) buyurub: «Musəbni İmran (ə) Bəni İsraildən olan yetmiş peyğəmbərlə birlikdə həcc əməlini əncam verdi ki, dəvələrinin cilovları xurma lifindən idi. Onlar ləbbəykə əbdukəbnu əbdik».[814]

760. Həzrət imam Baqir (ə) buyurub: «Süleyman (ə) cinlər, insanlar, quşlar və küləklərlə birlikdə Allah evinin həccini əncam verib, Kə`bəyə bir növ ağ və nazik parça örtdü».[815]

761. İbni Abbas nəql etmişdir ki, həzrət Peyğəmbərlə (s) birlikdə Məkkə və Mədinə arasında idik ki, bir vadidən keçdikdə soruşdu: «Bura hansı vadidir?» Dedilər: Bura "Əzrəq" vadisidir. Həzrət (s) buyurdu: «Sanki Musanı müşahidə edirəm ki, iki barmağını qulaqlarına qoyaraq Allaha "ləbbəyk" nalə və fəryadı deyərək bu vadidən keçir».

Sonra bir təpəyə çatdıqda, soruşdu: «Bura hansı təpədir? Dedilər: Bura "Hərşa" və ya "Lift" təpəsidir. Həzrət (s) buyurdu: «Sanki Yunusu müşahidə edirəm ki, qırmızı dəvəyə minmiş, yundan (olan paltar geyinmiş) və dəvəsinin cilovu xurma lifindən olaraq "ləbbəyk" deyən halda bu vadidən keçir».[816]

762. Həzrət imam Sadiq (ə) buyurub: «Yunus ibni Mətta (ə) "ləbbəykə kəşşafəl-kurəbil-izami ləbbəyk" deyərək, "Rəvha" kənarlarından keçmişdir. Məryəm oğlu İsa (ə)-da "ləbbəykə əbdukəbnu əmətikə ləbbəyk" deyən halda "Rəvha" kənarında keçmişdir. Həmçinin həzrət Məhəmməd (s) "ləbbəykə zəl-məarici ləbbəyk" (sözlərini) deyən halda, "Rəvha" kənarından keçmişdir».[817]

## *İSLAM PEYĞƏMBƏRİNİN HƏCCİ*

763. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə) buyurdu: «Həzrət Peyğəmbər (s) Mədinədə on il qalaraq həccə getmədi. Daha sonra Allah-taala bu ayəni nazil etdi: "Xalq arasında, həcci e`lan et (və beləliklə də) xalq piyada və hər bir arıq miniyə minən halda hər bir uzaq yoldan həccə gəlsinlər (Həcc\27)." O həzrət göstəriş verdi ki, Peyğəmbərin (s) bu il həccə getməsini uca səslə xalqa çatdırsınlar. Beləliklə də Mədinə əhalisi, dağ və səhralarda yaşayanlar bundan xəbər tutub, bir yerə toplandılar. Həzrət

Peyğəmbərdə (s) həcc əməlini əncam verdikdə onlar tabe oldular və bir işi əncam verdikdə, onlar da o işi əncam verməyə hazır idilər.

Həzrət Peyğəmbər (s) Zi-qə`də ayından dörd gün qalmış xaric olub, "Zul-hüləyfə"yə çatdıqda zöhr çağı oldu. O həzrət (s) qüsl edərək xaric olub bir ağacın yanında yerləşən məscidə gəldi və orada Zöhr namazını qılaraq "ifrad" həcci üçün niyyət etdi.

Yola düşüb "Bəyda"ya çatdıqda, camaat birinci məylin yaxınlığında onun üçün iki sıraya düzüldülər.

O həzrət (s) "ifrad" həccinin ləbbəykini deyib, qurbanlıq üçün özü ilə altımış altı və ya altımış dörd dəvə gətirərək Zi-hiccə ayının dördüncü gününün axırlarında Məkkəyə çatdı. Məkkədə Kə`bə ətrafında yeddi dəfə təvaf edərək, İbrahim (ə) məqamının arxasında iki rəkət namaz qıldı.

Daha sonra Qara daşa tərəf qayıdıb ona əl çəkdi. Təvafının əvvəlində də ona əl çəkmişdi. O həzrət (s) bundan sonra buyurdu: «Səfa və Mərvə Allah nişanələrindəndir. Allah başlayan yerdən başlayın».

Müsəlmanlar Səfa və Mərvə arasında sə`y etməyi müşriklərin qondardığı bir iş kimi güman etdikləri üçün, Allah-taala bu ayəni nazil etdi: «Səfa və Mərvə Allah nişanələrindəndir. Beləliklə həcc və ya ömrəyə gedən şəxsin onların arasında təvaf (sə`y) etməsinin heç bir eybi yoxdur» (Bəqərə\158).

Daha sonra Səfa dağına gəlib, onun üstünə qalxaraq üzünü Rükni Yəmaniyə tutdu və Bəqərə surəsinin asta tərzdə oxunulan miqdarında Allaha həmd və səna deyərək dua etdi.

Sonra Mərvə dağına gedib, orada da Səfada qaldığı müddət durdu və beləliklə öz sə`yini sona çatdırdı. Mərvənin üstündə olarkən Cəbrail (ə) gələrək, göstəriş verdi ki, özü ilə birlikdə qurbanlıq gətirənlərdən başqa hamının ehramdan xaric olmasına fərman versin.

Bir kişi soruşdu: İbadətlərimi sona çatırmamış halda ehramdan xaric olummu? Həzrət (s) buyurdu: «Bəli».

Həzrət Peyğəmbər (s) sə`yi qurtardıqdan sonra deyib, buyurdu: «Bu Cəbraildir və əli ilə arxa tərəfə işarə etdi ki, özü ilə qurbanlıq gətirməyənləri ehramdan xaric olmasına fərman verməyimi mənə göstəriş verir. Əgər mən də bunu əvvəldən bilsəydim, sizə göstəriş verdiyim kimi əməl edərdim. Lakin mən özümlə birlikdə qurbanlıq gətirmişəm və özü ilə qurbanlıq gətirən şəxsin, özünü qurbanlıq yerinə çatdırmamış ehram halından çıxması rəva deyildir».

Camaatın arasından bir nəfər dedi: Tüklərimizdən su damcılayan halda hacılar adı ilə xaric olaqmı?

Həzrət Peyğəmbər (s) ona buyurdu: «Sən bundan sonra heç vaxt iman gətirməyəcəksən!»

Suraqə ibni Malik Kinani dedi: Ey Allahın elçisi! Dinimizi sanki bu gün xəlq olduğumuz kimi bizə öyrət. Buyurduğun bu hökm bu ilə aiddir, yoxsa gələcək illər üçündür? Həzrət (s) buyurdu: «Bu hökm Qiyamət gününədək

həmişəlikdir». Daha sonra barmaqlarını bir-birinə keçirib, buyurdu: «Qiyamət gününədək ömrəni həcc əməlinə daxil etdim».

Əli (ə) Yəməndən Məkkədə həzrət Peyğəmbərin (s) yanına qayıdaraq ehramdan xaric olan halda həzrət Fatimə (ə)-ın yanına getdikdə gözəl ətir qoxusunu hiss edib, həzrət Fatimə (ə)-ın rəngli paltarlar geyindiyini gördü. Soruşdu: Ey Fatimə! Bu nə işdir? Həzrət Fatimə (ə) buyurdu : «Həzrət Peyğəmbər (s) belə göstəriş vermişdir».

Əli (ə) Fatimə (ə)-a nisbət sual və danlamaq halında həzrət Peyğəmbərin (s) hüzuruna gedərək dedi: «Ey Allahın elçisi! Fatimənin ehramdan xaric olub rəngli paltarlar geyindiyini gördüm». Həzrət Peyğəmbər (s) buyurdu: «Mən camaata belə göstəriş vermişəm. Ya Əli! Sən özün necə ehram bağladın?». Əli (ə) dedi: «Ey Allahın elçisi! Dedim ki, həzrət Peyğəmbər (s) ehram bağladığı kimi ehram bağlayıram».

Həzrət Peyğəmbər (s) buyurdu: «Beləliklə mənim kimi ehram halında qal və sən mənim qurbanlığımda şərikimsən».

İmam Sadiq (ə) buyurdu: « Həzrət Peyğəmbər (s) və onun səhabələri Məkkə şəhərinin bir vadisində enib, amma evlərə daxil olmadılar. Tərviyə (Zi həccə ayının 8-ci) günü çatdıqda, zöhr çağı xalqa qüsl edib, həcc üçün ehram bağlamağlarını göstəriş verdi. Bu isə Allahın öz peyğəmbərinə nazil etdiyi sözüdür: «İbrahim dinindənə itaət edin».

Həzrət Peyğəmbər (s) və səhabələr ehram halında çölə çıxıb, Minaya çatdılar. O həzrət (s), zöhr, əsr, məğrib, işa və sübh namazlarını orada qılıb, günün əvvəlində xalq ilə birlikdə oradan hərəkət etdi.

Qüreyş tayfası əvvəllər Müzdəlifdən köçür və xalqın oradan köçməsinə mane olurdular. Qüreyş tayfası həzrət Peyğəmbərin (s) onların getdiyi yerdən köçməsinə ümüd edən halda, o həzrət (s) gəldi və Allah-taala bu ayəni öz peyğəmbərinə nazil etdi: «Daha sonra xalqın köçdüyü yerdən köçün və Allahdan bağışlanmaq istəyin».(Bəqərə\199) (Yə`ni; İbrahim, İsmayıl, İshaq və onlardan sonra oradan köçənlər».

Qüreyş tayfası peyğəmbərin (s) onların köçdüyü yerdən köçməsinə ümüd bağladıqları üçün həzrət Peyğəmbərin (s) xeyməsinin oradan keçdiyini görən kimi qəlblərinə bir şey daxil oldu. Beləliklə də Ərak müqabilində və Urnə vadisində yerləşən Nəmirə məkanına çatdıqda, həzrət Peyğəmbər (s) orada xeymə qurdu və camaat da öz xeymələrini qurdular.

Zöhr çağı olduqda həzrət Peyğəmbər (s) Qüreyş tayfası ilə birlikdə çölə gələrək qüsl edib, ləbbəyk deməyi saxladı.

Sonra məsciddə durub, xalq üçün moizə, əmr və nəhy etdi. Daha sonra zöhr və əsr namazlarını bir azan və iki iqamə ilə qılıb, dayanacaq yerinə gedərək orada dayandı. Camaat tələsən halda enərək peyğəmbərin (s) dəvəsinin addımları yerinin yaxınlığında dayanmağa başladılar. O həzrət (s) dəvəsini uzağa apardıqda, onlar da o cür etdilər. Daha sonra buyurdu: Ey camaat! Dayanacaq yeri yalnız dəvəmin ayaqlarının yeri deyildir. Bu

məntəqənin (əli ilə dayanacaq yerinə işarə edərkən) hamısı dayanacaq yeridir. Bundan sonra camaat dağılışdılar.

O həzrət (s) Müzdəlifə də belə etdi. Orada dayanıb, günəş batdıqdan sonra köçərək, xalqı sakitliyə də᾿vət etdi. Məş᾿ərul-həram olan Müzdəlifəyə çatdıqda, məğrib və işa namazlarını bir azan və iki iqamə ilə qılaraq orada qaldı. Sübh namazını orada qılıb, gecə çağı Bəni Haşimdən zəifləri daha tez Minaya göndərərək onlara göstəriş verdi ki, günəş çıxanadək əqəbə cəmərəsinə daş vursunlar.

Gün açıldıqda köçüb, Minaya çatıb, əqəbə cəmərəsinə daş vurdu, Əli (ə) isə otuz dörd baş dəvə qurbanlıq (heyvanı) gətirmişdi.

Həzrət Peyğəmbər (s) hər qurbanlıqdan bir miqdar ət götürüb onu bir qabda bişirməyə göstəriş verdi. O həzrət (s) və Əli (ə) ondan yeyib bişirilmiş xörəkdən meyl etdilər. Qəssablara isə heyvanların dəri, qarın və sair yerlərindən verməyib, onları sədəqə verdilər. Həzrət Peyğəmbər (s) başını qırxıb, Allah evini ziyarət edərək Minaya qayıtdı və Təşriq günlərindən üç günədək Minada qaldı. Sonra cəmərələrə daş vurub, köçərək Məkkəyə çatdı.

Ayişə dedi: Ey Allahın elçisi! Həyat yoldaşların həcc və ömrə əməlləri ilə qayıtsınlar, mən isə təkcə həcc ilə qayıdımmı? Həzrət Peyğəmbər (s) o vadidə qalaraq, Əbdür-Rəhman ibni Əbi Bəkri Ayişə ilə «Tən᾿im» ə göndərdi.

Ayişə oradan ehram bağlayıb, Allah evinə gedərək onu təvaf etdi və daha sonra İbrahim (ə) məqamı kənarında iki rəkət namaz qılaraq Səfa və Mərvə arasında sə᾿y etdi.

Bütün bunlardan sonra həzrət Peyğəmbərin (s) yanına qayıtdı. Həzrət Peyğəmbər (s) da o gün oradan köçdü, amma Məscidul-hərama daxil olmayıb, Kə᾿bən təvaf etmədi.

Məkkənin yuxarısından gələrkən Mədənilər döngəsindən daxil olub və Məkkənin aşağısından—Zi Tuvadan—xaric oldu.[818]

# İYABƏT HƏCCİNİN FƏZİLƏTİ

764. Həzrət Peyğəmbər (s) buyurub: «Allah-taala bir həcc əməli ilə üç nəfəri Behiştə daxil edir; Ölü, onun əvəzinə həccə gedən və ölü üçün nayib tutan».[819]

765. Həzrət Peyğəmbər (s) buyurub: «Ölü tərəfindən əncam verilən bir həcc əməli üç həcc əməli sayılır: Ölən, həcci yerinə yetirən nayib və ölünün vəsiyyətinə əməl edən şəxslərin hər biri üçün bir həcc yazılır».[820]

766. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs vəfat etmiş bir şəxsin tərəfindən həcc əməlini əncam versə, həm vəfat edənə, həm də həcc əməlini yerinə yetirən üçün Cəhənnəm odundan azadlıq yazılar».[821]

767. Səvdə nəql etmişdir ki, bir kişi həzrət Peyğəmbərin (s) hüzuruna gələrək dedi: Mənim atam yaşlı bir qoca kişidir və həccə gedə bilmir.

Həzrət Peyğəmbər (s) buyurdu: «Atanın bir borcu olduqda, onun borcunu ödəyirdinmi?». Dedi: Bəli.

Həzrət Peyğəmbər (s) buyurdu: Allah-taala çox mehribandır, atanın tərəfindən həccə get».[822]

768. İbni Muskan nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: Başqası tərəfindən həcc əməlini əncam verən şəxsin nə qədər savabı vardır? Həzrət (ə) buyurdu: «Başqası tərəfindən həcc əməlini əncam verən şəxsin on həcc savabı vardır».[823]

769. Şeyx Səduq (rə) nəql etmişdir ki, imam Sadiq (ə)-dan soruşdular: Başqası tərəfindən həccə gedən şəxsin nə kimi əcr və savabı vardır? Həzrət (ə) buyurdu: Başqası tərəfindən həccə gedən şəxsin on həcc əməlinin savabı vardır. Həmçinin belə bir şəxsin özü, atası, anası, oğlu, qızı, bacısı, əmisi, bibisi, dayısı və xalası bağışlanar. Həqiqətən Allah-taala ehtiyacsız və Kərimdir».[824]

770. Əbdür-Rəhman ibni Sinan nəql etmişdir ki, imam Sadiq (ə)-ın hüzurunda idim. Bir kişi o Həzrətin (ə) yanına gəldi və Həzrət (ə) —(öz oğlu) İsmayıl tərəfindən həcc əməlini əncam verib, həccdən ömrəyədək onunla şərt qoyduğu bütün işləri yerinə yetirmək—və hətta Mühəssir vadisində səʾy etməyi əncam vermək üçün ona otuz dinar verdi və daha sonra buyurdu: «Filankəs! Əgər bu işləri əncam versən, öz malından xərcləyən İsmayıl üçün bir həcc əməli, sənin üçün isə özünü əziyyətə saldığın üçün doqquz həcc əməlinin savabı yazılacaqdır».[825]

771. Hazim ibni Həbib nəql etmişdir ki, imam Sadiq (ə)-ın yanına gedib, ərz etdim: Allah sizə xeyir versin! Mənim atam və anam dünyadan getmiş amma həcc əməllərini yerinə yetirməmişlər. Allah-taala da mənə ruzi verərək, yaxşılıq etmişdir. Onların tərəfindən həccə getməyim barədə nəzərinz nədir? Həzrət (ə) buyurdu: «Bu cür et ki, həqiqətən bu həcc əməli onlar üçün şadlıq verən və yaxşıdır».[826]

772. Fəzl ibni Hişam demişdir ki, Mahmudi çoxlu həccə getmişdir. Ondan neçə dəfə həccə getdiyini soruşduqda, onların sayını mənə deməyib, belə cavab verdi: «Əlhəmdulillah çoxlu qismət olub». Dedim: Öz tərəfindən həccə gedirsən, yoxsa başqalarının adından? Dedi: «Vacib həccdən sonra, başqaları tərəfindən həccə getmişəm. Belə ki, həzrət Peyğəmbərin (s) tərəfindən həccə gedir və Allah-taalanın mənə verdiyi hədiyyələri onun dostlarına verir və Allahın mənə verdiyi savabları isə mö᾽min kişi və qadınlara bağışlayıram».

Soruşdum: Öz həccində nə deyrsən? Dedi: «Belə deyirəm: İlahi! Peyğəmbərin Məhəmməd (səlləllahu ələyhi və Alihi və səlləm) tərəfindən ehram bağlayır, Sənin və onun tərəfindən olan əcrimi Sənin pak dostlarına (mə᾽sum imamlara) verir və savabımı isə Sənin kitabın və peyğəmbərinin sünnəsi əsasında mö᾽min bəndələrinə hədiyyə edirəm və .....».[827]

## UŞAĞI HƏCCƏ APARMAĞIN FƏZİLƏTİ

773. Cabir ibni Əbdillah nəql etmişdir ki, həcc mərasimində bir qadın, özünün kiçik yaşlı uşağını Peyğəmbərə (s) uzadaraq soruşdu: Ey Allahın elçisi! Bu uşağa da həcc düşürmü? Həzrət Peyğəmbər (s) buyurdu: «Bəli! Və sənə savab yazılır».[828]

774. Zürarə, imam Baqir (ə)-dan və ya imam Sadiq (ə)-dan nəql etmişdir ki, buyurub: «Bir şəxs özünün kiçik yaşlı uşağını həccə gətirdikdə ona "ləbbəyk" deməyi göstəriş verib, həcci vacib etsin. Yaxşı tərzdə "ləbbəyk" deyə bilmədikdə, onun tərəfindən "ləbbəyk" desin. Habelə onu təvaf etdirərək, onun tərəfindən təvaf namazı qılsın».

Dedim: Qurban kəsmək üçün bir şeyləri yoxdur.

Həzrət (ə) buyurub: «Uşaqlar tərəfindən qurbanlıq kəssinlər. Böyüklər oruc tutub, uşaqları libas və gözəl ətir kimi möhrüm şəxsə haram olan işlərdən çəkindirsinlər. Uşaq bir ovu öldürdükdə isə, onun kəffarəsi atasının öhdəsindədir».[829]

775. Əbdür-Rəhman ibni Həccac nəql etmişdir ki, biz o il Məkkənin yaxınlığında idik ki, Tərviyə (Zi hiccə ayının səkkizinci) günündə ehram bağlamaq istəyib, imam Sadiq (ə)-dan soruşduq: Bizlə birlikdə kiçik yaşlı bir uşaq var.

Həzrət (ə) buyurdu: «Anasına deyin ki, Həmidə ilə (imam Sadiq (ə)-ın həyat yoldaşı) görüşüb, uşağı ilə nə etməsini ondan soruşsun».

O qadın da Həmidənin yanına gedib soruşduqda, cavabında belə dedi: Tərviyə günü olduqda, möhrim şəxs kimi uşağın paltarlarını soyundurub ona qüsl verin və daha sonra onun tərəfindən ehram bağlayıb, dayanacaq yerlərində onu da dayandırın. Qurban bayramı günündə onun tərəfindən şeytanlara daş vurub, başını qırxın. Daha sonra onu Allah evinin ziyarətinə aparıb, onu Allah evinin ətrafı, həmçinin Səfa və Mərvə arasında təvaf etdirməyi xidmətçiyə tapşırın».[830]

## HƏCCƏ GETMİŞ ŞƏXSİN AİLƏSİNƏ KÖMƏK ETMƏK

776. İmam Zeynul-abidin (ə) buyurub: «Hər kəs həccə getmiş şəxsin ailəsi və mal-dövlətinə kömək etsə, həccə getmiş şəxsin savabına nail olar. Belə ki, sanki Kə`bə daşlarına əl vurmuşdur».[831]

777. İmam Sadiq (ə) buyurub: «Üç dəstənin duası müstəcəbdir: Həccə gedənlər; görün ki, onların ailəsinə necə kömək edirsiniz. Allah yolunda vuruşanlar; görün ki, onların ailəsinə necə baş çəkirsiniz. Xəstə; beləliklə də onu qəzəbli və narahat etməyin».[832]

## HACILARIN AZLIĞI

778. Əbul-Ərəndəs Kindi, Qüreyş tayfasından olan bir şəxsdən nəql etmişdir ki, Kə`bənin qapısı kənarında idik və imam Sadiq (ə) da əyləşmişdi. O Həzrət (ə)-a dedilər: Hacılar nə çoxdurlar! Həzrət (ə) buyurdu: «Hacılar nə azdırlar!». Daha sonra Ömər ibni Əbil-Miqdam oradan ötüb keçdikdə, həzrət (ə) buyurdu: «Bu, hacılardandır».[833]

779. Əbdül-Kərim ibni Kəsir nəql etmişdir ki, imam Sadiq (ə) ilə birlikdə həcc əməlini əncam verdim. Bir az yol getdikdən sonra, o Həzrət (ə) bir dağın üstünə çıxaraq oradan xalqa baxıb, buyurdu: «Nalələr nə çox, həqiqi hacılar isə nə azdırlar!»[834]

# ALTINCI FƏSİL

# *KİÇİK HƏCC*

## *ÖMRƏNİN FƏZİLƏTİ*

780. Həzrət Peyğəmbər (s) Əmr ibni Həzmi Nəcranın tə᾽yin edərkən, ona yazdığı məktubunda belə buyurdu: «Ömrə, kiçik həccdir».[835]

781. Ömər ibni Uzəynə nəql etmişdir ki, imam Sadiq (ə)-dan Allah-taalanın "Əl-həccul-əkbər" sözü barədə soruşduqda, o həzrət (ə) buyurdu: «Böyük həcc, Ərəfatda dayanıb, şeytanlara daş atmaq, kiçik həcc isə ömrə əməlindən ibarətdir».[836]

782. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə)-dan "Böyük həcc günü" barədə soruşduqda buyurdu: O, Qurban bayramı günüdür, kiçik həcc isə ömrə əməlidir».[837]

783. Həzrət Peyğəmbər (s) buyurub: «Bil ki, Ömrə əməli kiçik həccdir və bir ömrə əməli dünya və ondan olan hər bir şeydən üstündür. Bir həcc əməli isə ömrə əməlindən üstündür».[838]

784. Həzrət Peyğəmbər (s) buyurub: «Həccin əcri, Behiştdir. Ömrə əməli isə hər bir günahın kəffarəsidir».[839]

785. Həzrət Peyğəmbər (s) buyurub: «Bir ömrə əməli, növbəti ömrə əməlinədək o iki ömrə arasında olan günahların kəffarəsidir».[840]

786. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs həcc və ömrə əməlini əncam verib, günah etməsə, anası onu dünyaya gətirdiyi gün kimi günahsız halda qayıdar».[841]

787. Həzrət Peyğəmbər (s) buyurub: «Dörd nəfərin duası rədd olunmaz və beləliklə də asimanın qapıları onlar üçün açılar və duaları ərşə çatar: Atanın övladı üçün dua etməsi, məzlumun zalım əleyhinə dua etməsi, ömrə əməlini əncam verən şəxs—evinə qayıdanadək və orucunu açanadək oruc tutan şəxs».[842]

788. Həzrət Peyğəmbər (s) buyurub: «Böyük, kiçik, zəif və qadının cihadı, həcc və ömrədir».[843]

789. Həzrət Peyğəmbər (s) buyurub: «Həcc, cihaddır. Ömrə isə müstəhəbdir».[844]

790. Cabir nəql etmişdir ki, həzrət Peyğəmbərdən (s) soruşdular: Ömrə əməli vacibdirmi? Həzrət (s) buyurdu: «Xeyir, amma onu əncam verməyiniz daha yaxşıdır».[845]

791. Əbdür-Rəhman ibni Səmurə nəql etmişdir ki, bir gün həzrət Peyğəmbərin (s) hüzurunda idik ki, buyurdu: «Dünən gecə maraqlı şeylər gördüm!» Soruşduq: Ey Allahın elçisi! Nə gördünüz? Canımız və ailəmiz sizə fəda olsun! Bizə də deyin! Həzrət Peyğəmbər (s) buyurdu: «Ümmətimdən bir kişini gördüm ki, qarşı, arxa, sağ və sol tərəfləri qaranlıq olaraq bütövlükdə

qaranlıqda qərq olunmuşdu. Amma onun həcc və ömrə əməlləri gəldikdə, onu qaranlıqdan qurtararaq, nur içərisinə daxil etdilər».[846]

792. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs ömrə niyyəti ilə çölə çıxıb yolda ölsə, Qiyamət gününədək onun üçün ömrə əməlini əncam verən şəxsin savabı yazılar».[847]

793. Ayişə "ömrə"yə getdikdə, həzrət Peyğəmbər (s) ona buyurdu: «Sənin savabın, çəkdiyin əziyyət və xərclədiyin pul miqdarındadır».[848]

794. Həzrət Peyğəmbər (s) buyurub: «Ömrənin həccə nisbəti, başın bədənə və (fitrə) zəkatının oruca olan nisbəti kimidir».[849]

795. Zürarə nəql etmişdir ki, imam Baqir (ə)-a dedim: Fəzilət baxımından həccdən sonra olan əməl nədir?

Həzrət (s) buyurdu: Müfrədə ömrəsidir. Daha sonra istədiyi hər hansı bir yerə getsin».[850]

796. İmam Kazim (ə) buyurub: «Allah-taala vacib namazı müstəhəb (nafilə) namazı ilə, Ramazan ayının orucunu müstəhəb oruc ilə, həcci ömrə ilə və zəkatı isə sədəq ilə kamilləşdirmişdir».[851]

# İncə mə҆na:

1. Deyilənə görə Ərəfə günü Cümə gününə düşdükdə, o ilin həcci "Böyük həcc" adlanır. Lakin rəvayətlərdə bunun üçün heç bir dəlil tapa bilməmişik.

Hədislər baxımından "Böyük həcc" "Ərəfat" və "Mina"-da dayanmaq ömrə əməlinə deyilən "kiçik həccin" müqabilindədir.

2. Tövbə surəsinin 3-cü ayəsində buyurulmuş "yovmul-həccil-əkbər" sözü, bir çox rəvayətlərdə "yovmun-nəhr"-ə, bə҆zi rəvayətlərdə isə "Ərəfə günü"-nə aid edilmişdir.

## *HƏR AYDA BİR ÖMRƏ*

797. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Əli (ə) buyururdu: Hər ayda bir ömrə əməli vardır».[852]

798. Həzrət imam Sadiq (ə) buyurub: «Bir il, on iki aydan ibarətdir və hər bir ayda bir dəfə ömrə əməli əncam verilir».[853]

799. Əliyyibni Həmzə, imam Kazim (ə)-dan nəql etmişdir ki, o Həzrət (ə) buyurub: «Hər ay üçün bir ömrə əməli əncam verilir». Soruşdum: Ondan az da olurmu? Həzrət (ə) buyurdu: Hər on gün üçün bir ömrə vardır».[854]

Bəyan:

Əllamə Məclisi (rə) buyurub: Fəqihlər bu barədə müxtəlif nəzərlər irəli sürmüşlər: Seyyid Mürtəza (rə), İbni İdris (rə), Mərhum Mühəqqiq (rə) və başqaları hər hansı bir tərzdə iki ömrə əməlini ardıcıl olaraq yerinə yetirməyi caiz bilmişlər.

İbni Əbi Əqil (rə) deyir: Bir ildə iki dəfə ömrə əməlini əncam vermək caiz deyildir. Şeyx Tusi özünün Məbsut kitabında deyir: İki ömrə əməli arasında olan ən az fasilə on gündür.

Əbus-Səlah, İbni Həmzə və habelə Mühəqqiq özünün "Ən-Nafe`" və Əllamə (rə) isə özünün "Muxtələfuş-şiə" kitabında bu fasilənin bir ay olduğunu bildirmişlər. Hər ayda bir ömrəni caiz bilən rəvayətlərə əsaslanmağı aradan aparmaq olar. Belə ki, bu kimi rəvayətlər bir ayda ömrə əməlinin təkrar olunmasını aydın şəkildə qadağan etmir. Çünki bir aya məxsus olmağın mə`nası, hər ayda ömrə əməlinin əncam verilməsinin haqqında tə`kid olunmuş müstəhəb işlərdən sayılması mə`nada olması da mümkündür. [Bundan az olması üçün sə`y göstərilməlidir].

"Cəvahir" kitabının müəllifi deyir: İki ömrə əməli arasında olan ən az fasilə on gündür. Qəbul olunmuş bu nəzəriyyə isə yazıdan nəql olunmuşdur».

İmam Xomeyni (rə) buyurur: «İki ömrə arasında olan fasilənin miqdarında müxtəlif nəzərlər irəli sürülmüşdür. Ehtiyata əsasən, bir aydan az olan fasilədə, ömrə əməlini savab ümidi ilə yerinə yetirsinlər».

### *RƏCƏB AYINDA ÖMRƏNİN FƏZİLƏTİ*

800. Həzrət Peyğəmbər (s) buyurub: «Ən üstün ömrə, Rəcəb ayının ömrəsidir».[855]

801. Həzrət imam Sadiq (ə) buyurub: «Ömrə əməlini əncam verən şəxs, ilin hər hansı bir ayında onu yerinə yetirə bilər. Amma ən üstün ömrə əməli, Rəcəb ayının ömrəsidir».[856]

802. Mərhum Şeyx Tusi imamlardan (ə) nəql etmişdir ki, Rəcəb ayının ömrəsi fəzilət baxımından həccdən sonradır».[857]

803. Müaviyətibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə)-dan soruşdular: Hansı ömrə daha üstündür? Rəcəb ayının ömrəsi, yoxsa Ramazan ayında əncam verilən ömrə əməli?

Həzrət (ə) buyurdu: «Xeyr, əksinə Rəcəb aynın ömrəsi daha üstündür».[858]

804. Həzrət imam Sadiq (ə) buyurub: «Rəcəb ayından bir gün qalan halda ehram bağlasan, sənin ömrən Rəcəbiyyədir».[859]

847.

848.

849.

850.am halındYəʾni, Rəcəb ayında əncam verilən ömrə əməli sayılır).

805. Əliyyibni Cəʾfər nəql etmişdir ki, imam Kazim (ə)-dan soruşdum: Rəcəb ömrəsi nədir? Həzrət (ə) buyurdu: «Rəcəb ayında ehram bağladıqda—bir günü qalıb, (həmçinin) Şəʾban ayına çatsan belə—Rəcəb ayının ömrəsini dərk etmisən. Çünki Rəcəb ayında ehram bağlasan, (o ömrə əməli) Rəcəb ömrəsi sayılır».[860]

### *RAMAZAN AYINDA ÖMRƏ ƏMƏLİNİN FƏZİLƏTİ*

806. Yusif ibni Əbdillah ibni Səlam, nənəsi Ümmü Məʾqildən nəql etmişdir ki, həzrət Peyğəmbər (s) sonuncu vida həcci yerinə yetirdikdə bizim bir dəvəmiz var idi ki, Əbu Məʾqil onun Allah yolunda işlədilməsini vəsiyyət etmişdi. Mən xəstələndim, Əbu Məʾqil isə dünyadan getdi. Həzrət Peyğəmbər (s) həccə gedib,qayıtdıqdan sonra hüzuruna getdim. O Həzrət (s) buyurdu: «Ey Ummu Məʾqil! Nə üçün bizimlə birlikdə həccə gəlmədin?»

Dedim: Həcc üçün hazırlaşmışdıq ki, Əbu Mə᾽qil dünyadan getdi və həccə getmək üçün bir dəvəmiz var idi ki, Əbu Mə᾽qil onun Allah yolunda işlədilməsini vəsiyyət etdi.

Həzrət (s) buyurdu: «Nə üçün o dəvə ilə həccə gəlmədin? Həcc də Allah yoludur! Beləliklə bizimlə birgə həcci əldən verdiyin üçün həcc kimi sayılan Ramazan ayında ömrəyə get».

Ummu Mə᾽qil deyirdi: »Həcc həccdir, ömrə isə ömrədir. Bunu həzrət Peyğəmbər (s) mənə buyurmuşdur. Amma bilmirəm ki, görəsən təkcə mənim üçün belədirmi?»[861]

807. Vəlid ibni Səbih nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: Bizə belə çatmışdır ki, Ramazan ayının ömrəsi həcc ilə bərabərdir.

Həzrət (s) buyurdu: «Bu o qadının haqqındadır ki, həzrət Peyğəmbər (s) ona və᾽d edərək buyurdu: «Ramazan ayında ömrə əməlini yernə yetir ki, sənin üçün bir həcc kimidir».862

808. Həmmad ibni Osman nəql etmişdir ki, imam Sadiq (ə) ömrəyə getmək istədikdə Ramazan ayının 23-cü gününün sübh çağını gözləyir və o gün ehram bağlayaraq çölə çıxırdı».[863]

809. Əliyyibni Hədid nəql etmişdir ki, 213-cü ildə Ramazan ayında Mədinənin sakini idim. Fitr bayramı yaxınlaşdıqda, imam Cavad (ə)-a məktub yazaraq soruşdum: Ömrə üçün Ramazan ayında səfərə çıxmağım yaxşıdır, yoxsa ayın sonunadək səbr edib, oruclarımı tutmağım?

O Həzrət (ə) öz xətti ilə mənə məktub yazıb buyurdu: «Allah sənə rəhm etsin. Soruşdun ki, hansı ömrə əməli üstündür. Ramazan ayının ömrəsi üstündür. Allah sənə rəhm etsin».[864]

810. Həzrət Peyğəmbər (s) buyurub: «Həcc aylarında ömrə əməlini əncam verib geri qayıdan və həcc əməlini yerinə yetirməyən şəxs, müfrədə ömrəsini əncam vermişdir. Əgər həcci əncam versə, onun ömrə əməli təməttö᾽ sayılır».[865]

811. Həzrət imam Sadiq (ə) buyurub: «İmam Hüseyn (ə) Zi Hiccə ayında ömrəni əncam verib, Tərviyə (Zi hiccənin səkkizinci) günündə xalq Minaya tərəf gedən halda, İraqa tərəf getdi. Həcc əməlini əncam verməkistəməyən şəxsin Zi hiccə ayında ömrəyə getməsinin heç bir eybi yoxdur».[866]

812. Həzrət imam Sadiq (ə) buyurub: «Həcc aylarında müfrədə ömrənin heç bir eybi yoxdur. Daha sonra öz ailəsinə tərəf qayıdır».[867]

813. Həzrət imam Sadiq (ə) buyurub: «Məbtulə (kəsilmiş) ömrə odur ki, bir şəxs Allah evini təvaf edib, Səfa və Mərvə arasında səʾy etdikdən sonra ehramdan xaric olsun. Daha sonra o saatda qayıtmaq istədikdə, qayıdıb köçür».[868]

## *HƏZRƏT PEYĞƏMBƏRİN (S) ÖMRƏ ƏMƏLLƏRİ*

814. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Peyğəmbər (s) bir-birindən ayrı olan üç ömrə əməlini əncam verdi: Onlardan biri Ziqədə ayında Usfandan ehram bağladığı Hüdeybiyyə ömrəsi, biri Cöhfədən ehram bağladığı qəza ömrəsi, digəri isə Hünəyn və Taif döyüşündən qayıtdıqdan sonra Ciʾranədən ehram bağladığı ömrə əməli idi».[869]

815. İbni Abbas (rə) nəql etmişdir ki, həzrət Peyğəmbər (s) dörd qəza əməlini əncam vermişdir: Hüdəybiyyə ömrəsi, sonrakı ildə qəza ömrəsi, Ciʾranədən (ehram bağladığı ömrə) və öz həcci ilə birgə əncam verdiyi ömrə».[870]

816. Əbu İshaq nəql etmişdir ki, Məsruq, Əta və Mücahiddən soruşduqda, dedilər: Həzrət Peyğəmbər (s) Zi hiccə ayında həcc əməlini əncam verməzdən qabaq ömrə əməlini yerinə yetirdi. Həmçinin Bura ibni Hazimdən eşitdim ki, deyirdi: Həzrət Peyğəmbər (s) Zi Qəʾdə ayında həcc əməlini əncam verməzdən qabaq iki dəfə ömrə əməlini yerinə yetirdi».[871]

817. Muhərriş Kəʾbi nəql etmişdir ki, həzrət Peyğəmbər (s) ömrə niyyəti ilə gecə çağı «Ciʾranə»dən xaric olaraq gecə Məkkəyə çatıb, ömrə əməlini yerinə yetirdi. Daha sonra gecə çölə çıxdı və gecəni orada olan kimi sübh çağı «Ciʾranə»də idi.

Sabahsı günün zöhr çağı «Sərif»in ortasından çölə çıxıb, əsil yol sayılan cəm᾿—(Müzdəlifə) yolundan gəldi. Elə buna görə də o Həzrət (s) ömrə əməli xalq üçün gizli qaldı».[872]

**Bəyan:**

Həzrət Peyğəmbərin (s) əncam verdiyi ömrələrin sayı və zamanı barədə müxtəlif rəvayətlər nəql olunmuşdur ki, onlardan belə nəticəyə gəlmək olar: «Həzrət Peyğəmbər (s) üç dəfə müfrədə ömrə əməlini əncam vermişdir». O Həzrətin (s) ömrələrinin dörd olmasını göstərən rəvayətlər həccətul-vida (son həccin) ömrəsin ona əlavə etmişlər. Onların sayının iki dəfə olduğunu bildirən rəvayətlər isə yalnız o Həzrətin (s) aşkar ömrələrini bəyan etmişdir. Başqa sözlə, həzrət Peyğəmbər (s) Hünəyn döyüşündən sonra gecə çağı «Ci᾿ranə»dən Məkkəyə gəlib, ömrə əməlini əncam verdikdən sonra yenidən «Ci᾿ranə»yə qayıtdı və sübh çağı başqaları kimi yuxudan ayıldığına görə onun ömrə əməli başqaları üçün gizli qaldı.

Hədis alimlərinin çoxu o Həzrətin (s) ömrələrinin Zi Qə᾿də ayında həyata keçirildiyini vurğulamış, bə᾿ziləri isə Şəvval və Rəcəb aylarını da ona əlavə etmişlər.

# ÜÇÜNCÜ HİSSƏ

## *MÜNƏVVƏR MƏDİNƏ*

# BİRİNCİ FƏSİL

## *MƏDİNƏNİN FƏZİLƏTİ*

## *MƏDİNƏNİN ADLARI*

818. İbni Ömər nəql etmişdir ki, həzrət Peyğəmbər (s) heç bir səfərdən qayıdarkən—Ey təmiz! Ey şəhərlərin ağası!—sözünü deməmiş Mədinə şəhərinə daxil olmazdı.[873]

819. Həzrət Peyğəmbər (s) buyurub: «Allah-taala mənə göstəriş vermişdir ki, Mədinəni «Təybə» (pak) adlandırım».[874]

820. Əbu Hüməy nəql etmişdir ki, həzrət Peyğəmbər (s) ilə birlikdə Təbuk döyüşündən qayıdırdıq ki, Mədinə şəhərinə çatdıqda, o Həzrət (s) buyurdu: «Bu şəhər «Tabə»—(pakdır)».[875]

821. Həzrət Peyğəmbər (s) buyurub: «Allah-taala Mədinəni «Tabə»—(pak) adlandırmışdır».[876]

822. Həzrət Peyğəmbər (s) buyurub: «Mədinənin on adı vardır ki, onların adları belədir: Mədinə, Təybə, Tabə, Miskinəh, Cəbar, Məhburəh, Yəndəd və Yəsrib».[877]

## *MƏDİNƏNİN ADLARI BARƏDƏ İNCƏ BİR MƏʾNA*

Tarix alimləri Mədinə şəhəri üçün çoxlu adlar sadalamışlar ki, o cümlədən Səmhudi özünün «Vəfaul-vəfa» kitabında doxsan dörd adı saymışdır ki, onlardan bəʾzisinə Qurʾani-kərimdə də işarə olunmuşdur. Buna misal olaraq, Yəsrib və Mədinə adlarını qeyd etmək olar. Qeyd etmək lazımdır ki, Mədinə sözü Qurʾanda on dörd dəfə zikr olunmuş, lakin onlardan yalnız dördü həzrət Peyğəmbərin (s) yaşadığı şəhərə aiddir.

## *MƏDİNƏNİN XÜSUSİYYƏTLƏRİ*

1. Həzrət Peyğəmbərin (s) hərəmi:

823. Həzrət Peyğəmbər (s) buyurub: «Hər bir peyğəmbərin bir hərəmi vardır. Mənim hərəmim isə Mədinə şəhəridir».[878]

824. Səhl ibni Hünəyf nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) öz əli ilə Mədinəyə işarə edərək buyurdu: «O, asayişi bir hərəmdir».[879]

825. Həzrət Peyğəmbər (s) buyurub: « Həzrət İbrahim (ə) Məkkəyə hörmət qoyub, onun üçün dua etdi. İbrahim (ə) Məkkəyə hörmət qoyduğu kimi, mən də Mədinəyə hörmət qoyur və onu möhtərəm sayıram. İbrahim (ə) Məkkə üçün dua etdiyi kimi, mən Mədinənin «müdd» və «sa» (ölçü vahidi) üçün dua etdim».[880]

826. Həzrət Peyğəmbər (s) buyurub: «Pərvərdigara! İbrahim Məkkəyə hörmət qoyub, onu hərəm qərar verdi. Mən də Mədinəni-onun iki boğazı

hüdudunu möhtərəm sayıram ki, orada heç bir qan tökülməyib, müharibə üçün orada silah götürülməsin və heyvanların yemindən başqa, otları və ağacları dərilməsin. İlahi! Mədinəni bizim üçün bərəkətli qərar ver. İlahi! Bir bərəkət ilə iki bərəkət qərar ver. And olsun canım əlində olan Allaha ki, Mədinənin hər bir dərə və yırtığında oranı qoruyan iki mələk mə᾽mur olmuşlar ki, beləliklə də ona daxil olasınız».[881]

827. Həzrət Peyğəmbər (s) buyurub: «Mədinə, Air zonasından filan yerə qədər hərəmdir. Hər kəs orada birini qətlə yetirib və yaxud bir qatilə sığınacaq versə, Allah, mələklər və bütün xalqın lə᾽nəti ona olsun və ondan heç bir tövbə və fidyə (cərimə) qəbul olunmaz».[882]

828. Həzrət imam Əli (ə) buyurub: «Məkkə Allah hərəmi, Mədinə isə həzrət Peyğəmbərin (s) hərəmidir».[883]

829. Həzrət imam Sadiq (ə) buyurub: «Məkkə İbrahim (ə)-ın hərəmi, Mədinə isə həzrət Məhəmmədin (s) hərəmidir».[884]

2. Həzrət Peyğəmbərin (s) hicrət yeri:

830. Həzrət Peyğəmbər (s) buyurub: «Mədinə mənim yer üzərində olan hicrət və rahatlıq yerimdir. Qonşularım böyük günahlardan pərhiz edənədək, ümmətimin onlara ehtiram etməsi vacibdir».[885]

3. Həzrət Peyğəmbərin (s) sevdiyi diyar:

831. Ənəs nəql etmişdir ki, həzrət Peyğəmbər (s) səfərdən qayıdarkən Mədinənin divarlarını gördükdə, miniyə minən halda onun şərq tərəfindən yükünü yerə qoyur və miniyini hərəkətə gətirirdi».[886]

832. Həzrət Peyğəmbər (s) buyurub: «İlahi! İbrahim Sənin dostun, bəndən və peyğəmbərindir və o Səni Məkkə əhalisi üçün çağırmışdır. Mən Məhəmməd də Sənin bəndən, peyğəmbərin və elçinəm və İbrahimin Məkkə əhalisi üçün çağırdığı kimi Mədinə əhalisi üçün Səni çağırıram. Səni çağırıram ki, onların tərəzi və meyvəsini bərəkətli edəsən! İlahi! Məkkəni bizim üçün sevimli şəhər qərar verdiyin kimi Mədinə şəhərini də bizim üçün sevimli qərar ver».[887]

4. İslamın günbəzi:

833. Həzrət Peyğəmbər (s) buyurub: «Mədinə islam günbəzi, iman evi, hicrət yeri, həmçinin halal və haram yeridir».[888]

834. Həzrət Peyğəmbər (s) buyurub: «İlan öz yuvasına qayıtdığı kimi, iman da Mədinəyə qayıdacaqdır».[889]

5. Qur᾽anla fəth olunması:

835. Həzrət Peyğəmbər (s) buyurub: «Abadlıqlar qılıncla, Mədinə isə Qur᾽anla fəth olunmuşdur».[890]

6. Pislikləri aradan aparan:

836. Zeyd ibni Sabit nəql etmişdir ki, həzrət Peyğəmbərin (s) səhabələrindən bir dəstəsi «Ühüd» döyüşündən qayıtdıqda, xalq onlar barəsində iki dəstəyə bölündülər. Belə ki, bir dəstə «onları öldürün», digər bir dəstə isə «öldürməyin» nəzərlərini irəli sürürdülər. Bundan sonra bu ayə

nazil oldu: «Sizə nə olmuşdur ki, münafiqlər barədə iki dəstəyə bölünmüsünüz? (Nisa\88)

Həzrət Peyğəmbər (s) buyurdu: «Mədinə pakdır və atəş gümüşün çirklərini təmizlədiyi kimi çirkinlikləri aradan aparır».[891]

## MƏDİNƏDƏ QALMAĞIN FƏZİLƏTİ

837. Həzrət Peyğəmbər (s) buyurub: «Mədinə, Məkkədən üstündür».[892]

838. Həzrət Peyğəmbər (s) buyurub: «Ramazan ayını Mədinədə olmaq, başqa şəhərlərdə min il olmaqdan üstündür. Həmçinin Mədinədə bir cümə gününü qalmaq, başqa şəhərlərdə min cümə gününü qalmaqdan üstündür».[893]

839. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs Mədinədə ölməyi bacararsa, belə etsin. Mən Mədinədə vəfat edən şəxs üçün şəfaət edəcəyəm».[894]

840. Həsən ibni Cəhm nəql etmişdir ki, həzrət imam Əbul-Həsən (ə)-dan soruşdum: Məkkədə qalmaq üstündür, yoxsa Mədinədə? Həzrət (ə) buyurdu: «Sən nə deyirsən?» Ərz etdim: Mənim sözüm sizin sözünüz qarşısında nə ola bilər? Həzrət (ə) buyurdu: «Sənin sözün səni mənim sözümə qaytarır».

Dedim: Mən güman edirəm ki, Mədinə də qalmaq, Məkkədə qalmaqdan üstündür. Həzrət (ə) buyurdu: «Sən belə deyrsən, imam Sadiq (ə) «Fitr» bayramı günündə də belə bir sözü buyurmuşdur.

O həzrət, Peyğəmbərin (s) məsciddə olan məzarına yaxınlaşıb salam verdikdən sonra buyurdu: «Bu gün biz həzrət Peyğəmbərə (s) salam verməklə başqa xalqdan üstünük».[895]

841. Murazim nəql etmişdir ki, Mədinədə olarkən Əmmar və bir dəstə ilə birlikdə imam Sadiq (ə)-ın hüzuruna çatdıqda soruşdu: «Harada qalırsınız?» Əmmar dedi: Öz miniklərimizi buraxmış və on beş gündən sonra qayıtmalarını göstəriş vermişik. Həzrət (ə) buyurdu: «Allah peyğəmbərinin (s) şəhərində qalmaq və onun məscidində qalmağa nail olmuşsunuz. Axirətiniz üçün iş görün və özünüz üçün daha çox iş görün. Bə՚zi vaxtlar dünyada bə՚ziləri zirəng olur və onlara—filankəs zirəngdir—deyilir. Həqiqətən zirəng, Axirət zirəngidir».[896]

## MƏDİNƏNİN QAYDALARI

842. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinəyə daxil olmazdan qabaq və ya ona daxil olarkən qüsl et».[897]

843. Həzrət Peyğəmbər (s) buyurub: «Quba məscidində namaz qılmaq, bir ömrə əməli kimidir».[898]

844. Həzrət Peyğəmbər (s) buyurub: «Evindən çıxıb, bu Quba məscidinə gələrək orada namaz qılan şəxs, ömrə əməli ilə bərabər savaba nail olar».[899]

845. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs yaxşı bir dəstəmaz alıb yalnız Quba məscidi niyyəti ilə çölə gələrək məhz Quba məscidində namaz

qılmaq niyyəti ilə oraya daxil olub hər rəkətində Həmd surəsi olan dörd rəkətli namaz qılarsa, Allah evinə ömrə əməlini əncam vermək üçün gedən şəxsin savabına nail olar».[900]

846. Cabir nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) «Xəribə» «Qiblətəyn» və düzənlikdə yerləşən «Bəni həram» məscidlərində namaz qılmışdır».[901]

847. Hələbi nəql etmişdir ki, imam Sadiq (ə) buyurdu: «Quba, Fəzix və ya Ummu İbrahim məşrəbəsinə getmisinizmi?» Dedim: Bəli. Həzrət (ə) buyurdu: «Agah olun ki, bunlardan başqa həzrət Peyğəmbərin (s) əsərlərindən bir şey qalmamışdır».[902]

848. Müaviyətibni Əmmar nəql etmişdir ki, Həzrət imam Sadiq (ə) buyurdu: «Bütün müqəddəs yerlərə getməyi tərk etmə. Məsələn; ilk gündən təqva əsasında tikilmiş Quba məscidi, Ummu İbrahim məşrəbəsi, Fəzix məscidi, şəhidlərin məzarları və Fəth məscidi olan Əhzab məscidi o cümlədəndir»

Həzrət (ə) buyurdu: «Bizə belə çatmışdır ki, həzrət Peyğəmbər (s) şəhidlərin qəbrinə getdikdə belə deyirdi:

«Əssəlamuələykum bima səbərtum, fə ni᾽mə uqbəd-dar».

(Yə᾽ni; Səbr etdiyinizə görə salam olsun sizə, beləliklə Axirət evi necə də gözəldir!)

«Fəth» məscidinin yanında isə belə dua et:

«Ey giriftarların fəryadına çatan! Ey çarəsizlərin duasına cavab verən! Peyğəmbərindən qəm-qüssə və giriftarçılığı uzaqlaşdırıb bu məkanda onu düşmən qorxusundan qoruyub-saxladığın kimi, mənim də qəm-qüssə və narahatçılığımı aradan apar»[903]

849. Uqbətibni Xalid nəql etmişdir ki, imam Sadiq (ə)-dan soruşdum: Biz Mədinənin ətrafında yerləşən məscidlərə getdikdə onların hansından başlayaq? Həzrət (ə) buyurdu: «Quba məscidindən başlayıb orada çoxlu namaz qıl. Çünki o məscid həzrət Peyğəmbərin (s) burada ilk dəfə namaz qıldığı məsciddir. Daha sonra Ummu İbrahim məşrəbəsinə gedərək orada namaz qıl ki, ora həzrət Peyğəmbərin (s) namaz və qaldığı yer olmuşdur. Bundan sonra Fəzix məscidinə gedib, orada namaz qıl ki, peyğəmbərin (s) orada namaz qılmışdır. Bu tərəfi əncam verib sona yetirdikdən sonra, Ühüdə tərəf gedərək daşlıq zonanın aşağı hissəsində yerləşən məscidə gedib, orada namaz qılırsan.

Daha sonra Həmzə ibni Əbdil-Müttəlibin qəbrindən keçib, o Həzrətə (s) salam verir və bundan sonra şəhidlərin qəbrinin kənarından keçərək orada durur və deyirsən:

«Əssəlamu ələykum ya əhləd-diyar, əntum ləna fərətum və inna bikum lahiqun».

(Yə᾽ni; Ey diyar əhli! Salam olsun sizə, siz bizi ötdünüz və həqiqətən biz də sizə qovuşacağıq).

Daha sonra o açıq məkanda dağın kənarı—Ühüdə daxil olduqda sənin sağ tərəfində yerləşən məscidə daxil olaraq orada namaz qılırsan. Həzrət

Peyğəmbər (s) bu məscidin kənarından Ühüdə tərəf xaric olur və orada olan müşriklərlə üzləşdikdə namaz vaxtı çatarkən orada namaz qılırdı.

Bundan sonra yenidən şəhidlərin qəbrinə tərəf geri qayıdıb, onun kənarında öz vacib namazını qılırsan. Sonra irəli və özünlə üzbə-üz olaraq gedərək Əhzab məscidinə çatır və orada namaz qılaraq Allahı çağırırsan. Həzrət Peyğəmbər (s) Əhzab döyüşü günündə orada dua edərək belə demişdir:

«Ey giriftarların fəryadına çatan! Ey çarəsizlərin duasına cavab verən! Ey qəmginlərin pənahı! Mənim narahatçılığım və qəm-qüssəmi aradan apar ki, Sən mənim və dostlarımın halını görürsən».[904]

## *PEYĞƏMBƏRİN (S) MƏSCİDİ*

1. Məscidin tikilməsi:

850. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Peyğəmbər (s) öz məscidini bir sıra çiy kərpic ilə tikdi. Müsəlmanlar çoxaldıqda, dedilər: Ey Allahın elçisi! Ey kaş məscidin genişlənməsi üçün göstəriş verərdin! Həzrət (s) qəbul edərək ona göstəriş verdi və beləliklə də onu bir yarım çiy kərpicdən tikdilər. Müsəlmanlar çoxaldıqda yenə də dedilər: Ey Allahın elçisi! Ey kaş məscidin artırılması üçün göstəriş verəydin! Həzrət Peyğəmbərdə (s) bu təklifi qəbul etdi və beləliklə də onun genişlənməsi üçün göstəriş verdi və məscidi iki sıra çiy kərpicdən tikdilər.

Daha sonra istilik çoxaldıqda, dedilər: Ey Allahın elçisi! Ey kaş məscidin üzərinə bir kölgəsalanın vurulmasını göstəriş verəydin. Həzrət Peyğəmbərdə (s) xurma ağaclarını sütun olaraq qoyulmasına göstəriş verdi. Dha sonra xurma və izxirin (bir növ bitki) enli budaqları ilə onun üstünü örtdülər.

Daha sonra yağış mövsümündə onların üstünə yağış damcıları töküldükdə dedilər: Ey Allahın elçisi! Ey kaş məscidin üstünü gil ilə örtməyə göstəriş verəydin. Həzrət (s) buyurdu: Xeyr, yalnız Musanın tavanı və gölgə salanı olsun». Həzrət Peyğəmbər (s) dünyadan gedənədək məscid belə idi. Məscidin divarı onun üstünə gölgə salan vurulmazdan qabaq insan hündürlüyündə idi. Gölgə bir zira həddinə çatdıqda, Zöhr namazını, gölgə iki zira həddinə çatdıqda isə Əsr namazını qılırdı».[905]

851. Ənəs nəql etmişdir ki, Həzrət Peyğəmbər (s) Mədinəyə gəldikdə məscid tikilməsinə göstəriş verib, buyurdu: «Ey Bəni Nəccar! Onun qiymətini məndən tələb edin». Dedilər: Onun qiymətini Allahdan başqa heç kimdən tələb etmirik. Daha sonra müşriklərin qəbrlərinin qazılmasına göstəriş verdi. Beləliklə də viranlıqları bərabərləşdirib, xurma ağaclarını kəsərək onları məscidin qiblə tərəfinə düzdülər».[906]

2. Məscidin miqyası:

852. Həzrət Peyğəmbər (s) buyurub: «Əgər mənim bu məscidim (Yəmənin) Sənʾa şəhərinə qədər tikilsəydi, yenə də mənim məscidim olardı».[907]

853. Əbdül-Ə`la nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: Həzrət Peyğəmbərin (s) məscidi nə qədər idi? Həzrət (ə) buyurdu: «Üç min altı yüz sınaq zira` miqdarında idi».[908]

854. Zərih Məharibi nəql etmişdir ki, imam Sadiq (ə)-dan məscidin miqyasını soruşduqda, buyurdu: «(buyurduğun yazmayıb)

Və minbərin arxasında bir yol var idi ki, oradan qoyun və ya əyri getmək istəyən və məscidin mühəvvətəsini yalnız yerə döşənmiş daşa qədər güman edənlər keçirdilər».[909]

855. Həzrət imam Sadiq (s) buyurub: « Həzrət Peyğəmbərin (s) məscidində «Rövzənin» miqyası kölgəsalanlar, məscidin miqyası isə yola tərəf məscidin sağ tərəfində və gecə bazarının yaxınlığında yerləşən iki sütuna qədərdir».[910]

## *HƏZRƏT PEYĞƏMBƏRİN (S) MƏSCİDİNİN GENİŞLƏNDİRİLMƏSİ BARƏDƏ İZAH*

Həzrət Peyğəmbərin (s) məscidi də Məscidul-həram kimi dəfələrlə genişləndirilmənin şahidi olmuşdur. İlk dəfə olaraq hicri-qəməri tarixi ilə 7-ci ildə onun banisi həzrət Məhəmmədin (s) mübarək əli ilə genişləndirilmişdir. Daha sonra 17-ci hicri-qəməri tarixində Ömər və 29-u hicri-qəməri-tarixində isə Osman məscidin qərb və şərq tərəflərinə azacıq bir hissəni əlavə etdilər. Osman məscidin qiblə (cənub) tərəfinə bir neçə sütun qoyduraraq onun üçün mehrab düzəltdi.

Hicri-qəməri tarixi ilə 88-ci ildə Ömər ibni Əbdil-Əziz Mədinənin hakimi olan zaman Vəlid ibni Əbdül-Məlik tərəfindən məscidin şərq və qərb tərəflərinə altı sütun, şimal tərəfinə isə on dörd sütun qoydurdu.

Məhdi Abbasi isə 161-ci hicri-qəməri tarixində məscidin şimal hissəsini artırmışdır.

Osmani padşahlarının zamanında da məsciddə bir sıra tə`mir və genişləndirmə əməliyyatları həyata keçirilmiş və bu işlər Əbdül-Məcid Osmaninin dövranında daha çox və gözə çarpan olmuşdur. Belə ki, onun bu işləri 1265-ci hicri-qəməridən xilafətinin sonunadək (1277,h.q) davam etmişdir.

Müasir dövrdə 1406-cı hicri-qəməri tarixində məscidin qiblə tərəfindən başqa bütün tərəfləri geniş şəkildə artırılmış və beləliklə də məscid bir neçə bərabər genişlənmişdir. Həmçinin namaz qılmaq üçün məscidin çölünün yeri daşla döşənmişdir. Qeyd etmək lazımdır ki, fəqihlər Peyğəmbərin (s) məscidinə aid olan xüsusi hökmlərin əlavə olunmuş yerlərə də aid olması barədə qəti olaraq hökm irəli sürməmişlər.

Həzrət Peyğəmbərin (s) məscidi iki dəfə yanğın hadisəsinə mə`ruz qalmışdır. İlk dəfə 654-ci hicri-qəməri tarixi ilə «Əl-mö`təsim Billah»ın xilafəti zamanında yanmış və tədricən tə`mir olunmuşdur. Daha sonra 886-cı ildə həzrət Peyğəmbərin (s) otağı və məscidin günbəzindən başqa hamısı yanmış

və Misir padşahının təşəbbüsü ilə yenidən tikilmişdir ki, bu iş 888-ci hicri-qəməri ilində sona çatmış və eyni halda məscidin şərq hissəsi genişləndirilmişdir.

3. Məscidin fəziləti:

856. Həzrət Peyğəmbər (s) buyurub: «Yalnız üç məscidə tərəf səfərə çıxılır: Kəʾbə məscidi, mənim məscdim və Beytül-müqəddəsdə yerləşən İlya məscidi».[912]

858. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs təharətli halda çölə çıxıb yalnız mənim bu məscidimə gəlib, orada namaz qılmaq niyyətində olarsa, sanki həcc əməlini əncam vermişdir».[913]

4. Orada namaz qılmağın fəziləti:

859. Həzrət Peyğəmbər (s) buyurub: «Mənim məscidimdə qılınan bir namaz, Məscidul-həramdan başqa məscidlərdə qılınan min namaza bərabərdir».[914]

860. Həzrət Peyğəmbər (s) buyurub: «Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-həramdan başqa yerlərdə qılınan min namazdan üstündür».[915]

861. Həzrət Peyğəmbər (s) buyurub: «Mənim məscidimdə namaz qılmaq, başqa məscidlərdə qılınan on min namaz ilə bərabərdir. Amma Məscidul-həramda qılınan bir namaz yüz min namaza bərabərdir»[916]

862. Həzrət Peyğəmbər (s) buyurub: «Bir şəxsin öz evində qıldığı namaz, elə bir namaz bərabərindədir.... Onun mənim məscidimdə qıldığı namazı əlli namaz, Məscidul-həramda qıldığı namazı isə yüz min namazla bərabərdir».[917]

863. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs bircə namazı belə qəzaya getməmiş halda mənim məscidimdə qırx namaz qılarsa, onun üçün Cəhənnəm və əzabdan nicat tapmaq yazılar və ikiüzlülükdən də paklaşar».[918]

864. Həzrət imam Sadiq (ə) buyurub: «Bacardığınız qədər bu məsciddə çoxlu namaz qılın ki, bu sizin üçün daha yaxşıdır və bilin ki, bəʾzi vaxtlar bir şəxs dünya işlərində zirəng olduğu üçün deyirlər: Filankəs necə də zirəngdir!

Bəs görəsən Axirət işində zirəng olan şəxs necə olacaqdır?».[919]

865. Əbu Bəkr Xəzrəmi nəql etmişdir ki, imam Sadiq (ə) mənə bacardığım qədər Peyğəmbərin (s) məscidində namaz qılmağıma göstəriş verib buyurdu: «Və belə də deyildir ki, istədiyin hər bir vaxtda bacarasan».[920]

866. Əmmar ibni Musa Sabati nəql etmişdir ki, imam Sadiq (ə)-dan soruşdum: Həzrət Peyğəmbərin (s) məscidində qılınan namaz Mədinə şəhərində qılınan namaz kimidirmi? Həzrət (ə) buyurdu: «Xeyr, çünki Peyğəmbərin (s) məscidində qılınan namaz min namazla bərabərdir. Mədinədə qılınan namaz isə başqa şəhərlərdə qılınan namaz kimidir!».[921]

**5. Orada namazın bütöv qılınması:**

867. Həzrət imam Sadiq (ə) buyurub: «Dörd yerdə namaz bütöv və tamamdır: Məscidul-həram, Peyğəmbərin məscidi, Kufə məscidi və imam Hüseyn (ə)-ın hərəmi».[922]

**6. Onun qaydaları:**

868. Həzrət imam Sadiq (ə) buyurub: «Məscidə daxil olduqda, Mədinə şəhərində çərşənbə, cümə axşamı və cümə günlərini qala bilsən, çərşənbə günü qəbr ilə minbər arasında və qəbrə yaxın olan sütunun yanında namaz qılıb, dua et və dünya və Axirətə aid olan hacətlərini Allahdan istə.

İkinci gün «tövbə» sütunu, üçüncü gün isə ətiri çox olan sütunun müqabili və həzrət Peyğəmbərin (s) yerinin kənarında bu əməlləri yerinə yetir. Beləliklə bu sütunların yanında hər bir hacət üçün Allahı çağırır və bu üç gündə oruc tutursan».[923]

869. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinədə üç gün qaldıqda, çərşənbə günü oruc tutub o gecə Əbu Lubabə sütununun (yəʾni, Əbu Lubabənin özünü bağlayıb və beləliklə də ayə nazil olaraq asimandan onun üzrünün qəbul olunmasının eʾlan edildiyi tövbə sütununun) kənarında namaz qılır və çərşəmbə günü isə onun kənarında əyləşirsən.

Sonra cümə axşamının gecəsi Peyğəmbərin (s) yerinin yaxınlığında olan sütunun yanına gəlir və öz gecə və gündüzünü, cümə axşamının günü isə oruc tutursan. Əgər bu üç gündə çarəsizlik hallarından başqa bir ilə danışmamağa imkanın olsa, belə et.

Həmçinin zəruri hallardan başqa məsciddən xaric olma və doqquz gecə və doqquz gün yatmamağı bacarsan, belə et. Çünki bunların hamısı fəzilət sayılır.

Daha sonra cümə günü Allaha həmd və səna deyib, Peyğəmbərə (s) salavat göndər və hacətlərini istə. Dualarından bir də belə olsun:

"Allahummə ma kanətli iləykə min hacətin şərəʾtu ənə fi tələbiha vəltimas

kinsinlər. «Rəfəs»-(cinsi) yaxınlıq, «fusuq»-söyüş, «cidal»-isə insanın mübahiha əv ləm əşrə̀. Sə̀əltukəha əv ləm əs̀əlkəha, fəinni ətəvəccəhu iləykə binəbiyyikə Muhəmmədin nəbiyyir-rəhməti səlləllahu ələyhi və Alihi fi qəzai həvaici səğriha və kəbiriha".

Bundan sonra həqiqətən Allahın sənin hacətlərini həyata keçirməyə layiqlisən. İnşaallah».[924]

870. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Peyğəmbərin (s) qəbri yanında dua edib qurtardıqdan sonra, minbərin yanına gedib ona əl çək və aşağıda olan iki (bir şey yoxdur, məşdi özün bax) tutub, gözlərin və üzünü ona sürt ki, deyilənə görə o, gözün şəfasıdır. Onun yanında duraraq Allaha həmd və səna deyib, hacətini istə ki, həzrət Peyğəmbəri (s) buyurub: «Minbər ilə mənim evimin arasında Behişt bağlarından olan bir bağ vardır və mənim minbərim Behiştin kiçik qapılarından birinin üzərində yerləşmişdir». Daha sonra Həzrət Peyğəmbərin (s) yerinə yaxınlaşıb istədiyin qədər orada namaz qılırsan. Həzrət Peyğəmbərin (s) məscidinə daxil olub və oradan xaric olarkən o Həzrətə (s) salavat göndər və həzrət Peyğəmbərin (s) məscidində çoxlu namaz qıl».[925]

871. Həzrət imam Sadiq (ə) buyurub: « Həzrət Peyğəmbərin (s) məscidində namaz qılmaq üçün ən yaxşı yer qəbrin yaxınlığıdır. Mədinəyə daxil olduqda, qüsl edərək məscidə gedib, Həzrət Peyğəmbərin (s) qəbrindən başlayaraq onun yanında dur. Həzrət Peyğəmbərə (s) salam verib, o Həzrətin peyğəmbərliyi onu yetirməsinə şəhadət ver. Həmçinin o Həzrətə çoxlu salavat göndərib, Allah-taala sənə imkan verənədək orada dua oxu».[926]

## İKİNCİ FƏSİL

### *HƏZRƏT PEYĞƏMBƏRİN (S) ZİYARƏTİ*

### *HƏZRƏT PEYĞƏMBƏRİN (S) ZİYARƏTİNƏ ŞÖVQLƏNDİRMƏ*

872. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs həcc əməlini əncam verib, mənim vəfatımdan sonra məni ziyarət edərsə, mənim həyatım zamanında məni ziyarət edən kimi olar».[927]

873. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs həccə gedib, amma məni ziyarət etməsə, mənə cəfa etmişdir».[928]

874. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs mənim vəfatımdan sonra məni ziyarət etsə, sanki, diri olanda məni ziyarət etmiş və hər kəs vəfatımdan sonra mənlə qonşu olsa, sanki, həyatım zamanında mənlə qonşu olmuşdur».[929]

875. Həzrət imam Əli (ə) buyurub: «Allah evinin ziyarətinə getdikdə, öz həccinizi həzrət Peyğəmbərin (s) ziyarəti ilə kamilləşdirin ki, onu tərk etmək cəfadır. Buna məʾmur

olmusunuz və öz həccinizi Allah-taala haqq və ziyarətni sizə lazım etdiyi qəbrləri ziyarət etməklə tamamlayın və bu qəbrlərin yanında Allahdan ruzi istəyin».[930]

876. Yəhya ibni Yəsar nəql etmişdir ki, həcc əməlini əncam verib, həzrət imam Sadiq (ə)-ın yanından ötdükdə, o Həzrət (ə) buyurdu: «Ey Allah evi və Peyğəmbərin (s) qəbrinin zəvvarları v Əhli-beyt şiələri! Bu ziyarət sizə nuş olsun!»[931]

877. Əbdüs-Səlam ibni Saleh Hirəvi nəql etmişdir ki, imam Rza (ə)-a ərz etdim: Ey Peyğəmbərin (s) övladı! Əhli sünnətin rəvayət etdikləri—«Möʾminlər Behiştdə olan öz evlərində Pərvərdigarı ilə

görüşəcəklər»—hədisi barədə nə buyurursunuz? Həzrətə (ə) buyurub: «Ey Əba Səlt! Allah-taala öz peyğəmbəri Məhəmmədi (s) peyğəmbərlər və mələklərdən olan bütün məxluqlarından üstün tutaraq, onun itaətini öz itaəti, ondan tabeçiliyi öz tabeçiliyi və dünya və Axirətdə onun ziyarətini öz ziyarəti qərar vermişdir. Allah-taala buyurub: «Hər kəs peyğəmbərdən itaət etsə, həqiqətən Allahdan itaət etmişdir».(Nisa\80)

Həmçinin buyurub: «Səninlə bey̓ət edənlər Allahla bey̓ət edirlər, Allahın əli (qüdrəti) onların əlinin üstündədir».(Fəth\10)

Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs məni diri halım və ya

vəfatımdan sonra ziyarət etsə, həqiqətdə Allahı ziyarət etmişdir. Behiştdə peyğəmbərin (s) dərəcəsi ən üstün dərəcədir ki, hər kəs Behiştdə onunla öz dərəcəsində görüşərsə, həqiqətdə Allah-taalanı ziyarət etmişdir».[932]

### *YAXIN VƏ UZAQDAN O HƏZRƏTƏ (S) SALAM VERMƏK*

878. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs vəfatımdan sonra mənim qəbrimi ziyarət etsə, sanki diri vaxtımda mənə tərəf hicrət etmişdir. Beləliklə ziyarət imkanınız olmasa, mənə salam göndərin ki, sizin salamınız mənə çatır».[933]

879. Həzrət Peyğəmbər (s) buyurub: «Allah-taala mənim üçün şərq və qərb şəhərlərindən mənə salam verənin salamını mənə yetirmək üçün iki mələk yaratmışdır. Amma öz evimdə mənə salam verənin cavabını mən özüm verirəm».[934]

880. Həzrət imam Sadiq (ə) buyurub: «Mədindən keçib yaxından Həzrət Peyğəmbərə (s) salam verin. Hərçənd uzaqdan göndərilən salavat da ona çatır».[935]

881. Həzrət imam Sadiq (ə) buyurub: « Həzrət Peyğəmbərin (s) qəbri kənarında salavat göndərin. Hərçənd mö᾽minlərin salavatı hər bir yerdə olsalar da o Həzrətə (s) çatır».[936]

882. Amir ibni Əbdillah nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim: «Karvançıma iki və ya üç dirhəm çox verdim ki, məni Mədinədən keçirsin». Həzrət (ə) buyurdu: «Yaxşı etmisən, necə də asan bir işdir! Həzrət Peyğəmbərin (s) qəbri kənarına gedərək, ona salam verirsən. Agah ol ki, o Həzrət (s) sənin yaxından verdiyin salamını eşidir və sənin uzaqdan olan salamın da o Həzrətə (s) çatır».[937]

## *HƏZRƏT PEYĞƏMBƏRİN (S) ÖZ ZƏVVARLARI ÜÇÜN ŞƏFAƏT ETMƏSİ*

883. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs ziyarət üçün mənim yanıma gəlsə, Qiyamət günü onun şəfaətçisi olacağam».[938]

884. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs ziyarətdən başqa ayrı bir işi olmadan mənim ziyarətimə gəlsə, Qiyamət günü onun şəfaətçisi olmaq mənim borcumdur».[939]

885. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs mənim qəbrimi ziyarət etsə, onu şəfaət etmək mənə rəva olar və hər kəs məni vəfat etdikdən sonra ziyarət etsə, sanki diri halımda məni ziyarət etmişdir».[940]

886. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs həcc üçün Məkkəyə gəlib amma məni ziyarət etməsə, mən də Qiyamət günündə ona cəfa edərəm. Hər kəs mənim ziyarətimə gəlsə, mənim şəfaətim ona vacib olar, şəfaətim vacib olan şəxsə isə Behişt vacibdir».[941]

887. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs Allaha görə Mədinədə məni ziyarət etsə, Qiyamət günündə onun üçün şahid və şəfaətçi olaram».[942]

888. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs vəfat etdikdən sonra məni ziyarət etsə, diri vaxtımda məni ziyarət edən kimi olar vmən Qiyamət günündə onun üçün şahid və şəfaətçi olaram».[943]

## *PEYĞƏMBƏRİ ZİYARƏT ETMƏYİN SAVABI*

889. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs həcc üçün Məkkəyə gedib və daha sonra məscidimdə mənim görüşümə gəlsə, onun üçün iki qəbul olunmuş həcc əməli yazılar».[944]

890. Həzrət imam Baqir (ə) buyurub: « Həzrət Peyğəmbərin (s) qəbrini ziyarət etmək, o Həzrət ilə

birlikdə qəbul olunmuş bir həcc ilə bərabərdir».[945]

891. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs mənim diri halım və vəfatımdan sonra ziyarət edərsə, Qiyamət günündə mənim qonşuluğumda olacaqdır».[946]

892. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs Allaha xatir, mənim ziyarətim üçün Mədinəyə gəlsə, Qiyamət günündə mənim qonşuluğumda olacaqdır».[947]

893. Həzrət Peyğəmbər (s) buyurub: «Ya Əli! Hər kəs məni diri halım və vəfatımdan sonra, Səni diri halın və vəfatından sonra və habelə iki oğlanlarını (Həsən və Hüseyn (ə)) diri halları və vəfatlarından sonra ziyarət edərsə,

Mən Qiyamət günündə onu (o) günün qorxu və çətinliklərindən qurtarıb, öz dərəcəmdə özüm ilə birgə qərar verməyimə zəmanət verirəm».[948]

894. Əbu Şəhab nəql etmişdir ki, imam Hüseyn (ə) həzrət Peyğəmbərə (s) dedi: «Ata! Səni ziyarət edən şəxsin savabı nədir?» Həzrət Peyğəmbər (s) buyurub: «Oğlum! Hər kəs məni, ya atanı, ya qardşını, ya da özünü (səni) diri olan halda və yaxud vəfat etdikdən sonra ziyarət etsə, Qiyamət günündə onu ziyarət edib, günahalarından qurtarmaq mənim öhdəmdədir».[949]

895. Həzrət imam Sadiq (ə) buyurub: «Bir gün imam Hüseyn

(ə) Peyğəmbərin (s) qucağında əyləşən halda başını qaldırıb soruşdu: «Ata!» Buyurdu: «Bəli, oğlum». Dedi: «Hər kəs sənin vəfatından sonra yalnız səni ziyarət etmək üçün ziyarətinə gəlsə, onun savabı nədir?» Həzrət Peyğəmbər (s) buyurdu: «Oğlum! Hər kəs mənim vəfatımdan sonra yalnız məni ziyarət etmək üçün ziyarətimə gəlsə, Behiştə daxil olar».[950]

896. İbni Əbi Nəcran nəql etmişdir ki, imam Baqir (ə)-a ərz etdim: «Sənə fəda olum! Öz iradəsi ilə həzrət Peyğəmbərin (s) ziyarətinə gedən şəxsin savabı nədi?

Həzrət (ə) buyurdu: «Onun əcri Behiştdir».[951]

## *PEYĞƏMBƏRİ (S) ZİYARƏT ETMƏYİN QAYDASI*

897. Həzrət imam Baqir (ə) buyurub: «Atam imam Səccad (ə) Peyğəmbərin (s) qəbri kənarında durub o Həzrətə (s) salam verir və peyğəmbərliyi çatdırmasına şəhadət verərək nəzərində olan hər hansı bir hacəti üçün dua edirdi. Daha sonra arxasını qəbrin kənarında olan ensiz yaşıl daşa söykəyir və özünü qəbrə yapışdırdı. Həmçinin arxasını qəbrə söykəyərək üzü qibləyə durur və belə deyirdi: «Allahummə iləykə əlcəʾtu zəhri və ila qəbri Muhəmmədin əbdikə və rəsulikə əsnədtu zəhri, vəl-qiblətəl-ləti rəzitə li-Muhəmmədin səllallahu ələyhi vəAlihi istəqbəltu. Allahummə inni əsbəhtu la əmliku li nəfsi xəyrə ma ərcu və la ədfəʾu ənha şərrə ma əhzəru ələyha. Və əsbəhtil-umuru biyədikə, fəla fəqirə əfqəru minni. İnni lima ənzəltə iləyyə min xəyrin fəqrun. Allahummə urdudni minkə bixəyrin fəinnəhu la raddə li fəzlikə, Allahummə inni əuʾzu bikə min ən tubəddiləsmi, əv tuğəyyirə cismi, əv tuzilə neʾmətəkə ənni. Allahummə kərrimni bittəqva və cəmmilni binʾniəm vəğmurni bil-afiyəti vər-zuqni şukrəl-afiyəh».[952]

898. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinəyə daxil olmazdan qabaq və ya daxil olarkən qüsl et. Sonra Peyğəmbərin (s) qəbri yanına gələrək durur və həzrət Peyğəmbərə (s) salavat göndərirsən. daha sonra qəbrin sağ tərəfində yerləşən sütunun kənarında və qəbrin baş tərəfinin bir guşəsində üzü qibləyə durur,—belə ki, sol çiynin qəbrə tərəf, sağ çiynin isə minbərə;—Peyğəmbərin (s) mübarək başı tərəfinə olan halda deyirsən:

«Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh və əşhədu ənnəkə rəsulullah və əşhədu ənnəkə Muhəmmədubnu Əbdillah və əşhədu ənnəkə qəd bəlləğtə risalati Rəbbikə və nəsəhtə liummətik və cahədtə fi səbilillahi və əbədtəllahə

(muxlisən) hətta atakəl-yəqin, bil-hikməti vəl-məvizətil-həsənəh və əddəytəl-ləzi ələykə minəl-həqqi və ənnəkə qəd rəuftə bil-muʾminin və ğəluztə ələl-kafirin, fəbələğəllahu bikə əfzələ şərifi məhəllil-mukərrəmin. Əl-həmdu lillahil-ləzi-sətənqəzna bikə minəş-şirki vəzzəlaləti.

Allahummə fəcʾəl sələvatikə və sələvati məlaikətikəl-muqərrəbin və ibadikəs-salihin və ənbiyaikəl-mursəlin və əhlis-səmavati vəl-ərzin və mən səbbəhə ləkə ya Rəbbəl-aləmin, minəl-əvvəlinə vəl-axirin əla Muhəmmədin əbdikə və rəsulikə və nəbiyyikə və əminikə və nəciyyikə və həbibikə və səfiyyikə və xasətikə və səfvətikə və

xiyərətikə min xəlqik. Allahummə ə᾿tihid-dərəcətə vəl-vəsilətə min cənnəti, vəb᾿əshu məqamən yuğbituhu bihil-əvvəlunə vəl-axirun.

Allahummə innəkə qultə: «Və ləv ənnəhum iz zələ᾿mu ənfusəhum caukə fəstəğfərul-lahə vəs-təğfərə əlhumur-rəsulu ləvəcədullahə təvvabən Rəhimən». Və inni ətəytu nəbiyyəkə mustəğfirən taibən min zunubi və inni ətəvəccəhu bikə iləllahi Rəbbi və Rəbbəkə liyəğfirə li zunubi».

Əgər bir hacətin olsa, peyğəmbərin (s) qəbrini arxada qoyub üzü qibləyə tərəf dur və əllərini qaldıraraq hacətini istə ki,

inşaallah hacətinin həyata keçməsi üçün daha layiqlisən.[953]

899. Məhəmməd ibn Məs᾿ud nəql etmişdir ki, imam Sadiq (ə) Peyğəmbərin qəbrinə yaxınlaşaraq əlini ona qoyub belə dedi:

«Əsəlullahəl-ləzictəbakə və xtarəkə və hədakə və həda bikə ən yusəlliyə ələyk. İnnəllahə və məlaikətu yusəllunə ələn-nəbiyyi ya əyyuhəlləzinə amənu səllu ələyh və səllimu təslima».[954]

900. İshaq ibni Əmmar nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: Mənə Peyğəmbərə demək üçün qısa və asan bir salam öyrət. Həzrət (ə) buyurdu: «Belə de: Əs᾿əlullahəlləzinə təcəbəkə vəs təfakə vəxtarəkə və hədakə və həda

bikə ən yusəlliyə ələykə səlatən kəsirətən təyyibətən».[955]

901. Həzrət imam Kazim (ə) buyurub: «Peyğəmbərin (s) qəbrinin ziyarətinə gedib, boynunda olan əməlləri yerinə yetirdikdən sonra iki rəkət namaz qıl və daha sonra mübarək başın yanında duraraq belə de:

«Əssəlamu ələykə ya nəbiyyəllah, min əbi və ummi və zəvcəti və vuldi, və cəmii hömməti və min cəmiiˀ əhli bələdi, hurrihim və əbdihim və əbyəzihim və əsvədihim»

Əgər birinə—mən sənin salamını Peyğəmbərə (s) çatdırdım—sözünü demək istəsən, düz demiş olasan».[956]

902. Əhməd ibni Məhəmməd ibni Əbi Nəsr nəql etmişdir ki, imam Rza (ə)-a ərz etdim: Həzrət Peyğəmbərin (s) qəbri kənarında o Həzrətə salam vermək necə olmalıdır? Həzrət (ə) buyurdu: «Belə de:—Əssəlamu əla rəsulillah, əssəlamu ələykə ya həbibəllah, əssəlamu ələykə ya səfvətəllah, əssəlamu ələykə ya əminəllah, əşhədu ənnəkə qəd nəsəhtə liummətikə və cahədtə fi səbilillah və əbədtəhu hətta ətakəl-yəqin, fəcəzakəllahu əfzələ ma cəza nəbiyyən ən ummətih.

Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmmdin əfzələ ma səlləytə əla İbrahimə və

Ali İbrahim, innəkə həmidun Məcid».[957]

903. İbrahim ibni Əbil-bilad nəql etmişdir ki, imam Rza (ə) mənə buyurdu: «Peyğəmbərə (s) salam verərkən nə deyirsən?» Dedim: Öyrədin, sizə fəda olum. O həzrətin (ə) kənarında əyləşmişdim ki, öz xətti ilə bunu yazaraq mənə oxudu:

«Əşhədu ən la ilahə illəllahu vəhdahu la şərikə ləhu və əşhədu ənnəkə Muhəmmədubnu Əbdillah, və əşhədu ənnəkə Rəsulullah və əşhədu ənnəkə xatəmun-nəbiyyin və əşhədu ənnəkə qəd bəlləğtə risalətə Rəbbikə və nəsəhtə liummətikə və cahədtə fi səbili Rəbbikə və əbədtəhu hətta ətakəl-yəqin. Və əddəytəl-ləzi ələykə

minəl-həqq. Allahummə səlli əla Muhəmmədin əbdikə və rəsulikə və nəciyyikə və əminikə və səfiyyikə və xiyərətikə min xəlqikə əfzələ ma səlləytə əla əhədin min ənbiyaikə və rusulik. Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd kəma səlləmtə əla Nuhin fil-aləmin. Vəmnun əla Muhəmmədin və Ali Muhəmmədin kəma mənəntə əla Musa və Harun. Və barik əla Muhəmmədin və Ali Muhəmmədin kəma barəktə əla İbrahimə və Ali İbrahim. İnnəkə Həmidun və tərəhhəm əla Muhəmmədin və Ali Muhəmmd. Allahummə Rəbbəl-bəytil-həram və Rəbbəl-məscidil-həram və Rəbbər-Rukni vəl-məqam və Rəbbəl-

bələdil-həram və Rəbbəl-hilli vəl-həram və Rəbbəl-məş᾿əril-həram bəlliğ ruhə (nəbiyyikə) Muhəmmədin minnis-səlam».[958]

904. Mərhum Seyyid ibni Tavus, Həzrət Peyğəmbərin (s) ziyarəti və müqəddəs məscidinin əmllərini şərh edərək, buyurmuşdur: «Mədinə şəhərinə daxil olduqda, həm şəhərə, həm də Peyğəmbərin (s) məscidinə daxil olub, o Həzrəti (s) ziyarət etmək üçün qüsl etməyin müstəhəbdir. Sonra məscidə daxil olur və məscidin qapısına tərəf gedən halda deyirsən:

«Allahummə qəd və qəftu əla babin min əbvabi buyuti nəbiyyikə ələyhi və ələyhimus-salam, və qəd mənətən-nasəd-duxulə ila buyutihi

illa biizni nəbiyyikə fəqultə: «Ya əyyuhəlləzinə amənu la tədxulu buyutən-nəbiyyi illa ən yuzənə ləkum».

Allahummə inni əˌtəqidu hurmətə nəbiyyikə fi ğəybətihi kəma əˌtəqidu fi həzrətih, və əˌləmu ənnə rusuləkə və xuləfaəkə əhyaun indəkə yurzəqun, yərəvnə məkani fi vəqti haza və zəmani, və yəsməunə kəlami fi vəqti haza və zəmani, və yəruddunə ələyyə səlami və ənnəkə həcəbtə ən səmˌi kəlaməhum və fətəhtə babə fəhmi biləzizi muncatihim. Fəinni əstəˌzinukə ya Rəbbi əvvələn, vəstəˌzinu rəsuləkə saniyən səlavatukə ələyhi və Alihi. Və əstəzinu xəlifətəkəl-məfruzə ələyyə

taətuhu fid-duxuli fi saəti hazihi ila bəytihi və əstəˀzinu məlaikətəkəl-muvəkkilinə bihazihil-buqˀətil-mubarəkə-til-mutiəti lillhis-samiəti.

Əssəlamu ələykum əyyuhəl-məlaikətul-muvəkkilunə bihazəl-məˀvdiiˀl-mubarəki və rəhmətullahi və bərəkatuh. Biiznillahi və izni xuləfaihi və iznikum sələvatullahi ələykum əcməin. Ədxulu hazəl-bəytə mutəqərribən iləllahi və rəsulihi Muhəmmədin və Alihit-tahirin. Fəkunu-məlaikətəllah-əˀvani və kunu ənsari hətta ədxulə hazəlbəytə və əduˀvəllahə bifununid-dəəvat və əˀtərifə lillahi bilubdiyyəti və lir-rəsuli bit-taəti».

Daha sonra sağ ayağını qabağa ataraq, içəri daxil olan halda deyirsən:

«Bismillahi və billahi və fi səbililillahi və əla Milləti rəsulil-lahi – Rəbbidxilni mudxələ sidqin və əxricni muxrəcə sidqin vəcʾəl li min lədunkə sultanən nəsira». Və beləliklə də yüz dəfə «Allahu əkbər» deyir və məscidə daxil olduqda isə iki rəkət «təhiyyət» namazı qılırsan.

Daha sonra o Həzrətin dəfn olduğu kiçik otağa tərəf gedib, ona əl çəkərək öpür və belə deyirsən:

«Əs-səlamu ələykə ya rəsuləllah, əs-səlamu ələykə ya nəbiyəllah, əs-səlamu ələykə ya Muhəmməd ibni Əbdillah, əs-səlamu ələykə ya

xatəmən-nəbiyyin, ənnəkə qəd bəlləğtər-risaləlatə və əqəmtəs-səlatə və atəytəz-zəkatə və əmərtə bil-məʾruf, və nəhəytə ənil-munkər, və əbədtəllahə hətta ətakəl-yəqin, fəsələvatullahi ələykə və rəhmətuhu və əla əhli bəytikət-tahirin».

Daha sonra zərihin bir guşəsi və qəbrin sağ tərəfində yerləşən sütunun kənarında üzü qibləyə tərəf durur;—belə ki, sol çiynin qəbrə tərəf, sağ çiynin isə minbərə tərəf olsun ki, bu yer həzrət Peyğəmbərin (s) müqəddəs başının yeridir—və belə deyirsən:

«Əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh və əşhədu

# ənnə Muhəmmədən əbduhu və rəsuluhu səlləllahu ələyhi və Alih.

Və əşhədu ənnəkə rəsulullah və ənnəkə Muhəmməd ibni Əbdillah. Və əşhədu ənnəkə qəd bəlləğtə risalati Rəbbikə və nəsəhtə liummətikə və cahədtə fillahi həqqə cihadihi daiyən ila taətihi, zacirən ən məʾsiyətih. Və ənnəkə ləm təzəl bil-muʾmininə rəufən Rəhimən və ələl-kafirinə ğəlizən, hətta ətakəl-yəqin. Fəbələğəllahu bikə əşrəfə məhəllil-mukərrəmin. Əl-həmdu lillahil-ləzis-tənqəzəna bikə minəş-şirki vəz-zəlaləti. Allahummə fəcʾəl sələvatikə və sələvati məlaikətikəl-muqərrəbin və ibadikəs-salihin və ənbiyaikəl-mursəlin və əhlis-səmavati vəl-ərzin, mimmən səbbəhə ləkə ya Rəbbəl-aləminə minəl-əvvəlinə vəl-axirinə əla Muhəmmdən əbdikə və rəsulikə və nəbiyyikə və əminikə və nəcibikə və həbibikə və xassətikə və səfvətikə və xiyərtikə min xəlqikə. Allahumməb-əshu məqamən məhmudən yuğbituhu bihil-əvvəlunə vəl-axirun. Allahumməm-nəhhu əşrəfə mərtəbətin vərfəʾhu ila əsna dərəcətin və mənzilətin və əʾtihil-vəsilətə vər-rutəbətəl-aliyətəl-cəliləh. Kəma bəlləqə nasihən və cahədə fi səbərə əlal-əza fi cəlbikə və əvzəhə dinəkə və əqamə hucəcəkə və həda ila taətikə və ərşədə ila mərzatik.

Allahummə səlli ələyhi və ələl əimmətil-əbrari min zurriyyətihi vəl-əxyari min itrətihi və səlləmə ələyhim əcməinə təslima. Allahummə inni la əcidu səbilən iləykə sivahum və la əra şəfiən məqbuləş-şəfaəti indəkə ğəyrəhum, bihim ətəqərrəbu ila rəhmətikə və bivilayətihim ərcu Cənnətəkə və bil-bəraəti min əʾdaihim uəmmilul-xəlasə min əzabikə.

Allahummə fəcʾəlni bihim vəcihən fid-dünya vəl-axirəti və minəl-muqərrəbin.

Sonra üzünü qəbrə tərəf tutub, deyirsən:

«Əsʾəlullahəl-ləzic-təbakə və hədakə və həda bikə ən yusəlliyə ələykə və əla Əhli bəytikət-tahirin.

Daha sonra əlini zərihin divarına yapışdırır və belə deyirsən:

«Ətəytukə ya rəsuləllah muharcirən iləyk, qaziyən lima əvcəbəhullahu ələyyə min qəsdikə və iz ləm əlhəqəkə həyyən, fəqəd qəsədtukə bəʾdə movtikə alimən ənnə hurmətəkə məyyitən kəhurmətikə həyyən, fəkun li bizalikə indəllahi şahidən».

Bundan sonra əlini üzünə çəkib deyirsən:

«Allahumməcʾəl zalikə bəyʾətən mərziyyətən lədəyk və əhdən muəkkədən indəkə, tuhyiyni ma əhyəytəni ələyh, və ələl-vəfai bişəraitihi və hududihi və

huquqihi və əhkamihi və ləvazimih. Və tumituni iza əməttəni ələyh və təb᾿əsuni iza bə᾿əstəni ələyh».

Daha sonra Peyğəmbərlə (s) üz-üzə,—belə ki, qibləni arxada, qəbri isə qarşında qərar verən halda durur və belə deyirsən:

«Əs-səlamu ələykə ya Nəbiyyəllahi və rəsuləhu, əs-səlamu ələykə ya səfvətəllahi və xiyərətəhu min xəlqihi, əs-səlamu ələykə ya Əminəllahi və huccətəhu, əs-səlamu ələykə ya xatəmən-nəbiyyin və səyyidəl-mursəlin. Əs-səlamu ələykə əyyuhəl-bəşirun-nəzir. Əs-səlamu ələykə əyyuhəda᾿i iləllahi biiznihi vəs-siracul-munir. Əs-səlamu ələykə və əla əhli bəytikəl-ləzinə əzhəbəllahu ənhumur-ricsə və təhhərəhum təthira.

Əşhədu ənnəkə—ya rəsuləllah!—ətəytə bil-həqqi və qultə bis-sidqi. Fəl-həmdu lillahil-ləzi vəffəqəni lil-imani vət-təsdiq və mənnə ələyyə bitaətikə vət-tibai səbilik, və cəˈələni min ummətikə vəl-mucibinə lidəˈvətik, və hədani ila məˈrifətikə və məˈrifətil-əˈimməti min zurriyyətik. Ətəqərrəbu iləllahi bima yurzikə və əbrəu iləllahi mimma yusxitukə muvaliyən liov liyaikə muadiyən liəˈdamkə.

Ciˈtukə ya rəsuləllah zairən və qəsədtukə rağibən, mutəvəssilən iləllahi subhaənəhu və əntə sahibul-vəsiləti, vəl-mənziləti-cəmiləti, vəş-şəfaətil-məqbuləti vəd-dəˈvətil-məsmuəˈti, fəşfəˈli iləllahi təala fil-ğufran vər-rəhməti vət-tovfiqi vəl-

isməti, fəqəd ğəmərətiz-zunubu və şəmələtil-uyubu və usqiləz-zəhru və təzaəʾfəl-vizru. Və qəd əxbərtəna—və xəbərukəs-sidqu—ənnəhu təala qalə:—və qovluhul—həqq—«və ləv ənnəhum iz zələmu ənfusəhum caukə fəstəğfərul—lahə vəstəğfərə ləhumur—rəsulu ləvəcədullahə təvvabən Rəhimən». Və qəd ciʾtukə ya rəsuləllahi mustəğfirən minzunubi, taibən min məasiyyi və səyyiati, və inni ətəvəccəhu bikə iləllahi Rəbbi və Rəbbikə liyəğfirə li zunubi, fəşfəʾli ya şəfiəl-umməti və əcrin ya nəbiyyər-rəhməti səlləllahu ələykə və əla Alikət-tahirin».

Allahdan hacət istəməkdə təlaş edir v durduğun yerdə qibləyə üz

tutaraq qəbri arxa tərəfdə qoyub belə deyirsən:

«Allahummə iləykə əlcəˀtu əmri, və ila qəbri nəbiyyikə və rəsulikə əsnədtu zəhri, və iləl-qiblətil-lətir-təzəytəha istəqbəltu bivəchi, Allahummə inni la əmliku linəfsi xəyrə ma ərcu və la ədfəˀu ənha suə ma əhzəru, vəl-umuru kulluha biyədikə, fəˀəsəlukə bihəqqi Muhəmmədin və İtrətihi və qəbrihit-təyyibil-mubarək, və hərəmihi ən tusəlliyə əla Muhəmmədin və Alihi və ən təğfirə li ma sələfə min zunubi və təˀsiməni minəl-məˀasi fi mustəqbəli umri, və tusəbbitə ələl-imani qəlbi, və tuvəssiə ələyyə rizqi və tusbiğə ələyyən-niˀəm, və təcˀələ

qismi minəl-afiyəti əvfərəl-qisəm və təhfəzəni fi əhli və mali və vuldi. Təkˈəəni minəl-əˈdai, və tuhsinə liyəl-afiyətə fid-dunya və licəmiil-muˈminin vəl-muˈminat, əl-əhyai minhum vəl-əmvat, innəkə əla kulli şəyˈin Qədr».

Bundan sonra «İnna ənzəlnahu fi ləylətil-Qədr» surəsini on bir dəfə oxuyursan.

Daha sonra qəbrlə minbər arasında yerləşən «Peyğəmbər (s) yerinə» gedib, minbərin yaxınlığında olan «Müxəlləqə» sütununun qarşısında duraraq, dörd rəkət (və əgər bacarmasan), iki rəkət ziyarət namazı qılırsan. Salam və təsbihatdan sonra isə belə deyirsən:

«Allahummə haza məqamu nəbiyyikə və xiyərətikə min xəlqikə, cəˀəltəhu rəvzətən min riyazi cənnətikə və şərrəftəhu əla biqan ərzikə birəsulikə və fəzzəltəhu bihi, və əzzəmtə hurmətəhu və əzhərtə cəlalətəhu və əvcəbtə əla ibadikət-təbərrukə bis-səlati vədduai fihi, və qəd əqəmtəni fihi bila həvlin və la quvvətin kanə minni fi zalikə illa fi rəhmətik.

Allahummə fəkəma ənnə həbibəkə la yətəqəddəmuhu fil-fəzli xəlilukə, fəcˀəli-ticabətəd-duai fi məqami həbibik.

Allahummə inni əsˀəlukə fi hazəl-məqamit-tahiri ən tusəlliyə əla Muhəmmədin və Ali Muhəmməd, və ən tuizəni minən-nar və

təmunnə ələyyə bil-cənnəti və tərhəmə li fi rizqi, və tudimə afiyəti və ruşdi, və tusbiğə ne᾿mətəkə ələyyə və təhfəzəni fi əhli və mali və vuldi, və təhrusəni min kulli mutə᾿əddin ələyyə və zalimin li, və tutilə fi taətikə umuri və tuvəffiqəni lima yurzikə lima yurzikə ənni, və tə᾿siməni əmma yusxitukə ələyyə.

Allahummə inni ətəvəssəlu iləykə binəbiyyikə və Əhli-bəytihi, və hucəcikə əla xəlqikə və umənaikə fi ərzikə, ən təstəcibə li duai, və tubəlliğəni fid-dini vəd-dunya əməli və rəcai.

Ya Səyyid və məvlayə qəd sə᾿əltukə fəla tuxəyyibni, və rəcəvtu fəzləkə fəla təhrimni, fə ənəl-fəşru ila rəhmətikəl-ləzi ləysə

li ğəyru ihsanikə və təfəzzulikə, fəˈəsˈəlukə ən tuhərrimə şəˈri və bəşəri ələn-nar. Və tuˈtiyəni minəl-xəyri ma əlimtu minhu və ma ləm əˈləmu, vədfəˈənni və ən validəyyə və ixvani və əxəvati minəş-şərri ma əlimtu minhu və ma ləm əˈləm.

Allahumməğfir li və livalidəyyə və licəmiˈil-muˈmininə vəl-muˈminat, innəkə əla kulli şəyin Qədir və bi kulli şəyin Əlim».[959]

905. Yunus ibni Yəˈqub nəql etmişdir ki, imam Sadiq (ə)-dan həzrət Peyğəmbərin (s) qəbri ilə vidalaşmaq haqqında soruşduqda, buyurdu: «Belə deyirsən: Səlləllahu ələykə, əs-səlamu ələykə, la cəˈələhullahu axirə təslimi ələyk».[960]

906. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinədən xaric olmaq istədikdə qüsl edib, Peyğəmbərin (s) qəbri kənarına get. Bütün hacətlərini deyib qurtardıqdan sonra ora daxil olarkən əncam verdiyin işlərini yerinə yetir və daha belə de:

Allahummə la təcˌəlhu axirəl-əhdi min ziyarəti qəbri nəbiyyikə fəin təvəffəytəni qəblə zalikə, fəinni əşhədu fi məmati əla ma şəhidtu ələyhi fi həyati, ən la ilahə illa əntə və ənnə Muhəmmədən əbdukə və rəsulukə».[961]

## ÜÇÜNCÜ FƏSİL

## *PEYĞƏMBƏRİN (S) QIZI HƏZRƏT FATİMƏ (Ə)-IN ZİYARƏTİ*

### *O HƏZRƏT (Ə)-I ZİYARƏT ETMƏYİN SAVABI*

907. Yəzid ibni Əbdil-Məlik öz atası, o da öz babasından rəvayət etmişdir ki, bir gün həzrət Fatimə (ə)-ın hüzuruna getdikdə mənə salam verərək, buyurdu: «Bura gəlməyinin səbəbi nə olmuşdur?» Dedim: Bərəkət tələbi üçün gəlmişəm.

Həzrət (ə) buyurdu: «Atam mənə xəbər verdi ki, hər kəs ona və mənə üç gün salam versə, Allah-taala (da) Behişti ona vacib edər». Soruşdum: Onunla, sizin diri halınızdamı? Buyurdu: «Bəli, (həm diri halımızda, həm də) vəfatımızdan sonra».[962]

### *HƏZRƏT FATİMƏ (Ə)-I ZİYARƏT ETMƏK QAYDASI*

908. İbrahim ibni Məhəmməd ibni İsa ibni Məhəmməd Urəyzi nəql etmişdir ki, bir gün imam Baqir (ə) bizlə söhbət edərək, buyurdu: «Həzrət Fatimə (ə)-ın qəbrinin ziyarətinə getdikdə belə de: «Ya mumtəhənətum-təhənəkil-lahul-ləzi xələqəki qəblə ən yəxluqək. Fəvəcədəki liməm-təhənəki sabirətən, və zəˀəmna ənna ləki əvliyau və mutəsəddiqunə və

sabirunə likulli ma ətana bihi əbuki səlləllahu ələyhi və Alihi və ətana bihi və siyyuhu səlləllahu ələyhi və Alihi, fəinna nəsˀəluki in kunna səddəqnaki illa il həqtina bitəsdiqina ləhuma bil-buşra linubəşşirə ənfusəna biənna qəd təhurna bivilayətik».[963]

909. Mərhum Şeyx Səduq buyurub: «Həzrət Peyğəmbərin (s) ziyarətindən ayrıldıqdan sonra həzrət Fatimə (ə)-ın—Cəbrail qapısı yaxınlığında yerləşən sütunun kənarından daxil olduqda, Peyğəmbər (s) məzarı yerləşən yerin axırında olan —evinə tərəf getdim və sol tərəfim ona tərəf, arxam isə qibləyə olan halda duraraq, dedim:

«Əssəlamu ələyki ya binti rəsulillah, əssəlamu ələykə ya bintə nəbiyyillah, əssəlamu ələykə ya binti həbibillah, əssəlamu ələykə ya bintə xəlilillah, əssəlamu ələykə ya bintə səfiyyillah, əssəlamu ələykə ya bintə əminillah, əssəlamu ələykə ya bintə xəyri xəlqillah, əssəlamu ələykə ya bintə əfzəli ənbiaillahi və rəsulihi və məlaikətihi, əssəlamu ələyki yəbnətə xəyril-bəriyyəh, əssəlamu ələyki ya səyyidətə nisail-aləminə minəl-əvvəlinə vəl-axirin.

Əssəlamu ələyki ya zəvcətə vəliyyillah, və xəyril-xəlqi bəʾdə rəsulillah. Əssəlamu ələyki ya umməl-Həsəni vəl-Hüseyn, səyyidəy şəbabi əhlil-cənnəh, əssəlamu ələyki əyyətuhəs-

siddiqətuş-şəhidəh, əssəlamu ələyki əyyətuhər-rəziyyətul-mərziyyə, əssəlamu ələyki əyyətuhəl-fazilətuz-zəkiyyəh, əssəlamu ələyki əyyətuhəl-huriyyətul-insiyyəh, əssəlamu ələyki əyyətuhət-təqiyyətun-nəqiyyəh, əssəlamu ələyki əyyətuhəl-muhəddəsətul-əliməh, əssəlamu ələyki əyyətuhəl-məzlumtəil-məğsubəh, əssəlamu ələyki əyyətuhəl-muztəhədətul-məqhurəh.

Əssəlamu ələyki ya Fatimətu bintə rəsuləllah və rəhmətullahi və bərəkatuh. Səlləllahu ələyki və əla ruhiki və bədənik. Əşhədu ənnəki məzəyti əla bəyyinəti min rəbbik, və ənnə mən sərrəki, fəqəd sərrə rəsuləllahi səlləllahu ələyhi və Alih.

Və mən cəfaki, fəqəd cəfa rəsuləllahi səlləllahu ələyhi və Alihi və mən azaki fəqəd aza rəsuləllahi səlləllahu ələyhi və Alih.

Və mən və sələki, fəqəd vəsələ rəsuləllahi səlləllahu ələyhi və Alihi, və mən qətə᾽əki fəqəd qətə᾽ə rəsuləllahi səlləllahu ələyhi və Alih. Li ənnəki bəz᾽ətun minhu və ruhuhul-ləti bəynə cənbəyh, Kəma qalə ələyhi əfzəlu səlamillahi və sələvatih.

Uşhidullahə və rusuləhu və məlaikətəhu ənni razin əmmən rəziti ənhu, saxitun əla mən səxitti ələyhi, mutəbərriun mimmən təbərr᾽əti minhu, muvalin limən valəyt. Muadin limən adəyt. Mubğizun limən əbğəzt, muhibbun

limən əhbəbt. Və kəfa billahi şəhidən və həsibən və caziyən və musiba».[964]

### HƏZRƏT PEYĞƏMBƏRİN (S) QIZI FATİMƏ (Ə)-IN DƏFN OLUNDUĞU YER

910. Həzrət imam Sadiq (ə) buyurub: « Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Mənim qəbrim ilə minbərimin arası, Behişt bağlarından bir bağıdır və mənim minbərim Behişt yollarının birinin üzərindədir". Çünki Fatimə (ə)-ın qəbri qəbrlə minbər arasında yerləşir. Onun qəbri Behişt bağlarından biri olub, Behişt yollarından biri ona tərəfdir».[965]

911. Əhməd ibni Məhəmməd ibni Əbi Nəsr nəql etmişdir ki, imam Rza (ə)-dan soruşdum: Həzrət Peyğəmbərin (s) qızı Fatimə (ə) harada dəfn olunmuşdur? Həzrət (ə) buyurdu: «Bir nəfər bu sualı imam Sadiq (ə)-dan soruşduqda, orada hazır olan İsəbni Musa dedi: Bəqi qəbristanlığında dəfn olunmuşdur.

O kişi imam Sadiq (ə)-a dedi: Bu haqda nə buyurursunuz? Həzrət (ə) buyurdu: «Bu şəxs sənin cavabını verdi».

Həmən kişi dedi: Allah sənə xeyir versin, mənim İsəbni Musa ilə nə işim var? Sənin öz ata-babanın buyurduğunu mənə de!

Həzrət imam Sadiq (ə) buyudru: «O Həzrət (ə) öz evində dəfn olunmuşdur».[966]

912. Əhməd ibni Məhəmməd ibni Əbi Nəsr nəql etmişdir ki, imam Rza (ə)-dan həzrət Fatimə (ə)-ın qəbri barədə soruşduqda, buyurdu: «O Həzrət öz evində dəfn olundu. Bəni Üməyyə Peyğəmbərin məscidini genişləndirdikdə o Həzrətin də qəbri məscidin daxilinə düşdü».[967]

İzah:

Mərhum Şeyx Səduq buyurmuşdur: «Həzrət Fatimə (ə)-ın qəbrinin harada olması barədə müxtəlif rəvayətlər mövcuddur. Bə˒ziləri o Həzrətin (ə) Bəqi

qəbristanlığında, bə᾿ziləri isə Həzrət Peyğəmbərin (s) qəbri ilə minbəri arasında dəfn olunduğunu rəvayət etmişlər. Elə buna görə də həzrət Peyğəmbər (s) buyurub: «Mənim qəbrim ilə minbərimin arası Behişt bağlarından biridir». Bə᾿ziləri də rəvayət etmişlər ki, həzrət Fatimə (ə) öz evində dəfn olunmuş və «Bəni Üməyyə» məscidi genişləndirdikdə O həzrətin qəbri məscidin daxilinə düşmüşdür. Bu isə mənim nəzərimə əsasən düzgündür.

### *BEHİŞT BAĞLARINDAN BİR BAĞ*

913. Həzrət Peyğəmbər (s) buyurub: «Mənim evim ilə minbərimin arası Behişt bağlarından biridir və Mənim minbərim hovuzumun üzərindədir».[968]

914. Maviyətibni Vəhəb nəql etmişdir ki, imam Sadiq (ə)-a ərz etdim: Həzrət Peyğəmbər (s)—mənim evimlə minbərimin arası Behişt bağlarından biridir—sözünü buyurmuşdur? Həzrət (ə) buyurdu: «Bəli, buyurmuşdur.

Həmçinin o Həzrət (ə) buyurdu: Əli (ə) və Fatimə (ə)-ın evi həzrət Peyğəmbərin (s) olduğu evin arasından Bəqiyə çatan küçə ilə üz-üzə olan qapıya qədərdir. Əgər o qapıdan içəri daxil olarkən—divar öz yerində qalmış

olsa—sənin sol çiyninə dəyəcəkdir». O Həzrət (ə) daha sonra başqa evlərin adını sadaladı».[969]

915. Əbu Bəkr Xəzrəmi imam Sadiq (ə)-dan rəvayət etmişdir ki, həzrət Peyğəmbər (s) buyurub: «Mənim evimlə minbərimin arası Behişt bağlarından biridir. Mənim minbərim Behişt yollarından birinin üzərindədir. Minbərimin əsası isə Behiştdə bitmişdir».

Əbu Bəkr Xəzrəmi dedi: Bu gün də bağdırmı? İmam Sadiq (ə) buyurdu: «Bəli, pərdə kənara çəkilsə, görərsiniz!»[970]

916. Cəmil ibni Dərrac nəql etmişdir ki, həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Peyğəmbər (s) buyurmuşdur ki, mənim minbərim ilə evimin arası Behişt bağlarından biridir. Minbərim isə Behişt yollarından birinin üzərindədir. Mənim məscidimdə qılınan bir namaz, Məscidul-həramdan başqa məscidlərdə qılınan min namazla bərabərdir».

Soruşdum: Həzrət Peyğəmbərin (s) evləri ilə Əli (ə)-ın evləri də ondandırmı? Həzrət (ə) buyurdu: «Bəli, üstündür».[971]

917. Müzarim nəql etmişdir ki, imam Sadiq (ə)dan «Rəvzə» (bağ) haqqında soruşduqda, buyurdu: « Həzrət Peyğəmbər (s) buyurmuşdur: «Mənim evimlə minbərimin arası Behişt bağlarından biridir. Mənim isə Behişt yollarından birinin üzərindədir».

Soruşdum: Sizə fəda olum! Bağın miqyası nə qədərdir? Həzrət (ə) buyurdu: «Minbər tərəfində yerləşən dördüncü sütundan kölgələrə qədərdir».

Soruşdum: Sizə fəda olum! Məscidin həyətindən də bağın bir hissəsi sayılırmı? Həzrət (ə) buyurdu: «Xeyr».[972]

## DÖRDÜNCÜ FƏSİL

## *İMAMLARIN (Ə) ZİYARƏTİ*

### *ZİYARƏTLƏRİN SAVABI*

918. Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs məni və ya övladlarından biri ziyarət etsə, Qiyamət günündə onu ziyarət edər və o günün qorxularından ona nicat verərəm».[973]

919. Həzrət Peyğəmbər (s) buyurub: ...Hər kəs imam Həsən (ə)-ı Bəqi᾿ qəbristanlığında ziyarət etsə, ayaqlar büdrəyən gündə onun ayağı Sirat körpüsü üzərində möhkəm qalar».[974]

920. İbrahim ibni Əbdillah nəql etmişdir ki, Həsən ibni Əli (ə) dedi: «Ey Allahın elçisi! Bizi ziyarət edənin savabı nədir?» Həzrət Peyğəmbər (s) buyurub: «Hər kəs məni, ya atanı, ya qardaşını, ya da səni diri halda və ya vəfat etdikdən sonra ziyarət etsə, Qiyamət günündə ona nicat vermək mənim öhdəmdədir».[975]

921. Zeyd Şəhham nəql etmişdir ki, hzrət imam Sadiq (ə)-a ərz etdim: Sizlərdən birini ziyarət edənin savabı nədir? Həzrət (ə) buyurdu: «Bizi ziyarət edən şəxs, sanki həzrət Peyğəmbəri (s) ziyarət etmişdir».[976]

922. Əbu Əbdillah Hərrani nəql etmişdir ki, Həzrət imam Sadiq (ə)-a ərz etdim: Hüseyn (ə)-ın qəbrini ziyarət edənin savabı nədir? Həzrət (ə) buyurdu: «Hər kəs onun yanına gedib, onu ziyarət edərək yanında iki rəkət namaz qılsa, onun üçün bir həcc əməlinin savabı yazılar. Amma orada dörd rəkət namaz qılsa, onun üçün bir həcc və bir ömrə əməlinin savabı yazılar».

Dedim: Sizə fəda olum! İtaəti vacib olan bir imamı ziyarət edən şəxs də bu savaba nail olarmı? Həzrət (ə) buyurdu: «İtaəti vacib olan bir imamı ziyarət edən də buna nail olar».[977]

923. Həzrət imam Sadiq (ə) buyurub: «Hər kəs məni ziyarət etsə, günahları bağışlanar və yoxsul halda dünyadan getməz».[978]

### *BƏQİ᾿DƏ DƏFN OLUNMUŞ İMAMLARI ZİYARƏT ETMƏK QAYDASI*

924. Həzrət imam Baqir (ə) və ya Sadiq (ə) buyurub: «Bəqi᾿də dəfn olunmuş imamlar (ə)-ın qəbrlərinin ziyarətinə getdikdə, onların qəbrlərinin yanında durub, qibləni arxada, qəbri isə qarşında qərar verərək belə de:

«Əssəlamu ələykum əimmətəl-huda, əssəlamu ələykum əhləl-birri vət-təqva, əssəlamu ələykum əyyuhəl-hucəcu əla əhlid-dünya, əssəlamu ələykum əyyuhəl-qəvvamunə fil-bəriyyəti bil-qisti, əssəlamu ələykum əhləs-əsfvəti, əssəlamu ələykum ya Alə rəsulillah səlləllahu ələyhi və Alih.

Əssəlamu ələykum əhlən-nəcva, əşhədu ənnəkum qəd bəlləğtum və nəsəhtum və səbərtum fi zatillah və kuzzibtum və usmə iləykum fə ğəfərtum. Və əşhədu ənnəkumul-əimmətur-raşidunəl-məhdiyyun. Və ənnə taətəkum məfruzəh, və ənnə qovləkumus-sidq və ənnəkum də`əvtum, fələm tucabu və əmərtum fələm tutau və ənnəkum dəaimud-din və ərkanul-ərz.

Ləm təzalu biəynillah, yənsəxukum fi əslabi kulli mutəhhərin və yənqulukum min ərhamil-mutəhhərat.

Ləm tudənniskumul-cahiliyyatul-cəhla, və ləm təşrək fikum fitənul-əhvai, tibtub və tabə mənbətukum, mənnə bikum ələyna dəyyanud-dini fəcəə`ləkum fi buyutin əzinəl-lahu ən turfə`ə və yuzkərə fihəs-muhu vəcə`ələ səlatina ələykum rəhmətən ləna və kəffarətən lizunubina, izixtarəkumullahu ləna, və təyyəbə xəlqəna bima mənnə bihi ələyna min vəlayətikum, və kunna indəhu musəmminə bi`ilmikum, mu`tərifinə bitəsdiqina iyyakum. Və haza məqamu mən əsrəfə və əxtəə vəs-təkanə və əqərrə bima cəna, və rəca biməqamihil-xəlas. Və ən yəstənqiz bikum mustənqizul-həlka minər-rəda. Fəkunu li şufə`aə.

Fəqəd və fətdu iləykum iz rəğibə ənkum əhlud-dünya, vət-təxzu ayatillahi huzuva, vəs-təkbəru ənha, ya mən huvə Qaimun la yəshu və daimun la yəlhu və muhitun bikulli şəyin ləkəl-mənnu bima vəffəqtəni və ərrəftəni əimməti və bima əqəm-təni ələyh. İz səddə ənhu ibadukə və cəhilu mə`rifətəhu vəs-təxəffu bihəqqihi və malu ila sivahu, fəkanətil-minnətu minkə ələyyə məə` əqvamin xəsəstəhum bima xəsəstəni bih.

Fələkəl-həmdu iz kuntu indəkə məqami haza məzkurən məktuba, fəla təhrimni ma rəcəvtu və la tuxəyyibni fima də`əvtu fi məqami haza bihurməti Muhəmmədin və Alihit-tahirin.

Bundan sonra istədiyin hər hansı bir hacət üçün dua et».[979]

# BEŞİNCİ FƏSİL

## *ŞƏHİDLƏR QƏBRİNİN ZİYARƏTİ*

925. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinədə getmək, görmək, namaz qılmaq, və habelə əhd və peyman bağlamağa layiq olan qəbrlərdən bir də Həmzə (rə) və şəhdlərin qəbrlərindən ibarətdir».[980]

926. Həzrət imam Sadiq (ə) buyurub: «Bizə belə çatmışdır ki, Həzrət Peyğəmbər (s) şəhidlərin qəbrinə getdikdə belə deyirdi:

«Əssəlamu ələykum əlykum bima səbərtum fəni҆mə uqbəd-dar».[981]

927. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Fatimə (ə) hər Şənbə gününün sübh çağı şəhidlərin qəbrinin ziyarətinə gedirdi. Həmçinin Həmzənin (rə) qəbri yanına gedərək onun üçün Allahdan rəhmət və əfv tələb edirdi».[982]

928. Həzrət imam Sadiq (ə) buyurub: «Həzrət Fatimə (ə) Peyğəmbərdən (s) sonra yetmiş beş gün yaşamış və heç vaxt sevinən və gülən halda görünməmişdir.

O Həzrət (ə) hər həftə ərzində iki dəfə bazar ertəsi və cümə axşamı günlərində şəhidlərin qəbrinin ziyarətinə gedir və buyurdu: «Həzrət Peyğəmbər (s) burada, müşriklər isə orada idilər.

Mərhum Koleyni (rə) ayrı bir rəvayətdə Əban ibni Təğlib vasitəsi ilə imam Sadiq (ə)-dan nəql etmişdir ki, Həzrət Fatimə (ə) vəfat edənədək orada namaz qılır və dua edirdi».[983]

929. Həzrət imam Sadiq (ə) buyurub: «Mədinə şəhərinin məscidlərini ziyarət edib qurtardıqdan sonra «Ühüd»ə tərəf gedir və dağın aşağısında olan məsciddən başlayırsan. Orada namaz qıldıqdan sonra Həmzə ibni Əbdil-Müttəlibin qəbrinin kənarından keçərək ona salam verirsən. həmçinin şəhidlərin qəbri kənarından keçib, onların yanında duraraq belə deyirsən:

«Əssəlamu ələykum ya əhləd-diyar, əntum ləna fərətun və inna bikum lahiqun».

Daha sonra o geniş yerdə, dağın yaxınlığı və sağ tərəfində yerləşən bir məscidə gedirsən. «Ühüd»ə daxil olduqda orada namaz qılırsan. Həzrət Peyğəmbər (s) müşriklərlə üzləşmək (vuruşmaq) üçün «Ühüd»ə getdikdə oradan çölə gedir və namaz vaxtı çatanadək orada qalıb, namazını qılırdı.

Oradan qayıdanadək bu əməlləri davam etdir və daha sonra şəhidlərin qəbrlərinin yanına gedib, öz vacib namazını orada yerinə yetir...»[980]

930. Mərhum Seyyid ibni Tavus—«Ühüd» şəhidlərinin ziyarəti—mövzusunda buyurub: «Onların kənarında durub, belə deyirsən:

«Əssəlamu əla rəsulillah, əssəlamu əla nəbiyyillah, əssəlamu əla Muhəmmədibni Əbdillah, əssəlamu əla Əhli bəytihit-tahirin, əssəlamu ələykum əyyuhəş-şuhədaul-mu҆minun, əssəlamu ələykum ya əhlə bəytil-

imani vət-tovhid. Əssəlamu ələykum ya ənsarə dinillah və ənsarə rəsulihi ələyhi və Alihis-səlam.

Sələmun ələykum bima səbərtum fəniˋmə uqbəd-dar. Sələmun ələykum bima səbərtum fəniˋmə uqbəd-dar, sələmun ələykum bima səbərtum fəniˋmə uqbəd-dar.

Əşhədu ənnəllahəx-tarəkum lidinihi vəs-təfakum lirəsulih. Və əşhədu ənnəkum cahədtum fillahi həqqə cihadih.

Və zəbəbtum ən dinillahi və ən nəbiyyih. Və cudtum biənfusikum dunəh. Və əşhədu ənnəkum qutiltum əla minhaci rəsulillahi, fəcəzakumullahu ən nəbiyyihi və ənil-islami və əhlihi əfzələl-cəza. Və ərrəfna vucuhəkum fi məhəlli rizvanihi və məvaziiˋikramihi məˋən-nəbiyyinə vəs-sid-diqinə vəş-şuhədai vəs-salihin. Və həsunə ulaikə rəfiqa. Əşhədu ənnəkum hizbullah, və ənnə mən harəbəkum fəqəd harəbəl-lah. Və ənnəkum minəl-muqərrəbinə vəl-faizinəl-ləzinə hum əhyaun ində Rəbbihim yurzəqun. Fəˋəla mən qətələkum, ləˋnətullahi vəl-məlaikəti vən-nasi əcməin. Atəytukum ya əhlət-tovhidi zamra, lihəqqikum arifən və biziyarətikum iləllahi mutəqərriba, və bima səbəqə min şərifil-əˋmal və mərziyyil-əfˋali alima.

Fəələykum səlamullahi və bərəkatuh və əla mən qətələkum ləˋnətullahi və ğəzəbuhu və səxətuh. Allahummən fəˋni biziyarətihim, və səbbitni əla qəsdihim və təvəffəni əla ma təvəffəytəhum ələyh, vəcməˋbəyni və bəynəhum fi mustəqərri dari rəhmətik. Əşhədu ənnəkum ləna fərətun və nəhnu bikum lahiqun».

Bundan sonra bacardığın qədər «İnna ənzəlnahu» surəsini ardıcıl oxuyur və inşaallah qayıdırsan».[985]

**VƏL-HƏMDU LİLLAHİ RƏBBİL ALƏMİN**

**«SON»**

## HAŞİYƏLƏR

1. Ali İmran-96
2. Ən`am-92
3. Fəth-24
4. İləluş-şəraye`, səh-593, hədis-44
5. Əl-kafi, 4-211, hədis-18, İrşadul-qulub, səh-377
6. Ali İmran-97
7. Təfsirul-Əyyaşi, 1-178, hədis-94
8. İləluş-şəraye`, səh-397, hədis-3
9. İləluş-şəraye`, səh-397, hədis-2
10. Məcməul-bəhrəyn, 1-178
11. İləluş-şəraye`, səh-397, hədis-1
12. Əl-kafi, 4-526, hədis-7
13. Qurbul-isnad, səh-237, hədis-929
14. Ənfal-35
15. İləluş-şəraye`, səh-397, hədis-1
16. Əl-xisal, səh-278, hədis-22
17. İbrahim-37
18. Əl-qəsəs-57
19. Nəil-91
20. Bələd-1 və 2
21. Fəzailu Bəytil-muqəddəs, 48-14
22. Təfsirul-Əskəri (ə), səh-661
23. Kənizul-ummal, 14-97, hədis-38039
24. Ən-nihayə, 1-380
25. Musnədu ibni Hənbəl, 6-449, hədis-18740
26. Sunənut-Termezi, 5-723, hədis-3926
27. Əl-məhasin, 1-144, hədis-197
28. Təfsirul-Əyyaşi, 2-233, hədis-41
29. Əl-fəqih, 2-243, hədis-2304
30. Əl-fəqih, 2-244, hədis-2311
31. Təfsirul-Qummi, 1-60
32. Əl-kafi, 4-547, hədis-34
33. Ət-Təhzib, 5-476, hədis-1681
34. Bəqərə-126
35. Ali İmran-97
36. Ənkəbut-67
37. Tin-1-3
38. Məcməul-bəyan, 10-775
39. Əl-Cə`fəriyyat, səh-71
40. Əl-Cə`fəriyyat, səh-71

41. Təfsirur-burhan, 1-660, hədis-1825
42. Təfsirul-Əyyaşi, 1-188, hədis-100
43. Əl-Kafi, 4-226, hədis-2
44. Əl-Kafi, 4-227, hədis-4
45. Əl-Kafi, 4-226, hədis-1
46. Ət-təhzib, 5-348, hədis-1206
47. Ət-təhzib, 5-362, hədis-1258
48. Sünənut-Termezi, 3-197, hədis-837
49. Əl-Kafi, 4-363, hədis-3
50. Əl-Kafi, 4-364, hədis-11
51. Bəqərə-191
52. Əl-Kafi, 4-226, hədis-4
53. Səhihul-Buxari, 1-51, hədis-104
54. Əl-Xisal, 616-10
55. Əl-Kafi, 4-228, hədis-2
56. Əl-Kafi, 4-228, hədis-1
57. Bəqərə-125
58. Tövbə-128
59. İləluş-şərayeˋ, 398-1
60. Dəaimul-islam, 1-381
61. Təfsirul-Qummi, 1-59
62. Səhihul-Buxari, 2-651, hədis-1737
63. Əl-Cəˈfəriyyat, səh-71
64. Əl-Kafi, 4-225, hədis-2
65. Əl-Kafi, 4-230, hədis-1
66. Ət-Təhzib, 5-380, hədis-1325
67. Əl-Fəqih, 2-261, hədis-2365
68. Əl-Fəqih, 2-262, hədis-2270
69. Əl-Kafi, 4-231, hədis-1
70. Əl-Kafi, 4-238, hədis-1
71. Əl-Kafi, 4-239, hədis-4
72. Əl-Kafi, 4-230, hədis-1
73. İləluş-şərayeˋ, 446-2
74. Əl-Kafi, 4-230, hədis-1
75. Əl-Kafi, 4-241, hədis-1
76. Əl-Xisal, səh-628
77. Əl-Fəqih, 2-227, hədis-2259
78. Əl-Kafi, 4-524, hədis-1
79. Əxbaru Məkkə, 2-23
80. Əl-Fəqih, 2-227, hədis-2259
81. Ət-Təhzib, 5-468, hədis-1640
82. Əl-Kafi, 2-612, hədis-4
83. Əl-Kafi, 4-586, hədis-1

84. Əl-Firdovs, 1-99, hədis-325
85. Sunəni ibni Macə᾽, 1-398, hədis-1254
86. Əl-Kafi, 4-412, hədis-2
87. Ət-Təhzib, 5-446, hədis-1555
88. Qurbul-isnad, 383-1350
89. Əl-Kafi, 4-412, hədis-1
90. Ət-Təhzib, 5-447, hədis-1557
91. Əl-Muqniə᾽, səh-447
92. Həcc-25
93. Şuəbul-iman, 7-527, hədis-11221
94. Əl-Kafi, 4-227, hədis-2
95. Əl-Kafi, 4-227, hədis-3
96. Əl-Kafi, 4-337, hədis-533
97. Təfsirul-Əyyaşi, 1-36, hədis-21
98. Ət-Təhzib, 5-381, hədis-1332
99. Uyunu əxbarir-Rza (ə), 1-284, hədis-31
100. Əl-Fəqih, 2-379, hədis-2753
101. Əl-Məhasin, 2-55, hədis-1162
102. Əl-Kafi, 4-325, hədis-11
103. Sunənut-Termezi, 3-208, hədis-852
104. Əl-Kafi, 4-400, hədis-5
105. Əl-Kafi, 4-400, hədis-4
106. Əl-Kafi, 4-202, hədis-3
107. Bəqərə-125
108. Əl-Kafi, 4-400, hədis-3
109. Əl-Kafi, 4-400, hədis-9
110. Əl-Kafi, 4-401, hədis-10
111. Əl-Kafi, 4-398, hədis-1
112. Əl-Məhasin, 1-143, hədis-194
113. Səhihu Muslim, 2-918, hədis-1258
114. Əl-Kafi, 4-248, hədis-4
115. Əl-Kafi, 4-399, hədis-1
116. Əl-Kafi, 4-533, hədis-2
117. Səhihu Müslim, 2-918, hədis-1257
118. Əl-Müstədrəku ələs-səhihəyn, 4-530, hədis-8490
119. Əxbaru Məkkə, 2-64
120. Səhihu Buxari, 3-1260, hədis-3243
121. Səhihu Buxari, 2-659, hədis-1765
122. Əmali Tusi, 369-788
123. Əl-Kafi, 4-527, hədis-10
124. Ət-Təhzib, 5-453, hədis-1584
125. Ali İmran-96
126. Təfsirul-Əyyami, 1-185, hədis-89

127. Təfsirul-Əyyami, 1-185, hədis-90
128. Əl-Kafi, 4-399, hədis-2
129. Dəaimul-islam, 1-311
130. Bəqərə-125
131. Ət-təhzib, 5-251, hədis-852
132. Əs-sunənul Kubra, 5-117
133. Əl-Fəqih, 2-238, hədis-2292
134. Kəşful-ğəmmə, 2-329
135. Əl-Kafi, 4-403, hədis-3
136. Əl-Kafi, 4-401, hədis-1
137. Əl-Kafi, 4-402, hədis-2
138. Kəşful-ğəmmə, 2-397
139. Əl-Kafi, 4-403, hədis-2
140. Əxbaru Məkkə, 2-64
141. Musnədu-ibni Hənbəl, 5-452, hədis-16117
142. Şuəbul-imam, 3-486, hədis-4144
143. Səbabul-əˋmal, 49-1
144. Əl-Fəqih, 1-228, hədis-681
145. Əl-Kafi, 4-526, hədis-4
146. Əl-Kafi, 4-527, hədis-11
147. Uyunu əxbarir Rza, 2-17, hədis-42
148. Maidə-97
149. Əl-Fəqih, 2-190, hədis-2110
150. Həcc-29
151. Həcc-33
152. Əl-Kafi, 4-189, hədis-6
153. Əl-Kafi, 4-189, hədis-5
154. İləluş-şəraye, 399-5
155. İhqabul-həqq, 12-290
156. Maidə-97
157. İbrahim-37
158. İləluş-şəraye, 398-1
159. Ali İmran-96
160. Bəqərə-125
161. Qarixu İsbəhan, 1-212, hədis-312
162. Təfsiru ibni Əbi Hatəm, 2-402, hədis-962
163. Əl-Müstədrəku ələs səhihəyn, 2-321, hədis-3154
164. Əl-Fəqih, 2-241, hədis-2296
165. Əl-isna Əşəriyyə fil-məvaizil-ədədiyyə, səh-158
166. Əl-Kafi, 4-410, hədis-19
167. Əl-Kafi, 4-239, hədis-1
168. Əl-Kafi, 4-197, hədis-1
169. Əl-Fəqih, 2-243, hədis-2306

170. Təfsirul Əyyami, 1-39, hədis-22
171. Əl-mücəmul-kəbir, 11-160, hədis-11490
172. Ət-təhzib, 5-275, hədis-943
173. Əl-Kafi, 4-527, hədis-2
174. Daimul-islam, 1-332
175. Əl-Kafi, 4-469, hədis-3
176. Əl-Fəqih, 2-238, hədis-2292
177. Əvaliul-ləali, 2-84, hədis-227
178. Əl-Kafi, 4-529, hədis-6
179. Əl-Fəqih, 2-306, hədis-2150
180. Əl-Kafi, 4-528, hədis-3
181. Ət-təhzib, 5-276, hədis-946
182. Səhihul Buxari, 1-189, hədis-483
183. Susanun-Nəsai, 5-219
184. Əl-Kafi, 2-579, hədis-10
185. Əl-Kafi, 4-530, hədis-9
186. Əl-Kafi, 4-529, hədis-5
187. Əl-Kafi, 4-529, hədis-7
188. Əl-Kafi, 4-530, hədis-10
189. Daimun-nubuvvət, 2-49
190. Əl-Kafi, 4-187, hədis-1
191. Daimul-islam, 1-292
192. İməluş-şəraye, 398-1
193. Fiqhul-Qur`an, 1-292
194. Əl-Kafi, 4-189, hədis-4
195. Əl-Mənaqib (İbni Şəhr Aşub), 2-43
196. Bəqərə-127
197. Əl-Firdovs, 2-220, hədis-3072
198. Daimul-islam, 1-292
199. Əl-Kafi, 4-202, hədis-3
200. Əl-Əvail, 63-35
201. Səhihul Buxari, 2-574, hədis-1509
202. Əxbaru Məkkə, 1-171
203. Əxbaru Məkkə, 1-174
204. Səhihul Buxari, 2-574, hədis-1507
205. Əl-Kafi, 4-217, hədis-3
206. Fil, 1-5
207. Kənizul-ummal, 2-556, hədis-4718
208. Əl-Kafi, 4-216, hədis-2
209. Əl-Kafi, 8-84, hədis-44
210. Səhihul Buxari, 3-1392, hədis-3618
211. Əl-Kafi, 4-207, hədis-7
212. Ali İmran-96-97

213. Əl-Kafi 4-223, hədis-1
214. Kamiluz-ziyarat, 59-38
215. Əl-Kafi, 4-223, hədis-2
216. İləluş-şəraye, 423-1
217. Camiul-əhadis, səh-71
218. Əl-Firdovs, 2-259, hədis-2808
219. Əl-Firdovs, 2-159, hədis-2807
220. Əl-məcazatun-Nəbi, 444-361
221. Əl-Kafi, 4-205, hədis-4
222. Əl-xisal, 476-40
223. Tarixu Bağdad, 1-55
224. Sunənun-Nəsai, 5-226
225. Əs-sunənul-kubra, 5-122, hədis-9231
226. Təfsirul-Əyyaşi, 1-59, hədis-93
227. Əxbaru Məkkə, 1-172
228. Dəlailun-nubuvvət, 2-57
229. Əl-Fəqih, 2-247, hədis-2321
230. Əl-xəraicu vəl-cəraih, 1-268, hədis-11
231. Əl-xəraicu vəl-cəraih, 1-475, hədis-18
232. Əl-Kafi, 4-210, hədis-14
233. Qisəsul-ənbiya, 112-112
234. Əl-Kafi, 4-210, hədis-15
235. Əl-Kafi, 4-210, hədis-16
236. Əl-Kafi, 4-214, hədis-9
237. Kəmalud-din, 471-24
238. Əl-mənaqib, 4-148
239. Əl-usulus-sittə əşər, 99-199, hədis-17
240. İləluş-şəraye, səh-400-1
241. Əl-Kafi, 4-194, hədis-5
242. Əxbaru Məkkə, 1-350
243. Əs-sərair, 3-562
244. Əl-Firdovs, 4-94, hədis-6292
245. İthafus-sadə, 4-354
246. Əl-mö`cəmul-kəbir, 11-254, hədis-11873
247. Əxbaru Məkkə, 1-348-349
248. Əl-Kafi, 4-194, hədis-3
249. Əl-xisal, 617-10
250. Təfsirul-əyyaşi, 2-241, hədis-12
251. Əl-Kafi, 4-410, hədis-4
252. Əl-Kafi, 4-411, hədis-5
253. Təfsirul-Qummi, 1-62
254. Təfsirul-Əyyaşi, 1-30, hədis-7
255. Qurbul-isnad, 241-950

256. Əs-sunənul-kubra, 5-123, hədis-9235
257. Əl-mustədrəku ələs-səhihəyn, 1-626, hədis-1675
258. Əxbaru Məkkə, 1-338
259. Əl-mustədrəku ələs-səhihəyn, 1-626, hədis-1676
260. Əxbaru Məkkə, 1-338
261. Sunənu Əbi Davud, 2-175, hədis-1874
262. Hilyətul-övliya, 8-203
263. Əl-Kafi, 4-408, hədis-8
264. Sunənu ibni Macə, 2-985, hədis-2957
265. Əl-Kafi, 4-409, hədis-14
266. Əl-Kafi, 4-409, hədis-13
267. Əl-Fəqih, 2-208, hədis-2160
268. Əl-Kafi, 4-408, hədis-10
269. Əl-Kafi, 4-408, hədis-16
270. Əl-Kafi, 4-408, hədis-11
271. Əl-xisal, 455-3
272. Təfsirul Qummi, 1-61
273. Musnədu ibni Hənbəl, 8-21, hədis-21183
274. Əl-Kafi, 4-201, hədis-1
275. Əl-Kafi, 4-202, hədis-2
276. Sirətu ibni İshaq, səh-3
277. Əl-şəhasin, 2-399, hədis-2395
278. Əl-şəhasin, 2-399, hədis-2394
279. Əl-Kafi, 4-430, hədis-3
280. Əl-məhasin, 2-400, hədis-2400
281. Əl-Kafi, 4-432, hədis-2
282. Ət-təhzib, 5-471, hədis-1657
283. Əmali (Tusi), 132-209
284. Səvabul-ə`mal, 244-3
285. Əl-Kafi, 4-525, hədis-2
286. Əl-fəqih, 3-209, hədis-2170
287. Əl-Kafi, 4-526, hədis-9
288. Əl-Kafi, 4-525, hədis-1
289. Əxbaru Məkkə, 1-68
290. Əl-Kafi, 4-214, hədis-7
291. Əl-Kafi, 4-214, hədis-10
292. Sunənu-əbi Davud, 2-215, hədis-2030
293. Əl-fəqih, 2-235, hədis-2286
294. Əxbaru Məkkə, 1-260
295. Əxbaru Məkkə, 1-253
296. Nəhcul-bəlağə, 270-ci hikmət
297. Qurbul-isnad, 139-496
298. Əl-Kafi, 3-148, hədis-5

299. Əl-Kafi, 4-229, hədis-1
300. Əl-fəqih, 264-813
301. Əl-Camius-səğir, 2-681, hədis-2320
302. Camiul-əhadis, səh-126
303. Əl-mö̕cəmul-kəbir, 8-169, hədis-7713
304. Əl-məhasin, 1-144, hədis-199
305. Əl-Kafi, 4-240, hədis-4
306. Əl-məhasin, 1-145, hədis-201
307. Əl-Kafi, 4-241, hədis-6
308. Ali İmran-97
309. Nəhcul-bəlağə, 1-ci xütbə
310. Əl-Kafi, 4-62, hədis-1
311. Bəqərə-196
312. Əl-Kafi, 4-264, hədis-1
313. Əl-Kafi, 4-265, hədis-3
314. Əl-xisal, səh-606
315. Əl-fəqih, 2-216, hədis-2205
316. Maidə-97
317. Həcc-28
318. Sunənu Əbi Davud, 2-179, hədis-188
319. Nəhcul-bəlağə, 1-ci xütbə
320. Əl-Kafi, 4-199, hədis-2
321. Əl-Kafi, 4-197, hədis-1
322. İləluş-şəraye̕, 411-1
323. Təfsirut-təbəri, 10-17, hədis-147
324. Əl-kafi, 4-263, hədis-46
325. Əl-kafi, 4-422, hədis-1
326. İləluş-şəraye̕, 404-5
327. İləluş-şəraye̕, 405-6
328. Əl-kafi, 4-271, hədis-4
329. Əl-fəqih, 3-568, hədis-4940
330. Həcc-27
331. İləluş-şəraye̕, 419-2
332. Əl-mustədrəku ələs-səhihəyn, 2-601, hədis-4026
333. Qurbul-isnad, 237-933
334. Əl-kafi, 4-259, hədis-28
335. Əl-kafi, 4-253, hədis-7
336. Əl-mö̕cəmul-kəbir, 3-135, hədis-2910
337. Səhihul-Buxari, 3-1054, hədis-2721
338. Səhihul-Buxari, 2-553, hədis-1448
339. Əl-firdovs, 2-148, hədis-2757
340. Səhihul-Buxari, 2-553, hədis-1447
341. Dəaimul-islam, 1-293

342. Tövbə-111
343. Əl-fəqih, 2-219, hədis-2220
344. Əl-kafi, 2-19, hədis-5
345. İləluş-şəraye`, 456-1
346. Səvabul-ə`mal, 72-8
347. İləluş-şəraye`, 452-1
348. Musnədu ibni Hənbəl, 9-21, hədis-23061
349. Tuhəful-uqul, səh-117
350. Əl-kafi, 4-255, hədis-15
351. Əl-fəqih, 2-225, hədis-2247
352. Ət-təhzib, 5-22, hədis-62
353. Ət-təhzib, 5-441, hədis-1534
354. Ət-təhzib, 5-441, hədis-1533
355. Kəmalud-din, 346-33
356. Əl-fəqih, 2-520, hədis-3115
357. Əl-fəqih, 2-520, hədis-3115
358. Əs-saqibu fil-mənaqib, 612-558
359. Əl-ğiybə, 259-277
360. Sunənut-termezi, 3-175
361. Dəaimul-islam, 1-294
362. Ət-tərğibu vət-tərhib, 2-163, hədis-3
363. Dəaimul-islam, 1-294
364. Əl-kafi, 4-262, hədis-39
365. Tənbihul-ğafilin, 489-760
366. Əl-fəqih, 2-202, hədis-2138
367. Əl-kafi, 4-254, hədis-9
368. Təfsirul-Əyyaşi, 1-100, hədis-283
369. Əl-kafi, 4-253, hədis-6
370. Əvaliul-ləali, 4-25, hədis-77
371. Əl-fəqih, 2-235, hədis-2287
372. Əl-fəqih, 2-226, hədis-2251
373. Əl-kafi, 4-256, hədis-16
374. Ət-təhzib, 5-442, hədis-1537
375. Əl-kafi, 4-279, hədis-4
376. Əl-fəqih, 2-518, hədis-3110
377. Əs-səhifətus-Səccadiyyə, 98-23
378. Əs-səhifətus-Səccadiyyə, 202-47
379. Ət-təhzib, 3-72, hədis-232
380. Biharul-ənvar, 98-82
381. İqbalul-ə`mal, 1-79
382. Əl-fəqih, 2-219, hədis-2222
383. Əl-kafi, 4-254, hədis-8
384. Əl-camius-səğir, 2-270, hədis-6225

385. Əl-kafi, 4-261, hədis-36
386. Əmali (Tusi), 668-1398
387. Əl-xisal, 60-81
388. Əl-xisal, 117-101
389. Əl-xisal, 215-37
390. Əl-xisal, 283-30
391. Əl-xisal, 445-43
392. Əl-xisal, 516-3
393. Əl-xisal, 548-29
394. Əl-xisal, 571-3
395. Əl-fəqih, 2-217, hədis-2213
396. Əl-fəqih, 2-218, hədis-2214
397. Əl-kafi, 4-542, hədis-9
398. Əl-kafi, 4-542, hədis-9
399. Əl-Cə`fəriyyat, səh-95
400. Əl-kafi, 4-278, hədis-1
401. Əl-məhasin, 1-141, hədis-185
402. Əl-fəqih, 2-220, hədis-2224
403. Ət-təhzib, 5-462, hədis-1612
404. Əl-kafi, 4-264, hədis-47
405. Əl-kafi, 4-428, hədis-8
406. Tarixu Bağdad, 3-338
407. Səhihu Muslim, 2-866, hədis-98
408. Tarixu Bağdad, 2-170
409. Əl-kafi, 4-260, hədis-35
410. Əl-kafi, 4-263, hədis-45
411. Sunənu-Nəsai, 5-113
412. Tuhəful-uqul, səh-123
413. Tənbihul-ğafilin, 303-428
414. Əl-fəqih, 2-620, hədis-3214
415. Əl-kafi, 4-255, hədis-14
416. Əl-xəraicu vəl-cəraih, 1-80
417. Əmali (Səduq), 553-742
418. Əl-xisal, 127-127
419. İqbalul-ə`mal, 2-155
420. İləluş-şəraye`, 443-1
421. Əl-firdovs, 2-149, hədis-2761
422. Əl-kafi, 4-256, hədis-18
423. Əl-kafi, 4-255, hədis-13
424. Dəaimul-islam, 1-294
425. Məaniul-əxbar, 207-85
426. Əd-də`əvat (Rəvəndi), 30-58
427. Əl-camius-səğir, 1-585, hədis-3789

428. Əl-mö`cəmul-əvsət, 5-177, hədis-4997
429. Əl-kafi, 4-255, hədis-12
430. Səhihul-Buxari, 2-553, hədis-1449
431. Helyətul-övliya, 7-235
432. Rövzətul-vaizin, səh-110
433. Əl-mustədrəku ələs-səhihəyn, 1-609, hədis-1612
434. Əl-kafi, 4-252, hədis-1
435. Əl-kafi, 4-252, hədis-2
436. Səvabul-ə`mal, 2-70
437. Əl-kafi, 4-257, hədis-23
438. Əl-Cə`fəriyyat, səh-65
439. Əl-fəqih, 2-222, hədis-2238
440. Əl-fəqih, 2-265, hədis-2387
441. Əl-ehticac, 1-156, hədis-32
442. Nəhcul-bəlağə, 110-cu xütbə
443. Əl-kafi, 4-252, hədis-1
444. Əl-kafi, 4-253, hədis-5
445. Təfsirul-Əyyaşi, 2-289, hədis-63
446. Əl-kafi, 4-255, hədis-11
447. Musnədu Zeyd, səh-220-221
448. Əddurrul-mənsur, 1-211
449. Səvabul-ə`mal, 281-1
450. Əl-kafi, 4-270, hədis-2
451. Əl-kafi, 4-270, hədis-1
452. Ali İmran-97
453. Əl-xisal, 456-56
454. Əl-fəqih, 4-368, hədis-5762
455. Sunənut-termezi, 3-176, hədis-812
456. Sunənud-Darəmi, 1-455, hədis-1733
457. Tənbihul-ğafilin, 554-898
458. Ət-təhzib, 5-18, hədis-54
459. Dəaimul-islam, 1-288
460. Əvailuləali, 2-86, hədis-232
461. Əl-fəqih, 2-220, , hədis-2228
462. Sunənut-termezi, 5-418, hədis-3316
463. Əl-kafi, 4-269, hədis-2
464. Əl-kafi, 4-269, hədis-6
465. Təfsirul-Qummi, 2-24
466. Camiul-əhadis, səh-113
467. Dəaimul-islam,1-289
468. Əl-kafi, 7-51, hədis-7
469. Əl-kafi, 4-271, hədis-2
470. Əl-kafi, 4-271, hədis-1

471. Əl-kafi, 2-451, hədis-1
472. Əl-kafi, 4-272, hədis-2
473. Ət-təhzib, 5-441, hədis-1532
474. Vəsailuş-şiə, 11-235, hədis-31
475. Əl-xisal, 606-9
476. Əl-fəqih, 2-195, hədis-2122
477. İləluş-şəraye`, 274-9
478. Əl-kafi, 4-319, hədis-2
479. Əl-kafi, 4-318, hədis-1
480. Səhihul-Buxari, 2-554, hədis-1452
481. Əl-kafi, 4-331, hədis-2
482. Ət-təhzib, 5-79, hədis-263
483. Əl-kafi, 4-326, hədis-1
484. Ət-təhzib, 5-61, hədis-194
485. İləluş-şəraye`, 418-4
486. Əl-fəqih, 2-196, hədis-2124
487. Əl-fəqih, 2-327, hədis-2586
488. Qurbul-isnad, 125-438
489. Əl-fəqih, 2-325, hədis-2578
490. Əs-sunənul-kubra, 5-72, hədis-9038
491. Əl-kafi, 4-335, hədis-3
492. Əl-fəqih, 2-222, hədis-2238
493. Əs-sunənul-kubra, 5-67, hədis-9022
494. Əl-kafi, 4-337, hədis-8
495. Sunənu ibni Macə, 2-975, hədis-2921
496. Əl-fəqih, 2-203, hədis-2140
497. Əvaliul-ləali, 435, hədis-121
498. İləluş-şəraye`, 235-4
499. Əd-durrul-mənsur, 1-527
500. Ət-təhzib, 5-92, hədis-301
501. Ət-tarixul-kəbir, 4-150, hədis-2285
502. Musəndu İbni Hənbəl, 5-565, hədis-16566
503. Əl-xisal, 225-58
504. Əl-kafi, 4-336, hədis-5
505. Ət-təhzib, 5-85, hədis-281
506. Əl-fəqih, 2-326, hədis-2580
507. Əl-kafi, 4-336, hədis-7
508. Əl-kafi, 4-399, hədis-3
509. Əl-kafi, 4-399, hədis-1
510. Maidə, 95-96
511. Sunənut-termezi, 3-194, hədis-833
512. Ət-təhzib, 5-304, hədis-1039
513. Əl-kafi, 4-381, hədis-1

514. Ət-təhzib, 5-300, hədis-1021
515. Əl-kafi, 4-372, hədis-1
516. Əl-kafi, 4-356, hədis-1
517. Əl-kafi, 4-350, hədis-2
518. Əl-kafi, 4-341, hədis-13
519. Əl-kafi, 4-366, hədis-4
520. Əl-kafi, 4-366, hədis-3
521. Əl-kafi, 4-366, hədis-8
522. Əl-kafi, 4-367, hədis-10
523. Camiul-əhadis, səh-85
524. Tarixu Bağdad, 5-369
525. Əl-mö̓cəmul-kəbir, 11-102, hədis-11248
526. Əs-sunənul-kubra, 5-176, hədis-9429
527. Sunənu ibni Macə, 2-986, hədis-2957
528. Dəaimul-islam, 1-312
529. Əl-kafi, 4-411, hədis-2
530. Əl-kafi, 4-240, hədis-3
531. Dəaimul-islam, 1-312
532. Musnədu ibni Hənbəl, 5-256, hədis-15423
533. Əl-mustədrəku ələs-səhihəyn, 1-630, hədis-1686
534. Əl-kafi, 4-413, hədis-1
535. Səhihul-Buxari, 2-581, hədis-1526
536. Sunənut-termezi, 3-211, hədis-856
537. Səhihu Müslim, 2-921, hədis-237
538. Qurbul-isnad, 39-127
539. Qurbul-isnad, 316-1226
540. Əl-kafi, 4-429, hədis-10
541. Əvaliul-ləali, 3-165, hədis-59
542. Əl-kafi, 4-429, hədis-17
543. Əl-kafi, 4-412, hədis-3
544. Əl-kafi, 4-427, hədis-1
545. Əl-kafi, 4-300, hədis-5
546. Əl-kafi, 4-404, hədis-2
547. Əl-mustədrəku ələs-səhihəyn, 1-625, hədis-1671
548. Sunənu ibni Macə, 2-982, hədis-2945
549. Musnədu Əbi Yə̀li, 5-313, hədis-5785
550. Əl-kafi, 4-405, hədis-4
551. Dəaimul-islam, 1-293
552. Əl-kafi, 4-184, hədis-2
553. Əl-kafi, 4-184, hədis-1
554. Əl-kafi, 4-404, hədis-1
555. Əl-kafi, 4-406, hədis-10
556. Əl-kafi, 4-184, hədis-3

557. Əl-kafi, 4-407, hədis-4
558. Biharul-ənvar, 99-197, hədis-13
559. Əl-kafi, 4-402, hədis-1
560. Musnədu ibni Hənbəl, 1-69, hədis-190
561. Səhihu Muslim, 2-927, hədis-1274
562. Səhihu Muslim, 2-927, hədis-1275
563. Əs-sunənul-kubra, 5-128, hədis-9251
564. Əl-kafi, 4-404, hədis-1
565. Əl-kafi, 4-405, hədis-3
566. Əl-kafi, 4-409, hədis-17
567. Əl-kafi, 4-404, hədis-2
568. Əl-kafi, 4-405, hədis-6
569. Əl-kafi, 4-405, hədis-7
570. Musnədi ibni Hənbəl, 5-251, hədis-15399
571. Kənizul-ummal, 5-172, hədis-12504
572. Şuəbul-iman, 3-453, hədis-4044
573. Əxbaru Məkkə, 1-340
574. Əxbaru Məkkə, 1-341
575. Əl-kafi, 4-406, hədis-1
576. Əl-kafi, 4-407, hədis-5
577. Əl-kafi, 4-410, hədis-3
578. Ət-təhzib, 5-104, hədis-339
579. Əl-kafi, 4-407, hədis-3
580. Uyunu Əxbarir-Rza (ə), 2-16, hədis-37
581. Əl-kafi, 4-424, hədis-8
582. Əl-kafi, 4-423, hədis-1
583. Ət-təhzib, 5-143, hədis-475
584. Əl-kafi, 4-423, hədis-2
585. Rəbiul-əbrar, 2-149
586. Əl-kafi, 4-434, hədis-3
587. Əl-kafi, 4-434, hədis-5
588. Bəqərə-158
589. İləluş-şərayè, 432-16, hədis-1
590. Qurbul-isnad, 237-932
591. Əl-kafi, 4-431, hədis-1
592. Əl-Məvəttə, 1-372, hədis-127
593. Səhihu Muslim, 2-886, hədis-147
594. Əl-kafi, 4-432, hədis-5
595. Əl-kafi, 4-433, hədis-9
596. Əl-kafi, 4-433, hədis-6
597. Əl-fəqih, 2-417, hədis-2854
598. Ət-təhzib, 5-19, hədis-56
599. Əl-fəqih, 2-208, hədis-2168

600. Əl-kafi, 4-439, hədis-1
601. Ət-təhzib, 5-157, hədis-522
602. Ət-təhzib, 5-72, hədis-239
603. TəfsiruL-Qummi, 1-44
604. Əl-kafi, 4-295, hədis-2
605. Muxtəsəru Bəsairid-dərəcat, səh-86
606. Əl-kafi, 4-454, hədis-2
607. İləluş-şəraye`, 435-1
608. Əl-məhasin, 2-65, hədis-1181
609. Ət-təhzib, 5-177, hədis-594
610. Ət-təhzib, 5-169, hədis-561
611. Ət-təhzib, 5-177, hədis-592
612. Əl-kafi, 4-454, hədis-1
613. Əl-kafi, 4-460, hədis-4
614. Əl-kafi, 4-461, hədis-1
615. İləluş-şəraye`, 436-1
616. Musnədu ibni Hənbəl, 2-692, hədis-7111
617. Musnəd Əbi Yə`li, 4-147, hədis-4092
618. Əs-sunənul-kubra, 5-192, hədis-9480
619. Sunənut-termezi, 5-214, hədis-2975
620. Sunənut-termezi, 3-237, hədis-889
621. Əl-məvəttə`, 1-388, hədis-166
622. Əl-kafi, 4-463, hədis-1
623. Əl-kafi, 4-463, hədis-4
624. Dəaimul-islam, 1-320
625. Kənzul-fəvaid, 2-81
626. Ət-təhzib, 5-183, hədis-612
627. Əl-mö`cəmul-kəbir, 10-227, hədis-10554
628. Əl-kafi, 4-464, hədis-5
629. Əl-kafi, 4-462, hədis-3
630. Dəaimul-islam, 1-320
631. Ət-təhzib, 5-479, hədis-1697
632. Ət-təhzib, 5-182, hədis-611
633. Əl-fəqih, 2-543, hədis-3317
634. Ət-təhzib, 5-184, hədis-614
635. Ət-tərğibu vət-tərhib, 2-203, hədis-7
636. Şö`əbul-iman, 3-463, hədis-4074
637. Əl-Cə`fəriyyat, səh-65
638. Əl-Cə`fəriyyat, səh-64
639. Ət-təhzib, 5-21, hədis-58
640. Əl-kafi, 4-263, hədis-44
641. Bəqərə-198
642. Sunənu Əbi Davud, 2-190, hədis-1920

643. Səhihul-Buxari, 2-601, hədis-1587
644. Əl-kafi, 4-467, hədis-2
645. Əl-məhasin, 1-141, hədis-188
646. Əl-mö҆cəmul-kəbir, 11-45, hədi-11021
647. Sunənu İbni Macə, 2-1006, hədis-3024
648. Əl-kafi, 4-257, hədis-24
649. Mö҆cəmul-buldan, 5-62
650. Əl-firdovs, 3-620, hədis-5937
651. Əl-kafi, 4-224, hədis-1
652. Əl-kafi, 4-468, hədis-1
653. Əl-kafi, 4-469, hədis-4
654. Əl-kafi, 4-477, hədis-3
655. Dəaimul-islam, 1-322
656. Musnədu İbni Hənbəl, 1-452, hədis-1802
657. Ət-təhzib, 5-192, hədis-637
658. Sunənun-Nəsai, 5-242
659. Uyunu Əxbarir-Rza (ə), 2-91
660. Bəqərə-200
661. Əs-sərair, 3-565
662. Əl-kafi, 4-516, hədis-3
663. Əl-kafi, 4-516, hədis-1
664. Əl-kafi, 4-516, hədis-2
665. Əl-kafi, 4-519, hədis-4
666. Əl-kafi, 4-256, hədis-22
667. Əl-kafi, 4-262, hədis-42
668. Əl-məhasin, 1-141, hədis-187
669. Əl-fəqih, 2-480, hədis-3019
670. Qurbul-isnad, 147-532
671. Kənizul-fəvaid, 2-82
672. Əl-mustədrəku ələs-səhihəyn, 1-650, hədis-1754
673. Dəaimul-islam, 1-323
674. Sunənud-Darəmi, 2-63
675. Sunənun-Nəsai, 5-275
676. Sunənu Əbi Davud, 2-200, hədis-1966
677. Əl-mustədrəku ələs-səhihəyn, 1-637, hədis-1711
678. Əl-kafi, 4-481, hədis-2
679. Əl-kafi, 4-480, hədis-1
680. Əl-kafi, 4-478, hədis-1
681. Əl-kafi, 4-478, hədis-7
682. Əl-fəqih, 2-214, hədis-2195
683. Ət-tərğibu vət-tərhib, 2-207, hədis-3
684. Helyətul-övliya, 5-28
685. Əmali (Tusi), 309-624

686. Əl-fəqih, 2-214, hədis-2196
687. Əl-kafi, 4-480, hədis-7
688. Həcc-32
689. Həcc-36-37
690. İləluş-şərayeʾ, 437-1
691. Musnədul-Bəzzaz, 1-144, hədis-72
692. Dəaimul-islam, 1-184
693. Əl-məhasin, 1-141, hədis-191
694. Əl-kafi, 4-498, hədis-6
695. Əl-kafi, 4-498, hədis-8
696. Tuhəful-uqul, 259-13
697. Dəaimul-islam, 1-328
698. Fəth-27
699. Səhihul-Buxari, 2-616, hədis-1640
700. Ət-təhzib, 5-243, hədis-823
701. Ət-təhzib, 5-244, hədis-826
702. Təfsirul-Əyyaşi, 1-100, hədis-284
703. Əl-fəqih, 2-238, hədis-2292
704. Əl-fəqih, 2-214, hədis-2198
705. Əl-fəqih, 2-485, hədis-3033
706. Ət-təhzib, 5-250, hədis-848
707. Əl-kafi, 4-511, hədis-4
708. Əl-kafi, 4-511, hədis-3
709. Ət-təhzib, 5-250, hədis-846
710. Əl-kafi, 4-511, hədis-4
711. Əl-kafi, 4-295, hədis-1
712. Həcc-29
713. Əl-kafi, 4-512, hədis-1
714. Əl-xisal, 606-9
715. Əl-kafi, 4-511, hədis-4
716. Bəqərə-197
717. Əl-xisal, 617-10
718. Əl-kafi, 4-281, hədis-1
719. Əl-kafi, 4-280, hədis-1
720. Əl-məhasin, 1-148, hədis-210
721. Ət-təhzib, 5-462, hədis-1613
722. Tarixu Bağdad, 10-296
723. Sunənu ibni Macə, 2-965, hədis-2890
724. Əl-məhasin, 1-170, hədis-259
725. Səvabul-əʾmal, 74-16
726. Sunənu ibni Macə, 2-962, hədis-2883
727. Əs-sunənul-kubra, 4-555, hədis-8695
728. Bəqərə-128

729. Tarixu Dəməşq, 26-211
730. Əl-fəqih, 2-519, hədis-3111
731. Əl-mustədrəku ələs-səhihəyn, 1-632, hədis-1693
732. Əxbaru Məkkə, 4-264, hədis-2590
733. İrşadul-qulub, səh-328
734. Əl-kafi, 4-334, hədis-12
735. Əl-kafi, 2-20, hədis-6
736. Əl-fəqih, 2-519, hədis-3112
737. Əl-kafi, 4-463, hədis-4
738. Əl-kafi, 4-192, hədis-2
739. Əl-kafi, 4-202, hədis-3
740. Əl-kafi, 4-205, hədis-4
741. Əl-məhasin, 1-170, hədis-259
742. Əl-firdovs, 1-295, hədis1166
743. Əl-mö`cəmul-əvsət, 5-251, hədis-5228
744. Əl-kafi, 4-124, hədis-3
745. Əl-fəqih, 3-161, hədis-3590
746. Əl-fəqih, 1-189, hədis-577
747. Əl-fəqih, 3-167, hədis-3621
748. Əl-fəqih, 2-221, hədis-2231
749. Əl-fəqih, 2-282, hədis-2455
750. Əl-kafi, 4-284, hədis-2
751. Əl-kafi, 4-286, hədis-2
752. Əl-fəqih, 2-333, hədis-2593
753. Əl-kafi, 4-545, hədis-26
754. Əl-kafi, 4-545, hədis-27
755. Əl-kafi, 4-343, hədis-2
756. Əl-fəqih, 2-280, hədis-2448
757. Əl-fəqih, 2-346, hədis-2645
758. Əl-fəqih, 2-280, hədis-2449
759. Əl-fəqih, 2-525, hədis-3133
760. Əl-kafi, 4-316, hədis-6
761. Əl-kafi, 4-317, hədis-10
762. Əl-kafi, 4-314, hədis-2
763. Əl-kafi, 4-549, hədis-2
764. İləluş-şəraye`, 459-1
765. Əl-kafi, 1-392, hədis-3
766. Əl-kafi, 4-549, hədis-1
767. Əl-kafi, 1-392, hədis-1
768. Təfsirul-Əyyaşi, 2-233, hədis-39
769. Bəqərə-197
770. Maidə-2
771. Əl-ehticac, 1-156, hədis-32

772. Əl-mustədrəku ələs-səhihəyn, 1-658, hədis-1778
773. Təfsirul Əyyaşi, 1-88, hədis-225
774. Əl-kafi, 4-337, hədis-3
775. Ət-təhzib, 5-297, hədis-1005
776. Misbahuş-şəriət, səh-142-143
777. Mustədrəkul-vəsail, 10-166, hədis-11770
778. Əl-kafi, 4-532, hədis-4
779. Əl-kafi, 4-532, hədis-5
780. Əl-kafi, 4-530, hədis-1
781. Əl-kafi, 4-531, hədis-2
782. Əl-kafi, 4-532, hədis-3
783. Əl-kafi, 4-550, hədis-2
784. Əl-kafi, 4-550, hədis-1
785. Sunənud-Darqutəni, 2-300, hədis-289
786. Səhihul Buxari, 3-1431, hədis-3718
787. Səhihu Muslim, 2-985, hədis-1352
788. Əl-kafi, 4-230, hədis-2
789. Əl-kafi, 4-533, hədis-1
790. Məaniul-əxbar, 4-533, hədis-1
791. Əl-fəqih, 2-438, hədis-3029
792. Əl-kafi, 4-280, hədis-5
793. Əl-kafi, 4-280, hədis-4
794. Əl-Cə̀fəriyyat, səh-66
795. Əl-Cə̀fəriyyat, səh-66
796. Musnədu ibni Hənbəl, 2-351, hədis-5371
797. Əl-xisal, səh-635
798. Ət-təhzib, 5-444, hədis-1547
799. Əl-kafi, 4-256, hədis-17
800. Əl-kafi, 4-264, hədis-48
801. Əl-fəqih, 2-228, hədis-2266
802. Səvabul-ə̀mal, 74-1
803. Əl-fəqih, 2-299, hədis-2513
804. Tövbə-1-3
805. Mumtəhinə-4
806. Təfsirul Əyyaşi, 2-73, hədis-4-5
807. Təfsirut Təbəri, 6-10, hədis-67
808. Təfsirul Əyyaşi, 1-186, hədis-92
809. Əl-kafi, 4-194, hədis-4
810. Uyunu əxbarir-Rza (ə), 1-243, hədis-1
811. Musnədu ibni Hənbəl, 1-501, hədis-2067
812. Əl-kafi, 4-205, hədis-4
813. Kəmalud-din, səh-390, hədis-4
814. Əl-kafi, 4-214, hədis-8

815. Əl-kafi, 4-213, hədis-6
816. Sunənu ibni Macə, 2-965, hədis-2891
817. Əl-kafi, 4-213, hədis-4
818. Ət-təhzib, 5-454, hədis-1588
819. Əs-sunənul-kubra, 5-293, hədis-9855
820. Əl-firdovs, 2-136, hədis-2696
821. Kənizul-ummal, 5-125, hədis-12342
822. Sunənud-Darəmi, 1-469, hədis-1781
823. Əl-kafi, 4-312, hədis-2
824. Əl-fəqih, 2-222, hədis-2239
825. Əl-kafi, 4-312, hədis-1
826. Əl-ğiybə (Noʾmani), 172-6
827. Ricalul-Kəşşi, 2-798, hədis-987
828. Sunənu ibni Macə, 2-971, hədis-2910
829. Əl-kafi, 4-363, hədis-1
830. Ət-təhzib, 5-410, hədis-1425
831. Əl-məhasin, 1-147, hədis-206
832. Əl-kafi, 2-509, hədis-1
833. Ricalul Kəşşi, 2-690, hədis-738
834. Bəsairud-dərəcat, 358-15
835. Əl-mərasilu məʾəl-əsanid, 105-13
836. Əl-kafi, 4-264, hədis-1
837. Əl-kafi, 4-90, hədis-1
838. Əl-möʾcəmul-kəbir, 9-44, hədis-8336
839. Əl-kafi, 4-253, hədis-4
840. Səhihul-Buxari, 2-629, hədis-1683

930.
931.
932.
933.
934.
935.
936.41. Sunənud-Darqutəni, 2-284, hədis-213
41. Sunənud-Darqutəni, 2-284, hədis-213
842. Əl-kafi, 2-510, hədis-6
843. Sunənun-Nəsai, 5-114
844. Sunənu İbni Macə, 2-995, hədis-2989
845. Sunənut-termezi, 3-270, hədis-931
846. Əmali (Səduq), 301-342
847. Əl-möʾcəmul-əvsət, 5-282, hədis-5321
848. Əl-mustədrəku ələs-səhihəyn, 1-644, hədis-1733
849. Əl-firdovs, 3-83, hədis-4234

850. Ət-təhzib, 5-433, hədis-1502
851. Əl-məhasin, 2-28, hədis-1101
852. Əl-kafi, 4-534, hədis-1
853. Əl-fəqih, 2-458, hədis-2964
854. Əl-kafi, 4-534, hədis-3
855. Əl-fəqih, 2-220, hədis-2230
856. Əl-kafi, 4-536, hədis-6
857. Misbahul-mutəhəccid, səh-798
858. Əl-fəqih, 2-453, hədis-2949
859. Əl-fəqih, 2-454, hədis-2951
860. Qurbul-isnad, 241-951
861. Sunənu Əbi Davud, 2-204, hədis-1989
862. Əl-kafi, 4-535, hədis-1
863. Əl-kafi, 4-536, hədis-4
864. Əl-kafi, 4-536, hədis-2
865. Dəaimul-islam, 1-334
866. Əl-kafi, 4-535, hədis-4
867. Əl-kafi, 4-534, hədis-1
868. Əl-kafi, 4-537, hədis-5
869. Əl-kafi, 4-251, hədis-10
870. Əl-xisal, 200-11
871. Səhihul-Buxari, 2-631, hədis-1689
872. Sunənut-termezi, 3-273, hədis-935
873. Tarixu İsbəhan, 2-234, hədis-1545
874. Əl-mö`cəmul-kəbir, 2-236, hədis-1987
875. Səhihul-Buxari, 2-662, hədis-1773
876. Səhihu Muslim, 2-1007, hədis-1385
877. Tarixul Mədinə, 1-162
878. Musnədu ibni Hənbəl, 1-682, hədis-2923
879. Səhihu Muslim, 2-1003, hədis-1375
880. Səhihul-Buxari, 2-749ədis-2022
881. Səhihu Muslim, 2-1001 hədis-1374
882. Səhihul-Buxari, 2-662, hədis-1771
883. Əl-kafi, 4-563 hədis-1
884. Əmali (Tusi), 672-1416
885. Əl-mö`cəmul-kəbir, 20-205, hədis-470
886. Səhihul-Buxari, 2-666, hədis-1787
887. Musnədi ibni Hənbəl, 8-384, hədis-22693
888. Əl-mö`cəmul-əvsət, 5-380, hədis-5618
889. Səhihul-Buxari, 2-663 hədis-1777
890. Şö`əbul-iman, 2-145, hədis-1407
891. Səhihul-Buxari, 4-1676, hədis-4313
892. Əl-mö`cəmul-kəbir, 4-288, hədis-4450

893. Əl-mö`cəmul-kəbir, 1-372, hədis-1144
894. Musnədi ibni Hənbəl, 2-363, hədis-5438
895. Əl-kafi, 4-557, hədis-1
896. Əl-kafi, 4-557, hədis-2
897. Ət-təhzib, 6-5, hədis-8
898. Sunənut-Termezi, 2-145, hədis-324
899. Sunənun-Nəsai, 2-37
900. Əl-mö`cəmul-kəbir, 19-146, hədis-319
901. Tarixu Mədinə, 1-68
902. Əl-kafi, 4-561, hədis-6
903. Əl-kafi, 4-560, hədis-1
904. Əl-kafi, 4-560, hədis-2
905. Əl-kafi, 3-295, hədis-1
906. Səhihul-Buxari, 2-661 hədis-1769
907. Kənizul-ummal, 12-237, hədis-34832
908. Əl-kafi, 4-555, hədis-7
909. Əl-usulus-sittətə əşər, səh-88
910. Əl-kafi, 4-555, hədis-6
911. Musnədu ibni Hənbəl, 5-123, hədis-14788
912. Səhihu Muslim, 2-1015, hədis-1397
913. Ət-Tarixul-kəbir, 8-379, hədis-3389
914. Əl-kafi, 4-556, hədis-10
915. Səhihul-Buxari, 1-398, hədis-1133
916. Səvabul-ə`mal, 50-1
917. Sunənu İbni Macə, 1-453, hədis-1413
918. Musnədi ibni Hənbəl, 4-311, hədis-12584
919. Ət-təhzib, 6-19, hədis-43
920. Kamiluz-ziyarat, 43-10
921. Kamiluz-ziyarat, 58-37
922. Əl-kafi, 4-586, hədis-2
923. Əl-kafi, 4-558, hədis-4
924. Ət-təhzib, 6-16, hədis-35
925. Əl-kafi, 4-586, hədis-2
926. Dəaimul-islam, 1-296
927. Əl-mö`cəmul-əvsət, 3-351, hədis-3376
928. Əl-muğni, 1-207, hədis-818
929. Kənizul-ummal, 12-272, hədis-35009
930. Əl-xisal, 616-10
931. Əl-kafi, 4-549, hədis-3
932. Ət-tovhid, 117-21
933. Ət-təhzib, 6-3, hədis-1
934. Kənizul-ummal, 12-256, hədis-34929
935. Əl-kafi, 4-552, hədis-5

936. Əl-kafi, 4-553, hədis-7
937. Kamiluz-ziyarat, 43-11
938. Əl-kafi, 4-586, hədis-2
939. Əl-mö῾cəmul-kəbir, 12-225, hədis-13149
940. Biharul-ənvar, 100-159, hədis-40
941. Əl-kafi, 4-548, hədis-5
942. Şuə῾bul-iman, 3-489, hədis-4157
943. Kamiluz-ziyarat, 45-17
944. Kənizul-ummal, 5-135, hədis-12370
945. Kamiluz-ziyarat, 47-25
946. Ət-təhzib, 6-3, hədis-2
947. Şuə῾bul-iman, 3-490, hədis-4158
948. Əl-kafi, 4-579, hədis-2
949. Əl-kafi, 4-548, hədis-4
950. Ət-təhzib, 6-21, hədis-48
951. Əl-kafi, 4-548, hədis-1
952. Əl-kafi, 4-551, hədis-2
953. Əl-kafi, 4-550, hədis-1
954. Əl-kafi, 4-552, hədis-4
955. Kamiluz-ziyarat, 57-35
956. Əl-kafi, 4-317, hədis-8
957. Əl-kafi, 4-552, hədis-3
958. Kamiluz-ziyarat, 53-31
959. Misbahuz-zair, səh-44
960. Əl-kafi, 4-563, hədis-2
961. Əl-kafi, 4-563, hədis-1
962. Ət-təhzib, 6-9, hədis-18
963. Ət-təhzib, 6-10, hədis-19
964. Əl-fəqih, 2-572
965. Məaniul-əxbar, 267-1
966. Qurbul-isnad, 367-1314
967. Əl-kafi, 4-461, hədis-9
968. Səhihul-Buxari, 1-400, hədis-1138
969. Əl-kafi, 4-555, hədis-8
970. Əl-kafi, 4-554, hədis-3
971. Əl-kafi, 4-556, hədis-10
972. Əl-kafi, 4-554, hədis-5 və 6
973. Kamiluz-ziyarat, 41-4
974. Əmali (Səduq), səh-176-178
975. Ət-təhzib, 6-40, hədis-83
976. Əl-kafi, 4-579, hədis-1
977. Ət-təhzib, 6-79, hədis-156
978. Ət-təhzib, 6-78, hədis-153

979. Kamiluz-ziyarat, 118-130
980. Dəaimul-islam, 1-296
981. Əl-kafi, 4-560, hədis-1
982. Ət-təhzib, 1-465, hədis-168
983. Əl-kafi, 4-561, hədis-4
984. Əl-kafi, 4-560, hədis-2
985. Misbahuz-zair, səh.62, Biharul-ənvar, 100-221, hədis-19

**SON**

**خسته انباشيد**